SƏFDƏR EMINOV

# SAYRIŞAN ULDUZLAR

SƏNƏDLI
BƏDII
ROMAN

*İnsanlar yalnız öz bildiklərini*
*danışsaydılar təsəvvür edin necə sükut olardı.*

**Jozef Karel Çapek**

**KİTABIN SATIŞINDAN ƏLDƏ OLUNACAQ BÜTÜN GƏLİRİ - AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN MÜDAFİƏSİ İLƏ ƏLAQƏDAR YARALANANLARIN VƏ ŞƏHİD AİLƏLƏRNİN TƏMİNATINA DƏSTƏK FONDUNA („YAŞAT" FONDUNA) BAĞIŞLANACAQ.**

SƏFDƏR EMİNOV

# SAYRIŞAN ULDUZLAR

SƏNƏDLİ BƏDİİ ROMAN


304 səh.

Redaktor:
**Lalə Hüseynova**

Korrektor:
**Ləman Əliyeva**

Dizayner:
**Rəmzi Rəvan**

ISBN 978 9952-527-56-8

Çap tarixi: 05.01.2021
Format: 60x84 1/16
Qiyməti: 8.50 man



© S.Eminov, 2021

## REDAKTORDAN

Birinci Qarabağ müharibəsi veteranı və Vətən müharibəsi iştirakçısı, cəbhə xatirələrini hərbi ədəbiyyatımızda yaşatmağa çalışan entiyatda olan zabit Səfdər Eminovun yazdığı "Rəngsiz ölüm" və "Sayrışan ulduzlar" povestləri "Casus ovu"ndan sonra araya-ərsəyə gətirdiyi və günümüzün aktuallığını əks etdirən vətənpərvərlik mövzusunu özündə ehtiva edən ədəbi nümunələrdir. Fikrimcə, 33 illik Qarabağ müharibəsi və vətənpərvərlik mövzuları bitib tükənməyən mövzular silsiləsinə daxil olub. Qeyd edək ki, XX əsrin sonlarından başlayan mənfur qonşularımızın torpaqlarımıza qarşı ərazi iddiaları, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi (1987-2020-ci illər) bu illər ərzində ədəbiyyatımızın müharibə mövzusunu daha da zənginləşdirmişdir. Cəbhə xatirələrini ədəbiyyatda yaşatmaqdan böyük qürur duyan keçmiş döyüşçü Səftər Eminov oxucularına yeni yazdığı əsərlərini təqdim edir. Yuxarıda adlarını qeyd etdiyim hər iki povestin yenə də əsas süjet xəttini erməni faşistlərinin Azərbaycan xalqının başına gətirdiyi faciələr, erməni riyakarlığı, erməni hiyləgərliyi və belə bir ağır, çətin durumda sülhsevər, humanist xalqımızın mübarizəsi təşkil edir. Tarixi gerçəklik budur ki, "böyük Ermənistan" dövləti qurmaq arzusuna düşən ermənilər 200 ilə yaxındır ki, Türkiyə və Azərbaycan torpaqlarında bu arzularını həyata keçirmək istəyiblər . Bu müddət ərzində türklərin və azərbaycanlıların başına açdıqları saysız-hesabsız müsibətlərdə ermənilər yalnız bir məqsəd güdüblər: yerli əhalini

məhv etməklə Türkiyə və Azərbaycan ərazilərini müsəlmanlardan təmizləmək və bu ərazilərdə öz dövlətlərini qurmağa nail olmaq, daha sonra isə bu dövləti "böyük Ermənistan"ın masştabına qədər genişləndirmək.

Öz çirkin məqsədlərinə çatmaq üçün ermənilərin uzun illər həyata keçirdikləri məkrli planlar, qanlı aksiyalar, törətdikləri vəhşiliklər Səfdər Eminovun "Rəngsiz ölüm" və "Sayrışan ulduzlar" ədəbi nümunələrində cərəyan edən hadisələrdə öz əksini tapıb. Müəllif "Rəngsiz ölüm" povestini əziz dostu, komandiri Birinci Qarabağ savaşında onurğasından yaralanaraq sağlamlığını itirən Əkbər Muradova ithaf edib. Əsərin əsas qəhrəmanı Birinci Qarabağ müharibəsində erməni quldur dəstələrinə qarşı igidliklə döyüşən və döyüşlərin birində ağır yaralanıb ömürlük əlil arabasına məhkum olan Cahandardır. O, Qarabağda azərbaycanlılarla ermənilərin birgə yaşadığı kənddə doğulub böyüyüb. Həmin kənddə yaşayan icma başçısı qoca Qurgenin azərbaycanlılara qarşı fitnə, fəsadla dolu "fəaliyyəti"ndən, qızı Susannanın əməllərindən, nəvəsi Qəribxanın hiyləgərliyindən bəhs edən məqamlar oxucuları sanki tarixin hər dönəmində mənfur qonşulaımızdan eytiyatlı olmağa səsləyir. Sovet dönəmində ermənilərin Ermənistanda uşaq evlərindən və pioner düşərgələrindən necə istifadə etdiklərini, gələcək planlarını həyata keçirmək məqsədi ilə uşaqları necə yetişdirdiklərini, bir sözlə erməni xalqının vəhşi xislətini, rusların isə necə göz yumaraq onların tərəfində olduqlarını açıq-aydın göstərir.

Biz azərbaycanlılar çox unutqan xalqıq. Bu da əlbəttə ürəyimizin təmizliyindən, irəli gəlir. Bizə elə gəlir ki, bütün millətlər elə bizim kimi qəlbi təmiz, xeyirxah, tolerantdır. İki yüz illik bir dövr ərzində torpaqlarımızda yaşayan və psixologiyamıza yaxşı bələd olan xain "qonşular", bizə dost deyə-deyə, XIX əsrin sonlarından

XX əsrin ortalarınadək xalqımıza qaşı törətdikləri cinayətləri çox tez elə XX əsrin sonlarına yaxın bizə unutdura bildilər. Onların öz iyrənc əməllərindən artıq əl çəkdiklərinə inandıq, onlara etibar etdik, nəticədə də… ulu babalarının vəsiyyətlərini unutmayan Qurgen kimi erməni daşnakları xalqımızın başının altına yastıq qoyub onu yatırtmaqla, arxasında böyük bir plan çəkdilər. Bu planın nəticəsi olaraq otuz ilə yaxın torpaqlarımız erməni təcavüzkarları tərəfindən işğala məruz qaldı. Nə bugünkü nəsil, nə də gələcək nəsillər unutmamalıdırlar ki, erməni həmişə erməni olaraq qalacaqdır. O, üzdə dəyişilib, min bir cildə girə bilər, lakin daxilindəki vəhşi təbiət, türkə tarixi nifrəti, quduzlaşmış tülkü instinqti heç zaman dəyişilməyəcəkdir. Bütün bu məqamlar "Rəngsiz ölüm"ün əsəs qayəsini təşkil edir. "Qarı düşmən dost olmaz."

Povestin adı əsas obraz kimi götürülən Cahandarın düşəncələrinin məhsulu hesab etmək olar. "Dünya rənglərdən, istilik və işıqdan ibarətdir. Cahandar hər bir şeyı öz rəngində görürdü, hətta çoxlarının görə bilmədiklərindən də artıq rəngləri seçirdi, təkcə ölümdən başqa, onun üçün ölümün rəngi yox idi, ölüm rəngsiz idi, bəlkə də buna görə idi ki, onu görə bilmirdi. Kainatda olan minlərlələ, milyonlarla rənglərin içində ölümün rəngi yoxdur. Rəngsiz ölüm, saysız-hesabsız həyati rənglərə qarışıb itir, görünməz olur. Ölüm rəngsiz olduğu üçün onu görmək də mümkün olmur. Bəlkə də buna görədir ki, onun nə zaman gələcəyini heç kim bilmir."

Cəbhə xatirələrini ədəbiyyata gətirmək istəyən Səfdər Eminovun "Sayrışan ulduzlar" povestində də Birinci Qarabağ müharibəsinin qanlı günlərində Şuşa, Ağdam, Ağdərə uğrunda gedən döyüşlərdə keçirdikləri ağır hərbi əməliyyatlardan, şəhid olan silahdaşlarının səngər xatirələrindən bəhs olunur. Burada əsas süjet xət-

ti səngərdir. Silaha sarılıb Vətənin müdafiəsinə qalxan oğulların məkan qurduğu yerdir. Onlar torpaqlarımızı erməni faşistlərindən, erməni işğalçılaından qorumaq üçün gəliblər bura –Şuşaya, Ağdama, Ağdərəyə...

Povestin adı müəllifin öz düşüncələrindən seçilib."...Zülmətin lap sonunda, göyün yerlə birləşdiyi üfüqdə, parlaq bir cüt işıq var. O işıq türklərin əcdadı sayılan boz qurdun zülmətdə parlayan gözlərini xatırldır. Bizi döyüşdən döyüşə aparan, ruhlandıran da elə bu bir cüt gözdür. Boz qurdun davamçıları ruhlarındakı Yaradanın onlara bəxş etdiyi xislətin sayəsində qiyamətə qədər yaşayacaq, Yaradanın onlara bəxş etdiklərinə daim sahib olacaqlar..."

Düşünürəm ki, keşmiş döyüşçünün qələmə aldığı Qarabağ müharibəsi mövzusundakı hər bir ədəbi nümunəsi gənc oxucularımızın mənəvi-psixoloji durumuna və milli vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir göstərəcək. İstər Qarabağ savaşları, istərsə də xalqımızın tarix boyu apardığı bütün savaşlar dərindən öyrənilməli, ədəbiyyatda da geniş təbliğ və tərənnüm olunmalıdır.

# PROLOQ

Həyat bəziləri üçün eyş-işrət, bəziləri üçün maraqlı bir film, bəziləri üçünsə əzabla dolu, keşməkeşli ömür payıdır. Hərə bir cür yaşayır öz həyatını, ona düşən ömür payını, fərqinə varmadan saat əqrəblərinin ən sürətlisinin hər tıqqıltısını eşidə-eşidə, saya-saya. Bəzən insan hər keçən gün üçün sevinir, hər gələn gün üçün darıxır və hətta başa düşür ki, hər ötən an ömürdən gedir. Əqrəb irəli doğru getdikcə, ötən anlar çoxaldıqca ömür azalır.

Bəzən adama elə gəlir ki, yaşadığı müddətdə yalnız qazandığı pulu xərcləyir, əllbəttə ki belə deyil. Biz yaşadıqca qazandığımız puldan daha qiymətli olan ömrümüzü də xərcləyirik. Ömrümüzdə sonuncu an, bizim cibimizdə olan sonuncu qəpik kimidir.

İnsan, ömrünün sonuna qədər çoxlu pullar qazanır və xərcləyir, sonra yenidən qazanır və yenidən xərcləyir, xərclədiyin pulları yenidən qazanmaq o qədər də çətin olmur. Ömür isə bir dəfə qazanılır – verilir. Hər bir ötən an ömrün bir parcasıdır, keçdisə geri qaytarmaq mümkün olmur.

Bəzən insanlar xərclədiklərinin fərqinə varmadan – ağına bozuna baxmayaraq bu dünyada ona düşən ömür payını – yaşadığı anları, saatları, günləri boş-boşuna sağa-sola xərcləyir, yığdığı pulları və var dövləti isə həyəcan, qorxu içərisində min bir əziyyətlə qoruyur. Əsil qorumalı olanı anlaya bilsəydik...

Bu kitabda təsvir olunan hadisələrin hamısı əsərdə adları çəkilən qəhrəmanların həyatında baş verən hadisələrdir, mən onlarla birlikdə bu yolu keçmişəm. Bu

əsər onların müharibə həyatlarının kiçik lakin çox mənalı bir hissəsini əhatə edir.

Bu kitab vasitəsi ilə oxuculara demək istəyirəm ki, müharibə heç də nə kitablarda oxuduğumuz kimi, nə də filmlərdə gördüyümüz kimidir. Müharibə sözlə ifadə olunmayacaq dərəcədə dəhşətli bir olaydır.

Yüzillərlə erməni-rus birləşmələrinin bizə və bizim millətə qarşı apardıqları soyqırım siyasəti, heç bir müharibə çərçivəsinə sığmır. Bu müharibə deyil, bir millətə, ölkəyə, torpağa, ayrı-ayrılıqda hər bir kəndə, kəndlərin bütün küçələrinə, cığırlarına, hər qaya parçasına qarşı törədilən cinayətdir, soyqırımdır. Bu gün də bu cinayət davam edir. Ən dəhşətlisi isə budur ki, bunlar bizim və bütün dünyanın gözləri qarşısında baş verir. Özlərini dünyanın ən demokratik dövlətləri və ya insanları sayanlar, bu soyqırımı seyr edir, dayandırmaq əvəzinə göz yumur, onlarla əlbir olur, bizim səsimizi batırmağa kömək edirlər.

Biz isə əlimizi əlimizin üstünə qoyub baş verənləri sadəcə seyr etməklə kifayətlənirik. Bizim üçün ayrılan zaman kəsiyini – ömrü, qarşımıza qoyulan missiyanı yerinə yetirmək üçün istifadə etmirik. Əslində bu missiyanı olduğu kimi yerinə yetirmək, bizə düşən ömrün sonunda nail ola biləcəyimiz ən ali mükafatdır və bizim hər birimiz məhz bunun üçün dünyaya gəlmişik.

# I FƏSİL

Neçə gün idi ki, rahat yuxu üzünə də həsrət idi, doyunca yata bilmirdi. Ölkə bir-birinə qarışmışdı, hamı siyasətdən danışırdı. Dünyanın yarısını idarə edən böyük bir ölkə çalxalanırdı, dağılmaq üzrəydi, hətta deyəsən son anlarını yaşayırdı. Qarbaçovun hakimiyyətə gəlməsi ilə hadisələr daha da sürətləndi. Bir neçə il əvvəl onun göstərişi ilə SSRİ-də "Yenidənqurma", "Aşkarlıq" ideyası irəli sürüldü və bu ideya böyük bir dövlətin tez bir zamanda dağılmasına gətirib çıxardı.

Onun az yaşı yox idi, belə işlərdən az da olsa başı çıxırdı. Hərbi xidmətini başa vurandan sonra rayona qayıtdı. Bir neçə gün yaşıdları ilə birlikdə kəndi aşağı-yuxarı gəzdikdən sonra əmisi oğlunun təklifi ilə Bakıya üz tutdu. Neftayırma zavodunda fəhlə kimi işə başladı. Sonra təhsilini davam etdirmək üçün Bakıdakı Neft Kimya texnikomunun qiyabi şöbəsinə daxil oldu. Artıq iki il idi ki, texnikomu bitirmişdi. Ona "Gənc mütəxəssis" kimi zavodun yataqxanasında yer vermiş və ev növbəsinə də götürmüşdülər. Bir sovet vətəndaşı kimi demək olar ki, heç bir çətinliyi yox idi.

Lakin birdən-birə hər şeyin alt-üst olması onu çox narahat edirdi. Bədxah ermənilərin ayrı millətlərə, xüsusən də türklərə – azərbaycanlılara qarşı etdikləri etnik təmizləmə siyasəti dünyaya meydan oxuyan bu dövlətin sonunun çatmasının ən bariz nümunəsi idi ki, o və onun kimilər bununla heç zaman barışa bilmirdi. Heç barışa bilməzdi də...

Hələ illər öncə Sovet Ordusu sıralarında xidmət edən zaman hərbi hissənin siyasi işlər üzrə komandir müavini mayor Yevstyaqinin sözləri düşdü yadına. Mayor iyirmi illik xidmətini Qafqazda keçirmişdi və tez-tez: "Əsil qafqazlı mənəm. Mən ömrümün ən kamil dövrünü Qafqazda keçirmişəm, oranı, orada yaşayan millətləri özümdən də yaxşı tanıyıram. Mən Qafqazı bir "Saray" kimi təsəvvür edirəm. O sarayda Tac azərbaycanlılar, polu silmək üçün çirkli əski isə ermənilərdir." deyərdi. İllər keçməsinə baxmayaraq, Mirələm hələ indiki kimi heç zaman xatırlamamışdı o günləri, bəlkə də bir daha heç zaman xatırlamayacaqdı da.

Doxsan birinci ilin payızı son günlərini yaşayırdı, çiskinli bir hava idi. O balkona çıxıb siqaret yandırdı, tüstünü acgözlüklə ciyərlərinə çəkdi. "Heç bu payız da düz əməlli payız kimi keçmədi, bilmirsən payızdı, yoxsa qış," deyə daxilən gileyləndi. Bir azdan hərbi komissarlığa getməli idi. Son zamanlar baş verən hadisələrin təsirindən yuxusu ərşə çəkilmişdi, bir yandan da otaqda olan köhnə "Saratov" soyuducusunun səsi.., motor elə bil beyninin içində guruldayırdı.

Dünən şahidi olduğu hadisə bütün varlığını titrətmişdi. Yataqxanaya girərkən foyedə qoyulan divanın üstündə oturan iki azyaşlı uşağın bir-birinə sarılaraq ağladığını, növbətçi Güllü xalanın onları sakitləşdirməyə çalışdığını gördü. Çox yorğun idi, otağa qalxıb bir az dincəlmək üçün sakitcə aradan çıxmaq istədi. Lakin Güllü xala aman vermədi.

– Mirələm, ay bala, mənə kömək elə. Bu yazıq tifillər, səhərdən burdadırlar. Mən bilmirəm neyləyim?

Uşaqlardan birinin üç, digərininsə iki yaşı olardı, əyinləri çox nazikdi, yəqin ki, həm də ac idilər, soyuqdan göyərmişdilər. Mirələm bir anlıq hər şeyi unutdu,

körpələri qucağına alıb yataqxananın yeməkxanasına apardı, yemək aldı, Güllü xalaya tapşırdı ki, onları yedizdirsin, özü isə sahə müvəkkilinə zəng vurdu.

Hələ də dünən gördüklərinin təsiri altında idi.

Son zamanlar buna bənzər hadisələr tez-tez baş verirdi. Ev-eşikləri yandırılan, təkcə canlarını götürüb Azərbaycana pənah gətirən Qərbi Azərbaycan türkləri taleyin ümidinə buraxılmışdı. Birdən-birə paytaxt Bakıda əhalinin sayı nəzərə çarpacaq qədər artmışdı.

İş yerləri bir-birinin dalınca bağlanır, işsizlik baş alıb gedirdi. İnsanlar anbaan xaraktercə dəyişir, bir-birinə qarşı tam əks mövqelərdə dururdular.

Köhnə struktur dağılır, yenisi isə yaradılmırdı. Yeməyə quru çörək belə, tapmayanlar var idi. Yenicə müstəqillik əldə edən dövlət isə elə bil başını itirmişdi. Hakimiyyət sturukturları işlərini yerinə yetirə bilmir, hakimiyyətsizlik baş alıb gedirdi. Parça-parça olmuş qırmızı imperiyadan qalan sovet əmlakını kim necə istəyirdisə elə də dağıdırdı. Siyasətdən azca başı çıxan, keçmişdə hakimiyyətdə olanların əməlli-başlı əlləri açılmışdı. İndiyə kimi Moskvanın diktəsi ilə işləyənlər hələ də oradan göstərişlər gözləyirdilər.

Termosdan bir stəkan çay süzüb masanın üstünə qoydu, soyuducudan yağ, pendir çıxartdı, çörək doğradı. Masanın arxasında oturub son zamanlar baş verənləri daxilən götür-qoy etməyə başladı. Dünənki körpələr yadına düşdü, ovqatı daha da korlandı. Dünyada baş verənlərdən ən çox ziyan çəkənlər də məhz elə körpələr idilər, yenicə başladıqları həyatın ilk ağır zərbələrini öz zəif vücudlarında hiss etməyə başlayırdılar. İştahası korlandı, masanın üstündəkilərə gözünün ucu ilə də baxa bilmədi. Əynini geyinib küçəyə çıxdı.

* * *

Boş küçələrdə fırlanırdı, nə etdiyini özü də bilmirdi. Hərbi Komissarlığın qarşısına nə zaman çatdığını da bilmədi, burada da seyrəklik idi. kimsədən heç nə soruşmadan birbaşa komissarın qəbul otağına qalxdı, burada katibədən başqa kimsə yox idi. O, qapıya tərəf getdi. Kiçik güzgüdə üzünə bəzək vuran sarı saçlı kök rus qızı, cəld yerindən qalxıb artıq qapını açmaq istəyən Mirələmi saxladı.

– Vətəndaş, hara gedirsiz!?

– Komissarın yanına.

Qız səliqəsiz rənglədiyi dodaqlarını büzərək küskün şəkildə deyinə-deyinə yerinə qayıtdı.

– Bir dəqiqə gözləyn. Elə bil küçə qapısıdır, kim istəsə keçə bilər. Məni görünüş üçün oturdublar burada?

– Komissara deyin ki, Neftayırmadan Cavadov Mirələm gəlib. Təcili görüşməliyəm.

Əslində o komissarı tanımırdı, ancaq neftayırmada işə başladığı gündən dövlət müəssisələri ilə, o cümlədən də hərbi komissarlıqla zavodun külli miqdarda maxinasiyalarının olduğunu bilirdi. Əslində komissar da onu tanımırdı, lakin zavodla etdikləri maxinasiyalara görə onu gözlətmədən qəbul edəcəyini güman edirdi.

Buna görə də katibə qızı acılamaq istəmədi, onsuz da kefi yox idi. Rusların Sovet İttifaqının son günlərində açıq-aşkar ermənilərin tərəfində olması onun heç xoşuna gəlmirdi, hətta buna görə rus dilində danışmaq belə istəmirdi. Axı onun atası Böyük Vətən müharibəsinin əvvəlindən axırına kimi döyüşmüş, altı dəfə yaralanmasına baxmayaraq, yenidən döyüşlərə atılaraq SSRİ adlı dövlətin müdafiəsi üçün heç nəyini əsigəməmişdi. Əmisi və minlərlə Azərbaycan vətəndaşı, doğma Vətən

bildikləri SSRİ üçün qəhrəmancasına həlak olmuşdular. Azərbaycan xalqı gecə-gündüz işləyərək cəbhəni neftlə, ərzaqla və geyimlə təmin etmişdilər. İndi bu idimi onların mükafatı? Belə bir fədakarlığı unutmaq ən azı nankorluq deyildimi?

SSRİ müharibəni Azərbaycan neftinin və neftçilərinin hesabına udmuşdu. İndi isə... "Rus köpək uşaqları," deyə fikrindən keçirdi. Dönüb çıxış qapısına tərəf getdi.

– Mən sizə lazımam, siz mənə yox. İnanın ki, getsəm bir daha bu tərəflərə gəlməyəcəyəm. Sonra siz məni axtarmalı olacaqsınız. Bir də, komissar bilsə ki, sən məni qapıdan qaytarmısan, bu heç də sənin üçün yaxşı olmayacaq.

Qız elə bil yatmışdı, yuxudan ayıldı. Komissarın tez-tez neftayırma zavodu ilə maxinasiyalarının olduğunu bildiyi üçün bayaqdan acıladığı, qapıdan çıxmaqda olan adamı saxladı.

– Ay balam, dayan. Hara tələsirsən, imkan ver icazə alım, keç içəri də.

Sonra dodağının altında, lakin onun eşidə biləcəyi səslə deyinməyə başladı: "Adamlar da dəymə-düşər olublar e e e.., heç kimə söz demək olmur. Dərhal üz çevirib gedirlər."

Mirələm planının baş tutduğunu görüb geri qayıtdı.

– Mənim üçün elə də fərqi yoxdur. Bayaq dediyim kimi mən sizə lazımam.

Elə bu zaman komissarın otağından zəng gəldi, qız ayağa qalxıb qapıya tərəf gedə-gedə ona tərəf baxmadan dedi.

– Bir dəqiqə gözləyin, indi haqqınızda komissara məlumat verərəm.

Sarışın rus qızı qapını açıb komissarın otağına daxil oldu. Mirələm gözləmə otağında var-gəl etməyə başladı. Bir neçə dəqiqədən sonra qız çıxdı.

– Keçin, komissar sizi gözləyir.

Mirələm içəri keçdi. Komissar kifayət qədər yaşlı, hündür boylu, dolu bədənli bir polkovnik idi. Pəncərənin qarşısında dayanıb küçəni seyr edirdi. Qapının səsinə başını fırladıb çiyni üstündən bir anlıq ona baxdı, tanımadığı üçün yenidən əvvəlki vəziyyətinə qayıdaraq küçəni seyr etməyə davam etdi.

Geniş kabinetə sükut çökdü. Mirələmə elə gəldi ki, Komissar kabinetdə onun olmasından xəbərsizdir. Yavaşca öskürdü. Bir müddət keçəndən sonra Komissar ona tərəf döndü, diqqətlə başdan ayağadək süzdü. "Yox onu tanımırdı, indiyə qədər onunla maxinasiya barədə sövdələşən adam deyildi bu."

– Haradan gəlmisən?

– Yeni neftayırmadan.

– Sizi eşidirəm, nə lazımdır?

– Gəlmişəm ki, torpaqlarımızın müdafiəsi üçün göndərəsiniz.

Polkovnikə aydın oldu ki, bu tam təsadüfi adamdır, içəri girmək üçün katibəni aldadıb, yerində fırlanıb ona tərəf döndü, iri və sürətli addımlarla böyük kabinetdə fırlanmağa başladı, gəlib onun qarşısında dayandı, fısıldayaraq kinli-kinli soruşdu.

– Sənə kim deyib ki, mən adam yığıb, silahlandırıram və harasa göndərirəm?

Mirələm çaşıb qaldı, qarşısındakı yekəpər hərbçinin kinli baxışları altında sadəlövcəsinə soruşdu:

– Yaxşı bəs nə edək? Bu işlə sizdən başqa kim məşğul ola bilər ki?...

– Canınıza azar eləyin, — sonra qollarını geniş açaraq, sanki otaqda üçüncü bir adamla danışırmış kimi davam etdi, — kişi oğlu, fikirləşirsiniz ki, dərəbəylikdir!.. Düşünürsünüz ki, bu boyda dövlət daha çöküb?.. Yoxsa elə bilirsiniz ki, hökümət dağılıb, nə istəsəniz edə bilər-

siniz? Sizin hamınızı Sibirə göndərmək lazımdır, bəlkə ağlınız başınıza gələ...

Mirələm onun sözünü kəsmək istədi, polkovnik daha da əsəbiləşdi, səsi kabineti bürüdü, yarı rus, yarı Azərbaycan dilində ağzı köpüklənə-köpüklənə ağzına gələni deməyə başladı.

– Çıx bayıra, bu saat səni içəri basdırıb, bir dəfəlik itirərəm. Qəhrəman olub mənim üçün. – Səsini endirib, geri döndü, zavod rəhbərliyinin onun adamlarına ilişməmək tapşırığını xatırladı, öz masasına yaxınlaşıb ona baxmadan, sanki özü ilə danışırmış kimi əlavə etdi. – Yazıqsan bala, yazıqsan, get, ağlını başına yığ!.. Pəh, gör kimlər gəlib, sovet hökumətinin qabağında at oynadır!? Dağıl a dünya!..

Yaxşısı bu idi ki, dərinə getməsin, sakitçiliklə kabineti tərk etməyi qərara aldı. Sovet dönəmində erməni və rus katibələri saxlayan idarə rəhbərlərini çox görmüşdü. Bilirdi ki, belə idarə rəhbərləri, əslində elə həmin katibələrin diktəsi ilə işləyirlər.

Gözləmə otağında rus qızını görməyincə bir az sevindi. Küçəyə çıxdı. Şaxtalı payız küləyi hələ də əsirdi, soyuq adamın iliyinə işləyirdi, elə bil qış idi, deyəsən qar yağacaqdı...

* * *

Bu ilki qış əvvəlkilərdən tamamilə fərqlənirdi, deyəsən bahar da gəlməyə tələsmirdi. Qışın fərqliliyi həm də onların həyatında idi. Sanki həyatlarında da qış fəsli başlamışdı və bu gedişlə bu bir ömür davam edəcəkdi. Qışın soyuğu təkcə onların deyil, hətta yaxınlarının, doğmalarının da həyatına, yaşayışına təsir etmişdi.

Bakıda havalar nisbətən mülayim olsa da, dəniz

səviyyəsindən yuxarı qalxdıqca qış özünü daha sərt göstərirdi. Dağlardakı qarın soyuğu yavaş-yavaş aşağılara da təsir edirdi. Sanki təbiət də öz şıltaqlığı ilə onlarla oynamağa başlamışdı. Axşam düşür, hava daha da soyumağa başlayırdı.

Axşamın alatoranlığında Qayğı qəsəbəsinə çatdılar, Qayğıda yerli əhali yolboyu yaşayış məntəqələrində olduğu kimi onları qarşılamaq və yola salmaq üçün yolun kənarına düzülmüşdülər. Hamının gözlərində sevinc və gələcəyə ümid qığılcımları açıq-aydın görünürdü.

Yerli əhalidən bir nəfər yaxınlaşıb, qarşıdakı yoxuşda ehtiyatlı olmalarını deyir. "Düşmən Ermənistan ərazisində olan mövqelərdən yoxuşu daim nəzarətdə saxlayır, tez-tez oradan keçən maşınlara atəş açırlar, xüsusən də hərbi texnikalara. Həm də yol çox narahatdır."

Bu xəbər onları qorxutmadı. Doğrudan da yoxuş çox sərt idi. Elə bil təbiət bütün gücü ilə — həm şaxtası, həm də relyefi ilə onları sınağa çəkirdi. Bütün heyət demək olar ki, ilk dəfə idi təbiətin belə bir sərtliyi ilə qarşı-qarşıya dayanirdı. İlahi hələ nə qədər onların görmədikləri yerlər var imiş.

Nəhayət ki, gəlib Laçına çatdılar. Sanki bura tamam başqa bir aləm idi, havanın təmizliyindən adamın başı hərlənirdi. Elə bilirdilər ki, yolun çətinliyi arxada qalıb, nə biləydilər ki, qarşıdakı yol daha çətin olacaq.

Laçın Şuşa arasında yolun bir hissəsinə "Yeddi qat" adı verilib. Yəqin ki, yolu ilk dəfə çəkənlər onun çətinliyini nəzərə alaraq veriblər bu adı. "Yeddi qat" yolun ən çətin hissəsidir. Kəskin yoxuş və döngələrlə müşahidə olunan yolun bu hissəsində nəinki qışda hətta yayda belə, hərəkət etmək çox çətin olur. Çətinliklə də olsa, keçə bildilər Yeddi qatı. Şuşaya çatanda artıq gecə idi.

Elə həmin gecə Şuşada internat məktəbində qaldılar. Ertəsi gün onları mövqelərlə tanış etdilər. Gecə vaxtı

Şuşaya gəldikləri üçün şəhərin təbii gözəlliyini hiss etməmişdilər. Nə qədər füsunkar təbiəti vardı bu şəhərin, sıldırımlarla əhatə olunmuş təbii qala idi Şuşa.

Körpəlikdən oraların havasını udub, suyunu içənlər indi nə edirlər görəsən... İndi o yerlər "əsir ruhların vətəni"dir.

"Əsir ruhlar" deyə düşündü. Elə bil birdən-birə dediyi sözdən xoflandı. "Ruhlar heç bir zaman əsir ola bilməz. Ruh qeybdir və qeyb bizə yox, yalnız bizi Yaradana məxsusdur. Yaradan isə bizi öz nizamlı qanunları ilə idarə edir. Heç kimə zülm olunmur, nə bu dünyada, nə də başqa bir dünyada...,"

Başqa dünya, bu söz ona bir az qəribə gəldi. "Görəsən doğrudanmı başqa bir dünya mövcuddur? Bəlkə bu bizləri idarə etmək üçün kimlərinsə uydurmasıdır? Bəlkə də..."

Mirələm ruhani ailəsində böyümüşdü, evdə kimdən soruşsaydı, bunun haqqında elə şeylər danışardılar ki, adam yaşamaq belə istəməzdi. İnsan həyatında bu dünyada nə yaxşı şey var idisə, müsəlman aləmində – qadağan olunmuşdu. Görünür, müsəlmanlar ancaq əzyyət çəkmək üçün bu dünyaya gəlmişdilər. Yəhudi, xristian və başqa dinlərdən olanlara isə heç nə qadağan deyil, onlar nə istəsələr edə bilərlər, bütün günahlar yalnız müsəlmanlar üçün idi. Bütün bildikləri və nəticə çıxardıqları yalnız bunlar idi və bu fikirləri tez də unutmaq istəyirdi. O başa düşürdü ki, yüzillərlə müstəmləkədə yaşayan bir millətin nümayəndəsindən bundan artıq heç nə gözləmək olmaz. Bilirdi ki, onlara məxsus yaxşı əməlləri müstəmləkə qanunları silib və öz ideyaları iə əvəzləşdirib. Bunların əvvəlki yerinə gəlməsi üçün isə müstəqillik və zaman lazım idi.

Deyirlər, zaman nisbi məfhumdur. O, bəzən düzənlikdə sakit axan çay kimi lal bir sükutla öz axarı ilə gedir,

bəzən də, məcrasına sığmayan dəli dağ çayına bənzəyir. Belə olduqda, illər bir an içində keçir. Hamı üçün eyni olmasa da, bu bir həqiqətdir, əgər nisbiliyi olmasaydı, onun qədrini də bilməzdilər.

Bu günə qədər televiziyadan dünyanın ayrı-ayrı ölkələrində baş verən müharibələr haqqında eşitmişdi. Bunun nə zamansa bir gün onun vətənində də olacağına heç zaman inanmazdı. Amma bu gün əlində silah torpaqlarının müdafiəsinə qalxmışdı. Camaatın əksəriyyəti onun günündə idi. Nə qədər qeyrətli oğullar var idisə, hamısı silaha sarılmışdı.

Lakin nizami ordu lazım idi, torpağı qorumaq üçün, vətəni müdafiə etmək üçün. Əslində dövləti ordu qorumalıdır, ordusuz dövlət qurmaq olmaz, adi vətəndaşlardan ibarət dəstələrin ümidinə buraxmaq olmaz vətəni. Bu fikirlər, ən azı onun düşündükləri idi.

Özü ilə götürdüyü kiçik radionu qoşdu, düyməciyi fırladaraq, dalğanı tutdu. "Araz" radiosunda hansısa müğənni sanki onun halını duymuşdu, lap elə onun ürəyindən oxuyurdu. Elə bil müğənni onun yanında idi, illər uzunu onunla bir yerdə yaşamışdı, onu ovucunun içi kimi tanıyırdı. Birdən başa düşdü ki, bu mahnı indi təkcə onun üçün yox, hamı üşün oxunur, bütün Azərbaycan xalqı üçün. Bəlkə də, müğənni özü üçün oxuyurdu bu mahnını, öz dərdini azaltmaq üçün, axı o da azərbaycanlı idi. Nə idisə hərə öz payını götürürdü bu mahnıdan. Görünür, indi qapıların bağlanası vaxtı idi. Bəlkə də...

Ağlama, naçar ağlama,
Gündür, keçər ağlama.
Qapını bağlayan fələk,
Bir gün açar, ağlama.

Birdən lap yaxında, qulağının dibində kimsə onu bərkdən çağırdı, diksinib səs gələn tərəfə döndü. Adil idi.

– Atam balası, nə yaman fikrə getmisən? Yoxsa gəmilərin dəryada batıb? Nəyin dərdini çəkirsən, de, bəlkə əlimizdən nə isə gəldi?

– Eh.., Balaşka. Gəmilərim batsaydı, nə vardı ki, heç onun dərdini çəkməyə dəyərdimi?

– Hə!? Bəs nə olub. Məgər bilmirsən ki, nə qədər fikirləşsən yenə də iki üstəgəl iki, dördə bərabardir?

Mirələm gülümsədi, ağzındakı qızıl dişləri göründü. Bu onun sifətinə özünəməxsus gözəllik verirdi.

– Atam balası, elə dedin ki, az qaldım çaşam, elə bildim ki, iki üstəgəl iki dörd eləmir. Ha-ha-ha.

Hər ikisi bir-birinə qoşulub güldülər. Onlar hər ikisi zarafat eləməyi xoşlayan idilər, bəlkə də elə buna görə idi ki, xasiyyətləri uyğun gəlirdi. Danışdıqları zaman nəyin zarafat, nəyinsə gerçək olduğunu ayırd etmək mümkün olmurdu.

– Bəlkə, gedək uşaqların yanına!?

– Gedək, – deyə Mirələm ayağa qalxdı. O, “gedək” sözünü xüsusi vurğu ilə dedi. – Bu gün şəhərdən uşaqlar gəlməlidirlər.

Onlar otağa daxil olanda, döyüş yoldaşları hərə bir işlə məşğul idi. Arif, məktəbin kitabxanasından gətirdiyi kitabları rəfdə yerbəyer edir, Albert haradansa tapdığı akkordionu kökləməklə məşğul idi. Yusif yaşda hamıdan böyük olmasına baxmayaraq, günorta yeməyinə hazırlıq görür, soğan və kartof təmizləyirdi. Baş çavuş Mahmud isə bütün işlərini bir tərəfə atıb ona kömək edirdi. Bir sözlə hərə bir işlə məşğul idi.

Bütün tankçılar hamısı bir otağa yığılmışdı. Qaldıqları yer sovet dönəmində internat məktəb olmuşdu. İndi yetim uşaqların yerində onlar yatırdılar. Məktəbin həyətinə doğru iki böyük pəncərə açılırdı, pəncərənin altında sıra ilə üç tank dayanırdı. Mövqelərdə olmayanda tankları pəncərələrə yaxın saxlayırdılar ki, hər hansı bir

fövqaladə hadisə zamanı qapıdan yox, elə pəncərədən birbaşa tankların üstünə keçsinlər. Adil və Mirələmin içəri girdiyini görən Mahmud, onları tərs-tərs süzdü.

– Harada itib batmısınız, kömək eləyin, bir azdan yemək vaxtıdır. O, qazana bir az yağ tök, soğanı qızart.

– Baş üstə, cənab çavuş, – deyə Mirələm zarafat etdi, cəld qazanı götürüb sobanın üstünə qoydu və Adili çağırdı.

– Atam balası, bura gəl, sənə bir lətifə danışım.

Adil onun yanına gəlib intizarla onun üzünə baxdı. Mirələm ətrafına göz gəzdirib baxışlarını Mahmudun üzərində saxladı. Otaqda olanlar dərhal məsələni anladılar.

– Qırxayağın balası, anasından soruşur: "Ana sən hansı ayağınla yeriməyə başlayırsan?"

Hamı əlini işdən götürüb, ona diqqətlə qulaq kəsildilər. O, isə heç kimə fikir vermədən yağı qarışdırmaqla məşğul idi. Bir müddət keçəndən sonra Mahmudun hövsələsi daraldı.

– Ə ə ə, daha de qurtar, görək nə deyirsən?

– Mənimləsən?

– Ə ə ə, bəs kiminləyəm, bayaqdan lətifəni sən danışmırsan?

– Ə ə ə kəlça, lətifəni bayaq danışdım da.

– Qardaş, ana qırxayaq, balasına nə cavab verdi? Demədin axı!

– Hə ə ə, onu deyirsən? – bir az susub gülümsədi, – yazıq deməyə macal tapdı ki, – dedi və yenə müəmmalı şəkildə susdu. Yenə Mahmud hövsələsizlik etdi.

– Nə oldu ona?

– Kimə?

– Qırxayağın anasına?

– Heç nə, yazığın ayaqları tutuldu.

Gurultulu gülüş səsi otağı bürüdü. Hamı dönüb pərt olmuş Mahmuda baxdı, o gözlərini bərəldib hələ

də çaşqın halda gülənlərə baxırdı. Birdən özü də gülənlərə qoşulub qəhqəhə çəkdi, sonra isə gülə-gülə üzünü Mirələmə tutub dedi:

– Tüpürüm sənin danışdığın lətifəyə.

Kiçik otağı gülüş səsi bürüdü.

– Ay gic, bilmirsən ki, ona söz çatdırmaq mümkün deyil – deyə hamının ağsaqqal kimi hörmətini saxladığı Ağababa Mahmuda dedi.

Bir azdan hamı bir nəfər kimi süfrə arxasında idi, lakin bayaqkı, gülüş doğuran əhval-ruhiyə hələ də getməmişdi. Elə bu zaman otağa daxil olan Miyaməddin Adilə yaxınlaşıb dedi.

– Qapıda səni görmək istəyənlər var, iki gün əvvəl bizimlə birlikdə "Zastava"da olan uşaqlardır. Nə qədər dedimsə içəri keçmədilər.

Adil cəld qapıya çıxdı. Həyətdə Əli və Gülverdi siqaret çəkirdilər. Adil onlarla bir neçə dəfə ayrı-ayrı mövqelərdə olarkən qarşılaşmışdılar.

– Gəlin içəri atam balası, burda niyə dayanmısınız, bayır soyuqdur.

– Yox qadeş. Əziyyət deyilsə səninlə təklikdə söhbət etmək istəyirik – deyə Gülverdi onunla ikiəlli görüşdü.

Onlar üçlikdə qapıdan bir az aralı, ağacın altında dayanıb xeyli söhbət etdilər. İyirmi dəqiqədən sonra yenidən görüşüb ayrıldılar.

– Narahat olmayın çalışarıq hər şey yaxşı olsun.

Otağa girərkən bütün gözlər ona dikilmişdi.

– Atam balası, onlar kim idi, nə istəyirdilər?

– Elə-belə gəlmişdilər, məni görmək üçün.

Onun xasiyyətini bildikləri üçün daha heç nə soruşmadılar.

# II FƏSİL

"Dünya çalxalandı, yer-göy lərzəyə gəldi, elə bil dünyanın axırı idi. Bir an içində göy üzünü qara buludlar aldı, göy guruldadı, şimşək çaxdı. İldırım göy üzündən yerə şığımağa başladı. Sanki, göy uzun illərdən bəri yığıb saxladığı qəzəbini boşaldıb, birdən-birə yer üzündən, orada yaşayan bütün canlılardan intiqamını almaq istəyrdi. Amma indi göydən yerə yağış, qar, dolu deyil, mərmilər tökülürdü, güllələr yağırdı."

Biz növbəti dəfə döyüşdən qayıdan zaman Mirələmgildə qonaq olduq. Onun atası, Məhyəddin kişi Böyük Vətən müharibəsinin birinci günündən sonuncu gününə kimi cəbhədə kəşfiyyat bölüyündə olmuşdu. Altı dəfə yaralanmış, lakin müalicədən sonra yenidən döyüşlərə atılmışdı. Berlin cəbhəsində kapitulyasiyadan sonra, onun xidmət etdiyi hərbi hissə ölkənin şərqində yaponlarla müharibəyə başlamış və qısa bir müddətdə Çin torpaqlarını faşizmdən azad etmişdi.

Müharibə başa çatdıqdan sonra onun bacarıqlı kəşfiyyatçı olduğunu görən komandanlıq gənc Məhyəddini Macarıstana göndərmişdi. Bu zaman Avropanın Sovet İttifaqı tərəfindən işğal etdiyi ölkələrdə "lokal müharibə" gedirdi və Məhyəddin kimi bacarıqlı və cəsur kəşfiyyatçılara ehtiyac var idi. Gənc Məhyəddin İki ildən sonra sağlamlığını əsas gətirərək ordudan tərxis olunmaq üçün komandanlığa müraciət etmiş və mayor rütbəsində öz doğma kəndlərinə qayıtmışdı.

"Başa düşənlər bunun, elə insan əməlinin nəticəsi olduğunu bilirdilər, ancaq başa düşməyə nə baş qal-

mışdı, nə də o başlarda ağıl. Hamı Hitleri söyürdü. Bu söyüş ilk olaraq Avropadan — almanların lap yaxınlığından başladı, sonra isə çox sürətlə bütün dünyaya yayıldı. Elə sürətlə yayıldı ki, bəlkə də bir göz qırpımında bizə də — Azərbaycanın ucqar kəndlərinə də gəlib çatdı. Hətta elə yerlərə çatdı ki, orada heç Hitlerin adını belə düzgün deyə bilmirdilər, bəziləri "nemsə," bəziləri də "nemes" deyə adlandırırdılar onu. Atılan bombaların səsindən də tez, xəbəri çatmışdı bizə. Görəsən, bu Hitler deyilən adam kim idi ki, dünyaya meydan oxuyurdu. Bütün dünyanı hədələyir, dayanmadan hamının başına od ələyirdi. Bu "nemsə köpəy oğlu" nə vermişdi ala bilmirdi bu qoca dünyadan.

Mən o zaman cəbhədə qarşıladım bu xəbəri, əslində xəbəri yox, faşistlərin hücumunu qarşıladım.

Bəli, o yay dünya çalxalandı və elə çalxalandı ki, İkinci Dünya savaşı başlandı. Bu savaş bütün dünyanı ağuşuna alıb kəndbəkənd, küçəbəküçə, evbəev gəzdi, bütün qapıları döydü. Hətta Azərbaycanın ucqar guşələrindən birində yerləşən bizim də qapımızı döyə bildi... Özü də deyəsən, bir az da çox və bir az da bərk döydü.

Mən ailəmizdə ən böyük idim, məndən başqa üç qardaşım və bir bacım var idi, artıq əsgərlik yaşım çatmışdı, necə deyərlər bığ yerim tərləmiş, hündürboy, qaraşın bir oğlan olmuşdum. Amma əsgərliyə getmək heç də ürəyimcə deyidi. Ona görə yox ki, nədənsə qorxurdum. Yox, ailənin bütün yükü mənim üstümdə idi, körpə bacımı və üç qardaşımı böyütmək lazım idi. Həm də kənd qızları içində seçib sevdiyim biri var idi. Ancaq bu məlun müharibə suyun mənbəyində dayanan yeddibaşlı əjdaha kimi ağzını açıb qurban tələb edirdi. Deyəsən, o yeddibaşlı əjdahanın adı da elə Hitler idi" deyə keçmiş kəşfiyyatçı sözünə davam etdi...

* * *

“Xarkov yaxınlığında bizi düzüb ayrı-ayrı qruplara böldülər. Rus və alman dillərini bildiyim üçün məni hamıdan ayırdılar. Bütün tanıdıqlarımın hamısı ayrı-ayrı dəstələrə düşdülər, mənim isə hələlik adımı çəkən yox idi.

Vağzalda gözləmə zalında bir küncdə oturub xəyallara dalmışdım, yüzlərlə kilometr aralıda olmağıma baxmayaraq, yenidən xəyalən öz kəndimizə qayıtmışdım. Deyəsən, bir az da yuxu tutmuşdu məni, hətta yuxu görürdüm. Kürün sahilləri, göz gördükcə uzanan biçənəklər, kiçik qardaşlarım, körpə bacım, ilk dəfə sevib bəyəndiyim, lakin hələ bir kəlmə belə kəsə bilmədiyim qara gözlü Mədinə... Sanki onlar da mənimlə idilər, ilahi necə də xoşbəxt idim. Hər şeyi unutmuşdum. Bəzən yuxuda gördüklərinin oyanandan sonra aşkarda olmasını arzulayırsan, bir anlıq olsa belə.

Birdən kiminsə mənə cakitcə toxunduğunu hiss etdim, diksinib oturduğum yerdən ayağa qalxdım. Bir az əvvəl xəyalən gəzdiyim doğma kəndimiz elə bil ki, heç bir zaman olmayıbmış, qarşımdakı rus dilində danışan, arıq, yaşıl gözlü, hündürboy, sol əli sarıqlı zabiti görəndə özümü daha da itirdim. Zabit, elə bil, mənim daxilimdə baş verənləri duyurmuş kimi, əlini çiynimə qoyub gülümsündü.

– Hə, nə fikirləşirsən? Yoxsa əsgərliyə gəlməyinə peşman olmusan?

Zabitin üzündəki təbəssüm mənə hər şeyi unutdurdu, sanki doğma adamımı gördüm, nəsə demək istədim, mənə imkan vermədi, yenə də eyni təbəssümlə dedi:

– Eybi yoxdur keçib gedəcək, çətini birinci döyüşə girənədəkdi...

Əlini mənə uzatdı.

– Mixail İvanoviç, sadəcə Mişa deyə bilərsən. – Deyə cavab gözləmədən ciddiləşdi, amiranə səslə dedi. – Arxamca.

Cəld ayağa qalxıb onu təqib etdim. Gözləmə zalından çıxdıq. Perronda çoxlu adam vardı, iynə atsaydın yerə düşməzdi, qatara yaxınlaşmaq mümkün deyildi, səs-küydən qulaq tutulurdu, qadın, kişi, qoca, cavan, uşaq.., hamı bir-birinə qarışmışdı. Hamı qışqıraraq yüksək səslə danışır, kimisə çağırır, qucaqlaşıb ayrılırdılar.

Qatar fit verdi. Zabit mənim əlimdən tutub, adamları yara-yara vaqonlara doğru irəlilədi. Nəhayət ki, biz camaatı itələyə-itələyə qatara çatdıq. O, sağ əli ilə vaqonun qapısından tutub məni irəli – vaqonun içərisinə tərəf itələdi, bu adi yük vaqonu idi. Adam çox olduğundan birtəhər özümüzə yer tapıb oturduq.

Zabit oturan kimi kürəyini vaqona söykəyib, sarğılı əlini sinəsi üstə qaldıraraq kitelinin altında gizlətdi, gözlərini yumdu. Başa düşmək olmurdu ki, o yatıb, yoxsa sadəcə gözlərini yumub. Bütün gecəni yol getdik, qatar zülmət qaranlığı yararaq ritmik taqqataqla irəli şütüyürdü...

Nə qədər çalışsam da gözlərimə yuxu getmədi, dəmir təkərlərin səsi beynimdə bir-birini əvəzləyirdi, özümdən asılı olmadan bu ritmik hərəkətləri saymağa başladım.

Səhərə yaxın kiçik bir stansiyada dayandıq. Yenidən canlanma başlandı. Qrupların üstündə olan zabitlər komanda verərək adlı siyahı ilə yoxlamağa başladılar. Mişanın başının işarəsi ilə vağzaldan çıxdıq, tozlu yolla xeyli aralıda olan meşəyə doğru irəlilədik.

Yolboyu zabit heç nə danışmadı, mən də onun arxasınca sakitcə gedirdim. Günəş çıxanda artıq biz meşənin içindəki hərbi hissədə idik. Əslində, bura meşənin sıx yeri idi, kənardan belə bir hərbi hissənin burada yerləş-

məsini təxmin etmək o qədər də asan olmazdı.

Mayor hərbi hissənin girişində məni başqa bir zabitə təhvil verib özü harasa getdi. Bir az sonra mənə hərbi geyim verib təlimə gedənlərə qoşdular.

Bizə ilk təlim kecən, kapitan İvan Qriqoriyeviç Yeromin idi. O, cox mehriban, həm də tələbkar bir zabit idi. Əslən Stalinqraddan idi, rus olmasına baxmayaraq, görünüşcə tamamilə rusa bənzəmirdi, qaraşın bir adam idi. Bəlkə də milliyətini bilməsəydim elə bilərdim ki, azərbaycanlıdır. O, bildiklərini öyrətməkdən zövq alırdı, təcrübəli müəllimlər kimi, hər bir şeyi incəliklərinə qədər başa salmağa çalışırdı. Biz, onunla elə ilk gündən dostlaşdıq. Adımı siyahıya çox çətinliklə yaza bildi, tələffüzü çətin olduğu üçün hamının yanında dedi:

– Bu gündən sən bizimləsən, sıralarımıza xoş gəlmisən. İşimizin əsas mahiyyətini zaman keçdikcə anlayacaqsan. Hələlik onu deyim ki, biz hərbi kəşfiyyatçılarıq, partiya və Stalin uğrunda canımızdan keçməyə hər an hazırıq. Bizim kimi olmalısan, bu işə aid nə varsa, hamısını öyrənməlisən. Bunu etməyə borclusan, başqa yolun yoxdur. Nə qədər tez öyrənsən, o qədər az əziyyət çəkəcəksən. Bir də adın dilimə yatmır, olar sənə Cava deyim?

Elə o gündən də hamı məni Cava kimi tanıdı. Təlimlər gecə-gündüz davam edirdi. Biz otuz nəfər idik. İlk günlər uyğunlaşmaq çətin olsa da mən çox tez alışdım bu həyata. Uşaqlıqdan çəkdiyim əziyyətlərlə müqayisədə bu həyat mənim üçün çox rahat idi. Fiziki cəhətdən sağlam, güclü, dözümlü, və düşdüyümüz çətinliklərdə tez, düzgün qərar qəbul etməyim, komandirlərinin gözündən qaçmadı. Bu cəhətlər məni başqalarından açıq-aydın fərqləndirirdi. Ən böyük nigarançılığım kənddə, taleyin ümidinə qoyub gəldiyim körpələr idi.

Günlər bir-birini sürətlə əvəz edirdi. Bir aylıq təlim-

dən sonra artıq mən özümü bacarıqlı bir kəşfiyatçı kimi göstərdim. Qırx birinci ilin baharı yenicə bitirdi, yay başlayırdı. Yayla bərabər müharibə də başladı. Müharibə elə başladı ki, biz hətta macal tapıb geri çəkilə bilmədik, faşistlər sanki qara bulud idilər, bizim üstümüzdən keçib ölkənin içərilərinə getdilər.

Qısa müddət keçməsinə baxmayaraq, onlar SSRİ-nin böyük bir hissəsini işğal etdilər. Baltikyanı ölkələr, Ukrayna, Moldova, Belorusiya və qərbi Rusiya onların işğalı altında idi. Onlar sürətlə ölkənin içərisinə doğru irəliləyirdilər. Rusiyanın avropa hissəsi demək olar ki, onların onların işğalında idi.

Qırx birinci ilin payızında faşistlər Leninqradı mühasirəyə aldılar. Bizim kəşfiyyatçılardan ibarət hərbi qrupumuz düşmənin arxasında qalmışdı, əvvəllər mənə elə gəlirdi ki, biz vaxt tapıb geri çəkilə bilməmişik, sonralar başa düşdüm ki, bizim düşmən arxasında qalmağımız planlı şəkildə, şəxsən yoldaş Stalinin göstərişi ilə olmuşdu.

Elə bu ərəfədə bizə xüsusi bir tapşırıq verildi. Düşmənin arxadan gələn qüvvələrini ləngitmək üçün, Don çayı üzərində olan körpülər partladılmalı idi. Bu tapşırığı yerinə yetirmək, mərkəz tərəfindən bizə həvalə olundu. Kapitan İvan Qriqoriyeviç özü ilə birlikdə yeddi nəfər seçib elə həmin gecə verilən tapşırığı yerinə yetirmək üçün hazır olmağımızı əmr etdi. Komandirimizin seçdiyi yeddi nəfərin içində beş nəfər rus, mən və bir erməni — Aşot Martirosyan da var idi.

Beş nəfər rusun biri, Nikolay Aleksandroviç Zotov Bakı rusu idi. Onun atası uzun müddət təhlükəsizlik orqanlarında işləmiş, Nikolay orta məktəbi bitirdikdən sonra təqaüdə çıxaraq öz doğmalarının yanına – Saratova köçmüşdülər. O, bizim dildə gözəl danışır, tariximizi və mədəniyyətimizi gözəl bilir, arabir Azərbaycan mah-

nılarını zümzümə edirdi. Atasının işi ilə əlaqədar olaraq Nikolay Azərbaycanın bütün bölgələrində olmuşdu.

Günortaya qədər hazırlaşdıq, hava qaralan kimi yola çıxdıq. Tapşırığın yerinə yetirilməsinə qırxsəkkiz saat vaxt verilmişdi. Bu praktiki olaraq mümkün deyildi, lakin biz onu vaxtından əvvəl yerinə yetirə bildik. Geriyə qayıtmaq isə mümkün olmadı. Faşistlərlə qeyri-bərabər döyüşlərə girdik, onlara xeyli itkilər verdik, Almanlar bizdən çox olduğu üçün, meşədən çıxıb qrupumuza birləşə bilmədik, Ukrayna meşələri bizim doğma evimizə çevrildi. Sonralar ilk dəfə gəldiyim hərbi hissənin bizim kimi kişik dəstələrə bölünərək işğal olunmuş torpaqlarda faşistlərlə mübarizə apardığını eşitdim.

Vaxtaşırı mərkəzlə rabitə əlaqəsi yaradırdıq. İndi bizim işimiz düşmən arxasında, "Mərkəz"in verdiyi tapşırıqları yerinə yetirməkdən ibarət idi. Çox çətin idi, ağır günlər yaşayırdıq, birdəfəlik yerimiz yox idi, daimi olaraq təqib altında idik, həm də düşmən üçün çox böyük təhlükə idik."

# III FƏSİL

Günəşin qürubu ilə qaranlığın düşməsi bir oldu, sanki xeyirlə şər tələsik bir-birini əvəz etdilər. Əvvəllər heç belə olmurdu, deyəsən hər şey dəyişməyə doğru gedirdi və bu dəyişmələr heç də yaxşılığa işarə deyildi. Dağların arasında hər şey bir an içində baş verdiyi kimi qaranlıq da bir an içində düşür, bir anda hər tərəf zülmətə qərq olur, ətrafda yalnız bir rəng olur, qara rəng.

Uşaq ikən çox xoşlayardı təbiətdə baş verən qeyri-adilikləri. Onun fikrincə gündüz ətrafında gördüklərini, gecələr də görmək mümkün olar. Çünki hər bir əşyanın daxilində işıq var, hətta zülmətin özündə də. İndi əmin idi ki, zirvəsi göylərə dirənən, şiş ucları ilə buludlara pərçimlənib saxlayan dağların, dərin, dibigörünməz dərələrin özündə belə işıq var. Burada gecələrin öz rəngi var, zülmət rəngi.

Onun aləmində gecənin xüsusi bir sehri var idi. Gündüzlər nə qədər maraqlı və əsrarəngiz olsa da, gecələrin sehri tam başqa idi. Təəssüf ki, bu uşaq çağlarında belə olur, insan yaşa dolduqca, həyatı dərk etdikcə hər şey, hətta həyatın özü də tam başqa cür görünür, başqa bir rəng alır. Belə vaxtlarda həyat çoxtərəfli fiqura bənzəyir, görünməyən tərəfləri daha dəhşətli, daha tünd rəngdə olur.

Hələ orta məktəbdə oxuyan zaman, xüsusən də yay aylarında dostları ilə birlikdə gecə-gündüz Şubanı dağlarında nə qədər bir-birindən maraqlı vaxt keçirmişdilər. Gecələr zülmət qaranlıqda dağların arasında bir addımı görmək olmurdu, buna baxmayaraq, daşlara toxunma-

dan, qayalardan yıxılmadan, ensiz cığırlarla sağ-salamat qayıdardılar evə. Belə qaranlıq gecələrdə insan fərqinə varmadan öz gözlərindən istifadə etmir, ağlının, şüurunun, fitrətinin, ruhunun gözlərindən istifadə edir.

Hava qaralandan sonra üfüqlə dağların birləşdiyi yerə baxanda sanki qırx adamın sıra ilə düzüldüyünü görərdin, elə buna görəydi ki, qədim zamanlardan el arasında hamı bu dağlara "Qırx qız" adı vermişdi. Rəvayətə görə hər cümə günü bu dağların arasında qadın naləsi eşidilir. Həmin naləni eşitmək üçün yaşıdları ilə birlikdə hər cüməni "Qırx qız"ın ətrafında dolanardılar. Bəzən yoldaşları həmin səsi eşitdiklərini inadla iddia edərdilər, Əli isə hələlik eşidə bilmirdi o fəryadı.

Həmin gün kiçik bir dəstə ilə düşmən tərəfə keçmişdilər, düşmənin hansı qüvvə ilə və harada yerləşdiyini dəqiqləşdirmək lazım idi. İki gün idi ki, doyunca yemək, yatmaq üzünə həsrət idilər. Hər şeyi xəritə üzərində tam dəqiqliyi ilə işlədiyi üçün daxilində özünə də məlum olmayan qəribə bir rahatlıq var idi. Qaranlıq olmasına baxmayaraq səmti tutub irəliləyirdilər.

Peşəkar hərbçi olduğu üçün bilirdi ki, dağlıq yerlərdə hərəkət etmək hər kəsin işi deyil, ona görə də dəstədə olanların hamısını özü Gülverdi ilə birlikdə seçib götürmüşdü. Əksəriyyəti əvvəlcədən tanıdıqları, bələd olduqları əsgərlər idi, hər birinə arxayın idilər.

Həddən artıq qaranlıq olduğu üçün dayanmağı qərara aldı. Qurd ulaması ilə qrupdan öndə gedən Gülverdiyə dayanmaq işarəsi verdi. Hamı bir yerə yığılan kimi məsələni onlara başa salıb gecəni burada keçirəcəklərini bildirdi. Ətrafda çaqqallar ulaşırdı.

Dayandıqları yerdən otuz metr şərqdə, tez-tez yağan yaışlardan yaranan sel sularının oyub yaratdığı dərin bir qobu var idi. Əli bir nəfərin könüllü olaraq oyaq qalmasını bildirərkən, Yaşar hamıdan əvvəl dilləndi.

– Siz yatın, mən yatmaq istəmirəm.

Əli onu yaxşı tanıyırdı, bir kənddən idilər, ona arxayın idi. Kürəyini ağacın gövdəsinə söykəyib susdu, xəyal onu gənclik illərinə apardı. Yaşarın uşaqlığı, gəncliyi onun gözləri qarşısında keçmişdi. Kənddə sayılıb seçilən cavanlardan idi, heç kim bir sözünü iki eləməzdi, həm də çox ədalətli idi. Hələ sovet hökümətinin qılıncının qəbzəsi də kəsən bir zamanda – yetmişinci illərdə Yaşar, gecə ikən kəndin ən uca yerində dalğalanan SSRİ-nin bayrağını çıxarmış, onun yerində Cümhuriyyətin üç rəngli bayrağını qaldırmışdı. O zaman əksər insanların bu bayraq haqqında məlumatı belə yox idi. O, çətinliklə olsa da rəngli parçaları tapıb tanış dərzidə bayrağı tikdirmiş və gecənin birində bayraqları dəyişmişdi. Yalnız iki gündən sonra hakimiyyət orqanları bu işdən xəbər tutdular. Bu hadisə ilə bütün kənd bir-birinə dəydi, respublika hüquq- mühafizə orqanları kəndə axışdılar.

Araşdırma aparıb elə həmin gecə onu apardılar. On beş gündən sonra huşsuz vəziyyətdə gətirib kəndin yaxınlığına atdılar. Lakin onun inadını qıra bilmədilər. O, bir neçə vaxtdan sonra yenidən eyni işi gördü. Bunu görən yerli hökümət, milislərdən ibarət qrup yaradaraq, oraq çəkicli qırmızı bayrağı mühafizə etmək qərarına gəldi. Lakin bunlar əbəs imiş, onu nə qədər sıxışdırsalar da daha da inadlaşır, daha da bərkiyirdi. Çox çəkmədi ki, bu hadisə yenidən təkrar oldu, hər dəfə də eyni ssenari. Yaşarı milis idarəsinə aparıb bir neçə gün saxlayır, kötəkləyib buraxırdılar. Onlar haradan biləydilər ki, onu yaşadan qəlbində alışan və anbaan güclənən azadlıq tonqalıdır. Belə insanlar heç zaman ölmürlər, azadlıq aşiqlərinin qəlbində əbədi yaşayırlar.

– Yatmaq istəyirsənsə, yat. Mən onsuz da oyağam. Sabah ağır gün olacaq.

– Yox, komandir! Sən yat dincəl, bilirsən ki, mən öyrəncəliyəm.

Əli daha heç nə demədi, yenidən xəyal onu keçmiş günlərə apardı. Vətənə sevgisi sonsuz idi, elə bu sevgi də onu orta məktəbi bitirdikdən sonra, doğulub boya-başa çatdığı kənddən çox uzaqlara – Tallinə apardı. Tallində hərbi məktəbi bitirdikdən sonra SSRİ adlı məmləkətə xidmət edəcəkdi. Lakin çox çəkmədi ki, SSRİ dağıldı və o, öz vətənində xidmət etmək üçün Bakıya üz tutdu.

Qorbaçevin vasitəsi ilə ermənilər yüz illər ərzində hazırladıqları planı həyata keçirmək üçün azəri türklərini Qərbi Azərbaycandan sıxışdırıb çıxarmış, Azərbaycanın daxilində – Qarabağda separatçı əməllərinə başlamışdılar. Əli ilk peşəkar zabitlərdən idi ki, könüllü torpaqların müdafiəsinə gəlmişdi. Vətənə gəldiyi gündən yeni yaranmış Müdafiə Nazirliyi onu Şıxovda yaranmış ilk "könüllülər taboruna" göndərdi. Əli hazırki dönəmdə hamı üçün göydən düşmüş kimi idi.

O, hərbçi sənətinin məsuliyyətlini, qarşılaşa biləcəyi çətinlikləri, əzab-əziyyəti yaxşı bilirdi. Özünü qabaqcadan hazırlamışdı onu gözləyən sürprizlərə. Müharibə şəraitində isə belə sürprizlər saysız-hesabsız olur.

Onlar əməliyyata gedən zaman ən qısa yolu seçmişdi, geri qayıdanda isə təhlükəsizliyi nəzərə alaraq uzun yolu seçdi Əli. Əməliyyatı yerinə yetirmək vacib idisə, dəstəni qorumaq da eyni dərəcədə vacib idi. Artıq əməliyyatın birinci hissəsi uğurla başa çatmışdı, onlar düşmənin yerləşdiyi ərazini, sayını, nə qədər texnikalarının olmasını dəqiq bilirdilər. Əməliyyatın ikinci hissəsi, dəstəni sağ-salamat Şuşaya çatdırmaq idi. Çaqqal səsləri daha da yaxından gəlirdi...

Yorğun olmasına baxmayaraq nə qədər çalışdısa yata bilmədi, xəyallar onu çox uzaqlara, həmişə burnu-

nun ucu göynədiyi hisslərin arxasınca – uşaqlıq çağlarına apardı.

"Pil-pilə"nin şəfalı suyu, "Qırx qız"ın müəmmalı sirri yenidən bütün hislərini əsir etdi. "Görəsən "Qırx qız" haqqında eşitdiklərim həqiqətdirmi?" deyə düşündü, hətta acı rəvayət olsaydı belə, onun üçün yenə də şirin idi.

Əli gözlərini yumub uşaqlıq xatirələrinə dalmışdı. Birdən qulağına həmin səslər gəldi, lap yaxınlıqda qadın iniltisi, qadın naləsi gəlirdi. Hətta bir anlıq sevindi də. Yüzillərin mifi, əfsanəsi həqiqətə çevrilmişdi. "Qırx qız"da hamının eşitdiyi qadın naləsini o da eşidirdi. Yoxsa onu qara basırdı, nəfəsini udub diqqətlə qulaq asdı. Yenidən eşitdi o səsi. Daxilindəki sevinc bir anlıq oldu, uşaqlıq xatirələri sanki olmayıbmış kimi yoxa çıxdı. İlan vurmuş kimi yerindən dik qalxdı.

– Yaşar, eşidirsən o səsi!?

– Eşidirəm, komandir.

– Diqqətlə qulaq as. Gör ha yandan gəlir?

– Deyəsən lap yaxındadır. Qadın səsidir.

– Səsdən çox iniltiyə, naləyə oxşayır.

Hər ikisi susdular, o səs də kəsildi. Yenə qaranlıqdan başqa hər şey görünməz oldu.

– Elə bilirdim yatmısan, bu səsi eşidəndə bilirsən yadıma nə düşdü? –deyə Yaşar sükutu pozdu

– Hə-ə. Qırx qızda qayaların arasında gələn səs... Elə mən də onun haqqında fikirləşirdim.

– Əli, "Qırx qızda" gələn səsi eşitmisən heç?...

– Yox. Bir az əvvəl həmin səs haqqında düşünürdüm, bu səsi eşidəndə elə bildim ki, oradayam. İnan ki, çaşıb qalmışdım...

– Sus-s-s. Yenə də gəlir, sən burda ol, baxıb gəlirəm.

– Yox, olmaz. Bu tələ ola bilər. Eşitmirsən it uşaqları necə ulaşırlar?

Lap yaxında Gülverdinin canavar səsi ilə ulaması eşidildi, bu səs yaxınlıqda təhlükənin olmasını bildirirdi, onlar hər ikisi silahlarını hazır vəziyyətə gətirdilər. Bir az sonra Gülverdi bir nəfəri sürüyərək onların yanına çatdı.

– Sən haradan gəlirsən, biz elə bilirik yatmısan?...

– Belə bir vaxtda yatmaq, ölümə bərabərdir. Tələsmək lazımdır, uşaqları oyadın, tez aradan çıxmalıyıq. Səhərin açılmasını gözləsək, bizi qarışqa kimi qıracaqlar. Tez olun tərpənək, vaxt yoxdur.

Hava işıqlananda onlar artıq xeyli uzaqda idilər. Düşmən həmin yeri gülləbaran edirdi.

– Ağsaqqal, belə olacağını hardan bilirdin?

– Onların bizi izlədiklərini görmüşdüm, sizə demədim ki, təşvişə düşərsiniz. Ancaq onları da nəzarətdə saxlayırdım. Elə ki, sən dayanmaq əmri verdin, bir neçə dəqiqə sonra artıq mən onların lap yaxınlığında idim. Onlar rus dilində danışdıqları üçün mən hər şeyi başa düşürdüm. Bəxtimiz gətirdi, onların radiosunun daşı öldü, ona görə də bu yetimi kömək dalınca göndərdilər. Mən də bunu tutub gətirdim özümlə.

– A kişi, bu çılız bədəninlə bu boyda eşşəyi necə tuta bildin?

– Soruşma, onu deməyəcəyəm. Gedək, bir şey qalmayıb Şuşaya.

Günəş çıxanda onlar artıq Şuşada idilər. Əli, uşaqlara dincəlməyi tapşırdı, özü isə Gülverdi ilə birlikdə əsiri götürüb qərargaha yollandı.

* * *

Əsiri təhvil verib tabora qayıtdılar, Gülverdi yatmaq üçün sinif otaqlarının birində özünə yer axtarmağa

başladı. Əli xəritəni açıb bir də yoxladı, gəldikləri yolu qeyd etdi, gecələdikləri yer yağış sularının açdığı uzun bir qobunun yaxınlığında kolluqların arasında idi. Qadın iniltisi həmin yerdən gəlirdi.

Bütün gecəni yata bilmədi. Yorğun olmasına baxmayaraq, gözlərini yuman kimi həmin səs təkrar-takrar qulaqlarında eşidilirdi. Durub bayıra çıxdı, yaxınlıqdakı ağacın altında dayandı, siqaret yandırıb tüstünü acgözlüklə ciyərlərinə çəkdi. Həmin səs hələ də qulaqlarında idi. O, indi hər cümə günü kəndlərinin yaxınlığında "Qırx qız" dağının qayalıqları arasından gələn qadın naləsinin həqiqət olduğuna inanırdı.

Ertəsi gün səhər tezdən Gülverdi və Yaşarla birlikdə həmin yerə kənardan baxış keçirmək üçün Şuşadan çıxdılar. Gecələdikləri yer seyrək kolluqdan ibarət, azca maili, meydançanı xatırladan düzənlik idi. Meydança dörd tərəfdən sıx kolluqlarla əhatə olmuşdu, tən ortasında yağış sularının zaman-zaman oyub açdığı dərin qobu görünürdü. Həmin inilti yalnız buradan gələ bilərdi. Nə qədər çalışsa da onun içərisini görə bilmədi.

– Əli, bizim dayandığımız yer, bax o sıx kolluğun yanındakı seyrəklikdə idi – deyə Yaşar əlini irəli uzadıb şəhadət barmağı ilə dünən gecə olduqları yeri göstərdi. Əli durbini aşağı endirib təəccüb dolu baxışlarını onun üzündə gəzdirib Gülverdiyə baxdı. "Yaxşı ki, Gülverdi bizi vaxtında xəbərdar etdi, gecələdiyimiz yer hər tərəfdən açıq-aydın görünürmüş."

– Əli, onsuz da çox irəli gəlmişik, burda dayanmaq olmaz.

– Yaxşı uşaqlar, qayıdaq.

Dilində desə də, ürəyi getmək istəmirdi. Dünənki inilti onun üçün çox maraqlı idi, yarğanı yoxlamaq istəyirdi, oradan gələn səs dünəndən bu günə qədər həyatını alt-üst etmişdi, rahatlığını əlindən almışdı. Onu da

bilirdi ki, qarşıdakı düşmən çox hiyləgərdir, günün günorta çağında üç nəfərlə risk etməyə dəyməz. Kola söykədiyi silahını götürüb gəldikləri yolla geri qayıtdılar.

Şuşaya çatan kimi qərargaha gedib komandanlığa bildirməyi və xususi əməliyyat qrupu hazırlayıb elə bu axşam əməliyyat keçirməyi qərara aldı. Onlar Şuşaya çatanda artıq gün dönmüşdü. Şəhərin içində uşaqlardan ayrılıb qərargaha getdi. Orada ilk gördüyü adam elə komandir oldu. O, Əlini görən kimi ona tərəf gəldi. Əli yaxınlaşıb hərbi salam verdi, komandir qollarını açıb onu çiyinlərindən bərk-bərk tutdu.

– Afərin sənə. Yəqin ki, xəbərin var, dünən gətirdiyin əsir, çox dəyərli məlumatlar verdi.

Onlar söhbət edə-edə komandirin otağına daxil oldular.

– Cənab polkovnik, afərin mənə yox, uşaqlara düşür, inanın ki, çox bacarıqlı uşaqlardır, əgər Gülverdi olmasaydı, bizim indi burada olmağımız da sual altındaydı.

– Əli, səndə bir nəfər gizir olmalıdır, Sovetin yetirməsi. Sovet ordusunda ona "General" deyirmişlər. Onun təcrübəsindən istifadə elə.

– Bəli cənab palkovnik, çox təcrübəli bir insandır. Hüseynov Gülverdi. Elə bayaq onun haqqında deyirdim. Həmiin əsiri də biz istirahət edərkən elə o tutub gətirmişdi.

– Hə?... Qərargah rəisinə demişəm, getməzdən əvvəl onu gör, onların siyahısını ver.

Komandir masanın üstündəki kağızda nəsə qeydiyyat apardı, onun təvazökarlıq etdiyini düşündü. Əli ağır-ağır ayağa qalxaraq hərbi salam verdi.

– Oldu cənab palkovnik. Bir də dünən çox yorğun olduğum üçün, bir məlumatı sizə çatdıra bilmədim. Bizim gəldiyimiz yolun üstündə dərin bir qobudan qadın

iniltisini eşitdik, imkan tapıb yoxlaya bilmədik. Mümkün olsa, yeni bir əməliyyat hazırlayıb ora baş çəkərdik.

– Mən artıq bu barədə göstəriş vermişəm, səni də elə buna görə çağırmışam. Əməliyyatı bacardıqca tez keçirmək lazımdır. Qərargaha verdiyin xəritədə nişan vurduğun yeri görəndə, başa düşdüm ki, orada nəsə qeyri-adi bir şey var. Əsirdən orada nə olduğunu soruşdum. Öyrəndik ki, əclaflar əsir götürdikləri qadın və uşaqları böyük bir turbanın içinə yığıb hər iki tərəfini daşla hörüblər. Bu gecə onları xilas etmək lazımdır, əgər hələ də sağdırlarsa... – o susdu, gözlərini döşəmədə bir nöqtəyə dikib, baxışlarını qarşısındakından gizlətdi – əməliyyat planı qərargah rəisindədir, götür tanış ol. Nəyi istəsən dəyişə və əlavə edə bilərsən. Vaxt azdır, gedin hazırlaşın.

– Oldu, cənab palkovnik.

Qərargah rəisindən əməliyyat planını götürüb gözucu baxdı, kitelinin altında gizlədib bayıra çıxdı. Arxadan qərargah rəisinin qışqıraraq dediyi sözləri eşitdi.

– Getməzdən əvvəl bizə məlumat verməyi unutma.

Artıq günəş quruba tərəf əyilirdi. Havanın günəşli olmasına baxmayaraq, qışın soyuğu hiss olunurdu. Əməliyyatın başlanması komandanlıq tərəfindən gecə saat üçə nəzərdə tutulmuşdu. Əli Komandirin ona dediyi sözləri xatırladı. “Əməliyyat planı qərargah rəisindədir, götür tanış ol. Nəyi istəsən dəyişə və əlavə edə bilərsən.”

Arxayınlıqla dərindən nəfəs aldı.

* * *

Günəşin batması ilə, onların şəhərdən çıxması eyni vaxtda oldu. Əli əməliyyatın başlanması vaxtını heç

kimə demədi, ümimiyyətlə uşaq çağlarından çox danışmağı və hay-küyü sevməzdi, bacardıqca tapşırılan işləri tək görməyə çalışardı. Gördüyü iş barəsində isə, böyük və ya kiçik olmasından asılı olmayaraq gurultulu danışmağı sevməzdi. Işin sonunda qəlbində böyük bir rahatlıq duyar, daxili rahatlığı üzündən və gözlərindən aydın oxunardı.

Bu gün də elə etdi. Yola çıxmadan öncə hamını otağa yığıb qapını bağladı, qrupda olanları bir daha diqqətlə süzdü. Kiçik xəritəni masanın üstündə açıb yolu və hər kəsin nə edəcəyini ayrı-ayrılıqda bir daha başa saldı, artıq hərəkət etməyi qadağan etdi.

– Bugünkü əməliyyat çox məsuliyyətli, həm də çətin əməliyyatdır, havanın qaranlıq olması və relyefin sıldırım qayalıqlardan ibarət olması işimizi daha da çətinləşdirir. Hava qaralan kimi yola çıxmalıyıq, hərəkət zamanı maksimum ehtiyatlı və diqqətli olmalıyıq, qaranlıq olmasına baxmayaraq açıq yerlərdə ayaq üstə gəzmək olmaz. Öndə Gülverdi və Yaşar sonra isə biz gedəcəyik, onları gözdən itirmək olmaz. Özümüzü və yoldaşlarımızı qorumalıyıq. Silahdan yalnız mənim əmrimdən sonra istifadə etmək olar. Unutmayın ki, əməliyyatın uğurla başa çatması bizim hər birimizdən asılıdır.

Əməliyyata hazırlaşmaq və ya istirahət etmək üçün kifayət qədər vaxt var idi. Hərə bir işlə məşğul idi, "General" əməliyyatda lazım ola biləcək bəzi əşyaları çantaya qoydu, otaqda dolabın arxasında olan barmaq qalınlığında kəndiri çıxarıb qolu ilə ölçərək iyirmi beş metr kəsdi və çantanın yanına səliqə ilə bağladı. Sonra döşəksiz çarpayıların birinin üstündə uzanıb gözlərini yumdu, oyaq idi, yoxsa yatmışdı bilinmirdi.

Hava qaralan kimi, qaldıqları məktəbdən tək-tək çıxıb "Zaprafka"dan aşağıda şəhərin çıxışında görüş-

dülər, sonra iki-iki qabaqcadan təyin etdikləri yollarla Daşaltı çayına tərəf getdilər. Yenə də həmişəki kimi Gülverdi irəlidə gedirdi. O, sanki belə işlər üçün doğulmuşdu.

Gülverdi yaşda onlardan böyük idi, həm də ağır xarakterli adam idi, möhkəm və arıq bədəni, hündür boyu ona xüsusi görkəm verirdi. Hələ Sovet dövründə hərbi xidməti bitirdikdən sonra kənddə olan hərbi hissənin komandirinə müraciət etmiş, hərbi komissarın göndərişi ilə Rusiyada iki illik "Proporşik"lər məktəbini bitirdikdən sonra təyinatla kəndlərində – Qobuda yerləşən hərbi hissədə qulluq etmişdi.

Hərbi texnika və silahlarla yaxşı davrandığı üçün rus zabitləri ona "General" ləqəbi vermişdilər. Üç il idi ki, xidmət müddəti başa çatmaq şərti ilə təqaüdə çıxmışdı.

Lakin ermənilərin Qərbi Azərbaycanda və Qarabağda başladıqları separatçı əməllərini görüb yenidən hərbi həyata qayıtdı. Hərbi mütəxəssis olmasına baxmayaraq, az danışmağı sevərdi. Həmişə işin ağır tərəfini özünə götürərdi.

Kəşfiyyat qrupu bir müddət sonra düzənliyin qərb tərəfindəki sıx kolluqdan ətrafı müşahidə edirdi. İlk baxışda hər şey qaydasında idi, ərazidə sakitlik hökm sürür, sükut adamın qulaqlarını batırırdı. Əli Gülverdiyə tərəf süründü, pıçıltı ilə dedi.

– Bu, tufandan əvvəlki sakitliyə bənzəyir. Kolların arası ilə aşağı düşüb düzənliyin o biri tərəfinə keçməliyik, bacardıqca ehtiyatlı olmalıyıq, it uşaqları bizə pusqu qura bilərlər, hər ehtimala görə hazır olmalıyıq. Bəlkə də gec gəlmək xeyrimizə olardı.

O, əməliyyatın vaxtını dəyişdiyinə və gəldikləri barədə qərargaha xəbər vermədiyinə görə peşman olmuşdu. İndi dəstə üzvülərinin hər birinə görə cavab-

dehlik tam olaraq onun üstünə düşürdü. Elə bil Gülverdi onun ürəyindən keçənləri oxudu.

– Onu fikirləşməkdən keçib, geri qayıda bilmərik, amma burada qalmaq da təhlükəlidir, bəlkə də onlar bizi görüblər. İt kimi iy bilirlər, alçaqlar.

Əli bütün əməliyyatlarda onunla məsləhətləşərdi və əksər hallarda onun fikri ilə razılaşardı, çünki çox zaman fikirləri üst-üstə düşərdi. İndi də onun nə təklif edəcəyini gözlədi. Sovet ordusunun "General"ı isə hələlik susurdu. Belə hallarda tələsik fikir söyləmək çətin olur. Əlbəttə, son qərar dəstənin komandirinin idi, lakin Əli də onun fikrini gözləyirdi. Çiskin yağış başladı. Əli dilxor halda yağışın qarasına deyindi.

– Elə bircə bu çatmırdı.

– Yaxşı, sən deyən olsun, gedək! – nəhayət ki, Gülverdi dilləndi.

Onlar kolluqların arası ilə Daşaltı çayına tərəf düşdülər, sıldırım qayalığın üstündəki yamacla düzənliyin ortasındakı dərin qobuya tərəf döndülər. Çiskin yağış qobunun qıraqlarındakı torpağı isladıb sürüşkən etmişdi, torpaq sabun kimi idi. Aşağıdan zəif inilti səsi gəlirdi.

Əvvəlcədən danışdıqları kimi Əli ilə birlikdə dörd nəfər yarğanın kənarında mövqe tutdular. Gülverdi Yaşarla birlikdə aşağı – qobunun içinə enməli idilər. O, kəndiri açıb bir ucunu aşağı atdı, o biri ucunu yaxınlıqdakı ağaca bağladı. Silahını kürəyinə keçirib kəndirlə aşağı düşdü. Aşağı çatandan sonra, kəndiri dalğalı formada silkələdi. Yaşar işarəni başa düşüb onun yanına sallandı. Yarğanın hündürlüyü səkkiz- on metr olardı. Bəlkə də bura yarğanın ən dərin yeri idi.

İnildəyən borunu tapmaq çətin olmadı, onun uzunluğu üç metrəyə yaxın, diametri isə yüz əlli santimetr olardı.

Hərəsi bir tərəfdən baş tərəflərdə olan hörgünü sökməyə başladılar, bu o qədər də asan olmasa da, tezliklə bu işin öhdəsindən gələ bildilər. Borudan üfunət iyi gəlirdi, içəridəkilər ikisi azyaşlı olmaqla doqquz nəfər idilər, onların hamısı qadın idi. Dördü çox yaşlı olduğu üçün bəlkə də elə həmin gün ölmüşdülər, qalan beş nəfər isə, havasızlıqdan, aclıq və susuzluqdan huşsuz vəziyyətdə idilər.

Yaşar üfunət iyinin təsirindən öyüməyə başladı, Gülverdi içəridəkiləri bir-bir çıxarıb torpağın üstünə düzdü. Huşsuz vəziyyətdə olanlar instinkt olaraq, can verirmiş kimi dərindən nəfəs alır və iniltiyə bənzər səslər çıxarırdılar.

Sonra onlar hər tərəfi yoxladılar. Dərin qobu sıldırım qayaya qədər uzanıb gedir, hündür və sıldırım qaya isə çayın sahilinə dirənirdi. Payız yağışları dərin qobunun içində olan torpağı kələ-kötür etdiyi üçün içərisində hərəkət etmək mümkün deyildi. Yalnız bir yol qalırdı ki, bu da onları kəndir vasitəsi ilə yuxarı çıxarmaq idi. Sakit səslə Yaşarı yanına çağırdı.

– Sən yuxarı çıx, uşaqları da köməyə çağır, bunları qaldıraq ora.

Yaşar üçün bu təklif göydən düşmə oldu, ən azı üfunətdən uzaq olacaqdı. Cəld kəndiri tapıb yuxarı dırmaşdı, Əli, Yaşarın yarğandan çıxdığını görüb ona yaxınlaşdı.

– Vəziyyət bizim düşündüyümüzdən də pisdir, doqquz nəfərdən dördü ölüb, beşi isə huşsuz vəziyyətdədir. Onları bura qaldırmaq lazımdır, yaxşı olar ki, əlavə iki nəfər də köməyə gəlsin.

Əli, pusquda dayananları yanına çağırdı, yalnız bir nəfərə ətrafa nəzarət etməyi tapşırdı. Çətinliklə olsa da yarğanın dibində olanları yuxarı çıxara bildilər. Vaxt itirmədən onları götürüb Şuşaya doğru irəlilədilər. Ya-

ğış hələ də yağır, islanmış cığırla getmək adamı əldən salırdı...

* * *

Şuşada tankçıların qaldıqları internat məktəb "Səbail Tank Taboru"nun bütün heyəti üçün dayanacaq yeri idi. Şuşaya gələn hər bir Səbail Tank Taborunun nümayəndəsi mütləq onlara baş çəkməli idi. burada taborun ən yaxşı nümayəndələrindən təşkil olunmuş ekipajları cəm olmuşdu.

Günortaüstü onların yanına Vaqiflə Səməd gəldi, onların gəlişi uşaqlar üçün bayrama çevrildi, sanki doğmalarını görmüşdülər. Hal-əhval tutub oturdular.

– Nə zaman gəlmisiz, harada qalırsınız? – Elxan soruşdu.

– İndicə gəldik, Elburus Orucovla Xəqani Sultanov yuxarıda Elçin Məmmədovun yanındadırlar, biz də gəldik sizin yanınıza.

– Buranı necə tapdınız?

– Ay qardaş, məgər sizi tapmaq elə çətindir!? O boyda tankı görməmək üçün gərək kor olasan, səsini eşitməmək üçün də kar. Yoxsa sən bizi kar, kor, kürkü yırtıq kirpi sayırsan?

Gülüş səsi otağı bürüdü. Elxan dönüb ona tərs-tərs baxdı və sakit tərzdə dedi.

– Amma zarafat bir yana, oxşayırsınız ha...

Yenidən gülüş səsi otağı bürüdü.

– Nə isə, uşaqlar birdən ac olarsınız, hazır yemək var...

Səməd əlini qarnının üstünə qoydu.

– Qardaşlar, inanın ki, aclıqdan ürəyim getmək üzrədir. Evdən çıxandan doyunca yemək yeməmişik, bir

həftə də belə getsə quru sümüklərimizi aparıb təhvil verəcəklər.

– Hara, sizin o əyri sümükləriniz kimə lazımdır?

Bu zaman Vaqifin gözü küncdə qoyulmuş kitab dolabına dikilib qaldı. O, çarpayıların üstündən keçib dolaba çatdı və bir-bir kitabları vərəqləməyə, bəyəndiklərini ayrıca yığmağa başladı. Geri dönüb uşaqlara baxdı və soruşdu:

– Kitablar kimindir, bir neçəsini götürsəm olar?

– Hamısını yığ apar, heç kim oxumur, yalandan yığıblar ora. Bilmirəm bunlar döyüşə gəliblər, yoxsa kitab oxumağa. – Bu dəfə Kazım cavab verdi. Sən demə kitab bunlar üçün ən dəyərli şey imiş. Kazım bilərəkdən belə deyirmiş.

Səməd qazanı qabağına çəkib yeyir, Vaqif kitab rəfində eşələnirdi, arabir ona baxır, "hamısını yemə, mənə də saxla" deyirdi. Bu zaman Mahmud qapını açıb içəri girdi, ötəri baxışla onları süzüb dedi.

– Bu aclar haradan gəlib çıxdılar? Elə bircə siz çatmırdınız. – Qazanı masanın üstündən götürüb, qapağını örtdü. Səməd ona tərəf getdi.

– Mahmud insafın olsun, qardaş deyilik? – Mahmud gülümsünüb çəpəki ona baxdı.

– Nə qardaş alə. Sizə verdiyim yeməyi, iki it gətirib bağlayaram ora, verərəm onlara, bütün gecəni keşiyimizi çəkər, bu yazıqların da keşik çəkməkdən canı qurtarar, yatıb dincələrlər.

– Bəs qardaşlıq?

O qazanı yerinə qaytardı, Vaqifi göstərib soruşdu.

– Yaxşı, səni başa düşdüm acmısan, bəs o?... O nə axtarır? Əyə Körpə, başa düşdüm o bilmir, siz niyə demirsiniz ki, əl vurma, onlar Leninin kitablarıdır... – Lenin deyəndə Mahmud Arifi nəzərdə tuturdu.

– Mən kiməm ki, ona Kazım icazə verib. – dedi və hiyləgərliklə güldü.

– Ağa, bunlar uğaqdır bilmirlər, sən ki, ağsaqqalsan, niyə başa salmırsan, niyə qulaqlarından tutub atmırsan bayıra.

– Ələ, yazıqlar nə edirlər ki, yemək yeyirlər də. Gərək burunlarından tökəsən. Sən nə zay adamsan!... O yazıq da gələndən o kitabların içindədir. Hələ indi nə var ki, bir azdan Lenin gələndə qırğını görəcəksiniz.

– Bəs İsmayıl, Arif haradadırlar, onları görmədik?

– Kimləri görmürsənsə, hamısı mövqelərdədirlər. Hə ə, onlara yemək aparan olub, yoxsa bu avaralar başınızı qatıb, onları unutmusunuz?

– Bunlar gəlməmiş Sadıx aparıb.

Mahmud Vaqifə tərəf döndü.

– Ey, "ruski yazıçnı qaşqaldağ," nə qədər ki, rəhmliyəm gəl, bir tikə də sən ye. Bir azdan verməyəcəyəm.

Vaqif ayırdığı kitabları çarpayının üstünə qoydu, kecib yeməyə başladı.

– İndi deyin görək harada yerləşmisiniz?

– Laçındayıq, orada internat məktəbində qalırıq, amma deyirlər ki, yaxın günlərdə bizi də bura gətirəcəklər.

– Bu neçə vaxtı yeyib yatırsınız Laçında?

– Yox qardaş, heç yeyib yatana oxşayırıq? Səhərdən axşama qədər təlimdəyik, yeməyə vaxt tapmırıq. Gələndən bir-iki dəfə tanışlıq üçün mövqelərə çıxmışıq, bir də bir həftə bundan əvvəl Zəngilanın Qazançı kəndinə ermənilər hücum etmişdilər, bizdən iyirmi nəfəri ora atdılar, iki gün əvvəl qayıtmışıq.

– Əməlli-başlı "Speçnaz" olmusunuz ki.., – deyə Mirələm dedi.

– Bəs necə!? Harada olsaq da adımızı batırmarıq, narahat olmayın. Biz "Səbail tank taboru"nun yetir-

mələriyik. – Səməd bunu deyəndə ayağa durdu, farağat vəziyyəti alıb, sinəsini qabartdı.

– Ux x x, kəlçalar...

Mirələmin sözünə hamı gülüşdü.

– Deyirdim ki, bəlkə döyüş görüb ağıllanarsınız, təəssüf ki, olanını da itirmisiniz.

Vaqiflə Səməd ayağa qalxdılar, yoldaşları ilə görüşüb ayrıldılar. Yəqin indilərdə polkovnik Orucovla kapitan Sultanov gələrdilər.

Bir azdan "UAZ" markalı maşın Laçına doğru irəliləyirdi. Artıq günəş qüruba tərəf əyilmişdi.

* * *

Onlar Laçına çatanda uşaqlar yenicə təlimdən qayıdırdılar, onları görən kimi yaxınlaşdılar.

– Harada idiniz, lap narahat olduq sizin üçün. Bir yerə gedəndə xəbər eləməzlər? Heç kimin sizdən xəbəri yoxdur. Elə bildik ki, dağda qalmısınız – deyə Nazim hamının adından danışdı.

– Şuşaya getmişdik, bizim tankçıların yanına, hamı sizə salam dedi.

– Niyə getmişdiniz?

– Biz nə bilək, qardaş.

– Getməmişdik, aparmışdılar – Vaqif Səmədə göz vurub sirr açırmış kimi astadan dedi: – Bu yaxınlarda hamımızı birdəfəlik aparacaqlar.

– Hara, o dünyaya?...

– Yox, tapmadın. O dünya üçün tələsmə, ora hələ çox var. Şuşaya qaqaş, Şuşaya. Oradan da Xankəndiyə.

– Onu haradan eşitdin? Yoxsa falçılığa keçmisən?

– Falçılıq niyə, qardaşım. Artıq rəislərlə oturub dururuq, bütün məlumatlar bizdədir, özü də ki, əlasın-

dan – Vaqif baş barmağını yuxarı qaldırmaqla əla işarəsi göstərdi. – Necə deyərlər, heç xoruz səsi eşitməyib.

– Pah, deməzsən ki, aldatdım!? – deyə Nazim rişxəndlə dedi.

Hamı onların söhbətinə güldü. Vaqif danışanda çox məzəli alınırdı. O rus dilli olduğu üçün sözləri iki dildə bir-birinə sintez edir və danışdığı adi söhbətlər belə, gülməli alınırdı.

İndi isə danışdıqlarının hamısını uydururdu, belə bir məlumatlar yox idi, hətta olsaydı belə, onun haradansa eşitməyi absurd idi. O, sadəcə öz arzularını deyirdi.

– Bəsdir də Vaqulya, yalandan yaxma da... – deyə Nazim gülə-gülə əlavə etdi.

Bir həftədən sonra "Abşeron briqadası" həqiqətən də Şuşaya köçürüldü. Indi Vaqifin sözünün qabağına söz deyən yox idi. O isə başını dik tutub gəzirdi. Uydurduğu yalan həqiqət olmuşdu. Səmədə yaxınlaşıb gülə-gülə dedi.

– Tezliklə Xankəndinə girsək, bunlar həqiqətən mənə inanacaqlar.

Hər ikisi qəh-qəhə çəkib güldülər.

* * *

Hava soyuq və qaranlıq idi. Əyinlərindəki paltarlarından buz sallanırdı, havanın şaxtası adamın qan damarlarına işləyirdi, səhərin açılmasına az qalmasına baxmayaraq elə bil bir daha nə günəş doğacaq, nə də bir daha səhər açılacaqdı. Ətrafda yalnız qaranlıq var idi, zülmət hər tərəfə hakim idi.

Onlar gecə yarısı bura gəlmişdilər. Həmin gün Səməd Gülverdi ilə birlikdə idi, yenicə Daşaltı çayını ke-

çib səhərin açılmasını gözləyirdilər. Səhər isə bəlkə də açılmayacaqdı, sanki bu sonsuz bir gecə idi.

Onların dayandığı yeri düşmənə nişan vermişdilər. O zaman yeni yaranmaqda olan, hələ formalaşa bilməyən üz-üzə dayanan azərbaycan və erməni ordularında gecəgörmə cihazları yox idi. Bu cihazlar yalnız ruslarda idi və onlar istənilən vaxt bunlardan istifadə edirdilər.

– Adamın damarda qanı donur. Belə də soyuq olar? – Səməd deyindi.

– Yol gəlib tərləmişik, ona görədir. İmkan tapıb bir az hərəkət etsək, isinərik. Bir də torpağın nəmi canımıza oturub...

– Qardaş, elə üşümüşəm ki, bir il ocağın yanında otursam, canım qızmaz.

Elə bu zaman onları atəşə tutdular, atılan güllələrin bir neçəsi onun söykəndiyi daşa dayib daha qorxunc səs çıxardı.

– Ay sizin... Bu qaranlıqda bizi necə gördülər?

– Gecəgörmə cihazı ilə. Səməd sən burada ol, mən yerimi dəyişim. Bir yerdə olmaq təhlükəlidir. Bir də boş yerə güllə atma, bəlkə də bu təsadüfi güllələrdir qarasına atırlar, güllə atıb yerini bildirmə.

Gülverdi bunu deyib cəld hərəkətlə yerini dəyişdi, sağ tərəfdə olan qayanın arxasına tərəf qaçdı. Qarşıdan onun getdiyi istiqaməti atəşə tutdular. Artıq məlum idi ki, düşmən onların bütün hərəkətlərini izləyirdi. Həmin gecə ruslar gecəgörmə cihazları və illərlə yetişdirdikləri casuslar vasitəsi ilə onlara asanlıqla nəzarət edirdilər. Məhz elə rusların köməyi ilə həmin gün Daşaltı həqiqi cəhənnəmə döndü. O gün Səməd ağır yaralandı, təsadüfən Elşadın gəlişi onu cəhənnəmdən xilas etdi. Üç ay sonra yenidən Elşadı görəndə təəccübləndi.

– Siz gedin, mən bunların qarşısını alaram.

İlahi bu yenə də odur, bir neçə ay bundan əvvəl eynilə belə bir hadisə olmuşdu, Daşaltı kəndini erməni ekstermistlərindən təmizləmək üçün ora getmişdilər və onlar üçün düşmən tərəfindən hazırlanmış tələyə düşdülər. Əslində rusların yeni yaranmış Azərbaycan ordusu və yenicə müstəqilliyə addım atan Azərbaycan dövləti üçün peşəkarlıqla hazırladığı tələ idi bu. Səməd yaxşı başa düşürdü ki, Qarabağ müharibəsi ermənilərin özlərinə güvənərək etdikləri müharibə deyil, bu rusların bütün Qafqazı əllərində saxlamaq üçün başladıqları müharibədir və ruslar bu oyunda heç nəyi güzəştə getməzdilər.

"Onları yalnız məcbur etmək olar, bunun üçün isə güclü Dövlət və güclü Ordu gərəkdir" deyə düşündü Səməd.

Həmin gün Səmədin yaddaşına daş üzərində yazı kimi həkk olmuşdu. O günləri unuda bilməzdi heç bir zaman. Həmin gün Elşad onunla birlikdə bir neçə nəfəri həmçinin kapitan İlyas İsmayılovu da xilas etmişdi.

Bu düşüncələrin təsiri ilə bir də gözlərini açanda özünü yarı huşsuz halda ağ xalatlı həkimlərin əhatəsində gördü. Kimin və nəyin harada olduğunu dəqiqləşdirmək üçün xeyli düşündü, yaddaşında yalnız qara bir nöqtədən başqa heç nə qalmamışdı. Nə qədər fikirləşsə də yenə baxışları həmin nöqtəyə ilişib qalır, ondan qopub aralana bilmirdi. Qara nöqtə isə getdikcə böyüyür, böyük bir qara dəliyə çevrilir, sonda onu udurdu.

Səməd qara dəlikdəki üfunətli havadan boğulur, haray salıb qışqırmaq istəyir, lakin səsi çıxmırdı. Bu bir kabus idi, zaman keçdikcə Səməd və onun cəbhə dostları onun qurbanına çevrilirdilər.

Üçüncü gün idi ki, həyatla ölüm arasında çarpışır,

hələ də elə bilirdi ki, Daşaltı çayının sahilindədir. Elşad onu tapanda aldığı ağır yaradan huşunu itirmişdi, sanki can verirmiş kimi zarıyırdı. Üç gün idi hələ də elə bilirdi ki, Daşaltının sahilində qarın istünə uzanıb, soyuqdan tir-tir əsir, bir-birinə dəyən dişlərinin taqqıltısı beynində əks səda verirdi.

Yaddaşında bir tanış üz qalmışdı, ancaq nə qədər fikirləşirdisə də bu tanış simanın kimə məxsus olduğunu ayırd edə bilmirdi. Bəlkə də onun xilasedici mələyi idi, həmin anda özünü yetirib onu qolları üstə alaraq güllələrin altından çıxarmış, Daşaltının təmiz, pak suyu ilə yuyaraq, ən gözəl qoxulu ətirlərlə ətirləyib ona yeni bir həyat bəxş etmişdi.

Bütün bunlara baxmayaraq daxilində gizli bir təlaş var idi, bunun nə olduğu heç onun özünə də məlum deyidi. O, danışa bilməsə də gözləri görür, beyni düşünürdü. İçəri girən hər kəsi analiz edir, ona lazım olmadığını duyunca gözlərini yumub yeni bir kəsin gələcəyini gözləyirdi. Bəlkə də Səməd doğulduğu, bu günə qədər yaşadığı dünyanı dəyişib yeni bir dünyanın sakini olmuşdu. Cəhənnəmi xatırladan Daşaltı çayının sahilindən onu qurtarıb bura — yeni bir dünyaya — Cənnətə gətirmişdi həmin Mələk. Yaddaşını itirən Səməd üç gün idi ki, belə bir çaşqın dünyanın sakini idi.

Üç gündən sonra Elşadı görəndə itmiş yaddaşı yerinə qayıtdı, xilasedici mələk kimi tanıdığı dostunun onu güllələrin altından necə çıxardığı yadına düşdü. Öz həyatını ölümlə üz-üzə qoyaraq onu necə xilas etməsi bir daha gözləri önündə canlandı.

İndi yenidən gəlmişdi O. Yenidən öz həyatını təhlükə altında qoyaraq xilasedici missiyasını yerinə yetirmək üçün gəlmişdi O. Elşad... indi Səmədə şirin bir yuxunu xatırladan o anlar artıq keçmişdə, çox arxada

qalmışdı. İndi nə Elşad var idi, nə də Şuşa. Onların yerini bir az acı, bir az da şirin xatirələr tutmuşdu.

– Gedin, mənə görə də narahat olmayın. Nə qədər ki, bu mənim əlimdədir onlar bu xətti keçə bilməzlər — barmağı ilə silahını göstərib torpağın üstündə dərin xətt çəkdi.

Üç ay əvvəl olduğu kimi qətiyyət vardı səsində. Lakin o zaman Səməd huşsuz və köməksiz idi, indi isə ətrafında əlavə səkkiz əsgər də var idi.

– Elşad, indi sən getməlisən, onların qarşısını mən almalıyam, bu mənim sənin qarşında olan borcumdur.

– Səməd inadkarlıq etmə, uşaqlarını da götür çıx get. Mənə mane olma. Sənin mənə heç bir borcun yoxdur – deyə Elşad səsini qaldırdı.

Səməd bu qarayanız, bəstəboy, idmançı cüssəli, həm zarafatcıl, həm də çox ciddi olan Bakılı balasını çoxdan tanıyırdı. Elşad əmisi oğlu Sərdarla birlikdə idi. İlk dəfə Şuşanın Quşçular kəndində qarşılaşmışdılar.

O zaman Səməd Səbail Tank Taborunun tərkibində olan qrupda, Elşad isə Şıxovda formalaşan Birinci Taborun tərkibində idi. Birinci Tabordan iki qrup var idi burada. Birinə – Malıbəylidə olan qrupa baş leytenant Oktay Qocayev, digərinə isə – Quşçular kəndində olan dəstəyə baş leytenant Qulamhüseyn Hüseynov rəhbərlik edirdi. Səmədgilin komandiri isə kapitan Xəqani Sultanov idi. Kənd camaatından Rövşən, Fərhad, Əlövsət, Azay və qardaşı Adil çox zaman bir yerdə olardılar. Hamının fikri bu kəndləri işğaldan qorumaq idi.

Malbəyli və Quşçular kəndləri ermənilərin mühasirəsində olduğu üçün kənardan bu kəndlərin müdafiəsinə gələn bütün dəstələr daim bir-biri ilə əlaqə saxlayırdılar. Ən azı komandirlər arasında hər həftə bir neçə görüş keçirilirdi ki, bu da dəstələr arasında həmişə gediş-gəlişin olmasına səbəb olurdu.

Üç gün əvvəl Səməd öz qrupu ilə birlikdə kəşfiyyata getmiş, çox qiymətli məlumatlar toplayaraq geri qayıdırdılar. Şuşaya çatmağa az qalırdı ki, düşmənin qurduğu pusquya düşdülər. Atışma başladı. Düşmən say və mövqe cəhətdən üstün idi. Elə bu an Elşad sanki yerdən çıxdı, sərrast atəşlə düşməni geri oturtdu.

Səmədin kəşfiyyat qrupu son üç gündə çox yorulmuşdu, soyuq, aclıq və yuxusuzluq onları əldən salmışdı. Ona görə də Elşada çox təkid edə bilmədi. Üstlərində olan bir neçə əl qumbarasını onun yanında qoyub yaxınlıqdakı dərədə gözdən itdilər.

Kəşfiyyatçılar qarşıdakı dağın yalını aşanda Səməd dayanıb qulaq verdi, hələ də Elşadın pulemyotunun səsi eşidilirdi. Qolundakı saata baxdı, qırx beş dəqiqə idi ki, Elşad təkbaşına döyüşürdü.

# IV FƏSİL

Bir həftəyə yaxın idi ki, Şuşada Tar sexinin yanındakı mövqedə dayanırdılar. Hava çox gözəl idi. Başqa yerlərə nisbətdə Şuşada ilin fəsilləri tam başqa cür olur. Qışda güclü qar hər tərəfi ağ örpəyə bürüyür, yollar, cığırlar bağlanır. Lakin soyuğu hiss etmirsən, üşümürsən, xəstələnmirsən. Udduğun hava, içdiyin su, göz oxşayan mənzərələr elə bil məlhəmdir, xəstəni müalicə edir. Qış fəsli olsa belə, təbiətin özündə, yağan qarda, donan suda tükənməyən hərarət olduğunu hiss edirsən. Qışın oğlan çağında qarın altında çiçəklər açır. Baharın gəlişi ilə qar əriyir, bu zaman hər tərəf cürbəcür çiçəklərlə örtülmüş olur. Təbiət bu sehri ilə ona baxanları məftun edir.

Bu bahar da belə idi, bəlkə də bəziləri üçün bu adi hal, bizim üçün isə tamamilə qeyri-adi görüntü, məftunedici mənzərə idi. Bunu duymaq üçün çox deyil, bir azca duyğusal olmaq kifayət edər. Bəlkə də bu, hamı üçün, bəlkə də yalnız onlar üçün belə idi.

Vaqif gələndən heyran olmuşdu Şuşaya. Bu gözəlliyi doyunca duymaq, bütün orqanlarına, xüsusən də ruhuna hopdurmaq istəyirdi. Arxası üstə torpağa uzanıb mavi səmaya baxırdı. Səməd də onun yanında uzandı.

– Vaqulya, nə olub, elə bil tərkidünya olmusan!?

– Bayaqdan mən də fikir verirəm, darıxırsansa, komandirə deyək, bir neçə günlük evə baş çək.., gələrsən – deyə Nazim söhbətə qarışdı.

Vaqif sanki heç nə eşitmirdi. Gördüyü mənzərələrin ecazkar sehrinə düşmüşdü, hər şeyə ruhunun gözü ilə baxırdı.

– Hiss edirsiz, burada adam necə rahat olur, elə bil daxilən təmizlənir, dincəlir. Sizi bilmirəm mən beləyəm, zarafat eləmirəm. Burada hər şey tam fərqlidir. Yer, göy, hava. Gördüyümüz nə varsa, bunların bənzərini başqa yerlərdə görmək mümkün deyil.

– Hə, düz deyirsən , elədir.

Hər üçü susdular, hər şeyə onun gözü ilə baxmağa çalışdılar. Lakin heç biri onun kimi təbiətin sehrini duya bilmədi. Vaqif dönüb onların üzünə baxdı. Nazim onu qabaqladı.

– Vaqulya, sən qəriblik hisslərinin təsirindəsən, üzündən görünür ki, darıxırsan.

– Bəsdir də Nazim, elə tutmusan darıxmaqdan, mən başqa söz deyirəm, səndə duyğu hissi yoxdur, elə bunda da... Hamınız təbiətin bizə görünən tərəfinə baxırsınız, onun daxilində gizlətdiklərini görmək lazımdır, bir az diqqətli, ayıq olmaq lazımdır.

Nazim özündən çıxdı, səsini qaldırdı:

– Rəhmətdiyin oğlu, elə danışırsan ki, elə bil Bakıdan milyon kilometr aralıda dünyanın o başındasan! Bura hava xətti ilə üç yüz kilometr aralı olar ya olmaz. Bayaqdan fəlsəfə danışırsan, bu da qulaqlarını sallayıb, nə deyirsən təsdiqləyir. Bəsdir də qaqaş. Bilmirik ki, axşam necə düşəcək, səhər necə açılacaq, sən də bizə zövqdən, duyğusal hisslərdən danışırsan. Şəxsən mən belə şeylər haqqında düşünmürəm, heç ona vaxtım da yoxdur. Fikirləşirəm ki, görəsən sabah necə olacaq, güllə haramdan dəyəcək. Sağ-salamat evimə gedə biləcəyəm, ya yox? E-e-h! Zalım oğlu zalım...

Vaqif onun əsəbləşdiyini görüb daha heç nə demədi, dediklərinə gülümsəməklə cavab verdi. Araya yenə sükut çökdü, hərə öz aləmində idi. Səməd siqaret çıxarıb onlara tərəf uzatdı, burada siqaretin ləzzəti də başqa idi. Sükutu yenə də Vaqif pozdu.

– Hə, səninlə razıyam, dediklərində həqiqət var. O zaman daha vacib məsələlər haqqında düşünək. Əlbəttə, biz güllə qabağındayıq, hər an başımıza gözləmədiyimiz hadisə gələ bilər, ona hər an hazır olmalıyıq.

– İşə düşdük də. Qaqaş nə istəyirsən bizdən? İmkan ver yaşayaq da. Bayaqkı fəlsəfəni yeridə bilmədin, yeni səhifə açırsan bizimçün.

– Nazim, dilotu yemisən? A bala, sakit ol görək kişi nə deyir də.

– E-e-eh, sən də elə onun tayısan. – Əllərini sağa, sola yelləyib onların üzünə baxmadan dedi — Yaxşı de...

– Siyavuş demiş: "Sizi bura yığmaqda məqsədim budur ki, sizdən adam olmayıb, olmayacaq da." A bala, imkan ver, sözümü deyim də, səbət, gilas məsələsi deyil e bu. Nazim sənin dinləmək mədəniyyətin sıfra bərabərdir.

Biz hər ikimiz onun dediklərinə güldük, rus dilli olduğu üçün Azərbaycan dilində danışanda gülməli çıxırdı. O, özü də bunu bilirdi, hər dəfə çətinlik çəkəndə rus dilinə keçirdi. Onun ləhcəsində iki dilin sintezi gözəl və gülməli alınırdı. Bizim gülməyimizə fikir vermədən dedi.

– Deyirəm "şər deməsən, xeyir gəlməz," tutduğumuz yol çətin yoldur, ağlımıza gələn və gəlməyən sürprizlərlə doludur, kimi harda nə gözləyir məlum deyil. Sizi yormaq istəmirəm, dediyim odur ki, bir-birimizi həmişə qoruyaq. Mən elə özümü deyirəm, ölsəm meyidimi düşmən əlində qoymayın, gözləyənlərimiz var, çatdırın onlara...

O elə danışırdı ki, sanki son vəsiyyətini edirdi. Dayandı, araya ağır sükut çökdü. Aramızda yenə Nazim diribaş çıxdı, söhbəti fırladıb zarafata çevirdi.

– Siz ölməyinizdə olun, narahat olmayın meyidini-

zi özüm aparıb Bakıya çatdıracam, özüm yuyub, Şəhidlər xiyabanında viaypi yerdə basdıracam.

– Sənə inanıram, boş yerə sənə “Hacı Əbdül” demirik ki.., bir də haqqımda heç bir pis məlumat verməyin, çatışmayan xüsusiyyətlərimdən danışmayın, qoy onların yaddaşında necə var idimsə elə də qalım.

– Alə Səməd, deyəsən Qaqaşın başı xarab olub, ölməyə hazırlaşır. İndidən deyirəm, mənə çox da güvənməyin, özünüzü qoruyun, mən sizin heç birinizə heç bir söz verməmişəm.

– Nə isə bu söhbəti bağlayaq, onsuz da Əzrayıl gələndə heç birimizdən soruşmayacaq. Güllə qabağında oldun ya da sandıqda, onun üçün elə də fərqi yoxdur, axtarıb tapacaq. Necə öləcəyimiz də məlum deyil, gəlin hadisələri qabaqlamayaq, bu daha yaxşı olar.

– Bax, xoşuma gəlirsən, inanın bu hisslər hamısı bekarçılığın əlamətidir. – Səmədə tərəf döndü – maraqlı bir şey danış keçmişdən qulaq asaq.

– “Qədimdə ömrünü müharibələrdə keçirmiş, həmişə də qalib gəlmiş, indi isə qocalıb ömrünün qürub çağına çatmış ixtiyar bir şah olur. Bir gün sarayda olan münəccimləri yanına çağırıb deyir. “Sizə üç gün vaxt verirəm, izləyin görün ulduzlar mənim taleyimlə bağlı nə göstərir.” Münəccimlər işə başlayır. Şahın on gün ərzində öləcəyini öyrənirlər, amma bu xəbəri şaha necə deyəcəklərini bilmirlər. Üç günün tamamında şah sarayda onları qəbul edir. Münəccimbaşı irəli çıxır və hönkür-hönkür ağlayaraq yaxın on gün müddətində şahın öləcəyini bildirir. Qəzəblənmiş şah cəlladı çağırıb onun boynunu vurdurur, yerinə isə ölən münəccimbaşının tələbəsini təyin edib yenidən həmin tapşırığı verir. Üç gün sonra şah taxtında oturub yenidən münəccimləri

qəbul edir. Bu dəfə cəlladı da hazır vəziyyətdə yanında saxlayır. Gənc münəccimbaşı irəli gəlib şahın hüzurunda baş əyir və təmkinlə deyir. "Şah sağ olsun, ulduzların nə dediyini sizə təklikdə deyə bilərəm. Dediklərim bizimlə ulduzlar arasında sirr olaraq qalmalıdır." Şah hamını saraydan çıxarır, gənc münəccimbaşı bir daha baş əyib deyir. "Şah sağ olsun, biz ulduzları dəfələrlə müşahidə etdik. Onlar sizin məndən üç gün sonra öləcəyinizi xəbər verir." Şah əsasına dirənib ayağa durur, iti baxışlarla gənc münəccimbaşını dönə-dönə süzür. Əsasını onun çiyninə qoyub, daim gözləri önündə olsun deyə özünə baş vəzir təyin edir. Şah münəccimlərin dediyi kimi on gündən sonra ölür, ulduzlarla olan sirri isə özü ilə aparır. Təzə təyin olunmuş baş vəzir isə öz işinə davam edir. – Səməd başını qaldırıb yoldaşlarına baxdı. – Baxın, hər iki münəccim eyni sözü dedilər, əslində onlar hər ikisi şahın ölüm xəbərini çatdırdılar, lakin onlardan birinin boynu vuruldu, o biri isə baş vəzir təyin olundu. Nazim, qardaş, Vaqif də bayaqdan həmin fikri demək istəyirdi, amma rusdilli olduğu üçün sən onu başa düşmədin.

– Mən sənin kimi başa sala bilsəydim, o zaman adım Səməd olardı da... Ancaq yaxşı ibrətli söhbət elədin, lap ləzzət elədi...

Üç gündən sonra, min doqquz yüz doxsan ikinci ilin may ayının yeddisində erməni-rus qoşun birləşmələri Şuşanın Kosalar kəndinə hücum etdi. Gərgin döyüşlərdən sonra azlıqda olan müdafiəçilər geri çəkilməyə məcbur oldular. Kosalar Şuşanın açarı idi, onun işğalı Şuşa üçün çox böyük çətinliklər yaradacaqdı. Səhərə yaxın təcili olaraq "Abşeron briqadasını" Kosaların müdafiəsinə apardılar. Həmin gün Qarabağ tarixində gö-

rünməyən bir döyüş oldu, onlar şir kimi döyüşürdülər, düşmən sıxışdırılıb əvvəlki mövqelərinə qaytarıldı.

Yenə də üçü bir yerdə idi, düşmən götürdüyü mövqeləri geri vermək istəmirdi. Vaqif ortada olmaqla bir-birindən bir neçə metr aralıda daşların arxasına sığınıb gülllədən qorunurdular. Güllə dolu kimi yağırdı. Daşlara dəyən güllələr istiqamətini dəyişib torpağa sancılır, qəribə bir görüntü və səs effekti yaradırdı. Vaqif köhnə, kənarları yeyilmiş, qara dəridən olan cüzdanını çıxarıb ona tərəf uzatdı.

– Bu nədir?

– Heç, sənədlərimdir, bir də içində bir neçə şəkil-məkil var, saxla özündə, döyüşdən sonra verərsən, qorxuram ki, itirəm.

Səməd işi başa düşüb etiraz etdi.

– Elə bilirsən ki, mən itirmərəm, bəlkə Nazimə verəsən?

Vaqif sənədlərini çətinliklə Nazimə verdi. Həmin gün çox ağır döyüş oldu, mayın səkkizində əlbəyaxa döyüşdə Vaqif şəhid oldu. Onu atəş altından çox çətinliklə çıxara bildilər. Nazim verdiyi sözün üstündə durdu, Vaqifi Bakıya apardı.

Bir neçə saat sonra, Şuşa süqut etdi, Xəqani Sultanovla Səməd "Abşeron Briqadası"nın tərkibində mühasirədə olan Kosalarda qaldılar.

Baharın gəlməsinə baxmayaraq, qış geri çəkilmək istəmirdi. Günəş bütün gücü ilə yeri isitməyə çalışsa da, hələ çox yerdə qar qalırdı. Gündüz bu sərtlik hiss olunmasa da gecələr soyuq adamın iliklərinə işləyirdi. Gecələr təbiət daha sərt olur bu yerlərdə. Aclıq və yuxusuzluq isə, sanki təbiətin sərtliyi ilə birləşərək onların düşdükləri vəziyyəti daha da dözülməz edirdi.

Vaqifin yoxluğu ilə daxilində sanki bir boşluq yaranmışdı, onun yoxluğunu heç cür qəbul edə bilmirdi Səməd, inana bilmirdi onun ölümünə. Əksi gözlərinin önündə, səsi qulaqlarında idi.

* * *

Yeddi nəfərlə Kosalar-Şuşa yolunda dayanmışdı. Əllərində olan silah-sursata qənaət etmək tapşırılmışdı onlara. İstirahət etmək üçün vaxtı bölüşdürdülər. Səməd özünü istirahət edənlərin sırasına daxil etmədi. Son bir ayda tanış olduqları Yaşar Əlicanov ona yaxınlaşdı.

– Komandir, bəlkə siz də bir az dincələsiniz!?

– Yaşar, sabah çətin gün olacaq, əlbəttə, hamımız dincəlməliyik. Gecənin yarısını sən dincəl, sonra öz uşaqlarınla birlikdə gələrsən, o biri uşaqlar bir az dincələr. Mənə görə narahat olma, gecə ərzində bir az mürgüləsəm, bəsimdir. Belə şeylərə öyrəncəliyəm.

Yaşar Bakının Qobu kəndindən idi, şair ruhlu bir oğlan idi. Yaxşı qəzəllər, meyxanalar deyirdi. Səməd onunla tanış olanda elə başa düşdü ki, hansısa şairin qəzəllərini deyir. Sonradan öyrəndi ki, Yaşar özü gözəl qəzəl və şeirlərin müəllifidir. Vətənini canından çox sevirdi Yaşar. Səməd "Abşeron briqadası"na gələndə ilk tanış olduğu adam idi O.

Yaşar getdi. Səməd onun arxasınca baxaraq: "İlahi, insan da belə sadə, təmiz, pak, əxlaqlı ola bilərmiş. Deməli, hələ dünyanın sonuna çox qalıb." deyə düşündü.

## V FƏSİL

“Min doqquz yüz qırx birinci ilin dekabrı idi. Alman ordusu böyük sürətlə irəliləyirdi. Artıq SSRİ-nin böyük bir hissəsi, xüsusən də strateji əhəmiyyətli Avropa hissəsi işğal altında idi. SSRİ-nin bütün iqtisadiyyatı darmadağın edilmişdi, zavodlar, fabriklər, iri müəssisələr, ya dağılmış, ya da sökülərək, Orta Asiyaya və ya Uzaq Şərqə köçürülmüşdü. Alman ordusu, onların əsgərləri hərtərəfli bizdən üstün idi. Yalnız Vətənə və partiyaya sədaqətimiz, bizim üçün çox böyük dəyər idi. Yoldaş Stalinin dediyi hər bir söz, müqəddəs qanun idi və bizim hər birimizin canı bahasına olsa belə, yerinə yetirilməli idi. Hər birimiz tapşırılan əməliyyatları və tapşırıqları sözsüz yerinə yetirirdik. Bütün göstəricilərdə almanlardan geri qalsaq da, təkcə bununla onlardan üstün idik.

Bu günlərin birində faşist əsgərləri ilə üzbəüz döyüşə girdik, bu zaman çox ağır anlar yaşadıq, belə ki, bizdən iki nəfər düşmənin arxasına keçmək istəyərkən faşistlər duyuq düşdü və onları diri tutmaq üçün tələyə salmaq istədilər. Onlara kömək üçün gedən istəyərkən, komandirimiz kapitan İvan Qriqoriyeviç Yeromin ağır yaralandı. Biz geriyə meşəyə çəkilməyə məcbur olduq. Almanlar bizdən əl şəkmək istəmirdilər. Yaralı komandirimizi də götürərək meşənin dərinliyinə irəlilədik. Sıx meşədə yerimək çox çətin idi. Amma başqa çarəmiz də yox idi. İki yoldaşımız yaralı halda əsir düşmüşdü. Meşənin içi ilə şimal istiqamətinə üç gün yol getdik.

Qarşıda yaşayış məntəqəsinin olduğunu bilirdik, lakin ora da faşistərin əlində idi, düşünürdük ki, yəqin

bu kəndi də xaraba qoyub, mülki əhalini isə əsir aparıblar.

Meşə kəndin kənarına qədər uzanırdı. Kəndə yaxınlaşarkən heç də belə olmadığının şahidi olduq. Kənd yerində idi. Əvvəlcə elə bildik ki, faşistlər kəndi özləri üçün qərargah kimi saxlayıblar, onunçün də meşədən kəndə gedən yolun kənarında pusqu qurub izləməyə başladıq. İki saata yaxın vaxt keçdi. Artıq hava qaralırdı,bu zaman yaşlı bir kişinin meşədən kəndə gedən yolla bizə tərəf gəldiyini gördük, qoca yəqin ki, evinə gedirdi. Bizim yanımızdan keçərkən, cəld onu tutub kolluğa apardıq. Qəfil hücumumuzdan qorxuya düşən qoca, ayaq üstündə güclə dayanırdı. Nəhayət ki, onu sakitləşdirdik və sorğu suala tutduq."

Məhyəddin kişi, söhbətinə ara verdi, qarşısında artıq soyumuş çaydan bir qurtum içdi. Bizim üzümüzə diqqətlə baxıb yenidən söhbətinə davam elədi.

"Hə belə. Sən demə, faşistlər kəndi işğal edəndən sonra on iki əsgərlə bir zabit, bir neçə gün bu kənddə qalıb, seçki yolu ilə kənd camaatından bir nəfəri başçı təyin edərək çıxıb getmişlər. Onlar kənddə qaldıqları müddətdə əhali ilə yaxından ünsiyyətdə olmuş, onlara toxunmayacaqlarını, sadəcə əhalinin bundan sonra, onların qanunları ilə idarə olunacaqlarını və əvvəlkindən də yaxşı yaşayacaqlarını başa salmışdılar. İndi ayda bir və ya iki dəfə yolüstü kəndə və ətraf kəndlərə baş çəkir, əhalinin necə yaşaması ilə maraqlanırdılar. Onların təyin etdikləri başçılar isə əhalinin mənafeyinə zidd olan heç bir tədbirin həyata keçirilməsinə icazə vermirdilər.

Əhali yenə də əvvəllər olduğu kimi öz həyatlarına davam edirdi. Fərq təkcə bunda idi ki, əvvəllər kommunist partiyasının, indi isə nasist partiyasının hakimiyyətinin nəzarətində idilər. O zaman nasist Almaniyası iqtisadi cəhətdən, bütün dünyada güclü inkişaf dövrünü

keçirirdi, Sovet İttifaqı isə inqilabdan sonra hələ özünə tam şəkildə gəlməmişdi. İqtisadi cəhətdən güclü Almaniya işğal etdiyi ərazilərə yenilik gətirirdi və bu da əhali tərəfindən yaxşı qarşılanırdı.

O, nasistlərin kənddəki nümayəndələrindən ehtiyyat edərək, bizə hava qaralana qədər burada gözləməyi, özünün kəndə gedib qaranlıq düşəndən sonra arxamızca gələcəyini dedi. Biz razılaşdıq.

Qoca bizi öz doğmaları kimi qarşıladı, axı hər necə olsa da, biz bir dövlətin vətəndaşları idik və öz torpaqlarımızın işğalçılardan azad etmək üçün vuruşurduq.

İki gün qocanın evində qaldıq. Kişi bütün ailəsi ilə bizim qulluğumuzda durdu. Bu iki gün ərzində mərkəzdən yeni təlimatlar aldıq. Ağır yaralı kapitan İvan Qriqoriyeviç Yeromin göstərdiyi şücaətə görə, "Suvorov" ordeni və növbəti hərbi rütbə – mayor rütbəsi ilə təltif edildi. Onun yaralı olduğunu nəzərə alaraq, dəstəyə komandirlik mənə tapşırıldı.

Elə həmin gecə yaralı komandirimizi qocanın və ailəsinin ümidinə qoyub əməliyyata çıxdıq. Sanki Ukrayna meşələri bizim doğma evimiz idi. Biz bu kənddə qarşılaşdığımız mənzərə ilə demək olar ki, bütün işğal altında olan kəndlərdə də qarşılaşırdıq. O zaman biz bunu almanların işğalçılıq siyasətlərindən biri kimi qəbul edirdik. Sovet vətəndaşı olan hər kəs, bundan artığını düşünə bilməzdi.

Bizim ən birinci işimiz işğal olunmuş ərazilərdə əhali arasında faşistlərə qarşı nifrət hisssini gücləndirmək idi və biz bu tapşırığı layiqincə yerinə yetirirdik. Almanların ön cəbhəsinə göndərdikləri silah və sursatların çatdırılmasının qarşısının alınmasında bizim bu kuçik dəstənin böyük xidmətləri var idi və bu xidmətlər sovet rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilirdi.

Lakin son zamanlar keçirəcəyimiz əməliyyatların demək olar ki, hamısı bizim istədiyimiz səviyyədə alınmırdı. Elə bil qurduğumuz planların əksəriyyətindən düşmən xəbər tuturdu, axşamdan hazırladığımız planı ertəsi gün həyata keçirmək istəyəndə düşmənin bizim üçün qurduğu tələyə düşürdük.

Artıq bir birimizdən şübhələnirdik, şübhələr bir-birimizə qarşı olan etibarımızı azaldırdı.

Bizim dörd nəfərdən ibarət olan dəstəmiz bir ordunun görə bilmədiyi işlərin öhdəsindən bacarıqla gəlməsinə baxmayaraq bu çox çətinliklə başa gəlirdi.

Bütün yaşayış məntəqələrində bizim adamlarımız var idi və lazım olduqca onlardan da istifadə edirdik. Lakin aramızda olan satqının sayəsində o adamların çoxu ifşa olunub düşmən tərəfindən cəzalandırıldı. Faşistlər bizi hər tərəfdə axtarırdılar.

Mərkəz bizim aramızda satqının olduğunu deyir və onun tezliklə tapılmasını tələb edirdi. Çox çətin vəziyyətdə idik. Dörd nəfərin arasında xain kim ola bilərdi? Gecələr demək olar ki, yatmırdıq. Yatarkən də səhərin üzümüzə hansı sürprizlərlə açılacağını bilmirdik. Bir-birimizə olan etibar o qədər itmişdi ki, yatarkən də, yalquzaq kimi üz-üzə yatırdıq.

Belə günlərin birində hələ uşaqlıqdan eşitdiyim bir hekayəni komandiri olduğum bu kiçik dəstəyə danışdım. Bu hekayə bizim hazırkı vəziyyətimiz üçün əsl ibrətamiz misal idi.

"Qədim əfsanələrin birində deyilir: Bir gün Yalan və Doğru görüşürlər. Yalan göyə baxır, "bu gün hava çox gözəldir" deyir. Doğru onu başdan ayağa süzür və sonra göyə baxır. Həqiqətən havanın gözəl olduğunu görür. Uzun bir yolu birlikdə getməli olurlar, hər dəfə Yalan nəsə deyəndə Doğru ona şübhəylə yanaşır və hər dəfə də yoxlayıb onun düz danışdığını görür. Nəhayət,

gəlib bir çay kənarına çatırlar. Yalan əlini suya vurub deyir: "Su çox gözəldir, əsl çimməli vaxtdır, bəlkə birlikdə çimək?" Doğru bir daha onu şübhəli nəzərlərlə süzüb əli ilə suyu yoxlayır. Onun düz danışdığını görür. Uzun yolun yorğunluğunu çıxarmaq və dincəlmək üçün soyunub paltarlarını sahildə daşın üstünə qoyurlar. Hər ikisi suya baş vurub sahildən xeyli aralı üzməyə başlayırlar. Yalan bir anda sudan çıxır, Doğrunun paltarlarını geyinib qaçaraq gözdən itir. Buna bərk əsəbləşən Doğru Yalanı tapmaq, cəzalandırmaq və paltarlarını geri almaq məqsədilə hər tərəfdə onu axtarır. Doğrunu çılpaq görən hər kəs isə onu qınayır və təənə edirlər. Paltarlarını geri almaq üçün Yalanı təqib edən zavallı Doğru kor peşman geri dönüb həmişəlik gizlənir və bir daha xalqın arasında görünmür. O vaxtdan bəri Yalan dünyanın hər yerində Doğru kimi geyinib aramızda yaşayır. Dünya isə heç bir vəchlə çılpaq Doğrunu görmək istəmir, Yalanı Doğru kimi qəbul edir."

* * *

"Həmin gün faşistlərin böyük bir eşalonu işğal etdikləri ərazilərimizdən keçərək onların ön xəttinə silah-sursat aparmalı idi. Bunun üçün də Xarkov çayı üzərində olan körpülərin birinin sursat dolu eşalonun keçdiyi zaman partladılması əmrini aldıq. Həmin körpü bizim olduğumuz yerdən kifayət qədər uzaqda idi. Bu ərazilərin düşmən nəzarətində olduğunu nəzərə alsaq, bizim vaxtında ora çatmağımız mümkün deyildi. Əslində o zamanlar bizdən mümkün olmayanları daha çox tələb edirdilər. Ümumiyyətlə, bu prinsip sovet psixologiyasında yazılmayan bir qanun idi. Biz qalın meşənin içində olan bataqlığı keçə bilsəydik, vaxtında çata bilər-

dik. Bu yol, təbiətin bizim üçün hazırladığı sürprizləri nəzərə almasaq, ən təhlükəsiz yol idi. Belə ki, bizim əldə etdiyimiz məlumata görə bu yol almanlar tərəfindən davamlı surətdə qorunmurdu.

Meşədən keçərək nəzərdə tutulan yerə çatmağı qərara aldıq. Meşəyə iki yolla getmək mümkün idi. Yolların biri çətin keçilən dağ cığırı ilə sıldırım qayalıqdan keçirdi. Bu yol faşistlər tərəfindən davamlı olaraq nəzarətdə saxlanılmırdı. Əslində bu yolla getmək bizə sərf eləmirdi, çünki bu yol həm uzaq, həm də relyef cəhətdən çox çətin yol idi. Biz bu yolla getməyi qərara aldıq. Bunu dörd nəfərin arasında razılaşdıq.

Ertəsi gün mən yerli əhalidən olan adamlarımızdan dörd nəfərinin qərara aldığımız zamanda o yolla hərəkət etməsinə göstəriş verdim, onlar silahsız idilər. Bununla da, mən həm düşməni azdırmaq, həm də aramızdakı satqını dəqiqləşdirmək istəyirdim. Mənim bu taktiki gedişimdən dəstə üzvlərindən heç birinin xəbəri yox idi. Son həlledici anda mən hamının bildiyi planı dəyişdim və faşistlərin yerləşdiyi qəsəbənin lap yaxınlığından keçərək, qalın meşənin içində olan bataqlığa tərəf getməyi əmr etdim. Bu təhlükəli yol olsa da, faşistlər bizdən şübhələnmədi, bir də ki, aramızda olan satqın bizim axşamdan qərara aldığımız yol xəritəsini artıq onlara çatdırmışdı və mənim göndərdiyim dörd nəfər faşistlərlə orada görüşməli idilər. Zənnim məni yanıltmadı.

Tabeçiliyimdə olanların üzdə olmasa da daxilən narazı olduqlarını hiss edirdim.

# VI FƏSİL

Xocalıda baş verənlər bizi çox sarsıtdı. Bu gün insan sivilizasiyasının yüksək inkişaf etdiyi bir zamanda, insanlığın ən yüksək kuliminasiya nöqtəsinə çatdığı vaxtda bütün dünyanın gözləri qarşısında belə bir soyqırımın törədilməsini təsəvvürə gətirməyin özü belə vəhşilik idi. Bu vəhşiliyi yalnız ibtidai icma quruluşunda və ya orta əsrlərdəki müharibələrdə təsəvvür etmək olardı, əgər bu da mümkün idisə.

Bu bəşəri cinayət ermənilər və ruslar tərəfindən dinc azəri türklərinə qarşı, düşünərək törədilmiş cinayət idi. Xocalı soyqırımı, insan sivilizasiyasına endirilmiş ən ağır zərbə idi, min il bundan əvvəl də belə bir faciə olmamış, yüz il bundan sonra da baş verməsi mümkün olmayacaq.

Burada insanların sadəcə öldürülməsi yox, ölümün motivləri diqqəti çəkir. Hamilə qadınların öldürüldükdən sonra qarnının yarılması, bətndən çıxarılmış uşaqların süngüyə keçirilməsi, meyidlərin yandırılması, təhqir edilməsi, ayrı-ayrı orqanlarının kəsilməsi, baş qapaqlarının çıxarılması.., bütün bunlar dəhşət deyilmi!?...

Dünya isə susur, sanki lal-kar olub dünya. Tam mərkəzində, sivilizasiyanın başlandığı bir nöqtədə günahsız tökülən qanları görmür, yüksələn fəryadları eşitmirdi. Bəli, Xocalı dünyada ilk sivilizasiyanın başlandığı yerdir ki, ruslar və onlara dəstək verən dünya şovinistləri erməni vandallarından istifada edərək bu yeri xaraba qoyurdular. Orada yaşayanları diri-diri odda yandırıb, yaddaşlardan silmək istəyirdilər.

Bu faktdır, hələlik öz təsdiqini tapa bilməyən, lakin hamıya məlum olan bir fakt. Zaman gələcək hər şey öz yerini tutacaq, Xocalıda törədilən cinayətlərə görə canilər öz cəzalarına çatacaq. Qorbaçev, Primakov, Volski kimi minlərlə ermənipərəst ruslar bu gün xalq məhkəməsindən canlarını qurtarsalar da, haqqın məhkəməsindən qaça bilməyəcəklər.

Axı nə idi bu? İnsanlar yaşadıqca daha mədəni, oxuduqca daha kamil olmaqdansa vəhşiləşir, qarşısına keçən hər şeyi məhv etmək istəyir. Görəsən, bu istək hansı hissin təsirindən yaranır, haradan qaynaqlanır. Bu heyvani hisslər insan xislətində necə yaranır, necə formalaşır? Bir neçə il əvvəl düşündükləri ilə, bu gün gördükləri tamamən bir-birinə zidd idi. Bunu yaradan səbəbləri isə nə qədər düşünsə də, ağlının süzgəcindən keçirsə də, tam qəti qərara gələ bilmirdi.

“Silahsız mülki əhalinin – hamilə gəlinlərin, körpə uşaqların, ahıl qocaların günahı nə idi ki, təpədən dırnağa qədər silahlanmış bir ordu birləşməsi onları güllə-baran etdi. Bütöv bir şəhəri darmadağın edərək əhaliyə olmazın zülm etdilər. Bu idimi insanların bir-biri üzərində olan haqqı? Bu idimi onların ALLAH qarşısında yerinə yetirəcəkləri ən vacib borc? Adəm babamızın adam olaraq dünyaya gətirdiyi Qabilin törəmələrinin düşündüyü hətta İblisin ağlına gəlməyən yeni fitnə-fəsad? İlahi bizi bundan ötərimi yaratmısan!?”

Mirələm bir neçə gün idi ki, bu sualları dayanmadan, təkrar-təkrar özünə verir, ancaq cavab tapa bilmirdi, belə olduqda o, ruhən kiçilir, daxilən əriyirdi. O, erməni və rusların necə rəzil, qaniçən və xain olduqlarını gözəl bilirdi. Lakin bu dərəcədə insanlıqdan kənar olduqlarını təsəvvürünə belə gətirə bilmirdi. Gənc olmasına baxmayaraq, ömrünün yarısını ruslarla birlikdə keçirmişdi. Onların necə bir millət olması ona gün kimi aydın idi.

Dünyaya hegemonluq etmək istəyən rus dövləti, kökündə fahişəlik dayanan, mayası içki və narkotika ilə yoğrulan cəmiyyət yetişdirirdi. Hiyləgər ermənilər rus şovinizmi ilə birləşərək Xocalıda soyqırımı törətdilər. Onlar güclü narkotika təsiri altında heç kimə rəhm etmədilər. Bir şəhərin əhalisini körpədən ahıla kimi bir gecədə məhv etdilər, insanları diri-diri yandırdılar, körpələri, hamilə qadınları süngüdən keçirdilər. Belə bir dəhşəti nəinki görmək, hətta təsəvvür etmək belə dəhşətli idi. Ən dəhşətlisi isə, dünyada özlərini ari irq sayan, dünya xalqlarına demokratiya, mədəniyyət dərsi keçmək istəyən millətlərin bu soyqırıma göz yumması idi.

"Mən belə insan olmaq istəmirəm və belə "insanlığa" nifrət edirəm."

O, bunları düşünə bilmirdi, sanki beynini yüksək təzyiq altında sıxıb bütün hisslərini, o cümlədən düşünmə qabiliyyətini keyləşdirmişdilər. Nə olursa-olsun günahsız Xocalıların qisasını onlardan almalı idi, hətta bütün dünyaya qarşı tək döyüşsə belə...

Atası bütün ömrünü yalan üzərində qurulmuş SSRİ adlı bir dövlətə həsr etmişdi. Dağılmış dövlətin ən fəxr olunası vətəndaşlarından biri idi. Böyük Vətən müharibəsinin birinci günündən sonuncu gününə kimi cəbhədə olmuş, altı dəfə yaralanmasına baxmayaraq müharibədən sonra Sovet dövlətinin göndərişi ilə Macarıstanda əlavə olaraq iki il əks kəşfiyyatda xidmət etmiş, lokal müharibənin getdiyi bir zamanda öz borcunu artıqlaması ilə yerinə yetirmişdi. Mirələm atası ilə həmişə fəxr edərdi, qürur duyardı.

Bir zamanlar atasının qoruduğu dövlət bu gün millətinin qanına susamışdı, əgər Xocalıda yaşasaydılar, yəqin ki, onları da bu aqibət gözləyərdi. Məgər Xocalıda və ya yüzlərlə xaraba qalmış Azərbaycan kəndlərində onun atası kimi Sovet dövlətinə xidmət edən adamlar

yox idimi? Ruslar həmişə satqın psixologiyalı siyasətləri ilə dünyada seçilmişlər. Onlar üçün nə etsən də, son anda öz "şkuralarını" qorumaq üçün hər şeyi qurban verirlər.

* * *

Aydın bir yaz gecəsi. Hər tərəf sükut içindədir. Sanki heç Şuşada müharibə getmirdi, nə bir güllə səsi gəlir, nə də bir partlayış eşidilirdi. Bu gün Səməd elə bil tərki dünya idi, tək qalmaq istəyi onu hamıdan aralı saldı. Bir anlıq hər şeyi unudub, bütün qayğılardan ayrılıb özü ilə baş-başa qalmaq, qəlbinin dərinliyindən qopub gələn ilahi səsi dinləmək, özünü dərk etmək istədi Səməd.

Ruhunu, qəlbini zaman-zaman bütün varlığını bürüyən, özünə də məlum olmayan doğma hisslərin əsirinə çevrilidi. Birdən-birə başının üstündəki səma, ayağının altındakı yer darlıq elədi ona. Başını götürüb qaçmaq istədi, ayağı tutduqca, gözü gördükcə, canında olan gücün, təpərin çatacağı qədər qaçmaq istədi. Səbəbini bilmədən ürəyi sıxıldı, birdən-birə darıxdı. Dünya ona balaca, cox balaca göründü, var səsi ilə qışqırmaq, haray salmaq istədi.

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam." Hardansa yadına düşən bu misranı dodağının altında tez-tez təkrar etməyə başladı. "Yazıq Nəsimi. İndi gör onun vaxtında nələr baş verib ki, bundan da betər hala düşüb."

Sakit bir guşəyə çəkilib oturdu, başını əlləri arasına alıb sıxdı, xeyli bu vəziyyətdə dayandı. Yaxındakı evin açıq pəncərəsindən düşən solğun işıq və güclə eşidilə biləcək səs diqqətini çəkdi. Kim idisə çox kədərli notla mahnı oxuyurdu. Köklənməmiş kitaranın səsi həzin-hə-

zin gecənin qaranlığına qarışıb əriyirdi. Özü də bilmədən səsin sehrinə düşüb həmin evə doğru getdi. Açıq qapıdan içəri keçərkən ona yaxın əsgərin sakitcə oturub dinlədiyini görüncə özü də onlara qoşuldu.

O qaranlıq dar otaqda,
Zəifləyən o çıraqda,
Sıxılanda, darıxanda,
Odu sönmüş o ocaqda
Məni axtar Qarabağda.

Əsirlərin sırasında,
Şəhidlərin arasında,
Sızıldayan yarasında,
Solub gedən o budaqda
Məni axtar Qarabağda.

Yuxun ərşə çəkiləndə,
Hər dan yeri söküləndə,
Gözün yola dikiləndə,
Ya o dağda, ya bu dağda
Məni axtar Qarabağda.

Tənhalıqdan üzüləndə,
Gözündən yaş süzüləndə,
Mirvarilər düzüləndə
Susuz qalan o bulaqda
Məni axtar Qarabağda.

Susuz qalan o bulaqda,
Solub gedən o budaqda,
Ya o dağda, ya bu dağda,
Məni axtar Qarabağda,
Məni axtar Qarabağda.

Demə əbəs yaşamışam,
Səninlə mən qoşaymışam,
Şəhid ömrü başlamışam
Yazılmayan ağ varaqda
Məni axtar Qarabağda.

Oxuyan Yaşar idi, yazdığı şeiri, köhnə kitaranı dınqıldadaraq zümzümə edirdi. Mahnı bitəndən sonra, Səməd necə gəlmişdisə, elə də otaqdan çıxdı. Xeyli yüngülləşmişdi, elə bil üstündən dağ götürülmüşdü. Lakin hara gedəcəyini bilmirdi, bayırda xeyli dayandı. Yaşarın sehrinə düşmüşdü.

"Məni axtar Qarabağda gözəl sözlərdir. Sənin kimi silaha sarılan hər bir azərbaycanlının amalıdırl bu. Bu yerlər heç zaman düşmənə təslim olmayacaq, ən azı şəhidlərin ruhu və qanı bu torpaqların üzərində olduğu üçün. Yüz illər keçsə belə, bu yerləri yadellilər işğal edə bilməyəcək, onların ruhu bütün türk torpaqlarının əbədi keşikçiləridir."

Bir neçə gündən sonra Səmədlə Yaşar Kosalar kəndində idi. Şuşanın işğalından sonra mühasirədə qalan bir neçə kənd çox ağır vəziyyətə düşmüşdü. Səməd, Yaşarla birlikdə yeddi nəfərlə Şuşadan Kosalara gələn yolu qoruyurdu.

Baharın gəlməsinə baxmayaraq, qış hələ də geri çəkilmək istəmirdi, bəzi yerlərdə, dağların şimal tərəflərində qar hələ də qalır, gecələr çox soyuq olurdu. Səməd elə oturduğu yerdə yuxulamışdı, nə qədər vaxt keçdiyini bilmirdi. Saat üçə qalmış diksinib oyandı. Həyəcandan az qalırdı ürəyi ağzından çıxsın. Yanında oturan Yaşarı görəndə bir az toxtadı.

– Hə-ə. Sənsən.

– Mənəm komandir. Deyəsən yuxu görürdün?

– Hə, hələ də dünəndə qalmışam mən – dedi və gözlərini yumub gördüyü yuxunu yadına salmağa çalışdı.

Yuxuda Vaqifi görmüşdü, Mehbalıyevi... Adətən gördüyü yuxuları oyanandan sonra unudardı, indi isə gördüklərini tamamilə xatırlayırdı. Əvvəl elə bildi ki, yenidən yatıb, yuxunun davamını görür. Gözlərini açmadan sağ əli ilə üzünü tumarladı, sonra yenidən silahını tutdu. Yox, o yatmamışdı, bir az əvvəl yuxuda gödüklərini indi kinoya baxırmış kimi yenidən görməyə başladı.

“Yuxuda gördü ki, indi olduğu kimi döyüş yoldaşları ilə birlikdə Qarabağdadılar. Döyüş yoldaşlarının əksəriyyəti buradadır. Hamı deyib gülür, şənlənir. Özü də onların arasındadır, bir kənarda dayanıb onlara baxır. Birdən yoldaşlarının arasında Vaqifi də görür. “İlahi o bura necə gəlib!? Axı o dünən şəhid oldu” deyə düşünə-düşünə ona yaxınlaşır.

– Vaqulya. Sən bura necə gəlmisən?

– Sizin gəldiyiniz kimi.

– Axı..., sən..., sən dünən öl-dün. Sənin öldüyünü öz gözlərimlə gördüm. Dünən səni Nazimlə Ba-akıya yola sa-aldıq...

– Bilirəm, Səməd kəkələmə. Mən ölməmişəm, şəhid olmuşam, şəhidlər ölmürlər Səməd, əbədi yaşayırlar.

– Deməli, sən o dünyadan gəlmisən, istədiyin vaxt, istədiyin yerə gedə bilirsən?

– Səməd, dünyanın o-su, bu-su olmur. Dünya bir dənədir, – barmaqlarını yumub şəhadət barmağını yuxarı qaldırıb göstərdi – mən də elə həmin o tək olan dünyadayam, biz hər ikimiz eyni dünyadayıq, sadəcə yaşayış tərzimiz başqadır. Nə isə, bu çox uzun söhbətdir. Gediş-gəliş məsələsi isə bir az başqa cürdür, bağışla onu başa salmaq üçün vaxtım azdır. Zaman keçdikcə

özün hər şeyi anlayacaqsan. Indi isə mənim vaxtım bitir, getməliyəm.

– Vaqulya, dayan, məni də özünlə apar.

– Yox, apara bilmərəm, aparsam da buraxmazlar.

– Kim?

– Qapıçılar. Onlar bizim hər birimizi tanıyır. Bir də ki, sənin üçün hələ tezdir, hələlik burda olmalısan. Zamanı çatanda gələcəksən. Bilmədiyin bir şeyi deyim sənə. On səkkiz günahın var, çalış onları təmizlə.

– Bu çoxdur, yoxsa?... Bir də onları necə təmizləyim? Sənin neçə günahın var idi?

– Yaxşı işlər gör, nə edirsənsə təmənnasız et, ALLAHa xatir et, o zaman günahların təmizlənər. Vaxtım bitir, getməliyəm, salamat qal.

– Vaqif, getmə, bilmədiyim şeylər çoxdur, bir az söhbət edək.

– Bağışla, getməliyəm, amma yenə gələcəm. Orda hər şeyə ciddi əməl olunur.

Bunu deyib arxaya baxmadan dağın arxasına tərəf getdi. Səməd onun arxasınca yüyürdü, az qalırdı ona çatsın. Birdən sanki dağ yarıldı, yarğandan axan mavi işıq seli Səmədin gözlərini qamaşdırdı. Güclü işıq selində Vaqifin siluetindən başqa heç nə görünmürdü."

Hava soyuq olmasına baxmayaraq həyəcandan tərləmişdi. Yuxulara inanmasa da, hələ də gördüyü yuxunun təsiri altında idi Səməd. "Bu nə yuxu idi, İlahi. Yoxsa mənə bir işarə kimi göndərdin bunu. Demək, növbə mənimdir." deyə ruhdan düşmüş halda düşündü. Ölmək istəmirdi, yox o ölə bilməzdi, sadəcə ölməyə haqqı çatmırdı, nə də vaxtı yox idi. Çiyin-çiyinə döyüşdüyü yoldaşlarının qisasını almayınca ölə bilməzdi.

Bir anlıq daxilindən güclü titrəyiş keçdi, bütün varlığı silkələndi, sanki içində zəlzələ baş verdi. Gözləri yumulu idi, açmaq istədi, ölüm qorxusundan göz qapaq-

larını daha da bərk sıxdı, sanki göz qapaqlarından ağır "ölüm" adlı daş asılmışdı. Fikirləşdi ki, gözlərini açan kimi ölüm mələyinin sərt üzünü önündə görəcək.

İlk dəfə idi ki, ölümün dadını damağında, nəfəsini yanağında hiss edirdi Səməd. Əslində ölüm nə yeməli, nə də gözə görünən deyil, onun dadını damağında, nəfəsini yanağında hiss etsin, onu yalnız ruhi görüntüdə görmək olardı ki, elə Səməd də indi ruhlar aləmində əzab çəkirdi.

Elə bil içində vulkan qaynayır, indicə püskürüb beyninin qapağını qoparacaqdı. Nə qədər çalışsa da bacarmadı özü ilə, bərk-bərk sıxdığı göz qapaqlarının arasından göz yaşları sel kimi axdı, daxilində qaynayan vulkan püskürdü, hönkürüb yana-yana ağladı Səməd. Yaşar onun çiyinlərindən tutdu, alnını alnına söykədi, için-için ağladılar. Bütün şəhidlər üçün, əsir düşən həmvətənləri üçün, düşmən tapdağında altında qalan torpaqlarımız üçün ağladılar. Səməd həm də bir az əvvəl gördüyü yuxu üçün, ölümün üzünə baxmaqdan qorxduğu üçün ağladı.

Səmədlə Yaşar yoldaşları ilə üç gün Kosalarda mühasirədə qaldılar, üç gün həyatla ölüm arasında mübarizə getdi. Bu üç gündə "Ölüm mələyi" onlardan ayrılmadı, daim yanlarında oldu. Bəlkə də bezdi ölüm mələyi, bəlkə də dostlaşdı onlarla, gözünün içinə dik baxanları, ətrini alanları tərk etdi. Bəlkə də yazığı gəldi onlara, kim bilir!? Nəhayət ki, əl çəkib getdi.

İnsan zatən unutqandır. Həyat təzadlarla doludur, xoşbəxt anlar da olur, çətin anlar da. Cətinliklər insanı bərkidir, dözümlü edir, güclü edir. Güclü insanların qurduğu cəmiyyət də, dövlət də güclü olur. Zaman keçdikcə arxayınlıq yaranır, xarakterlər zəifləyir. Zəif insanların idarə etdiyi cəmiyyət və qurduğu dövlət də zəif olur.

Beləcə həyat enişdən yoxuşa, yaxşıdan pisə, zülmətdən işığa və əksinə davam edir. Daim hərəkətdə olan bu dünyada hər şey ötəridir və zaman-zaman yenilənir.

* * *

Elə həmin gün onları Ağdama gətirdilər, lakin məlum olmayan səbəblər üzündən iki gündən sonra, geriyə Bakıya yola saldılar. İndi ona daha bir səbəb aydın oldu. Azərbaycanda olan hakimiyyət dairələri hələ də köhnə mahnının havası ilə oynayırdılar, hələ də ruslara xidmət edərək "sadiq qul missiyası"nı yerinə yetirirdilər. Başımıza gələn faciələrin kökündə erməni və ruslarla birlikdə hakimiyyətdə olanların da bilavasitə əli var idi. "Sapı özümüzdən olan baltalar" – deyə fikirləşdi. Əlbəttə ki, onlar olmasaydı yəqin ki, başımıza belə müsibətlər də gəlməyəcəkdi. Birdən-birə özünə, özü ilə birlikdə millətinə yazığı gəldi. Onlar kim idilər? Məqsədləri, məramları nə idi, niyə düşmənə xidmət edirdilər? Əgər həqiqətən də düşmənə xidmət edirdilərsə, hakimiyyətdə necə mövqe tuta bilmişdilər?

Amma onu da bilirdi ki, dövran belə getməyəcək, bir gün bu torpağın həqiqi sahibləri baş qaldıracaq və edilən hər bir haqsızlığa görə hesab soracaqlar. Hər bir öldürülən azəri türkünə görə can alacaqlar, heç kəsin qanı yerdə qalmayacaq. Kimliyindən asılı olmayaraq hamı etdiyinə görə cavab verəcək və bu tezliklə olacaq.

İndi ümid yalnız qeyrətli Vətən oğullarına idi ki, onlar tarixən olduğu kimi, həqiqi mənada kəfən geyinmişdilər və son nəfəslərinə kimi bu yurdun keşiyində dayanacaqdılar. "Axı mənim onlardan nəyim əskikdir?" Belə sualların cavablarını axtara-axtara bir gün özünü, onların sırasında gördü Mirələm.

Deyirlər, “Qığılcımdan alov doğar.” Mirələm “Alovdan törəyən atəş” idi. Elə bir atəş idi ki, hərarəti ilə yalnız özünü, ətrafını, sevdiklərini, onu sevənləri yandırdı, yaxdı. Atasının keçdiyi ağır yolun davamçısı oldu. Hamını hətta atasını da kölgədə qoydu. Atasının dayandığı yolayrıcını ötüb keçdi, şəhidlik zirvəsinə ucalmaqla əbədi dirilik dünyasına qovuşdu.

Şuşadakı məğlubiyyət ağır zərbə oldu, hətta onu titrətdi də. Amma yıxılmadı, ətrafında olan dostlarının sayəsində ayaq üstə dura bildi. Xüsusən də Adil... İlahi insan nə qədər sadə və təmiz olar, uşaqla uşaq, böyüklə böyük idi, hamı ilə öz dilində danışmağı bacarırdı O. İndiki zamanda belələrinə çox az hallarda təsadüf etmək olur. O, özünəməxsus xarakterik cəhətləri ilə ətrafındakılardan fərqlənirdi. Yoldaşlarından bir neçə yaş böyük olduğu üçün hamı ona xüsusi ehtiram göstərirdi. Amma o, belə şeylərin fərqinə varmazdı.

Şuşanın süqutundan sonra bir müddət özlərinə gələ bilmədilər. Xocalının qisasını almaq istərkən, Şuşanın süqutu şapalaq kimi tutdu onları, elə bil təcrübəsiz boksçu kimi rinqdə idilər... Bunun səbəbləri çox idi, əfsus ki, bu səbəbləri araşdırmağa zaman yox idi.

– Ağa, əhvalın necədir?

– Pisdir, Atam balası. Özümü qüruru tapdanmış kimi hiss edirəm. Elə bilirəm ki, Şuşanı yox, mənim sinəmi parçalayıb ürəyimi alıblar. Ürəksiz yaşayıram, belə yaşamaq olarmış. Şuşasız, Laçınsız yaşamaq isə qeyri mümkündür.

Ağababa susdu, daha danışa bilmədi, daxilindən gələn qəhər boğazını kilidlədi. Onun bu halını Adil anladı, istədi onun könlünü alsın, deyəsən daha da kövrəltdi, elə bil yarasının qaysağını qopardı. Bilmədi ona nə desin, necə könlünü alsın. Gözlərini yerə dikib udqundu.

– Soruşursan əhvalım necədir, səncə necə olar? O cür yerlər, Şuşa kimi, Laçın kimi yerlər getdi. əhvalım necə olar. Adil, böyük sərkərdə Çingiz xan bilirsən nə deyib? – dayanıb onun üzünə baxdı, diqqətlə dinlədiyini görüb davam etdi. – Çingiz xan deyib: "Üzərində ot bitməsə belə, nə qədər dəyərsiz olursa olsun, torpaq dövlətin təməlidir və heç kimə verilməz, satılmaz." Şuşa isə Allahın yer üzündə yaratdığı cənnət idi qardaş, biz cənnəti itirmişik. Babamız Adəm şeytana uyub Cənnətdən qovulandan sonra əhvalı necə idisə, indi mən də eləyəm.

Daha heç biri danışmadı, araya dərin sükut çökdü.

İki gün sonra onları yenidən Ağdama göndərdilər. Bu dəfə onları başqa cür qarşıladılar. Artıq müharibə də əvvəki kimi primitiv formada apar;lm;rd;. Xocalı və Qaradağlı hadisələrindən sonra dünyanın susduğunu görən ruslar daha da aqressivləşdilər. Qarşısındakıların müqaviməti artıqca, rus ordusu itki verdikcə, daha da quduzlaşırdı. Qarabağ ərazisində olan rus hərbi hissələrinin döyüşlərdə uduzduğunu görən o zamankı Rusiya hakimiyyət dairələri dünyanın dövlətlərarası müqavilə və qanunlarını tapdayıb, dünya və Rusiya tərəfindən qəbul edilmiş müstəqil və suveren Azərbaycanın dövlət sərhədlərini pozdular. Kəlbəcəri işğal etdilər. Bununla da dünyaya özünün işğalçı dövlət olduğu mesajını verdilər.

Dünya isə hələ də susurdu. Dünyanın böyük dövlətləri qorxaq və ikiüzlü siyasətləri ilə öz reytinqlərinə zərbə vurur və quduzlaşmış Rusiyanın hələ nələr edəcəyini gözləyirdilər. Sanki bu bölgədə olan dövlətlərin hansının nəyə qadir olduğunu bilmək istəyirdilər. Hər tərəfdən basqı altında olan təklənmiş Azərbaycanı özlərindən tam asılı vəziyyətə salmaq istəyirdilər. Onlar gözəl bilirdilər ki, Qarabağ problemi olmadan müstəqil Azərbaycan tez bir zamanda ağlasığmaz iqtisadi sıçrayışla dünyanın ən inkişaf etmiş dövlətlərinin cərgəsində olacaq.

Əgər bunu texnikum təhsilli Mirələm başa düşürdüsə, onlar daha incəliklərini bilirdilər və onlar Azərbacan kimi dövlətlər üçün xüsusi proqramlar hazırlayır və həyata keçirirdilər. Yeni yaranmış dövlətin, nə bunların qarşısını almaq üçün gücü var idi, nə də bununla məşğul ola biləcək dövlət strukturaları formalaşmışdı.

Azərbaycan ordusunun Ağdam cəbhəsindəki uğurları rusları daha da qıcıqlandırmağa başladı. Ağdərə və Naxçıvanik ətrafında keçirilən uğurlu əməliyyatlar əks qütbdə olan dünya dövlətlərini, xüsusən də rusları, tərs vurulmuş sillə kimi tutdu.

Bir gün ərzində ermənilərin nəzarətində olan altı kənd işğaldan azad edildi. Əsgəran və Xankəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ağdərə istiqamətində olan qoşunlar sürətlə irəlilədi. Əlbəttə ki, bu vəziyyət Qarabağda olan rus kotingentinin xoşuna gəlmirdi. Üstəlik ermənilər onları ikibaşlı oyun oynamaqda təqsirləndirib sıxışdırmağa başladılar. Ruslar özlərinə bəraət qazandırmaq üçün dəridən-qabıqdan çıxır, bütün vasitələrə əl atırdılar.

* * *

– Mən bunu ozümü misal çəkərək deyirəm, amma dediklərim hamımıza şamildir. Bəzən mənə elə gəlir ki, çox, lap çox yaşamışam. İl hesabına vursam yaşadığım ömür bəlkə də bir neçə əsrdən də çox edər. Inan ki, güllə altında geçirdiyim hər saniyə sakitlikdə keçirdiyim bir neçə ilə bərabərdir desəm yanılmaram. Rəbbim məni sevib, mənə belə uzun bir ömür verib. Lakin arabir dönüb payıma düşən bu uzun ömrümə nəzər salıram, əfsus ki, onun bir saniyəsini də özüm üçün yaşaya bilmədim – deyə Mirələm dərindən ah çəkib dedi.

– Atam balası! Necə də gözəl ömür yaşamısan, əgər mən də dediyin kimi belə yaşamışamsa, xoş mənim halıma.

Mirələm Adilin üzünə mənalı-mənalı baxıb söhbətin mövzusunu dəyişdi.

– Balaşka, sən heç eşşək minmisən?

– Yox, minməmişəm. Bir də ki, harda minərdim ki?

– Ay qardaş, bu yaşa çatmısan, bu boyda dünyada bir eşşək tapıb minə bilməmisən? Bəlkə sənin üçün birini tapım minəsən hə..., nə deyirsən? İnan ki, bir dəfə minsən ha, bütün işlərin yağ kimi gedəcək, ən əsası bəxtin açılacaq. – Sonra gülə-gülə əlavə etdi – Bir də ki, eşşək də erməni eşşəyi ola... bəh, bəh, bəh.

– İstəmirəm atam balası, əgər istəyirsənsə, özün min, o bəh-bəhlərin də özünə qismət olsun.

Mirələm gülə-gülə həyətdə otlayan eşşəyə yaxınlaşdı, minmək istəyən zaman eşşək soncuqlamağa başladı, təpik atdı, əsəbiləşən Mirələm də eşşəyə bir iki təpik ilişdirdi. Adil bərkdən qəhqəhə çəkib gülməyə başladı.

– Kəlça, nəyə gülürsən? Eşşəyi minəllər də, burda gülməli nə var ki?...

– Mən ona gülmürəm e e e... Əlbəttə, eşşək, minmək üçündür. Ona gülürəm ki, eşşək də təpik atır, sən də. Ha-ha-ha... – Hər ikisi qəhqəhə çəkib güldülər.

– Düz deyiblər "mal yiyəsinə oxşamasa haramdır." Elə eşşəkləri də özlərinə oxşayır.

– Elə demə, eşşəyin xətrinə dəyər, o yazığı təhqir eləmə, atam balası. Bir də onlarda onsuz da halal heç nə yoxdur axı.

# VII FƏSİL

"Həmin gün biz nəzərdə tutduğumuzdan daha artıq iş görə bildik. Yolun böyük bir hissəsini qət etdik, ən əsası isə vaxtı öz xeyrimizə udmuşduq, meşənin içində olan bataqlığı hərlənib keçməyə də vaxtımız bəs edəcəkdi. İkinci gün səhərə yaxın Xarkov çayı üzərindəki həmin körpünün lap yaxınlığında idik. Səhər açılana kimi işimizi bitirməli idik, hamımız əldən düşmüşdük. Bizə verilən məlumata görə saat on iki radələrində silah-sursat və ərzaq dolu eşalon bu körpüdən keçərək faşistlərin ön cəbhəsinə gedəcəkdi.

İnsanın çox dözümlü olduğunu ilk dəfə o gün mən özüm üçün bir daha dəqiqləşdirdim. Daha ağlımız bizi idarə etmirdi, sadəcə olaraq reflekslərin köməyi ilə ayaq üstə durur və yeriyirdik. Mənə elə gəlirdi ki, yerə yıxılsam bir daha ayaq üstə dura bilməyəcəyəm, ilk dəfə idi ki, ölüm mənə gözəl görünürdü, onu arzulayırdım, axtarırdım.

Əfsus ki, biz heç bir zaman axtardığımızı vaxtında tapa bilmirik. Yaşamaq da insanı bezdirərmiş... Belə yaşamaq bezdirmişdi məni. Təkcə mən deyildim bu halda, dəstənin üzvləri hamısı məndən də betər idilər. O anda faşistlərlə qarşılaşsaydıq yəqin ki, bəxtimiz gətirməzdi.

Lakin nə qədər bezsəm də, çəkdiyim əziyyətlərin sonunda yaşamaq hissinin necə də gözəl olduğunu başa düşürdüm. Hər dəfə də uzaqlarda taleyin ümüdünə qoyub gəldiyim bacı və qardaşlarım dayanırdı gözlərimin önündə. Hər dəfə həyatdan ümidim kəsiləndə içimdən bir səs qoparaq, "Sən yaşamalısan, Məhyəddin, yaşama-

lısan!!! Özün üçün yox, onlar üçün yaşamalısan" deyirdi. Aman Allah, bütün bunlar necə də dəhşətli idi. Yaşamaq ən dəhşətli bir əzaba dönmüşdü. Müharibə özü ilə bərabər zillət gətirmişdi. Müharibə başlayan gündən bir dəfə də olsun nə doyunca yemək yemişdim, nə də doyunca yatmışdım.

Bu gün də həmin günlərdən biri idi, əvvəlkilərdən heç nə ilə fərqlənmirdi. Bunu getdiyimiz yolda başımıza gələn hadisələr də sübut edirdi. Gecənin qatı qaranlığında qalın meşənin içi ilə irəliləyirdik. Onu da deyim ki, Ukrayna meşələri bizim görmədiyimiz, təsəvvür edə bilmədiyimiz əngəllərlə, sürprizlərlə doludur. Elə yerlər olurdu ki, keçmək mümkün olmurdu. Yenidən getdiyimiz yolu asanlaşdırmaq məqsədilə geri qayıdırdıq. Meşənin əngəllərindən əlavə maneələr də var idi ki, bizə vaxtında çatmağa mane olurdu.

Bataqlığın kənarı ilə gedən zaman Nikolayın ayağı nəyəsə ilişdi və o, sürüşüb bataqlığın içinə düşdü. Biz bir anlıq özümüzü itirdik. Özümüzə gələndə isə, bataqlığın onu yavaş-yavaş udduğunu gördük. Gözlərimizin önündə yoldaşımızın birini itirmək üzrə idik. O, bütün gücü ilə çabalayır və hərəkət etdikcə daha da dərinə gedirdi. Artıq bulanıq su onun boğazına qədər qalxmışdı. Vaxt itirmək olmazdı, indi hər an bizim üçün çox dəyərli idi. Mən cəld yaxınlıqda olan qırılmış yoğun ağac budağını ona tərəf atdım. Nikolay ağacdan tutdu, amma canında güc qalmamışdı, artıq bataqlığa təslim olmaq istəyirdi. Biz onu çox çətinliklə sürüyüb bataqlıqdan çıxara bildik. O zaman onun baxışlarında olan ölüm qorxusu hələ də gözlərimin önündədir, yadddaşıma həkk olub. Onun bizə necə yalvardığını sözlə ifadə etmək mümkün deyil.

Biz bir neçə saat dincəlməyi qərara aldıq. Mən insanın yol gedərək yatdığının şahidi olmuşam. Bu doğru-

dan da dəhşət idi. İndi bunları kimə danışsam, lağa qoyarlar məni. Çox çətin günlər yaşayırdıq. Onu da deyim ki, o meşələrdə acından ölmək mümkün deyil, bütün ili meşədə olan meyvələrlə dolanmaq olar.

Mən uşaqlara yatmaq komandası verib, başımın altına bir kötük qoydum və yumşaq meşə torpağının üzərinə uzandım. Canımdakı yorğunluğun bütün əzalarımdan çıxdığını və ayrı-ayrı orqanlarımın dincəldiyini hiss edirdim. Yəqin ki, uzanan kimi yuxuya getmişdim. Nə qədər yatmışdım bilmirəm, oyananda artıq günəş çıxmışdı. Heç nə olmayıbmış kimi ətrafıma boylandım, Alekseylə Nikolay yatırdılar, Aşot isə yox idi. Əvvəl elə bildim ki, məndən əvvəl oyanıb harasa gedib, yatanları oyatdım. Birdən yadıma düşdü ki, tapşırığın yerinə yetirilməsi üçün gecikə bilərik. Yığışıb tez də yola çıxdıq, Aşot Martirosyanı axtarmağa vaxt yox idi. Qarşıda bizi çox vacib bir tapşırıq gözləyirdi, uzun yol, çətin həm də məsuliyyətli tapşırıq. Düşmən eşalonu körpüdən keçməməli idi. Keçən hər patron, bir sovet vətəndaşının həyatı demək idi. Düşmən eşalonunun ön cəbhəyə geçməsinin qarşısını almaqla nə qədər vətəndaşlarımızın həyatını qurtarmış olurduq. Qayıdanda Aşotu tapmaq məqsədilə həmin yerə gəldik.

Amma Aşot yox idi, dəstədə üç nəfər qalmışdıq. Bizə gün kimi aydın idi ki, içimizdə olan satqın o imiş. Bir komandir kimi hələlik bu barədə susurdum. Arabir fikirləşirdim ki, əgər satqın o idisə, niyə bizi yatmış oldğumuz zaman tərk etmişdi. İstəsə idi, faşistlərin arasında yerini şirin etmək üçün bizi ya öldürər ya da tərksilah edib əsir götürər, özü ilə birlikdə aparardı. Bütün bu şübhələr onun satqın olmasını istisna edirdi və elə buna görə də mən susurdum.

Bütün bunlara baxmayaraq indi hər an bizi qarşıda qurulan tələ gözləyə bilərdi. Bütün ehtimallara görə hər

hansı gözlənilməz sürprizlərə hazır olmalıydıq. Qatarın gəlməsinə hələ beş saatdan çox vaxt var idi. Tələsmədən işimizi yerinə yetirirdik.

Lakin gözləmədiyimiz şəkildə çox asanlıqla, maneəsiz tapşırığı yerinə yetirə bildik. İki dəfə dəmir yoluna maşınla nəzarət edən patrulların gəlməsinə baxmayaraq bizi görmədilər. Tapşırıq uğurla yerinə yetirildi. Eşalon çayın üzərində olan zaman dəmir yolu ilə birlikdə Xarkov çayına töküldü. Həmin vaxt biz xeyli aralıda dağın döşündə ağacların arasında dayanıb bunun necə baş veməsini seyr edirdik. Bu çox dəhşətli bir səhnə idi, biz isə artıq belə səhnələrə vərdiş etmişdik.

Yenidən meşəyə üz tutduq. Meşəyə az qalmış yenidən faşistlərin patrul dəstəsi ilə üz-üzə gəldik, şiddətli atışmada mən iki güllə yarası aldım. Lakin yoldaşlarım məni atmadılar, atəş altından çıxarıb, meşəyə doğru çəkildilər, patrul qrupu bizim təslim olmayacağımızı başa düşüb, təqibdən əl çəkdilər. İki gündən sonra çətinliklə də olsa, əvvəlki yerimizə qayıda bildik. Bir neçə gün sonra göstərdiyimiz şücaətə görə hər üçümüzü "Qızıl Ulduz"la təltif etdilər. Martirosyandan isə hələ də xəbər yox idi.

Yaralarım dərin olsa da tez ayağa qalxdım, sən demə, canım çox möhkəm imiş. Ancaq oraların havası, bir də həkim nəzarətinin olmaması yaralarımın sağalmasını ləngidirdi. Buna baxmayaraq bir neçə gündən sonra, artıq mən heç kimə yük olmadım. Amma yaralanmağımdan bir ay keçməsinə baxmayaraq, hələ də özümü zəif hiss edirdim, bədənim əvvəlki vəziyyətini bərpa etməmişdi.

Özümə gələn kimi əvvəlki əməliyyatda faşistləri çaşdırmaq üçün göndərdiyim dörd nəfər haqqında maraqlandım. Onlardan yalnız biri – Mixail Kazakov faşistlərin əlindən qaça bilmişdi, hələ də üzə çıxa bilmirdi.

Gecə o, bizim qaldığımız yerə gəldi və onların getdiyi istiqamətin faşistlərə qabaqcadan satıldığını dedi. Mən satqının artıq cəzalandırıldığını bildirəndə o, satqını tanıdığını dedi. Onlar əsir düşəndən sonra faşistlər Aşotdan şahid kimi istifadə edərək onların tanıdılması zamanı görmüşdü.

– Mən onu tanıyıram, o mənim yoldaşlarımın ikisini tanıdığını dedi və onları ifşa etdi. Lakin məni və Bandarçuku tanımadığını söylədi. Onu da deyim ki, onlar hər ikisi, bildiyiniz kimi kommunist idilər. Faşistlər bizim gözlərimizin önündə həmin iki yoldaşlarımızı güllələdilər, bizi isə hələlik qeyri müəyyən vaxta qədər həbsə atdılar. Macal tapan kimi qaçmağı qərara aldım. İndi daha burada da yaşaya bilmərəm, gərək başıma bir çarə qılam.

– Bəs Bandarçuk? O niyə səninlə birlikdə qaçmadı?

– O, yaralı və xəstə idi. Mən onu özümlə götürə bilməzdim. O, özü də belə istədi. İndi yəqin ki, faşistlər onu da öldürüblər.

Biz onsuz da sayımızın az olduğunu nəzərə alaraq, onu öz sıralarımıza qatmağı qərara aldıq və yenidən dörd nəfər olduq. İstəsəydik, dəstəmizi daha da böyüdə bilərdik, lakin böyük dəstə ilə hərəkət və manevr etmək çətin olduğu üçün bunu istəmirdik. Yeni həmkarımız Kazakov arıq, hündürboy, fiziki cəhətdən güclü bir adam idi. Orta məktəbdə fransız dilindən dərs demişdi. Onu da deyim ki, Mixail Kazakov kommunist deyildi, amma Vətənini, xalqını çox sevirdi və onu azad, müstəqil görmək istəyirdi. Bununla da qərb meyilli olduğu açıq-aşkar bilinirdi. Onun dəstəmizə qoşulması elə bil bizə yeni nəfəs verdi, daha da fəallaşdıq. Planımızda cəbhə xəttini yararaq işğal zonasından çıxmaq, öz tərəfimizə keçmək başlıca önəm kəsb edirdi. Bunun üçün isə biz günlərlə dayanmadan yol getməli idik.

Şimalın soyuğu yavaş-yavaş özünü göstərməyə başlayırdı. Artıq qış qapının kandarını kəsirdi. Hər tərəf ağ örtüyə bürünür, hərəkət etmək çətinləşirdi. Şimalda təbiət kimi həyat da donmağa başlayırdı, burada hər şey qocaman vəhşi bir ayını xatırladırdı. Payızın ortalarında həyat dayanır, yazda isə birdən-birə oyanaraq sanki hər şeydən qisasını almaq istəyirdi. Çaylar daşaraq qarşısına keçən hər şeyi ağuşuna alıb naməlum ünvana sürüyürdü. Lakin daşqınlarla, darmadağın olan təbiət, qısa bir zaman kəsiyində özünü bərpa edir və daha da cazibədar olurdu. Burada təbiət hər an dəyişir, hər an daha əsrarəngiz bir hala düşürdü. Soyuqlar düşdükcə, yaralarım daha çox incitməyə başlamışdı.

Ukraynanın təbiəti gözəlliyi ilə bəlkə də dünyanın başqa ərazilərindən kəskin surətdə fərqlənir, sıx, keşilməz meşələri, bol sulu çayları, bərəkətli torpaqları və özünəməxsus qonaqpərvərliyi ilə seçilən işgüzar xalqı sanki təbiətə bir ecazkarlıq gətirir və onu tamamlayırdı. O, zaman Sovet İttifaqının qida məhsullarının əksəriyyəti onların payına düşürdü.

Faşistlərin gəlişi onlar üçün göydən düşmə kimi bir şey idi. Min doqquz yüz otuz yeddinci ilin represiyaları burada daha tez başlamış və hələ də davam edirdi. Stalin rejimi Ukrayna xalqının qaymaqlarını məhv edərək, sözün əsl mənasında bu millətə qarşı soyqırımı aparmışdı. Ona görə də Ukrayna xalqı faşistlərin işğalı zamanı qapılarını onların üzünə açdı, onları duz-çörəklə qarşılayıb kommunist rejiminə qarşı çıxdılar.

Əslində bu düzgün yol deyildi, hər nə olursa-olsun Vətəni satmaq olmaz, Vətəni satmaq hər şeyi itirmək deməkdir. Ukrayna xalqı isə demək olar ki, hamılıqla azadlıq mübarizəsinə qalxmışdılar. Artıq onlar Stepan Benderin başçılığı ilə qərbi Ukraynada öz müstəqil döv-

lətlərini də elan etmişdilər. Sovet İttifaqı isə bunu nə onlara, nə də qeyri millətlərə güzəştə gedə bilməzdi.

Bəlkə də elə buna görə idi ki, bizə daha ciddi və daha qəddar bir tapşırıq verildi. Yeni yaranmaqda olan Ukraynada faşistlərə qarşı nifrət oyatmaq lazım idi, bunun yolları isə mərkəzdən gələn nümayəndə tərəfindən bizə ətraflı şəkildə çatdırıldı. Onu dinləmək belə dəhşətli idi, nəinki onun dediklərini yerinə yetirmək. Lakin biz kommunist idik və partiyanın irəli sürdüyü bütün qərarlar sözsüz yerinə yetirilməli idi. Belə olmasaydı, biz yəqin ki, Böyük Vətən müharibəsində qalib gələ bilməzdik.

Artıq qırx ikinci ilin yazı başlayırdı.

# VIII FƏSİL

Dünyanın ürəyi Qarabağda döyünürdü, sanki elə burada da dayandı. Bəli, dünya öldü o gün. Artıq o gündən sonra "Dünya" adlı bir varlıq olmadı, ən azı Qarabağ həqiqətlərini dərk edənlər üçün bu belə idi, belə də olmalı idi. Qarabağ uğrunda döyüşənlər – öz elini, obasını, evini, ailəsini, ismətini, namusunu qorumaq üçün əlinə keçən hər hansı silaha sarılanlar üçün belə idi. Onlar üçün hər şey adiləşmiş, mənasını itirmişdi. Əsir düşən hər azərbaycanlı ilə, işğal edilən hər qarış torpaqla, hər bir Şəhidlə birlikdə "Dünya" öldü.

Amma heç kim onun üçün yas saxlamadı, saçlarını yolmadı, kimsənin gözlərindən bir damla da yaş çıxmadı, çoxları sadəcə seyr edib "olduğu nə idi ki, öldüyü də nə olsun" dedilər, son nəfəsini dərib canını tapşıran "Dünya" haqqında.

Bax, belə bezmişdi insanlar bu dünyadan, olduğu ilə öldüyünün fərqi yox idisə deməli axırı çatmışdı onun. Sonu çatmış "Dünya"nın son sözünü də eşidən olmadı. Ona görə yox ki, o son anda nəsə demədi. "Dünya" dedi, qışqıraraq, haray salaraq, saçlarını yolaraq – Xocalı, Qaradağlı soyqırımında süngüyə keçirilən körpələrin səsi ilə, övladlarını al qan içində görən anaların fəryadı ilə, işgəncələrə dözməyən əsirlərin naləsi ilə, əsir düşməsinlər deyə özlərini qayadan atan qız-gəlinlərin tük ürpədən harayı ilə dedi "Dünya."

Lakin bu harayları kimsə eşitmədi. Çünki hamının başı qarışmışdı özünə. Hərə bir işin qulpundan tutub gününü keçirirdi, "az aşım, ağrımaz başım" deyənlə-

rin sayı, bu dünyanın qayğısına qalanların sayından dəfələrlə çox idi. Yazıq "Dünya." Əgər bilsə idi ki, onun üzərində gəzənlər, suyundan içib, yeməyindən yeyənlər, nəhayət ki, öləndə də ona qovuşmaqdan başqa çarəsi olmayanlar vaxt gələcək ona arxa çevirəcəklər, bəlkə də başqa cür olardı.

Vay sizin halınıza, bir də vay bizim halımıza, yazıqlar olsun sizə və bizə, ayağımıza daş dəyəndə, başımız ağrıyanda dərhal həkim axtarırıq, bu boyda "Dünya"-nın ürəyinin dayandığına, oldüyünə göz yumduq. Ötən əsrdə Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda və bütöv Azərbaycanda törədilən qırğınları unutduq, yenidən erməniləri, rusları, farsları özümüzə qardaş tutduq, ocağımızın başında oturtduq, qız aldıq, qız verdik. Qanımızı it qanına caladıq. Öz milli adətlərimizi köhnəlmiş sayıb, onların adətlərini mənimsədik. Yaslarımızı yaslarına, toylarımızı toylarına bənzətdik, qadınlarımız hicabdan, kişilərimiz papaqdan imtina etdi. Özümüzdən ayrılıb özgələşdik. Bu halımızla "Dünya"-nın Xocalıda, Qaradağlıda, Ağdabanda can verdiyini duya bilərdikmi? Əsla yox!!!

İlahi, doğrudanmı dünyanın axırıdır? Doğrudanmı "O gün" bizim üçün, bu gündür?... Yoxsa biz indiyə qədər yaşayan insanların ən şərlisiyik. Axı bizim ən böyük Mürşidimiz, Sənin bizi doğru yola qaytarmaq üçün göndərdiyin sonuncu elçi (Allahın Ona salamı olsun) demişdir: "Qiyamət ən şərli insanlar üzərində qopacaq." Ya Rəbbim, sən bizi o gündən – dağların kül kimi ələndiyi, insanların dəhşətlə dirildiyi, valideyinlərin övladlarından imtina etdiyi, hər kəsin yalnız özünü düşündüyü günün əzabından qoru.

Adil ruhani ailəsində böyümüşdü, gözlərini açıb böyüklərin evdə namaz qıldığını görmüşdü və özü də ağlı kəsəndən ibadətlə məşğul idi. O, bilirdi ki, uca Rəb-

bimiz əbəs yerə öz qullarına bəla göndərmir. "Əgər bəla gəlmişdisə, deməli, biz ona layiqik, onu öz çirkin əməllərimizlə qazanmışıq. Deməli, haradasa bizə göstərilən düz yolu azmışıq. Bəli, biz bunu qazanmışıq. Başımıza gələn bütün müsibətlər qazancımızın müqabilindədir. Kim bilir, hələ nələrin şahidi olacağıq."

Min doqquz yüz doxsan birinci ilin noyabrında könüllü olaraq Azərbaycanın müdafiəsində iştirak etmək üçün əlinə silah alanların biri də o idi.

– Balaşka, hardasan?

– Atam balası, görmürsən məni? Sənin sağ tərəfindəki mənəm.

– Yuxarı bax, orada bir "BMP-2" bizi bezdirib, gülləyə gəlmir çaqqal, mövqeyimiz imkan vermir, onun işinə bax.

Bu İsmayıl idi, düşmən mövqeyindən, aramsız atəşlə susmaq bilməyən "BMP"-ni daha yaxşı mövqedə olan Adilə həvalə etdi.

– Atam balası, bax gör nə edirsən? Lap Qəmlo demiş "nə gülləyə gəlir." – Mirələm radioda ona ürəkdirək verdi.

– Darıxma. Ürkütmə çaqqalı – və atəş.

– Əhsən sənə balaşka, afərin atam balası, eşq olsun sənə Adil.

Bütün ekipajlar hərəsi bir tərəfdən alqışladılar. Arif, Adil və Mirələm bir tankın heyətində idilər. Döyüşdən sonra Mirələm üzünü ona tutub dedi:

– Atam balası, sən əvvəllər, lap əvvəllər deyirəm ha, ovçu olmamısan ki?

– Yox, nədir ki, sözünün mustafasını de, görüm nə demək istəyirsən?!

– "Sərrast atırsan, mənim balam." Ona görə deyirəm. Ha-ha-ha.

Hər ikisi güldü.

– Sən nə qədər bilirsən, atam balası? Elə bil bütün kinoları əzbərləmisən. Yoxsa hamısının ssenarilərini sən yazmısan. Nə deyirəmsə, hərəsinə bir kinodan sitat gətirirsən.

– Əsas o deyil, əsas odur ki, vaxtında hərəkət etməyi bacarasan—deyə o cağ əlinin şəhadət barmağı ilə göyü və yeri göstərdi.

Yenidən hər ikisi qəh-qəhə ilə güldülər.

– Mən demişəm də müharibə bitəndən sonra, sənin vurduğun texnikaları yığsalar, Azərbaycan öz dəmir balansını təkcə sənin hesabına yüz faiz ödəyəcək.

– Ağ eləmə, atam balası!

– Ə-ə, kəlça düz demirəm ki?...

Yenidən qəh-qəhə çəkib gülüşdülər.

– Atam balası, vaxt gələcək dünya üzrə tank yarışları keçiriləcək. İnanıram ki, o zaman finiş xəttini ilk keçən sən olacaqsan,— deyə Adil də ona kompliment dedi.

– Bəs sən onda nə edəcəksən?

– Mən o zaman səni ətrafımdakılara göstərib deyəcəyəm: "Bax, bu oğlan mənim sürücü-mexanikim olub."

– Deməli, sən mənim qələbəmlə özünə xal qazanacaqsan?

– Əlbəttə, burda nə var ki, atam balası?!

– Əşşi, özünüzü yormayın, biz o günü görməyəcəyik. – Bayaqdan söhbəti izləyən Arif müdaxilə etdi.

– Kəlça, ola bilər ki, sən görməyəsən. Biz ikimiz görəcəyik, doğru dedim atam balası?...

Adil cavab vermədi, baxışları batmaqda olan günəşin al rəngə boyadığı üfüqə sancılıb qalmışdı. Yoldaşları ondan daha heç nə soruşmadılar.

# IX FƏSİL

– Deyəsən, mən sizi çox yordum – deyə Məhyəddin kişi, oturduğu yerdən qalxıb baxçaya tərəf getdi. Kişi daha heç nə danışmaq istəmirdi bizə, deyəsən özü də yorulmuşdu. Danışdıqca həmin günlərə qayıtmaq, o günləri bir daha yaşamaq istəmirdi.

Kişi yanımızdan uzaqlaşan kimi, hərəyə bir siqaret yandırdıq, çünki onun yanında heç birimiz cürət edib siqaret çəkə bilməzdik. O, bunu bilməmiş deyildi, bəlkə də ona görə arabir bizə "deyəsən sizi çox yordum" deyib "fasilə" vermək üçün baxçaya gedirdi. Şəkilə ana samovarı yenidən yandırdı, masanın üstündə olan stəkanları deyinə-deyinə yığmağa başladı.

– Bu kişi də ki, sizə imkan vermədi ki, rahat yeməyinizi yeyib çayınızı içəsiniz. Başqa vaxt sözü kəlbətinlə ağzından çıxarmaq olmur, indi buna nə olub görəsən, bir dəqiqə dayanmır.

– Ay ana, işin olmasın, kişi öz həmkarlarını tapıb, bizim üçün çox maraqlıdır onun danışdıqları.

– Belə bir adama nəinki bizim, bütün Azərbaycan xalqının ehtiyacı var. Bəlkə də Müdafiə Nazirliyində kişi haqqında məlumatları yoxdur, olsaydı yəqin ki, ən azı təcrübəsindən istifadə edərdilər, – deyə siqaret tüstüsünü acgözlüklə içəri çəkən İlham dedi.

– Mirələm, a bala, samavara bax altı keçməsin, mən gedim sizə yemək gətirim, acından bir təhər oldunuz.

– Ay ana, narahat olma, biz hərbçi adamlarıq, ac qalmarıq. Dədəmin söhbətləri bizə hər şeydən irəlidir. Gör neçə illərdir bir yerdəyik, kişi heç mənə bu barədə

bir şey danışıb? Allah canını sağ eləsin bunların, yaxşı ki, gəliblər. Yoxsa heç nə bilməyəcəkdik o müharibədən.

Məhyəddin kişinin baxçanın ayağından yavaş-yavaş ağacın kölgəsində açılmış masaya tərəf gəldiyini görən İlham çəkdiyi siqareti son dəfə sümürüb dedi.

– Gəlir, gəlir. Atın siqaretləri.

Hamı bir-birinə baxıb güldülər. Keçmiş kəşfiyyatçı masaya yaxınlaşıb yerində oturdu. Biz hörmət əlaməti olaraq kişi yaxınlaşan zaman ayağa qalxdıq. Məhyəddin kişi əlini qaldırıb oturmağımıza işarə etdi. Bu zaman Şəkilə ana əlində gümüşü məcməyidə yeməkləri gətirib masanın üstünə qoydu. Üzünü ərinə tutub dedi:

– A kişi, uşaqları söhbətə tutma, qoy yeməklərini yesinlər. Bir azdan çıxıb gedəcəklər, kim bilir bir də nə vaxt gələcəklər.

Ananın səsindəki intizar açıq-aydın hiss olunurdu. Məhyəddin kişi nəsə demək istədi, ancaq nə fikirləşdisə sözünü dəyişdi.

– Sizə nuş olsun – dedi və ağır-ağır yerindən qalxıb evə tərəf getdi.

– Ay ana, sən neylədin? Bizə yemək yox, o kişinin söhbətləri lazımdır – deyə bayaqdan sakit dayanıb, kişinin yeni bir söhbətini gözləyən Səməd dərin bir təəssüf hissiylə dedi.

Mirələmlə İlham bərkdən güldülər. İlham üzünü Səmədə tutub istehzayla dedi.

– Sənə lazımdır, get otur kişinin yanında, nə qədər istəyirsən danışsın, sən də qulaq as. Biz yemək istəyirik, – üzünü Mirələmə tutub əlavə etdi – düz demirəm, qardaş.

Səməd ağzını açıb ona cavab verməyə macal tapmamış Mirələm onun sözünü kəsdi.

– Ayə, Kəlça, gələn səfər gələndə səninlə tək gələrik, bir neçə gün qalarıq bizdə, nə qədər istəsən dədəm

danışar, sən də qulaq asarsan. İmkan ver bir tikə yemək yeyək.

– A bala, bizim kişinin söhbətləri bitməz, həyatının yarısını davada keçirib. Söz-söhbəti günlərlə danışsa, bitən deyil. Sən Allah yeməyinizi yeyin, sonra yenə də gəlib danışar. Heç başqa vaxt danışan da deyil e e. Bilmirəm bu kişiyə nə olub bu gün.

– Düz deyir. Qoca vaxtında olsa da nəhayət ki, kişi özünə həmsöhbət tapa bildi – deyə Mirələm gülə-gülə əlavə etdi.

– İmkan verdiniz ki, kişi doyunca danışsın? – Səməd incik halda gileyləndi.

– Mənə elə gəlir ki, bizə doyunca danışmaq yox, doyunca yemək lazımdır, danışa-danışa sovet hökumətini yıxdılar – İlham Mirələmə göz vurub dedi.

– Boğazında qalsın, nə qədər yemək olar? Hara gedirsənsə, yeməkdən başqa heç nə fikirləşmirsən – deyə Səməd onların hər ikisinə cavab verdi. Yenidən İlham və Mirələm bərkdən güldülər. Səməd əlacının kəsildiyini görüb onlarla barışmağa məcbur oldu.

– Bunlara bax, qarınqulular...

– Səməd, tələsmə. Sabah o it yeməyən yeməyi yeyəndə deyəcəyəm sənə. O ki, çörəyin içini sıxırsan su tökülür ha a.., deyəsən bir iki gün ərzində unutmusan hamısını.

Yaxşı ki, Şəkilə ana onun dediklərini eşitmədi, yoxsa əməlli-başlı biabırçılıq olacaqdı. Çünki evdəkilər hamısı elə bilirdilər ki, onlar Qarabağda heç nədən korluq çəkmir. Daha bilmirdilər ki, Azərbaycan əsgərləri o zaman birini tapanda beşini tapmırdılar, bir qarın ac, bir qarın tox, əyni, ayaqları yalın düşmən qabağında dayanırdılar. Lakin ölməz ruhları var idi, milləti, torpağı sevən ürəkləri var idi. Bu gün orduya göstərilən qayğının, bəlkə də yüzdə biri o zaman yox idi.

Yeməklərini yeyib, həyatın növbəti əsrarəngiz günlərindən birini yaşamaq üçün döyüş bölgəsinə yola düşdülər. Bu, bəlkə də çoxları üçün dözülməz bir səhnə idi, onlar üçün isə həyatda izahı mümkün olmayan amillərdən ibarət həyat məvhumu ilə dolu günlər və uzun illərdən sonra yaradanın bəxş etdiyi tapıntı idi, hansıki istəsələr də onu poza bilməzdilər.

Çətinliklə də olsa Bərgüşaddan Ucara gələ bildilər. Ucarda bir taksiyə oturub Ağdama yola düşdülər. İlham qabaqda sürücünün yanında, Səmədlə Mirələm arxada oturdular. Yolboyu İlhamla Mirələm Səmədi lağa qoyub gülürdülər, Səməd isə onların bütün iradlarını təbii qarşılayır, sanki belə də olmalıymış kimi onlarla birlikdə qəhqəhə çəkib gülürdü.

– Hələ bir buna bax, özünü elə aparır ki, elə bil ki, bütün yolqırağı restoranlar bunun üçün işləyir. Ə-ə qardaş, gedən kimi yenə düşəcəyik, Oktayın menyusuna, zalım oğlunun əlindən su dammır, elə bil babasının malını verir. Verdikləri də, Allah göstərməsin...

– Ayə Kəlça, bəsdir də deyindin. Dədəmin canı, bununla yaxşı yemək-içməyə getmək olar. Dədəm kimi birisini calayarıq buna, o danışar, bu da qulaq asar, biz də yeyərik.

– Yavaş yeyin, boğazınızda qalar.

Hər üçü güldü, Mirələm üzünü Səmədə tutub sözünə davam etdi.

– Səməd, biz yemək yeyirik, sən isə söz. İşə bir bax, biz bir qab yeməklə doyuruq, bəs sən, görəsən sən neçə qazan söz yeyə bilərsən?

– Çox yemək yeyənə “qarınqulu” deyirlər, bəs sənin kimisinə nə deyirlər?

– Sözqulu, ha ha ha. – İlham müdaxilə etdi.

– Söz qazanda yox, kitabda, beyində, ürəkdə, insanın daxilində olur. Qaldı o biri tərəfə, nə istəsəniz deyə

bilərsiniz.

Yenidən üçü də güldü. Bir azdan araya sükut çökdü, bir neçə dəqiqə belə keçdi, birdən Səməd ondan soruşdu.

– Yaxşı, ay Miri "kəl" başa düşürük nədir, "kəlçə"ni də bilirik, bəs mənə de görüm "kəlça" nədir?

Mirələm güldü, ağzındakı qızıl dişləri bərq vurdu.

– Səməd, sən yenə də əvvəlki xasiyyətini tərk etməmisən? İstəyirsən ki, yenə aramızda qırğın düşsün? Mehribanlıqla bir tikə çörək yemişik, deyirsən indi burnumuzdan gəlsin? Yenə aramıza loo salmaq istəyirsən?

– Əşşi, de gəlsin. Yediyimizdən onsuz da heç nə qalmayıb, – İlham üzünü Səmədə tutdu – o qədər deyindi ki, heç bilmədik haramıza yedik.

Mirələm hərbi papağını çıxarıb yanına qoydu, arxaya daradığı qara saçlarına tumar çəkib hiyləgərcəsinə gülümsündü. Qabaqda oturan İlhamı göstərib dedi.

– Səməd, qaqa, axı sən belə işlərdə pərgarsan, tükü tükdən seçən adamsan, bunu başa düşməlisən. "Kəlça" bax beləsinə deyirəm.

İlham arxaya dönüb acıqlı-acıqlı onlara baxdı.

– Axır ki, birləşdiniz, daha sizə batmaq olmaz, ən yaxşısı, sizinlə barışmaqdır.

Kələ-kötür yolda sağa-sola burularaq şütüyən "Jiqulu"ni gülüş səsi doldurdu. Bayaqdan bütün söhbətlərin şahidi olan sürücü söhbətə qarışdı.

– Sizinlə birlikdə adam darıxmaz. Vallah, sizinlə adam ölümə də gedər, heç uff da deməz.

– Sən hələ nə görmüsən. Bir də ki, Ağsaqqal – İlham bu sözü xüsusi vurğu ilə dedi, – sən maşınını sür, diqqətin yolda olsun, bir də gördün ki, girdik badımcanlığa.

Söz kişini tutsa da, cavab vermədi. Maşın Bərdəni keçib Ağdama tərəf istiqamətləndi. Axşamüstü Uzundərədə idilər.

* * *

Həmin gün eşitdik ki, Qarabağda uzun zaman irəliləməyə imkanı olmayan ermənilər, orada olan rus komandanlığına narazılıq bildirmiş və onlardan irəliləməyi tələb etmişlər. Rus komandanlığı isə erməniləri sakitləşdirmək üçün onlara yalan informasiya verərək, guya əks tərəfdə "nayomnik"lərin döyüşdüyünü bildirmişdi.

Elə həmin gün onların hərəsini bir mövqeyə göndərdilər. Səməd Ədalət və Azadla birlikdə Abdal-Gülablı kəndləri istiqamətindəki mövqelərə göndərildi. Ayrı-ayrı tanklarda və mövqelərdə olmalarına baxmayaraq onlar tez-tez bir-biri ilə əlaqə saxlayırdılar. Səməd bir ay Abdal-Gülablıda qaldı. Abdal-Gülablı, üç tərəfdən düşmənin əhatəsində olduğu üçün cəbhənin ən çətin mövqelərindən sayılırdı.

Burada olduğu zaman "Səbail tank taboru"nda yeni heyətlərin yaradıldığını eşitdi. Həm də Rusiyada Tank Qoşunları məktəbində təhsil alaraq, Sovet Ordusu tərkibində Əfqanıstanda şərəfli döyüş yolu keçmiş, kapitan Azər Rüstəmovla birlikdə yeni təhsil almış zabitlərin – Əkbər Muradovun, Sakit Verdiyevin, Sakit Niftiyevin, Qaçay Quliyevin tabora gəldiyini eşitdi. Bu əlbəttə ki, bütün tabora yeni ruh verdi.

Çox keçmədi ki, Azər Rüstəmovun başçılığı ilə Ağdam cəbhəsində ən uğurlu əməliyyat sayılan və Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazılan "Naxçıvanik əməliyyatı" baş verdi. Bir neçə saat ərzində Azərlə Əkbərin bilik və bacarığı, tankçıların şücaəti ilə, erməni-rus qoşun birləşmələrinin işğalında olan altı kənd düşməndən təmizləndi. Indi Əsgəran tam olaraq Azərbaycan Ordusunun nəzarətində idi.

"Naxçıvanik əməliyyatı" kapitan Rüstəmovun başçılığı ilə başlandı. Əfqanıstanda dağlıq şəraitdə döyüş

aparmaq qaydalarını mənimsəyən kapitan, öyrəndiyi taktiki gedişləri Qarabağda tətbiq edərək çox qısa vaxt ərzində böyük müvəffəqiyyətə nail oldu. O, "Səbail tank taburu"ndan heç kimi tanımırdı. Uzundərədə döyüşə hazır olan altı ədəd tank heyətini düzdü, hamını bir-bir nəzərdən keçirdi. Sanki hərbi psixoloq kimi onların hər biri ilə çox qısa söhbət apardı, iti qartal baxışları ilə sıraya düzülənləri süzdü. Düzülmüş, tam hazır vəziyyətdə olan cərgələrin önünə keçib uca səslə onlara müraciət etdi.

– Siz ey Azərbaycanın ilk tankçıları! Mənim üçün sizin qarşınızda dayanıb söz deməkdən, sizinlə birlikdə döyüşə getməkdən böyük və məsuliyyətli ikinci bir iş yoxdur, dayandığım bu yer mənim üçün ən uca fəxarət kürsüsüdür. Bir şeyi unutmayaq ki, tankçılar ordunun vuran əlidir, bu gün burada dayananlar Həzi Aslanovun davamçılarıdır. Biz bu gün Azərbaycan tarixində yeni və şanlı səhifəni qızıl hərflərlə yazmağa başlayacağıq. Bu gün bu məsuliyyətli işi başlamaq sizinlə birlikdə mənə qismət olub. Bu gündən etibarən sizin komandiriniz mənəm, hamı bir nəfər kimi mənim əmrlərimə sözsüz tabe olmalıdır və müzakirə etmədən əməl etməlidir. Verdiyim bütün əmrlərə görə cavabdeh mənəm. Bu mənim sizə ilk verdiyim əmrdir. Vətən bizi gözləyir, işğalda olan, düşmənlərin murdar ayaqları altında tapdalanan müqəddəs torpaqlarımız bizi səsləyir. Əsir düşən, qardaş və bacılarımızın fəryadı, şəhidlərimizin ruhu bizi haraylayır. Qarşımızda təcrübəli rus ordusu dayanır. Biz tək və köməksiz deyilik, Allah bizimlədir. Düşmənin kim olmasından asılı olmayaraq, qələbə bizimdir. Əgər aramızda ölümündən qorxan varsa, sıralarımızı tərk etsin, bizə kəfən geyinmiş, şəhidliyi hər şeydən uca tutan qəhrəmanlar lazımdır. İndi isə hamınız öz tankınıza qalxın, nə çatışmazlıq varsa aradan qaldırın,

hər an mənim əmrimi gözləyin. Mən sizə güvənirəm və sizinlə fəxr edirəm.

Nitqini bitirib geri döndü və qərargaha tərəf getdi. Onun inamlı və alovlu çıxışı sıradakıları coşdurdu, onlara yeni ruh verdi. Sıraları heç kim tərk etmədi, hamı döyüşə can atırdı.

Döyüş elə həmin gün başlandı. İki istiqamətdən – Şelli və Aranzəmin kəndləri istiqamətindən Naxçıvanik kəndinə hücum başlandı. Bu günə qədər belə döyüş olmamışdı. Kapitan Rüstəmov bəlkə də Həzi Aslanovdan sonra dünyada ilk zabit idi ki, öz ekipajı ilə hücuma atılaraq, həm də döyüşü idarə edirdi. Hər şey onun nəzarətində idi.

* * *

– "Katok 24" "Katok-16"-yam, necə eşidirsən.

Bu Ağababanın səsi idi.

– "Katok 16" yaxşı eşidirəm. Nə lazımdır?

– Bizdə puşka işləmir, irəli keçirəm. Qoy düşmənin diqqəti bizə yönəlsin. Bizi vurmaq istəsələr, siz onları vurarsınız.

– "Katok-16," gözlə, komandirə məlumat verim, belə etmək olmaz, sən özünü qurban verirsən.

Artıq gec idi, onlar irəlidə şütüyürdülər. Düşmən qarşıdakı yüksəklikdən irəlidə gedən "Katok-16" nı atəşə tutdu. Lakin sürətlə və manevrlə irəli gedən tankı vura bilmədilər. Qarşıdakı yüksəklikdən "BMP-2" dayanmadan irəlidə gedən Ağababagilin tankını atəşə tuturdu.

– İsmayıl, gördün haradan atırlar!?

– Darıxma, Ağa!...

İsmayıl onları atəşə tutan "BMP-2"ni elə birinci mərmi ilə susdurdu.

– Yuxarıda top var, bizi vurmağa hazırlaşır.

– Narahat olma.

Top macal tapmadı atəş açmağa, İsmayıl İsmayılovun atdığı mərmi onu dağın döşü ilə aşağı yumaladı. Alqış səsləri efiri bürüdü. Həmin gün "Katok-24"ün heyəti üçün çox uğurlu oldu. Heyət hücumun əsas hissəsini iki nəfərlə keçirməsinə baxmayaraq, bütün işlərin öhdəsindən gələ bildi. Heyət komandiri baş leytenant Əkbər Muradov, hücumu dayandırmadan nasazlığı olan iki tankı təmir etdi. Sürücü-mexanik İsmayıl Ələkbərovun və tuşlayıcı atıcı İsmayıl İsmayılovun göstərdikləri şücaəti isə sözlə təsvir etmək mümkün deyil.

"Naxçıvanik əməliyyatı" Azərbaycan Ordusunun ən uğurlu əməliyyatlarından biri idi. Bu əməliyyatla ordumuz, məğlubiyyətlərə son qoydu, qarşıdakı erməni-rus qoşun birləşmələrinə, onların qarşısında nizami ordunun dayanması mesajını verdi. Ruslar isə məğlubiyyətin səbəbini müxtəlif istiqamətlərə yönəldərək sudan quru çıxmağa çalışırdılar.

* * *

Aranzəmin kəndi istiqamətindən hücuma keçən iki tanka kapitan Rüstəmov, Şelli istiqamətindən hücuma keçən üç tanka isə baş leytnant Muradov rəhbərlik edirdi. Ümumi döyüşə rəhbərlik və cavabdehlik isə kapitan Rüstəmovun üzərində idi.

Qarşıda duruş gətirə bilməyən, qorxuya düşüb olduqları mövqeləri tərk edərək qaçan erməni-rus qoşun birləşmələri, qərargahlarına verdiyi məlumatlarda deyirdilər.

"Hücum edənlər heç də azərilər deyil, dünyanın ayrı-ayrı yerlərindən pulla tutulmuş döyüşçülərdir, on-

ların qarşısını saxlamaq mümkün deyil." Hətta Qarabağda yerləşən Rusiyaya məxsus hərbi birləşmənin komandanlığı bu barədə Moskvaya da məlumat verərək, təcili tədbirlərin görülməsini bildirmişdi.

Lakin təəssüflər olsun ki, Rusiya kəşfiyyatı öz agenturası vasitəsi ilə bu döyüşdə kimlərin iştirak etdiyini çox tez öyrənə bildi.

Hücuma keçənlər bir neçə saatdan sonra altı kəndi işğaldan azad edərək Naxçıvanik kəndində uşaq baxçasının həyətində idilər. Kapitan Rüstəmov həyətə qoyulmuş masanın üstündə xəritə üzərində işləyirdi.

* * *

– İsmayıl məni görürsən, səndən solda gedirəm.

– Görürəm Ağa, nə lazımdır?

– Bizdə puşka işləmir, ancaq pulemyotdur.

– İndi Əkbərə deyərəm. Kamandir, soldakı tankda Ağagildə puşka işləmir.

– De ki, sürəti azaltsınlar, tankları qoşalaşdırın, mən onların yanına keçməliyəm.

– Oldu, tankları qoşalaşdırmaq. Ağa, sürəti azaldın, biz sizə yaxınlaşırıq. İsmayıl kişi, sürəti artır, soldakı tanka yaxınlaş. Adil, atam balası, biz bir az ləngiyəcəyik, bizi qoru.

– Oldu, narahat olmayın.

Həmin döyüşdə "Katok-24"-ün tuşlayıcı-atıcısı İsmayıl İsmayılov bütün döyüşə nəzarət edirdi, onun radiostansiyası bir an belə susmurdu. Heyət komandiri baş leytenant Əkbər Muradov həm də hücumda olan tağıma rəhbərlik edirdi, döyüş gedə-gedə nasazlıq yaranan tankları təmir edir, vaxt tapan kimi heyətdə tuşlayıcı-atıcı həm də komandir vəzifəsini icra edən İsmayıl

İsmayılova kömək edirdi. Dünya hərbi məktəblərində o döyüşü dərindən öyrənib analiz etsələr inanıram ki, belə bir döyüş olmayıb. O döyüşdə iştirak edənlər əsl qəhrəmanlar idilər, hər an Vətəni düşünür, onun üçün döyüşürdülər.

– Ağa tankdan çıx, Əkbərə imkan ver puşkaya baxsın.

Ağababa tankdan çıxdı, Əkbər cəld onun yerinə keçdi, tanklar eyni sürətlə irəliləyirdilər. Əkbər bir anlıq başını çıxardıb Ağababanı gördü.

– Ağa, sən keç mənim yerimə, İsmayıla kömək elə.

– Oldu.

Döyüş zamanı belə halların baş verməsi artıq bizim üçün adi hala çevrilmişdi. Hamı bir-birinə kömək edirdi. Nəhayət, uşaq baxçasının yanına çatdıq. Azərgil burada idilər. O, bir-bir uşaqları bağrına basıb ilkin qələbəyə görə təbrik etdi.

Bir az sonra tanınmış telejurnalist Çingiz Mustafayev öz qrupu ilə gəldi, onlar dörd nəfər idilər. Çingiz bizimlə mehribancasına görüşüb Azərə yaxınlaşdı.

– Kamandir, təbrik edirəm, olar səndən müsahibə alaq, bugünkü qələbəni işıqlandırmamaq ən azı tarix qarşısında cinayətdir.

Azər masanın üstünə doğru əyilib xəritə üzərində işləyirdi. Başını qaldırmadan ona cavab verdi.

– Birincisi, siz bura necə gəldiniz? İkincisi, mən müsahibə vermək fikrində deyiləm, bax, bu qəhrəmanlardan al müsahibəni. Onların qəhrəmanlıqları sayəsində bu uğuru qazanmışıq, üçüncüsü isə, mənim müsahibə verməməyimin səbəbləri var. Yox, yox qardaş müsahibəni məndən almayın. Xahiş edirəm məni rahat buraxın, mən döyüşçü babayam, imkan verin döyüşümü aparım.

Çingiz əl çəkmədi.

– Sən istəmirsən ki, illər keçəndən sonra bu kadrlara baxıb desinlər ki, bizim belə igid döyüşçülərimiz olub? Bu gün biz Səmədbəy Mehmandarovla, Əliağa Şıxlinski ilə, Həzi Aslanovla fəxr edirik, fəxr edirik ki, bizim belə kamandirlərimiz olub. Onların keçdiyi yol bizə, bizim gələcək nəsillərə örnəkdir. Axı sən niyə razı deyilsən, mən bunu başa düşə bilmirəm?

– Çingiz, Əfqanıstanda olanda bir sovet jurnalisti gəlmişdi, məni televiziya çəkmək istəyirdi. Hər dəfə qaçırdım ondan, amma bir dəfə qaça bilmədim, məcbur olub müsahibə verdim, elə həmin gün mən yaralandım, jurnalist isə həlak oldu, istəmirəm ki, bu bir daha təkrar olsun. O vaxt özümə söz vermişdim ki, bir də müsahibə verməyəcəyəm. Bir də ki qardaş o qədər müsahibə vermək üçün can atanlar var ki, gedin, onlardan götürün də, gərək elə mən olam. Ürəyimə damıb ki, müsahibə versəm o gün yenə də təkrar olunacaq.

– Azər, qardaş, elə şeylərə inanma, o bir təsadüfdür başına gəlib. Bir də ki, bu müharibədir, hec kəs heç nədən sığortalanmayıb.

Azər narazılıqla başını bulayıb susdu. Nəhayət ki, Çingiz istədiyinə nail ola bildi.

– Yaxşı, nə deyirəm gəlin, mən hazıram.

Kapitan Rüstəmov masadan uzaqlaşdı, yaxınlıqda olan ağaca söykənib dayandı. Operatorlar dərhal işə başladılar.

– Yox, orada yox, zəhmət deyilsə tankın üstünə çıxın, şlemafonu da geyinin, döyüşdə olduğu kimi.

Müsahibə yarım saata qədər vaxt apardı, sonra yemək gəldi. Yeməkdən sonra Çingiz ön cəbhəyə getmək istədiyini bildirdi.

– İndi uşaqlar səni apararlar – sonra dönüb tankın üstündə dayanan İsmayıla dedi – İsmayıl tankı işə salın, Çingizgili ön cəbhəyə aparın.

– Oldu kamandir.

Atışma isə hələ də səngiməmişdi. Azər hamını yığıb növbəti planlarla tanış etməyə başladı. Hər bir komandir tankdan texnikanın döyüş hazırlığı barədə soruşdu, hər tankda neçə mərmi qaldığını dəftərçəsində qeyd etdi, xəritəyə yaxınlaşıb dedi:

– Hə, deməli belə, biz tapşırığın minimum hissəsini yerinə yetirdik. Hazırda buradayıq, düşmənin əsas qüvvələri bu istiqamətlərdə möhkəmlənmək istəyir, yəqin ki, bu mövqelərdən bizi atəşə tutacaqlar. Hələlik bir neçə saat dincəlməyə vaxtımız var, nə bacarırsınızsa istirahət edin. Bir azdan yeni hücuma başlayacağıq. Qarşıdakı hündürlükləri tez bir zamanda ələ keçirməliyik, indiki mövqelərlə kifayətlənmək olmaz. Əsgəran tam olaraq bizim nəzarətimizdədir. Əgər biz Kətik dağını götürsək, həm mövqe, həm də əhval-ruhiyyə cəhətdən üstünlük tam şəkildə bizim tərəfimizdə olacaq, həm də Xankəndi ovcumuzun içində olacaq. Kətiyi götürmək hücumun maksimum hissəsidir. Mən indi kamandir briqada ilə danışacağam, ona hər şeyi ətraflı başa salmaq lazımdır, ola bilsin ki, bizə əlavə kömək də lazım olsun. Danışmışam indi bizə mərmilər gətiriləcək, tankları döyüşə hazır vəziyyətə gətirmək lazımdır. İndi isə azadsınız.

– Ayə kəlça, sən hansı sürətlə gedirdin ki, mən sənə çata bilmirdim? – Mirələm yanında oturan Elxandan soruşdu.

– Bu təlim deyil ki, istədiyin kimi sürəsən, müharibədir e-e qardaşım, müharibə. Burada sürət və manevr çox şeyi həll edir. Nəyi bacarırdımsa onu da sürürdüm.

Atılan mərmilərin səsindən hara düşəcəyini təqribi olaraq təyin etmək olurdu. Düşmən mövqelərindən uşaq baxçasının həyətini vurmaq çətin olduğu üçün mina atanları işə salmışdılar. Ruslar heç nəyi əsirgəmədən Naxçıvanik kəndini cəhənmə döndərirdilər. Hər

tərəf yanırdı. Azərin dedikləri doğru çıxdı. Yalnız bir yol qalırdı ki, bu da düşməni qarşıdakı mövqelərdən qovub çıxarmaq idi. Azər hələ də masanın üstünə əyilərək xəritədə nəyi isə diqqətlə axtarırdı, sanki atılan mərmilərin səsini eşitmirdi.

Bu arada bir neçə mərmi bizim olduğumuz yerin lap yaxınlığına düşdü, partlayışın gücündən baxçanın pəncərələri çilik-çilik olub töküldü, lakin heç kim reaksiya vermədi. Kapitan Rüstəmov masadan aralanıb bir az aralıda yaşıl otların üstünə uzandı və elə bil mərmilərin səsini yalnız indicə eşitdi, Adil ona yaxınlaşdı.

– Kamandir nə edək? Bəlkə çıxıb cavablarını verək. Biz atmadıqca bunlar daha da qudururlar.

– Lazım deyil, dincəlin, yorulub dayanacaqlar. Bu ruslardır, yəqin ki, ermənilər yenidən onlara təzyiq ediblər, onlar da mərmiləri hara gəldi atırlar. Mən bu vicdansızları yaxşı tanıyıram.

Doğrudan da bir müddət sonra mərmi yağışı səngidi. Arabir atılan top mərmiləri uzaqda partlayırdı. Lakin bu çox az çəkdi, mina atanların səsi yenidən Naxçıvaniki ağuşuna aldı.

Bir anda baxçanın həyəti toz dumanına büründü, kapitan Rüstəmovun lap yaxınlığında mərmi partladı. Yaxşı ki, bizim kəşfiyyatçılardan Şahin vaxtında tərpənib özünü onun üstünə ata bildi. Azərin bədəni qurşağa qədər qəlpələrlə parça-parça olmuşdu. Onu təcili olaraq hospitala çatdırmaq lazım idi. Təsadüfən yoldan keçən "UAZ" markalı maşını saxlatdırdılar. Kapitan Rüstəmovla Şahini həmin maşınla Ağdamdakı hospitala yola saldılar. Rüstəmovun göstərişi ilə İsmayılov da onlarla getdi.

– İsmayıl, deyəsən bu da mənim sonumdur. Görünür, bu hücumu sona çatdırmaq mənə qismət deyilmiş. Yadınızda saxlayın, hücumu dayandırmaq olmaz, qarşıdakı yüksəklikləri mütləq götürmək lazımdır, çətini

oraları alana qədərdir, o mövqeləri alandan sonra vəziyyət yaxşılaşacaq. Uşaqlara de ki, özlərini qorusunlar. Bir də... – onun səsi qırılırdı – bir də mən ölsəm, oğluma deyərsiz ki, heç bir döyüşdən çəkinmədim, düşməndən qorxmadım, əsl qəhrəman kimi döyüşdüm. Qoy onun xatirələrində bir qəhrəman kimi qalım... – O susdu, gözlərini yumub alt dodağını dişi ilə sıxdı, görünür ağrı öz işini görürdü – Çingizi görüb deyərsən, əgər qismət olsa məni tapsın, mütləq tapsın. Ona deyiləcək sözüm var, burada deyə bilməzdim.

Bir müddət sonra hospitalın həyətinə daxil oldular. Tibb işçiləri ilə birlikdə hər iki yaralını içəri apardılar. Azər həkimin çantasını dartıb əlindən aldı və içərisindən iki ağrıkəsici götürüb paltarının üstündən hər iki ayağına vurdu. Bir az rahatlandı, qoynundan çıxardığı xəritəni İsmayıla uzatdı.

– Bunu mütləq kamandir briqadaya çatdır, orada göstərilən mövqeləri dayanmadan vursunlar, əclaflar o mövqelərdə cəmləşiblər, İsmayılov, birbaşa ora get, Kamandirə de ki, dayanmadan vursunlar. Get, daha buralarda ləngimə.

İsmayıl hospitalın həyətinə çıxanda hərbi tibbi yardım maşını növbəti dəfə həyətə daxil olurdu, içəri aparılan adamın Çingiz Mustafayev olduğunu gördü. Yadına Azərin Çingizə dediyi sözlər düşdü. “Çingiz, Əfqanıstanda olanda, bir dəfə müsahibə verdim, elə həmin gün, mən yaralandım, jurnalist isə həlak oldu, istəmirəm ki, bu bir daha təkrar olsun. O vaxt özümə söz vermişdim ki, bir də müsahibə verməyəcəyəm. O qədər müsahibə vermək üçün can atanlar var ki, gedin, onlardan götürün də, gərək elə mən olam. Ürəyimə damıb ki, o gün yenə də təkrar olunacaq.”

Onsuz da qanı qara idi, bundan sonra əhvalı daha da korlandı. Başını yırğalaya-yırğalaya həyətdən çıxdı.

Uzundərəyə briqada komandirinin yanına gedib, Azərin dediklərini çatdırdı. Birdən-birə çox yorulduğunu hiss etdi, ayaqlarından sanki daş asılmışdı. Amma dincəlməyə vaxt yox idi, təcili uşaqların yanına, Naxçıvanikə qayıtmalı idi.

O, Naxşıvanikə çatanda artıq hava qaralmışdı. İndi daha gündüz olduğu kimi qızğın atışma yox idi, arabir kiçik çaplı silahlardan atılan güllələr gecənin qoynuna sancılaraq sükutu pozurdu. O, başa düşürdü ki, gecələrin özünəməxsus təhlükələri var.

Yadına bir atalar sözü düşdü: "Gecənin xeyrindən, gündüzün şəri yaxşıdır." Beynində bu müdrik sözü xırdalamağa, çözməyə başladı. Ağlına bir şey batmadı, ürəyində özünə sual verdi. "Axı niyə belə olur? İstər gecə olsun, istərsə də gündüz, xeyirlə şər eyni ola bilməz axı. Bəs niyə atalar gündüzün şərini gecənin xeyrindən üstün tutublar?" indi o həm gecədən, həm də gündüzdən xeyir arzulayırdı, gələn şərləri isə heç yadına salmaq belə istəmirdi. Başını bulayıb bu fikirlərdən kənar olmaq istədi. Çox yorulmuşdu, indi o yalnız dincələnə qədər uzanmaq, az da olsa gözünün acısını almaq istəyirdi. Bunun üçün ona qu tükündən yastıq, ya da qalın yorğan-döşək lazım deyildi, bir neçə saat toxunulmaz vaxt kifayət edərdi. Bəli, əsas o vaxt, o zaman lazım idi ki, indi İsmayıl və döyüş yoldaşları onu tapa bilmirdilər.

Naxçıvanikə çatanda hamı səbirsizliklə onu gözləyirdi, gəldiyini görüb hamı onun ətrafına yığıldı.

Kapitan Rüstəmovdan sonra tankçılar özlərinə yeni bir komandir seçmək üçün kiçik bir iclas etdilər, lakin heç biri belə bir məsuliyyətli yükün altına girmək istəmirdi. Hamı Adili dilə tutub razı salmaq istəyirdi, o isə işin məsuliyyətini başa düşür və razılıq vermirdi.

– Atam balası, narahat olma, biz hamımız sənə kömək edəcəyik. Hamının sənə böyük hörməti var,

hamı səni eşidir, buna görə də səni irəli veririk, narahat olma hər şey yaxşı olacaq – deyə Ağababa dedi.

Artıq heç bir çıxış yolu olmayan Adil razılaşmağa məcbur oldu. Həmin gecə hamı növbə ilə dincəldi, təkcə Adildən başqa. O, tez-tez mövqeləri yoxlayırdı, bir-bir tankları gözdən keçirirdi, dincəlmək istəsə də gözlərinə yuxu getmirdi, səhəri diri gözlü açdı. İmkan tapan kimi namazını qıldı, əllərini göyə açıb görmədiyi, lakin daima onun varlığına hakim kəsilən Rəbbindən bütün əsgərlərə salamatlıq dilədi, günahlarının bağışlanmasını istədi. O, bunu elə edirdi ki, ona kənardan baxan olsaydı, təslim olduğu bir kimsənin qarşısında dayanıb müti qul kimi ona yalvardığını zənn edərdi. Adilin kim olduğunu başa düşmək üçün bu səhnənin şahidi olmaq kifayət idi.

Səməd bu hadisənin təsadüfən şahidi oldu, bu barədə ondan nə o zaman, nə də sonralar heç nə soruşmadı, bütün bunlar ona illər keçəndən sonra aydın oldu. Yalnız uzun zaman sonra onu yaxından tanıya bildi, bu bəlkə də uzun bir zaman idi, lakin o sevinirdi, sevinirdi ona görə ki, heç olmasa gec də olsa onu tanıya bilmişdi.

Adil əsl İNSAN idi, böyük hərflərlə tarixin köksünə həkk edilmiş İNSAN. Bütün varlığı ilə Yaradana təslim olan, Yaradanın insana qoyduğu qadağalardan çəkinən, göstərdiyi düz yolla gedən və son anda onun vasitəsilə mükafatlandırılan Adəm övladı, Adil!!!

Onu tanımaq, onunla birlikdə, çiyin-çiyinə bir cəbhədə olmaq, bir qabda yemək, su içmək, eyni havanı udmaq ən böyük nemət deyildimi?!

# X FƏSİL

"Böyük Vətən müharibəsi bizim üçün çox ağır başladı, hər tərəfli sıxıntı içərisində idik. Bir yandan ümumi cəbhədə olan uğursuzluğumuz, digər tərəfdən isə aclıq və səfalət bütün ölkəni bürüməkdə idi. Artıq SSRİ-nin sənaye potensialının böyük bir hissəsi Hitler Almaniyası tərəfindən darmadağın olmuşdu, bir ilə yaxın idi ki, ölkənin ikinci paytaxtı sayılan Leninqrad mühasirədə idi və bu təhdid Moskvanı da gözləyirdi."

Məhyəddin kişi bir an duruxub yerini rahatladı, qarşısındakı soyumaqda olan çaydan bir qurtum içdi.

"O müharibə çox dəhşətli hadisələrlə dolu idi. Ümumiyyətlə müharibələr istər qalib gələn, istərsə də məğlub olan ölkələrə tam olaraq uğur gətirmir, bir tərəfdən qazanan ölkələr, digər tərəfdən itirir və bu itkilər ya ümumiyyətlə bərpa olunmur, ya da onların bərpası üçün uzun zaman lazım olur. Qalib gələn ölkələrdə itkilər gözə görünməsə də, qazanılan uğurlardan böyük olur. Bu isə ən çox özünü o ölkələrin cəmiyyətlərində göstərir. Cəmiyyətin əvvəlki vəziyyətə qayıtması çox çətin proses olduğu üçün, əksər hallarda bu baş vermir, daha rahat və asan istiqamətə yönləndiyi üçün mənəvi cəhətdən xəstə cəmiyyət formalaşır. Bu da zaman keçdikcə bütün dünyaya sirayət edir. Ruhən xəstə cəmiyyətlərin qurduqları strukturlar, verdikləri qərarlar da onların xəstə ruhlarının məhsuludur.

Buna ən bariz misal olaraq SSRİ-ni və faşist Almaniyasını göstərmək olar. Bu iki ölkənin hər ikisi, artıq insanlığa qarşı başqa münasibətdə idi. Məsələn, ölməmək

üçün mühasirədə olan leninqradlılar bir-birinin ətini yeyirdilər, həmin illərdə kannibalizm əvvəlki illərə nisbətən dəfələrlə artmışdı, mühasirədə olanlar yaxınlarının meyidlərini basdırmır, ondan ən yaxşı halda evlərini isitmək üçün yanacaq kimi istifadə edirdilər. Bu hələ bizə məlum olanlar idi.

Müharibə insanları vəhşiləşdirir, ölüm, qan gördükcə heyvani hisslər bütün hissləri üstələyir, insan bir-birinin qanına susayır. Əgər bu günə qədər olan müharibələr baş verməsəydi, yəqin ki, hazırda olan insan cəmiyyəti də, tam başqa xarakterdə olardı. Bugünkü cəmiyyət əlli, yüz il əvvəlki müharibələrin yetişdirdiyi cəmiyyətdir. Müharibələrin yoxluğunda, bu tamamilə fərqli bir cəmiyyət ola bilərdi. Lakin bu mümkündürmü? Əsla yox!

Bu günlərdə bizə xüsusi bir tapşırıq verildi. Alman əsgərlərinin formasında Ukrayna ərazisində bir necə şahid saxlamaq şərti ilə, almanlara daha çox isti münasibət bəsləyən yaşayış məntəqələrinin əhalisini, ən vəhşi üsullarla məhv etməli. Sovet tərbiyyəsi görmüş bizlər üçün bu heç də qeyri-adi hadisə deyildi. Çünki Sovet İttifaqı, “Bizimlə olmayan bizim düşmənimizdir.” şüarı ilə yetişdirirdi bizi, biz yoldaş Stalinin düşündüyündən artıq düşünmək, ondan yaxşı fikirləşmək, ümumiyyətlə, heç bir işi ondan yaxşı edə bilməzdik. Biz dünyada Sovet rejiminin yetişdirdiyi yeni bir nəsil, yeni bir cəmiyyət idik ki, hansı ki, öz fikrimiz, düşüncəmiz yox idi. Bizim yerimizə partiya düşünür və qərar verirdi, biz yalnız icra edə bilərdik. “Stalin hakimiyyəti” dünyaya yeni düzən gətirdi, yeni cəmiyyət formalaşdırdı. Bu gün bizimlə birlikdə dünyanın əksər xalqlarının başına gələnlər həmin cəmiyyətin bəhrəsidir.

* * *

Mərkəzdən gələn əlaqəçi alman hərbçilərinin mundirlərini geyinərək bizim kimi bir neçə qrupla birlikdə Berdiçev, Vinitça və Lvov ətrafında olan bir neçə kəndin əhalisini qırmaq, kəndləri xaraba qoyaraq darmadağın etmək, bununla da Ukrayna xalqında almanlara qarşı nifrət oyatmaq tapşırığı ilə gəlmişdi. O, bunun üçün bizə lazım olan sənədləri də gətirmişdi. Bu çox ağır bir cinayət idi. Əlaqəçinin dediyinə görə bu, partiyanın və bilavasitə yoldaş Stalinin göstərişi idi. Biz bu tapşırığı yerinə yetirməmək əzmində deyildik.

Əlaqəçi getdikdən dərhal sonra, bizə təzə qoşulan Mixail Kazakov mənə yaxınlaşdı və öz iradını bildirib tapşırığın həyata keçməsinə qəti etirazını bildirdi.

– Belə olacaqsa, faşistlərlə bizim fərqimiz nədir? Mən tam etiraz edirəm və sizə də bildirirəm ki, bu işin yerinə yetirilməsinə etiraz edəsiniz. Axı biz hamımız bərabər hüquqlu sovet vətəndaşıyıq. O ərazilərdə yaşayanlar mənim doğmalarımdır. İndi öz vətəndaşlarımızı qırmalıyıq? Bir də deyirəm, mən etiraz edirəm. Əgər siz razısınızsa, o zaman mən sizdən ayrılıram.

Mixail haqlı idi, öz millətini qıra bilməzdi, bunu hamımız bir mənalı olaraq başa düşürdük, buna baxmayaraq Nikolay onunla mübahisə edir, müharibənin yazılmamış qanunlarını xatırladır, məğlubiyyətin qarşıdakı acı fəsadlarından, qalibiyyətin şirinliyinindən uzun uzadı danışır, onun düz qərar vermədiyini başa salmağa çalışırdı. Çünki Nikolay kommunist idi.

Əslində, doğrudan da bu çox ağır bir tapşırıq idi. Lakin partiyanın göstərişi olduğu üçün yerinə yetirilməli idi. Biz bilirdik ki, SSRİ-dən nə qədər uzaq olsaq da, bütün fəaliyyətimiz nəzarətdədir. Bir də ki, məni bir il olmazdı ki, partiyaya üzv qəbul etmişdilər, hətta bu

olmasaydı belə, mən sovet vətəndaşı idim. Mənim partiya və vətən qarşısında ən ümdə borcum ona vicdanla xidmət etmək idi. Partiyaya üzv olmağım isə bu məsuliyyəti birə on artırırdı.

O zaman indiki kimi deyildi, sovet dövlətində bir partiyalı sistem idi, belə müxalifət və ya buna bənzər şeylər yox idi. Bəlkə də o cür olması çox yaxşı idi, müharibə gedən bir dövlətdə hər kəs közü öz tərəfinə çəkmirdi. Bir də Stalinin vaxtında son zamanlar olduğu kimi deyildi, Stalin şəxsiyyət idi. O, öləndə mən artıq sovet hökumətinin indiki gününü görürdüm. Bilirdim ki, bir də elə bir şəxsiyyət dünyaya gəlməyəcək, onun dəmir iradəsi var idi, ən azı bu bizə belə göstərilirdi. Böyük Vətən müharibəsini biz onun sayəsində udduq. Mən bunu tam məsuliyyəti ilə deyirəm, o müharibəni Stalin uddu, başqa hər kim olsaydı bu mümkün deyildi.

O, bütün hakimiyyəti əlində cəmləmişdi, başqa cür də ola bilməzdi. Çünki o xarakterdə ikinci bir adam yox idi, əslində o zaman üçün bu, belə də olmalı idi. İnanın ki, ondan sonrakı dövlət başçılarından heç biri ilə Böyük Vətən müharibəsini udmaq olmazdı. O müharibə çox dəhşətli müharibə idi. Biz sovet vətəndaşları bunu bildiyimiz üçün Stalinə pərəstiş edirdik.

Axşama yaxın biz dördümüz oturub bizə verilən tapşırığı müzakirə etdik, özümüzü çıxılmaz vəziyyətdə qoymamaq üçün, hansı tədbirləri görəcəyimizi qətiləşdirdik. Elə gecə ikən qatarla Qərbi Ukraynaya yola düşdük. Biz hamımız alman hərbi geyimində idik və lazım olan sənədlərimiz də var idi. Mənimlə birlikdə dəstə üzvlərindən üçü alman dilini gözəl bilirdi, təkcə Mixail Kazakovdan başqa, o fransız dilində ana dilindən yaxşı danışırdı.

İki gündən sonra biz artıq Lvov yaxınlığında idik. Ukraynanın qərbinə getdikcə inkişaf etmiş Avropanın

ətrini daha çox hiss edirdik, ilk olaraq qərbi Ukraynada – Lvov yaxınlığında Vinniki kəndində yerləşdik. Lvov Ukraynanın Polşa ilə sərhədinin yaxınlığında yerləşir. Xasiyyətcə sakit təbiətli, az danışan, bir az da qapalı olan Mixail Kazakov indi dil boğaza qoymurdu. Buraların təbiətindən və camaatın qonaqpərvərliyindən dayanmadan danışırdı. Sanki bizim ürəyimizdə onlara qarşı rəhm yaratmaq fikrində idi.

Lakin bura gəlməkdə bizim məqsədimiz tamamilə başqa idi, verilən tapşırıq mütləq yerinə yetirilməli idi. Elə gəldiyimiz gün əlaqəçinin verdiyi ünvana getdik. Ünvanda beli donqar, yaşlı bir kişi yaşayırdı. Kişi qapını açıb bizi şübhəli baxışlarla süzdü.

– Sizə kim lazımdır? Bu evdə məndən başqa heç kim yaşamır.

Bu, ev sahibinin bizə dediyi parol idi və cavabını biz deməli idik ki, o, bizi evə buraxsın.

– Məgər qonağı sizdə belə qarşılayırlar?

– Gecənin bu vaxtı gələn qonaq, qonaq sayılmaz.

– Hər şey sayıla bilər, qonaqdan başqa.

Kişi ani olaraq üzümə baxdı, cəld qapıdan geri çəkildi.

– Əlbəttə, buyurun içəri, bir az tez keçin.

Biz cəld icəri keçdik, qoca əhalinin qarasına danışa-danışa qapını bağlayıb bizi içəri otaqlardan birinə apardı. Otağı çətinliklə işıqlandıran lampanı masanın üstünə qoyub bizə tərəf döndü.

– İndi buralarda vəziyyət xarabdır, hər qapıya kənardan dörd göz baxır. Elə bir şərait yaradıblar ki, qardaşın qardaşa ehtibarı qalmayıb, yalan-doğru hamı bir-birindən satqınlıq edir. İndi daha əvvəlki kimi yaxınlara gediş-gəliş də yoxdur. Elə bilməyin ki, almanlar edir bunu. Yox, əsla. Bunları edənlər də elə özümüzünkülərdir.

Mənim bu donqar belli kişinin əvvəllər NKVD-də işlədiyi haqqında məlumatım var idi. O, köhnə çekistlərdən idi və bu gün də öz fəaliyyətini bu formada davam etdirirdi.

– Narahat olma qoca. Hər şey düzələcək, sadəcə hər şeyin zamana ehtiyacı var.

– Yox, daha düzələcəyindən ağlım bir şey kəsmir. Canavar balasını doğulduğu gündən ondan ayırıb yanında saxla, o əhliləşib ev heyvanı olan deyil, elə ki, dişi bircə dəfə qana batdı, hər şeyi unudur. Siz bu insan tayfasını yaxşı tanımırsınız, canavar kimi bir şeydir, hələ ondan da betərdir.

Daha qoca ilə mübahisə etməyə dəyməzdi, bunun üçün də söhbəti dəyişdim. Bir də ki, uzun yol və gərginlik bizi artıq yormuşdu, az da olsa dincəlmək lazım idi. Sabah o biri qruplarla görüşəcəkdik. Sabaha qədər vaxtımız var idi.

Qoca bizə yer göstərib o biri otağa keçdi, biz dördümüz də döşəmənin üstündə uzanıb yatdıq. Hər ehtimala görə növbə ilə birimiz oyaq qalmalı idik. Mixail könüllü olaraq bu işi öhdəsinə götürdü.

Ertəsi gün bizim olduğumuz evə heç kim gəlmədi, axşama yaxın qoca harasa getdi, biz evdə qaldıq. O, yalnız gecə yarısı gəlib çıxdı.

– Mərkəzlə əlaqəçi ilə görüşməyə getmişdim, sizin tapşırığı ləvğ ediblər, növbəti tapşırığı almaq üçün siz Berdiçevə getməlisiniz. Orada kilsədə keşiş sizi gözləyəcək. Parol burada yazılıb, oxu və yadında saxla, sonra kağızı mənə qaytar, onu məhv etmək lazımdır.

Mənə uzatdığı kağızı açdım, parolu oxuyub ona qaytardım. O biri üç nəfərin üzünə baxdım, onlar da mənim kimi daxilən çox rahat görünürdülər, mən bunu onların gözlərindən oxuyurdum. Mixail Kazakov hamıdan çox məmnun görünürdü.

Sanki üstümüzdən dağ götürülmüşdü. Böyük bir günahla yüklənməkdən azad olmuşduq, sevinirdik. Bəlkə də hamıdan çox mən sevinirdim. Elə həmin gecə Berdiçevə getmək üçün yola çıxdıq. Necə qayıdacağımızı bilmirdik, bura gələndə əlaqəçinin köməyi ilə sənəd və yol məsələlrini həll etmişdik. İndi isə başımızın çarəsini özümüz tapmalı idik."

# XI FƏSİL

Bəzən çox qəribə hallar baş verir insanın həyatında. Adam özü də bilmədən Yaradana qarşı addım atır və günah etməsinə baxmayaraq özünə çox zaman bəraət də qazandırmağa çalışır. Belə hallar çox zaman insan qəfil zərbə alanda baş verir.

Həyat gözəldir, bu gözəlliyi dərk etmək üçün, bizə verilən əvəzsiz nemətlərin birindən – adi halda ən lazımsız saydığımız orqandan qısa zaman kəsiyində məhrum olacağınızı fikirləşin. Bunu təsəvvür etmək belə adama ağır gəlir. Özünüzü bir gözü kor, lal, kar, şikəst, topal, çolaq kimi təsəvvür etmək, necə də ağırdır. Etiraf edək ki, küçədə hər gün belə adamlarla rastlaşır və heç nə olmamış kimi başınızı dik tutaraq, təkəbbürlə yanlarından keçirsiniz. Bunun özü, Yaradana qarşı ən böyük üsyan deyilmi? Sizə əvəzsiz olaraq verilən hər bir nemətə görə Ona nə qədər təşəkkür etsəniz də, az deyilmi? Unutmayın ki, sağlamlıq ən böyük nemətdir.

İbrətamiz bir hekayət yadıma düşür.

“Bir gün kifayət qədər yaşlı bir kişi birdən-birə yatağa düşür, onu təcili olaraq xəstəxanaya aparırlar. Həkimlərin müayinəsindən sonra, qocaya təsəlli vermək üçün həkim üzünü ona tutub deyir:

– Babacan, buz baltası kimisən, elə bir xəstəliyin yoxdur. Yüngülvari müalicədən sonra səni evə yola salarıq. Amma bir problem var ki, bu da tibbi sığorta ilə əlaqədardır. Sizin tibbi sığorta kartınıza bəzi əməliyyatlar daxil olmadığı üçün onların pulunu nağd ödəmək lazımdır. Sizin yaxınlarınızdan kimsə varmı biz onlarla əlaqə saxlayaq?

Qoca etiraz olaraq başını bulayır.

– Yox, kimsəsizəm, bu dünyada məni Yaradandan başqa heç bir kimsəm yoxdur və heç buna ehtiyacım da yoxdur. Rəbbim mənə bəs edər. Bu günə qədər heç kimə, heç nəyə ehtiyacım olmayıb.

Həkim qarşısındakı nurani qocaya baxıb əlavə edir.

– Əməliyyat başlayan zaman süni nəfəs vermək üçün sizi aparata qoşmalıyıq, istifadə olunan oksigeni bizim hospital pulla aldığı üçün onun pulunu ödəmək lazımdır, bu elə də böyük məbləğ tələb eləmir.

Həkimin dediklərini eşidən qoca bir anlıq dərin fikrə gedir və birdən-birə bərkdən, hönkürtü ilə ağlamağa başlayır. Qocanın bu halına acıyan həkim ona təsəlli verərək deyir:

– Babacan, ağlamayın. Sizin əvəzinizə o pulu mən ödəyərəm, narahat olmayın.

– Həkim, pulum olmadığı üçün ağlamıram. Ona görə ağlayıram ki, bu ötən ömrümdə hətta bir udum nəfəsin də haqqını ödəmədən yaşamışam. Gör nə qədər məni və bu havanı Yaradana borcum var?!"

Həyat bizə rəngarəng görünür, hər şeyi öz rəngində görürük, hətta bəzən yuxularımızı belə rəngbərəng görürük. Həyatda hər şeyin öz mənası var. Hər şeydə məna axtarmaq isə bəzən mənasız olur.

Rəngarəng görünməyinə baxmayaraq əslində həyat yalnız ağ və qara rənglərdən ibarətdir, qalan bütün rənglər onlardan törəmədir. Qara və ağ, gecə və gündüz, zülmət və işıq, xeyir və şər, pis və yaxşı – bunlar daim bir-birinin əksi olaraq, əks qütblər kimi bir-biri ilə mübarizədə olan məfhumlardır. Həyat bütünlüklə bu iki məfhumun arasında qərar tutan zaman kəsiyidir. Bir tərəfdə ağ, o biri tərəfdə qara, tən ortada isə biz. Bu dünyanın işinə bax, zolaqların başlanğıc nöqtəsi, qara

və ağ rənglərin ayrıldığı mərkəz, bizim “Start” yerimiz, ya zülmətə, ya da işığa doğru. Yadına Cırtdanın nağılı düşür, hələ uşaqlıqdan hamını işıq gələn tərəfin qorxusu ilə çəkindiriblər.

Gülablıda bütün gecəni tankın üstündə oturub irəlidə düşmən mövqelərini nəzarətdə saxlayaraq həyatın rənglərini qəlbinin süzgəcindən keçirirdi. Görəsən nağıllarda zülmətlə işıq niyə əksinə təlqin edilib, işıqlı tərəf divlərin məskəni kimi çatdırılıb. Yəqin ki, bunda da onun anlaya bilmədiyi bir həqiqət var.

Bəlkə də, həyatın zolaqları elə Qarabağdan başlayır və uzana-uzana gedir. Deyəsən, Qarabağ qara zolağın mərkəzində olaraq bu qaralığı daha da möhtəşəm edir və bu qatı qaralıqdan çox uzaqlarda isə bir cüt ağ işıq görünür. Bəlkə də buralar Qarabağ deyil, “Qara-ağ”dır. Sadəcə biz onu Qarabağ kimi tanıyırıq. “Qarabağ,” “qara-ağ” deyə bir neçə dəfə ürəyində təkrar etdi bu sözləri. Nə zaman səhərin açıldığını, zülmətin işıqla, xeyirin şərlə, qaranın ağla birləşdiyi və ayrıldığı nöqtəyə – ağ sapın qara sapdan seçildiyi bir zaman kəsiyinə necə qovuşduğunun fərqinə varmadı.

Hər gecə növbə ilə oyaq qalırdılar. Səməd yoldaşlarından fərqli olaraq gecəni yatmırdı. Arabir atılan mərmilər gecənin sükutunu pozur, zülmətin ağuşuna qovuşub əriyirdi. Yenidən sükut çökür, qulaq batıran, vahiməsi ilə qəlbi üşüdən sükut. Hər sükutun içində min haray, min nalə, nə qədər kədər, yanıqlı göz yaşları.., aman Allah görəsən daha nələr var bu sükutun içində. Deyirlər pis günün ömrü az olur, bəlkə də bu belə idi. Amma bu günlər üçün deyilməmişdi bu sözlər, deyəsən.

Yenidən top atıldı, avtomat şaqqıldadı və cavab atəşləri. Zülmətin sinəsinə sancılan mərmi və güllələr

bu və digər tərəflərdə kimlərinsə köksünə batıb söndü. Aldıqları güllə yaraları ilə doğmalarının qəlbini yandıran Qarabağ döyüşçüləri, alışıb yanan güllə və mərmilərin qarşısına sinələrini sipər edərək Şəhidlik zirvəsinə yüksəlməyi hər şeydən üstün tutdular.

* * *

Səhərə yaxın düşmən mövqelərindən onları güclü atəşə tutdular. Son saatlar, düşmən Abdal kəndi tərəfdə daha aktiv idi, Səmədgil isə Gülablıda kəndin üstündə Qarakəndlə üzbəüz mövqe tutmuşdular. Kəşfiyyatın gətirdiyi məlumata görə Xankəndidə olan rus ordu birləşmələri burada cəmləşmişdi. Onlar aldadıcı manevr edərək Abdal istiqamətindən həmlə edir, bizim diqqətimizi ora cəlb edərək Qarakənd tərəfdən hücuma keçib Gülablını götürmək istəyirdilər, belə olduqda biz mühasirəyə düşə bilərdik. Çünki, Abdal və Gülablı kəndləri bir-birinə yaxın kəndlər idi, Abdal kəndi Gülablıdan daha içəridə yerləşirdi.

Ümumiyyətlə, bu iki kənd səkkiz erməni kəndinin əhatəsində idi və düşmənin dəfələrlə hücum etməsinə baxmayaraq ordumuz onlara layiqli cavab verərək geri çəkilməyə məcbur etmişdi. Bu gün də həmin günlərdən biri idi.

Gecə yarısında düşmən tərəfdən artileeriya hazırlığı başlandı, hər tərəfdən Abdal və Gülablı kəndlərinin üzərinə mərmilər tökülürdü. Sanki rus artileeriyası nəyə qadir olduğunu göstərirdi onlara. Gülablıda elə bir yer yox idi ki, orada mərmi partlamasın, havanı barıt və yanmış cəsəd iyi bürümüşdü. Digər tərəfdən isə düşmənin işə saldığı agentura çaxnaşma salır, müdafiə-

çilərin diqqətini Abdal kəndinin ən ucqar mövqelərinə yönəltmək, bununla da düşmənin maneəsiz Qarakənd istiqamətindən daxil olmasına şərait yaratmaq istəyirdilər. Məcbur olub dayandıqları mövqeləri tərk edərək Abdala tərəf Kətik istiqamətinə yerlərini dəyişdilər. Dayandıqları mövqe onlar üçün o qədər də yaxşı olmasa da, bu mövqedən həm Abdalı, həm də Gülablını nəzarətdə saxlaya bilirdilər.

Onların qarşıdakı mövqeləri tərk etdiklərini gözləyirmiş kimi düşmən zirehli texnikalarla Qarakənd istiqamətindən hücuma keçdi. Düşmənin hiyləsi anlaşılan idi. Səmədgil vəziyyətə tam nəzarət edə bilirdilər, lakin düşmənin hər tərəfdən vura bildiyi böyük bir ərazidə – Abdal-Gülablıda bir tankın olması o qədər də yaxşı görünmürdü. O, radio vasitəsilə digər mövqelərdə olan tanklarla əlaqə yaratdı, onlara vəziyyəti başa saldı. Sağdan və soldan İsmayıl, Ağababa və Adil onlara kömək edəcəkdilər. “Səbail tank taboru”nun bütün heyətləri bir-biri üçün canından keçməyə hazır idilər. Onlar öz yoldaşlarına tam arxayın idilər. Səməd eyni zamanda tabor komandiri kapitan Hacıbala Əzimovla əlaqə yaratdı, vəziyyəti ona ətraflı başa saldı. Bundan sonra artileeriya çox kömək etdi.

Düşmən texnikası və canlı qüvvəsi hücuma keçən zaman Səmədgil onların həmləsinə hazır idi, düşmənin gözləmədiyi bir anda açıq döyüşə çıxdılar. Ədalət, Azad və Səməd yaxınlıqda olan digər tankçılarımızın köməkliyi ilə bu çətin işin öhdəsindən gələ bildilər.

– Ədiş, sürəti artır.

– Azad, tələsmə.

– Səməd, ətrafa nəzarət elə. Bu it uşaqları tülküdən də hiyləgərdilər, bizi arxadan vurmasınlar.

Onları gözləmədikləri zamanda qarşısında, tam

açıq mövqedə görən düşmən özünü itirdi, pərən-pərən düşdü. Onlar heyət daxilində danışıqsız da bir-birilərini başa düşürdülər. Məhz Ədalətin ustalığı sayəsində düşmən onları vura bilmədi.

Həmin gün Abdal-Gülablı kəndləri böyük bir paliqona çevrildi. Ağababanın, Adilin və İsmayılın olduqları tankların sağdan və soldan endirdikləri atəşlər düşməni göz açmağa imkan vermədi. Qəfil zərbələrdən özünə gələ bilməyən düşmən itki verərək mövqe döyüşlərinə çəkildi. Günortaya qədər mövqe döyüşləri getdi. Abdal-Gülablının işğalına qədər düşmənin daha bir həmləsi dəf edildi.

# XII FƏSİL

"Berdiçevdə qədim bir kilsə var. Biz iki gündən sonra həmin kilsədə keşişlə görüşməli idik. Keşiş bizim adam idi. Görüş yerinə vaxtında çatmaq üçün dayanmadan hərəkət edirdik. Bizim işdə dəqiqlik ən vacib şərt sayılır və bizim hər birimiz (kəşfiyyatçıları nəzərdə tuturam) bu dəqiqliyə əməl etməyə borclu idik. Hər hansı bir qeyri dəqiqlik, əməliyyatın baş tutmaması ilə nəticələnə bilərdi. Əməliyyatın baş tutmaması isə böyük itkilərə gətirib çıxara bilərdi. Hələlik bizim qarşımızda dayanan ən böyük vəzifə kilsəyə vaxtında çatmaq idi. Bunu bizim qrupda olan hər kəs gözəl bildiyi üçün bu iki gün ərzində hətta bir-birimizlə adi söhbət belə etmirdik. Bununla da həm vaxta, həm də enerjimizə qənaət edirdik. Ayaqlarımız özümüzdən asılı olmadan hərəkət edirdi, onları hiss etmirdik, sanki bir cüt taxta parçası idi və biz hərəkət etdikcə yeyilirdi. Dərisi növbəti dəfə soyulurdu.

Onu da deyim ki, Berdiçev Ukraynanın ən gözəl guşələrindən biri sayılır. Bura Avropaya yaxın olduğu üçün həm əhalinin, həm də şəhərin inkişafı aydın gözə çarpır. Lakin həmin ərəfədə Ukrayna iki qütbə bölünmüşdü. Əhalinin bir qismi gələcək Ukraynanı Avropanın tərkibində müstəqil və azad bir dövlət kimi, digər bir qismi isə SSRİ-nin tərkibində görmək üçün çalışırdı. İkinci meyillilik daha ciddi və üzdə olduğu üçün daha qabarıq formada görünürdü. Bu iki qrup arasında çox kəskin və açıq formada düşmənçilik var idi, hətta bir ailənin üzvləri bir-birindən xəbərsiz bu qruplara xidmət edirdi. Mənə elə gəlirdi ki, əhali əvvəli nə də sonu

görünməyən bir labirintdədir. Bu qrupların hər birinin arxasında böyük qüvvələr dayanırdı, onlar üçün isə Ukrayna xalqının necə yaşaması o qədər də maraqlı deyildi. İstər ruslar, istərsə də avropalılar üçün öz maraqları daha önəmli idi.

Bu düşmənçiliyin nəticəsi idi ki, əhali daima bir-birindən şübhələnir və bir-birini izləyirdilər. İndi almanların nəzarətində olan Ukraynada avropa meyillilər daha üstün idilər və ruspərəstlər onları fərqləndirmək üçün "Bender" adı vermişdilər onlara. Sovet rejimində Ukraynanı parçalamaq məqsədilə Ukrayna xalqını parçalayıb, bir-birinə düşmən etmək üçün onları bir millət kimi formalaşdırırdılar. Əslində, "Bender"lər başqa millət deyildi, bu ad o zaman Ukrayna azadlıq hərəkatının rəhbəri Stepan Benderin adı ilə bağlı idi və ölkənin qərbində daha çox yayılmışdı.

Biz Berdiçevə vaxtında çatdıq, hava isti idi. Hələ keşişlə görüşümüzə yeddi saat yarım vaxt var idi. Bu müddət ərzində tam şəkildə dincələ bilərdik. Elə də etdik. Hər ehtimala görə mən kilsəni gündüz vaxtı müşahidə etmək üçün Mixaillə birlikdə ora yollandım, yaxınlıqda meşənin başlanğıcında iki mülki şəxsin nəyi isə gözlədiyi nəzərimdən qaçmadı. Mənə elə gəldi ki, onlar kilsəyə gediş-gəlişə nəzarət edirlər.

Şəhər kənarında Mixail Kazakovun qohumunun evinə getdik, qoca bizi çox səmimi qarşıladı, hətta bir az sevindi də. O, keçmiş inqilabçılardan idi. Sonradan öyrəndim ki, qocanın bütün ailəsi – iki oğlu, gəlinləri, iki nəvəsi və həyat yoldaşı almanların hücumu zamanı həlak olub. Yalnız bu xoşbəxt ailədən nəvəsi Yelena, həmin vaxt evdən kənarda olduğu üçün sağ qalmışdı. Uşaq yaşlarından babasının ümidinə qalan Yelena, artıq həddi-buluğa çatmışdı. O, çox ağıllı, hündürboy, mavi gözlü, gözəl bir qız idi.

O zaman mən cavan, həm də çox yaraşıqlı bir oğlan idim. Dəstənin qalan üzvləri hamısı məndən ən azı on yaş böyük idilər. Ən gənc olmağıma baxmayaraq, həm də dəstənin komandiri idim, bu da mənə çox böyük şans verirdi. Bir anlıq baxışlarımız toqquşdu. Yelenanın çox qəribə cəlbedici baxışları var idi.

Uzun illər keçməsinə baxmayaraq mən nə onu, nə də onun baxışlarını unuda bilmirəm. Sonralar həmin evdə daha iki dəfə olduq, onun oğrun-oğrun mənə baxdığını hiss edirdim. Hətta bir dəfə bir müddət ikimiz otaqda tək qaldıq. Amma onunla bir kəlmə də danışa bilmədim, düşündüm ki, müharibə bitəndən sonra buralara yolum düşsə ona baş çəkərəm, lənətə gəlmiş müharibə bitəndən sonra isə...

İlk dəfə gördüyüm həmin gündən sonra yalnız onun haqqında düşünürdüm, Yelena mənim həyatımın bir parçasına çevrilmişdi.

Əlbəttə ki, hər şeyin əvvəli olduğu kimi, bu iyrənc müharibənin də sonu olmalı idi. Müharibə bitdi, ancaq mən Yelenanı bir daha görmədim. Vəziyyətin getdikcə pisləşdiyini görən qoca, gecələrin birində nəvəsini də götürüb yoxa çıxmışdı.

Biz bir müddət sonra Polşaya xüsusi əməliyyata gedən zaman həmin o evdən yolumu saldım, indi dəstəmiz altı nəfərdən ibarət idi. Mixail Kazakovu özümlə götürdüm, qalan dörd nəfər isə bizi şəhərin qərb tərəfində, meşədə gözləyirdilər. Ora çatanda evin qapısının qıfıllı olduğunu gördük, sanki dünya başıma fırlandı, həyat, yaşamaq mənasını itirdi. Kazakov qonşulardan onların birdən-birə yoxa çıxdığını öyrəndi. Mən bir daha Yelenanı görmədim, hara gedirdimsə onun məsum sifəti gözlərim önündə çəkilmədi, onu heç zaman unuda bilmədim, hətta uzun illər keçməsinə baxmayaraq, indi də..., lənətə gəlmiş müharibə, hər şeyi öz qanunları ilə idarə edir.

Nə qədər günahsız insanlar onun qanunları ilə məhkum olundular. Müharibədən sonra "lokal müharibə" zamanı Macarıstana, kəşfiyyatçı kimi təklif alanda fikirləşmədən razılıq verdim, məqsədim bəlkə təsadüfən Yelenanı tapmaq idi. Əfsus ki, bu qismət olmadı. İki ildən sonra səhhətimi səbəb gətirərək yenidən öz doğma kəndimizə qayıtdım...

* * *

Təyin olunmuş vaxtda kilsəyə çatdıq. İbadət etmək məqsədilə içəri keçdik, hərçənd ki, bu ərəfədə kilsəyə gələnlər çox az idi, xüsusən də biz yaşda olan insanlar arasında bu sadəcə olaraq absurd idi. Kilsənin ətrafına nəzarətçilər qoyub Mixail Kazakovla içəri keçdik. Ürəyimə dammışdı ki, qeyri-adi nəsə baş verəcək. Böyük zalda heç kim yox idi, biz qoyulmuş kətillərin üstündə oturub bir az gözlədik, mən Mixailin etdiyi hərəkətləri təkrar edirdim. Sonra İsa peyğəmbərin şəkli ilə və ikonalarla bəzədilmiş xaça tərəf getdik, mən Mixailn sağ tərəfində dayanmışdım və onun bir gün öncə mənə öyrətdiyi sözləri təkrar edirdim. Bizim ibadətimizin vaxtı uzanırdı, keşiş isə gəlib çıxmırdı. İbadət etdiyimiz yerin sağ tərəfində güncdə bir qapı var idi, nədənsə mənə elə gəlirdi ki, keşiş o qapıdan gəlməlidir. Xeyli vaxt keçəndən sonra qapı açıldı və bir rahibə qorxa-qorxa bizə yaxınlaşdı.

– Sizə nəsə lazımdır?

– Bəli, biz keşişi görməliyik. Kilsəyə ianə gətirmişik, mümkünsə onu çağırın – Mixail dedi.

– Keşişi gözləməyin, onu bir neçə saat əvvəl faşistlər apardılar.

– Nəyə görə – deyə biz hər ikimiz təəcüblə soruşduq.

– Səbəbini bilmirəm, amma onu deyim ki, yaxşı heç nə yoxdur. Bir də ki, buralarda az görünün, kilsə onlar tərəfdən nəzarət altındadır.

Rahibə bu sözləri o qədər yavaşdan dedi ki, sanki onu kiminsə eşidəcəyindən qorxurdu. Daha heç nə soruşmadıq, rahibə dərhal həmin qapının arxasında yoxa çıxdı. Biz kilsədən çıxıb yaxınlıqdakı meşəyə girdik, gecə qaranlıqda bir qrup silahlı adamın kilsəni mühasirəyə aldığını görə bilmədik, lakin bir müddət sonra rahibənin vahiməli çığırtısını eşitdik, o səs hələ də qulaqlarımdadır. Onlar çox amansız idilər, heç kimə rəhm etmirdilər. Vaxt itirmədən meşənin dərinliyinə doğru irəlilədik.

Mən başa düşdüm ki, bizim üçün pusqu qurublar, buna görə də sakitcə Nikolayın və Alekseyin kolluqda gözləmələrini bildirdim, özüm isə meşənin girəcəyində gizlənib bizi faşistlərə satan iki nəfərin arxasınca getdim. Artıq qaranlıq düşdüyündən daha çox ehtiyatlı olmağım tələb olunurdu, onlar məni birinci görsəydilər yəqin ki, başqa cür ola bilərdi. Gecə o qədər qaranlıq idi ki, bir metr irəlini görmək mümkün deyildi, yalnız hissiyyatın və eşitmə orqanlarının hesabına irəliləyirdim. Ətrafı dinləyərək ehtiyatla irəli gedirdim ki, lap yaxınlıqda onların pıçıltısını eşitdim və aşağı əyilərək daha da yaxınlaşdım. İndi onları açıq-aydın eşidirdim və gecənin qaranlığında onların siluetlərini görürdüm.

– Daha gecdir, yəqin ki, bundan sonra gəlməzlər, bəlkə gedək.

– Bir az da gözləyək, onları bilmək olmur, yarasa kimidirlər, ancaq gecələr yuvalarından çıxırlar.

Tapşırmağıma baxmayaraq Nikolay Zotov və Aleksey Çernyakov artıq yanımda idilər. Bir göz qırpımında onların üstünə şığıyıb hər ikisini boğazladım. Onlar belə

bir vəziyyəti gözləmədikləri üçün bir anlıq çaşıb qaldılar, özlərinə gələndə isə artıq gec idi.

Mən bu hərəkəti o qədər cəld etdim ki, Nikolay həmin gündən sonra mənə "Şirvan pələngi" ləqəbini verdi.

Sonra Nikolay üstlərini axtarıb silahlarını götürdü, hər ikisinin əllərini arxada bağladı. Amma, deyəsən gecikmişdik, onlar vaxt tapıb xəbər çatdırmışdılar. Faşistlər təlim keçmiş itlərlə bizim izimizə düşdülər.

O zaman heç bir yerdə qanun-qayda yox idi, hər gələn öz qanunlarını tətbiq edirdi, xüsusən də müharibə gedən yerlərdə bu daha aydın nəzərə çarpırdı. Ukraynada isə demək olar ki, həyat dayanmışdı, bir tərəfdən faşistlər, o biri tərəfdən də kommunistlər yerli əhalinin başına oyun açırdılar, əslində isə əhalinin bunların heç birinə ehtiyacı yox idi.

Çox keçmədi ki, faşistlərin bizi təqib etdiyini bildik və daha sürətlə meşənin dərinliyinə doğru irəlilədik. Lakin onlar təqibi dayandırmadılar, təlim keçmiş itlər vasitəsilə bizi təqib etməyə başladılar, atəş açmağa məcbur olduq. Həmin döyüşdə mən növbəti dəfə yaralandım, Mixail Kazakov və Aleksey Çernyakov isə həlak oldular.

Yoldaşlarımızın cəsədlərini götürüb atışa-atışa irəliləyirdik, nəhayət ki, böyük itki verən düşmən bizdən əl çəkdi.

Yoldaşlarımızı meşənin içində bir talada dəfn etdik. Mən bilirdim ki, bizim hamımızı belə bir aqibət gözləyir, sadəcə bir az geci-tezi var. Yenidən dörd nəfər qaldıq, dəstə üzvlərini qorumaq lazım idi. Nikolay mənə görə çox narahat idi.

Altı il müharibədə oldum, altı dəfə yaralandım, lakin heç birində hospitalda yatmadım, bu yaraların hər birinə görə arxa cəbhəyə dəyişmək və ya bir dəfəlik hərbi xidmətdən tərxis olmaq imkanım var idi, amma mən

bunu istəmədim. Lakin bu heç də qeyri-adi bir hal deyildi, mənə elə gəlir ki, o zaman sovet vətəndaşlarının əksəriyyəti belə edərdi.

Uzun illər keçməsinə baxmayaraq yenə də hava dəyişərkən yaralarım sızıldayır. Yəqin ki, bu ağrılar, ömrümün sonuna qədər o lənətə gəlmiş müharibənin məndə qalan hədiyyəsidir. Şükür ki, bu yaşıma qədər bu yaralarla yaşaya bilmişəm."

Məhyəddin kişi susdu, baxışları səmada bir nöqtəyə sancılıb qaldı. Görünür, xatirələr onu ağuşuna alıb daha da uzaqlara apardı.

# XIII FƏSİL

– Ay Miri, o polislərlə olan hadisəni danış da.

– Hansını deyirsən, o qədər hadisələr olub ki.

– Əşşi birini danış, maraqlısını. Bizim üçün elə də fərqi yoxdur.

– Ə kəlça, sizin üçün elə fərqi yoxdursa, mənim üçün dünəndən fərqi yoxdur. Sizdən biriniz nəsə danışın, mən də qulaq asım. Maraqlı olmasa da olar.

– Arif, onda sən danış, sən daha maraqlı danışırsan – deyə Adil əl çəkmədi.

Arif bir an duruxdu, sanki nəyi isə yadına salmaq istəyirdi.

– Bu dəfə şəhərdə olanda həmin o məlum yerdə yaxşı yeyib içmişik, yeriniz məlum. Təzəcə küçəyə çıxmışdıq ki, iki nəfər mülkü geyimli adamla qarşılaşdıq. Dilimiz dinc durmadı, onlara söz atdıq, onlar hər ikisi idmançı vidində olduğu üçün yerişləri bizim xoşumuza gəlmədi. Biz hər ikimiz hərbi geyimdə olduğumuz üçün elə fikirləşdik ki, bizdən çəkinərlər. Sən demə bunlar da "paqon" imişlər, – üzünü Mirələmə tutub dedi – Miri onlar haranın işçiləri idi?

– Nə bilim ə, banditizmin. Onu bilirəm ki, yumruqları kvalddan böyük idi, özləri də ki, əlimi qaldırsaydım ancaq onların çənəsinə çatardı, muskulları da zarafatsız deyirəm, mənim ortamdan yoğun idi. Bu azmış ki, üstlərində silahları da var imiş, bunu da sonradan öyrəndik. Ay qardaş, biz gör kimə ilişmişik ha a a... – deyə Mirələm gülərək əlavə etdi.

Hamı diqqətlə qulaq asırdı, Nizami mənalı-mənalı dedi:

– Deməyin ki, onları şil-küt elədik?!

Hamı gülüşdü.

– Kəlça, qulaq as da. Arif danış.

– Nə başınızı ağrıdım, bunlara sataşdıq, yəqin ki, bizim hərbi geyimdə olmağımıza görə, bir də keyfimizin yaxşı olduğunu nəzərə alıb bizə fikir vermək istəmədilər. Biz isə elə fikirləşdik ki, onlar bizdən qorxurlar, başladıq onlarla məzələnməyə. O vəziyyətə çatdırdıq ki, onlar bezdilər, maşın çağırıb bizi bir idman zalına gətirdilər. İdman zalına girəndə elə bil bir anlıq ayıldım, demə terrorizmin uşaqları burda təlim keçirmişlər. Bizim hər ikimizi zalın ortasına gətirib insafla desək, əvvəlcə sözlə başa salmaq istədilər, amma kimə deyirsən. Onlar belə etdikcə biz daha da üstlərinə gedirdik, elə bilirdik ki, bizdən qorxurlar. Görəndə ki, biz söz başa düşmürük, başladılar bizi çiləməyə. Nə yemisən, turşulu aş, vur ki, vurasan.

– Onlar sizi, yoxsa siz onları?...

– Ayə, kəlça, səbət, gilas məsələsi deyil bu, yaxşı qulaq as. Əlbəttə ki, onlar bizi, biz isə canımızın hayında idik – deyə Mirələm əlavə etdi.

– Bəs siz neylədiz, heç olmasa cavab verə bilirdiniz? – deyə Elxan gülə-gülə onun sözünü kəsdi.

– Biz nə edə bilərdik ki, onlar həm bizdən çox idilər, həm də idmançı uşaqlardı. Yalan demirəm ən balacası bu qapıdan keçməzdi. Elə bil basketbol topu idik, bir-birinə atırdılar. Bizi gətirənlərin biri, yəqin ki, komandirləri idi, bir az sonra "oyun"u saxladı, yəqin ki, bizə yazığı gəldi. Bizi ortadan çıxardı qapıya kimi gətirdi və "Gedin, bundan sonra ağıllı olun" dedi.

– Bəs siz nə etdiniz?

Arif dinmədi, dodaqaltı gülməyə başladı, əvəzinə Mirələm danışdı.

– Nə edəcəyik? Arif başladı onları hədələməyə.

“Gör sizin başınıza nə oyun açacağam, innən belə vay sizin halınıza.” – bu sözləri deyərkən Mirələm həm gülür, həm də Arifi yamsılayırdı. Arif isə sakit dayanmışdı.
– Mülkü geyimdə olan adam bizə cavab verməyib qapıdan qayıtdı. Biz isə küçəyə çıxdıq. Arif başladı telefon axtarmağa, nə qədər dedim ki, gəl çıxıb gedək xarabamıza, məni eşitmədi. Nəhayət, küçənin birində telefon tapdıq. Bu kiməsə zəng elədi, bizim olduğumuz yerin ünvanını dedi. Bir az sonra iki polis maşını içi dolu polislə gəldi, hər maşında dörd nəfər. Polislər də maşallah, hamısı şkaf kimi, bəzilərinin qarnı az qalırdı ki, yerə dəysin. Demə onlar da bilmirmişlər ki, kimi aparmağa gəlirlər, içərilərində bir kapitan da var idi, görünür başçıları elə o idi. Biz zala girəndə kapitan “bərkgedənlik” etmək istədi. Onların üstünə qışqırıb, zalın boş yerini göstərdi. “Hamınız bura düzülün, cəld olun.” Amma onu heç kim eşitmədi, hərə öz işi ilə məşğul idi. Kapitan daha da əsəbləşdi. “Sizinləyəm, hamınız şöbəyə gedəcəksiniz.” Zaldakılar elə bil onu heç eşitmirdilər. Kapitan daha da əsəbləşdi, özü zalın kənarına çəkilib polislərə onları tutmaq əmri verdi. Yeddi nəfər polis işçisi irəli getməyi ilə yerə sərilmələri bir an içində baş verdi. Dönüb kapitana tərəf baxdım, o yerə düşən polis papağını götürüb başına qoyurdu, onun yanında həmin o bizi bayaq yola salan adam dayanmışdı. Görünür kapitan artıq öz payını elə ondan almışdı. Yalnız indi başa düşdüm ki, bunlar biz düşündüyümüz qədər adi adamlar deyil. İdmançılar polisləri yüngül cəzalandırıb zalın bir tərəfində sıraya düzdülər, elə onların gözlərinin qabağında bizim ikimizi dairəyə alıb yenidən basketbol topu kimi çiləməyə başladılar, bu vəziyyət bir saata qədər davam etdi. Sonra həmin adam kapitana xüsusi tapşırıq verib bizi buraxdı. Bədənimdə elə bir yer yox idi ki, ağrımasın, halım özümdə deyildi, üç gün boğazımdan sudan başqa heç

nə keçmədi. Bir aya yaxın uzandığım yerdən durmaq istəyərkən elə bilirdim ki, daxilimdə olan orqanlar yataqda qalacaq. – O, dayanıb qulaq asanlara baxdı sonra gülə-gülə davam etdi. – Amma əslində elə düz elədilər, bizə hələ bu da az idi.

Onun güldüyünü görüb hamı gülməyə başladı, hətta bəziləri atmaca atıb, onlara lağ da etdilər, bəziləri məsləhət də verdilər, təkcə Adil canıyananlıq göstərdi, sanki onların əvəzinə onu döymüşdülər.

– Can, can. Atam balası, təsəvvür edirəm siz nə çəkmisiniz.

Elə bu zaman qərargah rəisi mayor Qaçay Quliyev və tabor komandiri Hacıbala Əzimov içəri daxil oldular, zabitlər hamısı dərhal ayağa qalxdılar.

– Hə, deyin görək vəziyyət necədir? Bu gün mövqelərə gedənlər qayıdıb?

– Bəli kamandir. Hər şey qaydasındadır, yazılı şəkildə raport sizin masanın üzərindədir. – deyə mayor Quliyev heç kimə imkan vermədən məlumat verdi.

Əslində, tabor komandiri bunu elə-belə ünsiyyət xətrinə deyirdi, çünki, artıq hər şeydən məlumatı var idi, bir az əvvəl həmin raportu, oxuduqdan sonra qovluğun arasına qoymuşdu. Qərargah rəisi üzünü zabit və gizirlərə tutub dedi.

– On dəqiqədən sonra bütün şəxsi heyəti yoxlanış üçün düzün. Ehtiyyatda olan bütün şəxsi heyət yerində olmalıdır. Öncə siz özünüz yoxlayıb məlumat verin, sonra isə bir-bir mən özüm də yoxlayacağam. Başlayın.

Mayor Qaçay Quliyev, hərbi təhsilini Rusiyada almışdı, tankçı idi, savadlı və bacarıqlı zabit idi, kollektiv arasında "Nemes" ləqəbi ilə tanınırdı. Əyri yolda olanları sevmirdi, yaddaşı həddən artıq güclü idi, bütün şəxsi heyəti adbaad tanıyır, ünvanına kimi əzbər bilirdi. Öz aramızda ona "yeriyən kompüter" də deyirdik. Sənəd-

ləşmə işlərini gözəl bildiyi üçün taborun şəxsi heyətini polkovnik-leytenant Şahlar Behbudovla birlikdə tam şəkildə Azərbaycan Müdafiə Nazirliyində qeydiyyatdan keçirmişdilər.

Tərxis olandan sonra ayrı-ayrı taborlarda və hərbi hissələrdə olan müharibə iştirakçılarının başlarına gələn oyunları görəndə istər-istəməz qəlbimin dərinliyində bu iki şəxsə dəfələrlə minətdarlıq edirdim. Çünki Səbail tank Taborunda olanlar heç bir çətinlik çəkmədən Dövlət tərəfindən onlara aid olan imtiyazlara nail ola bildilər. O biri hərbi hissələrdə olanların əksəriyyəti isə adi işləri belə məhkəmə yolu ilə həll edirdilər. Bu isə zaman, hövsələ və maddi sərfiyyat tələb edirdi ki, əksər müharibə iştirakçıları bezir, yarı yoldan qayıdırdılar.

"Səbail" tank taborunun bütün şəxsi heyəti təkcə buna görə bu iki şəxsə minnətdar olmalıdır.

Bir neçə dəqiqə keçməmişdi ki, bütün heyətə həyəcan siqnalı verildi, düşmən Qarakənd və Ergi istiqamətindən böyük qüvvə ilə hücuma keçmişdi. Qanlı döyüşlər başlandı.

* * *

İki tank bir mövqedə dayanmışdı həmin gecə, düşmənin qəfil hücumu gözlənilirdi, hələlik sakitlik idi. Hər tankın heyətindən bir nəfər növbə çəkməli idi. İndi ikisinin növbəsi idi. Tankın üstündə oturub ətrafa nəzarət edirdilər. Müdhiş bir gecə idi. Sükut və zülmətin vahiməsi adamın qan damarlarına hopurdu. Hərə öz aləmində idi.

– Səməd, yatmamısan? – deyə Mirələmin sakit səsi sükutu pozdu. Cavab gəlmədiyini görüncə bir az səsini qaldırdı.

– Səməd, ay Səməd. Ayə ölmüsən?

– Yox, hələlik sağam. İmkan verirsən ki, öləm? Lap Qəmlo kimi çağırdın, ay Miri. – Hər ikisi güldülər.

– Aşağı düş, siqaret çəkək.

Tankların arxasında, torpağın üstündə oturdular, hərəsi bir siqaret çıxardı.

– Nə çəkirsən?

– "Astra palasatıy."

– Birini də mənə ver, məndə adisindəndir, çəkmək olmur, zəhər kimidir zəhrimar.

– Yaman qaranlıqdır bu gecə, o tankdan bu tankı görmək olmur. Bu yaşa çatmışam hələ belə zülmət gecə görməmişəm. – Mirələm dedi.

– Hələ nə yaşın var, görərsən də.

– Belə baxıram, bəlkə qismət olmadı. – son cümləni çox asta dedi, sanki özüylə danışırdı. – Sabah güclü hücum olacaq deyirlər.

Hər ikisi susdu, yenidən dərin sükut başladı. Siqareti çəkib kötüyünü atdılar.

– Səməd, nəsə bir şey danış, vaxtımız getsin.

– Nə danışım?... Nağıl istəyirsən?

– Əşşi danış, amma maraqlı olsun.

– Əslində bu nağıl deyil, həqiqətən olmuş hadisədir.

– Danış qardaş, sən həmişə maraqlı danışırsan.

Səməd bir az fikirləşib başladı danışmağa.

– "Biri var idi, biri yox idi. Bizim vaxtımızda nağıllar belə başlayardı, ən azı bir zamanlar belə idi və əslində nağıllar elə belə də başlamalıdır. Ümumən baxsaq görərik ki, hər ömrün bir nağılı var və bu nağıllarda deyildiyi kimi, hamıda biri var idisə, digəri olmazdı. Uşaq çağlarında eşitdiyimiz nağılların sehrindən indi də çıxa bilmirik.

O zaman nağıllar bəzən bizim üçün şirin laylay, bəzən də acı bir haray olardı. Çünki biz həmin nağılları eşitdikdən bir müddət sonra özümüz o nağılın qəhrə-

manları kimi olmağa çalışardıq, o nağıllarla yaşayardıq. Gah Cırtdan olub divi aldadardıq, gah da Məlikməmməd kimi quyuya atardılar bizi, heç simurq quşları da köməyimizə gəlməzdi, göydən alma da düşməzdi, bəlkə də düşərdi, amma bizə verməzdilər. O almaların həsrətində olardım həmişə. İlahi, o nağıllar tam başqa idi.

İndi isə nə həmin nağıllar, nə onları danışanlar, nə də o nağılları bizim kimi dinləyən uşaqlar yoxdur, bəlkə də bundan sonra bir daha olmayacaq da. Hələ uşaq ikən oynadığımız oyunlar..., indi kimin ağlına gələr ki...

Bəli, hər ömrün ən azı bir nağılı olur, insan da bu nağılların hesabına gələcək həyatını qurur, qurduğu xəyali dünyada yaşayır, sevir, sevilir, püxtələşir."

– Kəlça! Sən doğrudan nağıl danışırsan?

– İstəmirsən danışmayım.

– Danış, danış. Axı özün dedin ki, nağıl deyil, olmuş hadisədir.

– Bunu mənə bir nəfər danışıb, olduğu kimi sənə danışacam. Amma sona qədər dinlə, sözümü kəssən daha danışmayacam.

– Yaxşı – deyə Mirələm torpağın üstündə yerini rahatladı..

– "Onun da hamının nağılından secilən bir həyat nağılı var idi və bu hələ orta məktəb illərindən başlamışdı. O zaman heç yuxusuna da girməzdi ki, əmin-amanlıq hökm sürən bu məmləkətdə nə zamansa müharibə olacaq, şəhərlər, kəndlər yerlə-yeksan ediləcək, əhalisi quldarlıq qurluşunda olduğundan da betər günə düşəcək. O da minlərlə Vətən oğulları kimi əlinə silah alacaq, bu torpağın müdafiəsinə qalxacaq. Hələ o günlər çox qabaqda idi.

Ailələrində vəziyyət çətin olduğu üçün orta məktəbi internat məktəbdə oxudu. Bura elə hərbi rejimli bir məktəb idi, əslində onun hərbi fəaliyyəti elə bu mək-

təbdən başladı. Bir gün ömrünün pik nöqtəsində dayanıb, geri ötən günlərə nəzər saldı, xatirələr kitab kimi vərəqləndi, kino lenti kimi gözlərinin önündən keçdi. Biri şirin, yüzü acı xatirələr... İlk sevgisini xatırladı.

Hələ orta məktəb illərində özündən bir sinif aşağı oxuyan Mələk adlı bir qızı gözü tutmuşdu. Bu da bir təsadüfdən yaranmışdı. Zaman keçdikcə Mələk onun üçün həqiqi bir mələyə çevrildi, Mələk həqiqətən də mələk idi. Orta boylu mavi gözlü, qıvrım saçlı Mələk...

Sonra internat həyatı, əsgərlik, ali təhsil, daha sonra müharibə..., nə qədər çətin günlər olsa da Mələk daha da yaxınlaşdı, doğma oldu ona, xəyal dünyasının kraliçasına çevrildi. Təəssüf ki, o yalnız xəyallarda qaldı.

O zaman Mələk beşinci sinifdə, o isə altıncı sinifdə oxuyurdu. Məktəb yolunda zəncirdən açılmış bir it çəpərdən tullanıb məktəbli qıza hücum etdi. İyirmi metrlik məsafəni necə qaçdı, çəpərdən iri bir payanı nə zaman dartıb çıxardı heç özü də bilmədi. Var gücü ilə, ağzını Mələyin sifətinə atan itin başına endirdi. İt ağrıdan zingildəyib qaçdı. Üzünün rəngi saçındakı ağ lentdən seçilməyən Mələyə tərəf döndü, əlindən tutub ayağa qaldırmaq istədi.

– Qorxmadın ki?...

Qızın dili tutulmuşdu, danışa bilmirdi. Səs-küyə məktəbin qocaman müəllimlərindən biri olan Mürsəl müəllim və küçədən keçən Qızqayıt xala onlara yaxınlaşdı.

– Qızqayıt bacı, bu uşağı evlərinə apar, yazıq yaman qorxub deyəsən. – Üzünü ona tutdu. – Sən isə əsil qəhrəmanlıq etdin bu gün. Bu kəndin tarixinə öz adını böyük hərflərlə yazdın. Nə qədər bu kənd olacaq, sənin adın hörmətlə çəkiləcək. – Sonra nəyi isə dəqiqləşdirirmiş kimi ona diqqətlə baxdı, sanki kəndin tarixini bu qocaman müəllim yazacaqmış kimi başdan-ayağa süzdü

və tanıdı – Atalar əbəs yerə deməyib. "Ot kökü üstündə bitər." Çox sağ ol, bala, böyük iş gördün.

Qürurdan sinəsi genişləndi, elə bil bir an içində bir boy da böyüdü, indi nəinki kəndin bütün itləri, hətta aslan sürüsü gəlsəydi yəqin ki, əlindəki paya ilə hamısını şil-küt edərdi. Amma bu, həmin gün hava qaralana qədər oldu. Axşam sürü kəndə qayıdanda şər qüvvələr də onun üstünə hücum çəkdi. Mələyin babası Musa kişi əlindəki əsa ilə onların qapısını bərkdən döydü. Kənd arasında "Kar Musa" ləqəbi ilə tanınan qoca ağzına gələni qapıya çıxan anasına dedi.

– Küçüyünə de ki, qarşıma çıxmasın, əgər onu tutsam ölənə qədər döyəcəyəm – deyə əsasını havada yelləyib onu hədələdi."

– Kar köpək oğlu, belələri hər yerdə var – deyə Mirələm qəzəbini gizlədə bilmədi, Səmədin xəbərdarlığı yadına düşüncə tez də səsini kəsdi. Səməd onun diqqətlə qulaq asdığını görüb davam etdi.

"Olanlardan xəbərsiz ana isə deyilənləri sükutla qarşıladı, bir anlıq oğlu üçün ürəyi yandı, az qaldı ki, qiyyə çəkib ağlasın. O, heyvanları yerbəyer edib qayıdanda "Kar Musa" artıq getmişdi, anası isə hələ də nə edəcəyinin bilməyərək qapıda dayanmışdı.

– Nə olub ana, niyə burda durmusan, qapını döyən kim idi?

Anası onu soyuq və qəzəbli baxışlarla süzdü.

– Bilmirsən, kim idi? Qoy bir atan gəlsin...

Yaxşı ki, həmin gecə atası evə gec gəldi və tezdən də getdi. Ertəsi gün bütün kənd onun qoçaqlığından danışırdı. Təkcə Mələyin babası kar Musadan başqa, o hələ də əlindəki əsanı havada yelləyərək onu axtarırdı.

O hadisədən sonra Mələk xəstələndi, bir müddət çölə, bayıra çıxmadı. Çox çəkmədi ki, babası "Kar Musa" dünyasını dəyişdi. Mürsəl müəllim köçdü şəhərə, oğ-

lanlarının yanına getdi. Artıq hamının yadından çıxmışdı onun qəhrəmanlığı, elə bil heç belə bir şey olmamışdı. Hamı öz işində-gücündə idi. Görünür, Mürsəl müəllim "kəndin tarixini" yazmağı unutmuşdu, hətta yazsaydı belə, kim idi ki, bu kəndin kitabını oxuyan...

Həmin ili internat məktəbinə qoydular onu, məktəbin xüsusi rejimi var idi və hamı ona tabe olmalı idi, çox çətin idi. Həmişə azadlıqda, çöldə, bayırda olan biri üçün bura əsil türmə idi. Bir an belə nəzarətsiz qalmaq mümkün deyildi. Hamı kimi o da tətillərin tez gəlməsini arzulayardı. Çünki hər tətil onlar üçün müəyyən qədər azadlığa çıxmaq idi. Həm də Mələyin anası Firuzə xala hər tətildə onlara gələr, hamının gözləri önündə qollarını geniş açıb onu bağrına basar, "Sən Mələyin xilaskarısan" deyib tez-tez qızdan söz salardı. Onun aləmində Mələyin anası yeganə adam idi ki, bu kəndin tarixini yaşadırdı, bəlkə də Mürsəl müəllim kəndin tarixini yazmağı ona tapşırmışdı.

Belə tətillərin birində Mələyi gördü. Üzbəüz gəldilər, qız böyümüşdü, gözəlləşmişdi, iri mavi gözləri dənizi xatırladırdı. Onu görəndə həyəcanlandı, sifəti allandı, gözlərini qaçırtdı, titrək, pıçıltıya bənzər səslə – Salam – dedi. Bir anlıq dayandı, gözlərini qaldırıb yenidən onun üzünə baxdı. Uzun illər idi hər ikisi bir-birinin xəyali kumirinə çevrilmişdilər, bir-birini görmədən, danışmadan sevgi dünyası qurmuşdular özləri üçün. Mələyin qəlbində yalnız O var idi. O idi, Mələyi quduz itin dişləri arasından çıxaran. O idi Mələyin sevgi nağılının qəhrəmanı, ondan güclü kimsə ola bilməzdi. Qız inanırdı ki, min il əvvəl dünyaya gəlsəydilər, O divlərə, əjdahalara qalib gəlib zülməti yarar, onu qaranlıq dünyadan götürüb işıqlı dünyaya gətirərdi. Eşitdiyi bütün nağılların qəhrəmanları Onun yanında çox cılız görünürdülər. Mələk üçün ən ağıllı, ən güclü biri var idi, o

biri yox idi. Onun nağılı da belə başladı."Biri var idi, biri yox idi."

Ürəyində nə qədər sözləri var idi ona deməyə, neçə illər öncə onu xilas etdiyinə görə təşəkkür etməli idi. Onu ilk görəndə deyəcəyi sözləri elə o günün sonunda əzbərləmişdi, böyüdükcə qəlbindəki sözlər də böyümüş, bir kitaba sığmayan nağıla, dastana çevrilmişdi. Onunla ilk görüşdüyü zaman elə bu nağılı danışacaqdı Mələk. Bəlkə də illər ötəcək bu günə qədər eşitdiyimiz nağılların yerini nə zamansa "Mələyin nağılı" tutacaq. O zamankı nənələr öz körpə nəvələrinə bu nağılı sevə-sevə danışacaqdılar. Nağıl isə bəlkə də, belə başlayacaqdı.

"Biri var idi, biri yox idi. Gözəl və həyalı bir kənd qızı var idi. Bir də onun sevdiyi cəsur, qoçaq bir oğlan..."

İndi isə onlar bu boş kənd küçəsində ikisi idilər. Mələk salam verib bir anlıq dayandı, sonra cavab gözləmədən uzaqlaşdı. Bir neçə addım getmişdi ki, arxadan onun hökmlü və titrəyən səsini eşitdi.

– Mələk!...

Qız özündən asılı olmayaraq dayandı. Lakin geri qayıdıb, onu dinləməyə, qəlbindəkiləri deməyə güc tapa bilmədi, ayaqları ürəyindən güclü çıxdı, qaçaraq qarşıdakı döngədə görünməz oldu. O, isə yerində donub qaldı, uzaqlaşan qızın arxasınca baxdı.

Əgər Mələk onun çağırışına dönüb gəlsəydi ona nə deyəcəkdi? Ala bilmədiyi salamın cavabınımı verəcəkdi? "Yaxşı ki qayıtmadı" deyə düşündü. Bəlkə də bu sevgi birtərəfli idi, bəlkə də heç sevgi deyildi. Axı onlar hər ikisi hələ uşaq idilər. Həmin il o, orta məktəbi bitirəcəkdi.

Oxuduğu kitablardan ilk məhəbbətin ötəri və uğursuz olduğunu bilirdi. Düşünürdü ki, elə onun həyatında da belə olacaq, elə belə də oldu. Hələ qarşıda hərbi xidmət və ali təhsil var idi, bunun üçün də ən azı on il vaxt

lazım idi. Belə uzun müddət Mələk kimi gözəl bir qız üçün çox idi.

O, ali məktəbi bitirdi, tələbə yoldaşı ilə ailə həyatı qurdu və çox çəkmədi müharibə başladı, uzun və cansıxıcı müharibə. Hansı ki, onun gəncliyini əlindən aldı, arzularını yarıyolda qoydu, gələcək həyatı üçün qurduğu planlarını alt-üst etdi, xatirələrlə dolu keçmişini unutdurdu.

Unutmuşdu artıq kəndin tozlu küçələrini, həmin iti, həmin çəpəri, kəndin tarixini yazan qocaman Mürsəl müəllimi, hətta balaca Mələyi unutmuşdu, ötənlərin üstündən qara bir xətt çəkmişdi. Qara rəng bütün rəngləri udduğu kimi onun ilk sevgisini də udmuşdu. Amma...

Amma bir gün cəbhədən birbaşa boya-başa çatdığı kəndə üz tutdu və elə o gün bütün həyatı alt-üst oldu.

Səma qara buludlarla örtülmüşdü həmin gün, yəqin yağış yağacaqdı. Kəndə gedən yolun üstündə durub bir müddət gözlədi, yolüstü maşınların olacağını zənn etdi. Hövsələsi daraldı, aşağı enib şahmat damaları kimi düzülmüş yastı daşların üstü ilə hoppanaraq çayı keçdi, qarşıdakı dağın arxasındakı kəndlərinə üz tutdu. Tozlu yol burula-burula dağa qalxırdı. Dağın döşü ilə göz gördükcə uzanan taxıl zəmiləri əsən mehdən dəniz kimi dalğalanırdı. O bu kəndi, bu torpağı çox sevirdi, inanırdı ki, gördüyü bu mənzərə – taxıl sahələrinin dəniz kimi dalğalanması, bir az əvvəl keçdiyi çay, körpü əvəzi düzülmüş şahmat taxtasını xatırladan çay daşları, dağların yamacı ilə uzanan tozlu, enişli-yoxuşlu yollar dünyanın heç bir yerində yoxdur. Elə bu bənzərsizliyinə, təkrarsızlığına görə sevirdi bu yerləri, bağlanmışdı bu torpağa.

Arxadan gələn "Jiquli" markalı maşın tozanaqlaya-tozanaqlaya yoxuşun ən sərt yerində siqnal verib onu keçdi. Görünür, sürücü onu tanımışdı, lakin sərt yoxuşda saxlaya bilmədiyi üçün siqnal verməklə kifayəndi.

Sərt yoxuş isə bitmək bilmirdi.

Maşının keçməsi ilə güclü yağış başladı, sanki yağış maşının toz qaldırdığına qəzəblənib onu qovurdu. İri damlalar yola düşüb tozu qaldırır, o biri damlalar isə yuxarı qalxan tozu yenidən yerə yapışdırırdı. Havadan toz ətri gəlirdi.

Bir az sonra dağın döşü ilə hər tərəfdən sel axmağa başladı. Bulanıq su selə dönüb dərələrə yığılır, üzü aşağı çaya tərəf axırdı. Şimşək çaxır, göy elə guruldayırdı ki, sanki indicə parça-parça olub töküləcək. Yoxuşun başında dayanıb çaya tərəf baxdı, çayın suyu kifayət qədər artmışdı. Bayaq göz yaşı kimi duru, quzu kimi sakit olan çay, indi bulanmış və tələyə düşən qəzəbli canavarı xatırladırdı. Dərələrdən axıb gələn sellər burularaq sahili döyəcləyir, suyun nəriltisi ətrafa yayılırdı. Çay yuxarıdan daha dəhşətli görünürdü. "Yaxşı ki, vaxtında keçdim, yoxsa qalacaqdım o biri tayda" deyə düşündü.

Birdən yerin, göyün gurultusu arsında kiminsə harayını eşitdi. Çayın kənarında bir qadının qışqıraraq kömək istədiyini gördü. Qadın gah güclənən selə doğru qaçır, gah da geriyə çəkilib haray çəkirdi.

Dayanmaq olmazdı, vaxt itkisi böyük faciə ilə nəticələnə bilərdi. Gəldiyi yolla geri, çaya tərəf qaçmağa başladı. Yer sürüşkən olduğu üçün bir neçə dəfə arxası üstə yıxıldı, palçığın üstündə xeyli sürüşdü, yenidən durub qaçdı.

"Qardaş, qurban olum ona kömək elə" deyə sahildə haray salan qadın əli ilə çayın sağ sahilini göstərib ona tərəf qaçdı. Yoldan çayın axınına doğru təxminən iyirmi metr məsafədə bir qadının koldan tutaraq getdikcə güclənən sellə ölüm-dirim mübarizəsi apardığını görüncə köməyə tələsdi.

Dərədən gələn güclü sel çayın sol sahilinə qədər çatır, sahilə dəyib yenidən o biri sahilə qayıdırdı, bu min-

valla da arada böyük bir burulğan yaranırdı. Qayalıqda bitən kolun yerindən qopmaq etimalı çox idi, yağış getdikcə şiddətlənirdi. Sahilinə meydan oxuyan çaya girmək isə təhlükəli idi. Lakin başqa bir yol yox idi, hoppanıb dərənin o biri tayına keçdi. Düşünmədən özünü suda olan qadına tərəf atdı. Sol sahildən qayıdan sürətli su axını onu sağ sahilə – qadına tərəf itələdi. O qadına çatanda, kol yerindən qopdu, qadın qiyyə çəkdi, güclü axın qadını qayalığa sıxıb suya batırdı, o təkan verib qadına tərəf getdi və onu tutdu. Çayın bu yeri döngə olduğu üçün daha dərin idi, qadın bütün gücü ilə ona sarıldı. İndi sel onları birlikdə qayalığa sıxır və tədricən məcranın daha geniş yerinə tərəf aparırdı. Bütün gücünü toplayıb yıxılmamağa çalışırdı. Təxminən otuz metrədən sonra ayaqları ilk dəfə olaraq yerə toxundu.

Sudan çıxan zaman sanki dağları çiynində daşıyırdı, islanmış paltarları çox ağırlaşmışdı, su dolmuş hərbi çəkmə geyindiyi ayaqlarını yerdən zorla qaldırırdı. Qadın qorxudan hələ də boynundan asılmışdı.

– Burax, daha qorxma, təhlükə yoxdur.

Qadın onu buraxıb yerə oturdu, hıçqıraraq ağlamağa başladı. O, arxası üstə yaşıl otların üstünə uzandı, gözlərini yumdu, havası çatmırmış kimi ağzını geniş açıb bir neçə dəfə dərindən nəfəs aldı. Yağış isə hələ də yağırdı.

Birdən başını qaldırıb qarşısındakı qadına baxdı, o hələ də ağlayır, gah islanıb bədəninə yapışan paltarını düzəldir, gah da saçlarını yığırdı. Mavi gözləri təlatümlü dənizi xatırladırdı. Sıçrayıb yerində oturdu, qarşısındakı qadına daha diqqətlə baxdı. "İlahi bu yuxudur, yoxsa həqiqət. Bu təsadüflərinlə mənə nəyi başa salmaq istəyirsən." deyə düşündü.

– Mələ-ə-ək!!! – daha heç nə deyə bilmədi, ağır-ağır nəfəs aldı, ürəyi boğazına tıxanıb onu boğur, danışmağa qoymurdu. Mələk onu əvvəldən tanımışdı, gözlərindən

axıb yanaqlarında yağış damlaları ilə birləşən göz yaşları çənəsindən süzülürdü.

– Hardan çıxdın sən? Niyə qoymadın sel aparsın məni?... – qəhərləndi, danışa bilmədi.

O, qaşqabağını tökdü, ağır-ağır ayağa durdu.

– Gedək, axşamdır, bir azdan qaranlıq düşəcək. Hələ gör nə qədər yolumuz var.

Yuxarıda qayanın üstündə duran qadın onları səslədi, o Mələyin kiçik xalası idi. Onlar ağır addımlarla qayanın üstündəki yola tərəf getdilər. Yolboyu hər ikisi susurdu. Əslində, bu sükutun içində tük ürpədən nalə, dəli bir haray, vəhşi bir qəzəb vardı. O, sükutun qorxusundan bir daha Mələyin gözlərinə baxa bilmədi. İndi onlar danışmasalar da duyğularının vasitəsilə bir-birini daha yaxşı başa düşürdülər.

O gün onun həyatında ən çətin gün oldu, ötən ömrünün ən çətin anlarını bir yerə yığa bilsəydi, indi keçirdiyi həyəcan dolu anların yüzdə biri qədər olmazdı bəlkə.

Uzun illər sonra Mələyi, unutduğu keçmişi bir daha tapdı və elə həmin anda da birdəfəlik itirdi. Başa düşdü ki, "Mələyin nağılı" əvvəlki kimi deyil tam başqa cür yazılacaq, ağızdan-ağıza düşüb eldən-elə yayılacaq. Amma əvvəlki kimi yox, bəlkə də belə başlayacaqdı. "Biri var idi, biri yox idi. Gözəl və həyalı bir kənd qızı, bir də onun nifrət etdiyi, vəfasız və yaramaz bir oğlan..."

Onlar qayanın üstünə çatanda qadın ona təşəkkür etdi.

– Qardaş, Allah səni muradına yetirsin. Sən olmasaydın biz nə edərdik!?

Görünür, hərbi paltarda olduğu üçün qadın onu tanımamışdı."

Səməd dayandı, deyəsən daha danışmaq fikri yox idi.

– Bu ki, nağıl deyil. Sonra, bəs sonra nə oldu? – deyə Mirələm intizarla nağılın sonunu bilmək istədi. Əgər qaranlıq olmasaydı, Səmədin sifətinə hopmuş kədəri görüb bəlkə də daha sual verməz, çox şeyi anlayardı. Gecənin zülməti qəlbinə hopduğu kimi, üzündəki kədəri də canına çökmüşdü. Səmədi çətin vəziyyətdən qaranlıqdan gələn səs qurtardı.

– Daha heç nə. Nağılımız burda bitdi, amma göydən alma düşmədi, düşsəydi adama birini yeyərdik. Eh, bir də yazıq almalar, bu qaranlıqda hara düşsün ki?... – deyə bayaqdan onların söhbətinə qulaq asan Adil gülə-gülə dedi.

Ertəsi gün səhər tezdən qanlı döyüşlər başladı, axşama qədər davam edən döyüş qaranlıq düşəndə yenidən səngidi, hər iki tərəfdən itki olsa da düşmən daha çox itki vermişdi.

Səmədin danışdığı nağıl elə nağıl olaraq qaldı. "Mələyin nağılı" klassik nağıllara bənzəsə də sonda alma düşmədi, hətta düşsəydi belə, Adil demiş "gecənin qaranlığında onları tapmaq çətin olacaqdı." Mirələm uzun müddət o nağılın təsirində idi, bir gün sonra Səmədə yaxınlaşıb gülə-gülə dedi:

– Səməd, deyirəm nə yaxşı ki, göydən alma düşmədi, yoxsa qaranlıqda onu tapa bilməyəcəkdik, səhər tırtılların altında qalıb zay olacaqdı. Sən bir ona bax, bütün söhbətimizə qulaq asıb, səsini də çıxarmayıb, – deyə Adili göstərib gileyləndi: – Mən ölüm düzün de, nağılın sonu necə oldu?

– Nağılın sonu bugünkü, döyüş oldu, nə zamansa kiməsə danışsan bu döyüşü də əlavə edərsən ora.

Hər ikisi susdu.

## XIV FƏSİL

"Həmin gün əvvəlki günlərdən fərqli başladı, səhər açılan kimi Sovet Ordusunun Stalinqrad və Kursk şəhərləri ətrafında düşməni darmadağın etdiyini eşitdik və bununla da alman qoşunlarının sürətli hücum mifi dağıdıldı.

Stalinqrad uğrunda gedən döyüşlər İkinci Dünya müharibəsinin ən uzun və ən ağır döyüşü sayılır. Bu döyüşlərdə bir milyona yaxın hərbçi və mülki əhali məhf edilmişdi, elə bu qədər də yaralanaraq sağlamlığını itirmişdi. İyirmidən çox faşist generalı, başda general-leytenant İohan Fon Rodenburq olmaqla təslim olmuşdu. Alman generalını əsir alan azərbaycanlı kəşfiyyatçı Həmzə Sadıqov idi.

Mən Həmzəni tanıyırdım, o da kəşfiyyatçı olduğu üçün müharibədən əvvəl bir neçə dəfə birlikdə təlimlərdə olmuşduq. Sovet ölkəsində milli münasibətlər indiki kimi olmasına baxmayaraq, biz bir-birimizlə əlaqə saxlayıdıq. Müharibə başlayandan sonra bizim polk əsasən, düşmənin arxasında olduğu üçün onu bir daha görmədim.

Kursk şəhəri ətrafında faşistlər tamamilə darmadağın edilməsinə baxmayaraq, bizimkilər daha çox itki verdilər. Kursk döyüşü heç də bizim tariximizdə öyrədildiyi kimi olmayıb, almanlar çox az itki veriblər o zaman, lakin buna baxmayaraq biz ruhdan düşmədik. Sovet təbliğat maşını hər tərəfli işləyirdi. Bu döyüşdə daha bir alman generalı Fridrix Pauls təslim oldu. Ən əsası isə Hitlerin ildırım sürətli müharibə planı boşa çıxdı, alman ordusunun məğlubedilməzlik mifi məhv edildi, bizim qələbəyə inamımız artdı.

Mən Azərbaycan tarixini yalnız müharibəyə qədər kənddə ağsaqqallardan eşitdiklərim səviyyəsində bilirdim, ancaq Nikolay, hətta Səfəvilərdən əvvəlki tariximizi də gözəl bilirdi. O, ermənilərin Qafqaza son yüz ildə gəldiyini, iran və rus imperiyaları tərəfindən tarixi Azərbaycan torpaqlarında məskunlaşdırıldığını, bununla da bu iki imperiya tərəfindən onsuz da ikiyə bölünmüş Azərbaycanı daha da zəiflətmək üçün ermənilərdən istifadə edildiyini deyirdi.

– Sovet İttifaqı imperiyaların həyata keçirə bilmədiklərini asanlaqla həyata keçirə bildi, Qafqazda yalnız iki dövlət olmalı idi. Ermənistan və Gürcüstan. Bu sovet dövlətinin gələcəkdə həyata keçirəcəyi planın əsasını təşkil edir...

O zaman mən onun sözlərinə ürəyimdə gülmüşdüm, onun belə bir cəfəngiyyatı haradan oxuduğunu soruşdum. O isə təəssüfedici baxışlarla məni başdan ayağa süzüb dedi:

– Məgər son iki əsrdə baş verən hadisələrin gedişatı bunu göstərmir? Bunun üçün əlavə tarix oxumaq lazımdır? Bəlkə ermənilər və ya sovet dövlətində bu işlə məşğul olanlar bütün gələcək planları barədə qəzetlərdə yazaydılar? Mən Azərbaycanda doğulmuşam, ora mənim Vətənimdir, o torpağı, o milləti sevirəm. – Bir anlq dayandı, dərindən ah çəkib sözünə davam etdi: – Təəssüf ki, siz çox sadəlövsünüz... – O, bu sözləri kədərlə dedi, sonra isə məni sınayıcı nəzərlərlə süzdü. – Onsuz da sən mənim dediklərimə inanmırsan, mən bunu sənin gözlərindən oxuyuram. Amma zaman gələcək görəcəksən ki, mən düz deyirmişəm. Siz hələ erməniləri yaxşı tanımırsınız. Onlar üçün müqəddəs heç nə yoxdur. Aşot onların sifəti idi, biz hamımız onu gördük. Mən bilirdim, sənə də deyirdim, bizi satan odur, amma sən o qaçana qədər satqın olduğuna inanmırdın. Nə vaxtsa böyük

ordu ilə birləşəndə Aşot Martirosyanı bizi qarşılayanların arasında görsəm, inan ki, təəccüblənmərəm. Çünki bu xarakter təkcə Aşota yox, bütün ermənilərə məxsusdur, bu onların genindədir.

Nəhayət, o susdu. Biz bu barədə bir daha söhbət etmədik, aramızda olan isti münasibət də o söhbətdən sonra sərinlədi. Mənə elə gəlirdi ki, bu sərinlik daha çox mən tərəfdəndir. Mən sonuncu dəfə yaralananda vəziyyətim heç də yaxşı deyildi, uzun müddət huşsuz qaldım, o yanımdan bir addım belə aralanmadı. Həmişə mənə "Sən mənim kiçik qardaşımsan" deyərdi. Nikolay çox yaxşı əsgər, yaxın dost və gözəl insan idi.

* * *

Bir neçə il idi ki, xəstə idi. İki il əvvəl yatağa düşdü, təsadüfən onlara getmişdim. Bakı haqqında, Azərbaycan haqqında hər şeylə maraqlanırdı. "Cava, səni necə də görmək istəyirdim, lap burnumun ucu göynəyirdi, inan mənə. Oralar üçün yaman darıxmışam. Səndən o torpağın ətri gəlir. Bir xahişim var, bir də bu tərəflərə gələ bilsən, Bakıdan mənim üçün bir ovuc torpaq gətir, əgər ölsəm qəbrimin üstünə səpərsən" dedi. Mən qayıdıb gələndən bir ay sonra eşitdim ki, vəfat edib. Bu torpağı canından artıq sevənlərin biri də azaldı. Allah ona rəhmət eləsin.

Hələlik onun istəyini yerinə yetirə bilməmişəm, indi də hökumət dağılıb, hər yerdə vəziyyət yaxşı deyil, bilmirəm heç gedə biləcəyəm, yoxsa yox. Allah Qorbaçeva lənət eləsin, o boyda dövləti məhv elədi.

Məhyəddin kişi susdu, baxışları harasa sancılıb qaldı. İlk dəfə idi ki, özünə həmsöhbət tapmışdı. Bu günə qədər həyatının bu hissəsini hamı üçün bağlı saxlamışdı. İndi isə nədənsə ürəyi açılmışdı, danışmaq istəyirdi.

# XV FƏSİL

Bütün cəbhədə vəziyyət çətin idi, bir yandan da daxildə çaxnaşma başlandı. Rus kəşfiyyatı öz işini ustalıqla görürdü. Azərbaycan xalqı vətəndaş müharibəsi ilə üz-üzə dayanmışdı. Ölkə parçalanmaq ərəfəsində idi, mərkəzdənqaçma prinsipi onsuz da çətin olan vəziyyəti daha da qəlizləşdirirdi, kimin nə istədiyi məlum deyildi. Ətrafında üç-dörd nəfər silahlı olan hər kəs özünü lider sayırdı. Bundan istifadə edən düşmən isə öz işində idi. Müharibə Qarabağ çərçivəsindən çıxmış, əlavə yeddi rayon işğal olunmuşdu.

Əsgər və zabitlərə qarşı ögey münasibət, döyüşən orduda ruh düşkünlüyü, şəhər və rayonların bir-birinin dalınca təxribatla boşaldılması müharibənin Azərbaycan və Ermənistan, Rusiya və İran çərçivəsində olmamasını sübut edirdi. Oyuna daha böyük dövlətlərin və qüvvələrin drijorluq etdiyi aydın görünürdü. Azərbaycan torpaqları böyük bir paliqona çevrilirdi. Rusiyanın qulağının dibində yeni bir Əfqanıstanın yaranması bölgədə Azərbaycanı təkləyən İran və Rusiyaya daha çox təhlükə yaradırdı. Bu iki dövlət ermənilərə kömək etməklə bölgədə maraqları olan daha böyük güclərin qarşısında özlərini pis vəziyyətə salırdılar. Bunu hər iki ölkəni idarə edənlərin bilməməsi absurd idi. iran və Rusiya dolayısı ilə Azərbaycanı işğal etməklə, burada törədilən cinayətlərlə əlbir idilər.

– Səməd, ağlın nə kəsir bu işlərdən!?

– Ağlımın baltası yox, mişarı yox, nə ilə kəssin? Hətta olsaydı belə, bu "soxasoxda" o da çaşıb qalardı.

– A kişi deyirəm də, oxumuş adam başqa şeydir. Gördünüzmü cavabı?

Hamı gülüşdü.

– Elə sualın, belə də cavabı olur, atam balası.

– Ayə, Kəlça! Ağlın kəsməsi üçün balta, mişar lazım deyil. Onun kəsdiyini sənin dediklərinlə kəsmək olmaz. Gərək bir balaca vnimatelni olasan, yoxsa bütün dünyanın hurimələkləri də yığılsa köməyinə çata bilməz.

– Ay Miri, sualı dediyin kimi, cavabını da özün verdin. Bizimlə ermənilərin savaşı bitməyəcək, qiyamətə qədər uzanacaq. Allah bizə hər şeyin yaxşısını bolluca verib, amma biz onun qədrini bilməmişik. Ona görə fars, rus, erməni kimi qonşular da verib ki, bəlkə əlimizdə olanları dəyərləndirə bilək. İndi başa düşdün?

Hamı əlindəki işi saxlayıb onlara qulaq asırdı.

– Yox, anlamadım. Çox qəliz danışırsan, atam balası!

– Qəliz danışmıram, sən qəliz başa düşürsən, bir az açıqlayım bəlkə başa düşdün. Dediklərimin günahı tam şəkildə bizdə deyil, müstəmləkədə olmuşuq, bizi zaman-zaman belə öyrədiblər, yaxşı nəyimiz varsa, əlimizdən alıblar, genimizə rüşvəti, həsədi, paxıllığı və başqa neqativ vərdişləri zorla yeridiblər, həm də elə ediblər ki, bu hissləri biz, yalnız özümüzə qarşı istifadə edirik. Aramızdan biri öz bacarığı ilə irəli getsə, badalaq vurarıq, onun haqqında danos yazarıq, onu hər yerdə pisləyərik, ifşa edərik, bacardıqca çalışıb hörmətdən salarıq. Ən böyük dərd də budur ki, biz özümüzünkülərə edirik bunları. Başqalarının gözündə yaxşı olmaq üçün isə dəridən qabıqdan çıxırıq, onlara qarşı qonaqpərvər oluruq. Daha nələr, nələr... Budur, bizə müstəmləkəçilərin zaman-zaman öyrətdikləri. İnan mənə, atam balası! Nə qədər çətin olsa da, ac-susuz qalsaq da, hər gün yüz-

lərlə şəhid versək də, yüzillərdən sonra qazandığımız azadlıq hər şeyə dəyər. Bu gün azad dövlət qurmaq, onu qorumaq bizim qismətimizə düşüb, nə qədər xoşbəxtik biz, bax burada olanları, bizimlə çiyin-çiyinə döyüşənləri deyirəm, mən bununla fəxr edirəm.

Adil elə danışırdı ki, hamı sakit dayanıb onun dediklərinə qulaq asırdı. Uzaqdan komandirin "UAZ"ı tozlu yolla onlara tərəf gəlirdi.

Yaşda böyük olduğu üçün həmişə onu irəli verərdilər, indi də adət-ənənəyə riyaət etdilər. Komandiri qarşılamağı və vəziyyət haqqında məlumat verməyi ona tapşırdılar. O, ayağa qalxıb üst-başını düzəltdi, papağını başına qoyub özünəməxsus çevikliklə yaxınlıqda dayanan "UAZ"a tərəf getdi. Tabor komandiri kapitan Hacıbala Əzimov, qərargah rəisi mayor Qaçay Quliyevlə birlikdə gəlmişdilər. Görünür vacib sözləri var idi. Adil rəsmi surətdə məlumat vermək istədikdə komandir ona imkan vermədi.

– Hə-ə balaşka necədir vəziyyət? Qartallar sözünə baxır?

– Əlbəttə, kamandir!

– Deyin görüm, döyüşə hazırsınız?

– Elədir ki, var kamandir!

– Siz doğrudan da möcüzəsiniz, bir kamandir kimi sizinlə fəxr edirəm. Mayor Quliyev, əmr üzrə ekipajları bölüşdür.

– Oldu, cənab kamandir!

Sonra o, heyətlə düzülmüş taborun qarşısına keçdi, ucadan onlara müraciət etdi.

– Qartallar, məni eşidirsinizmi!?

– Bəli – hamı xorla dedi.

– Salam, Əsgər!

– Salam! Salam! Salam! – səs qayalara dəyib əks-səda verdi. Komandir bir anlıq susdu və sonra həmişəkin-

dən fərqli olaraq bir neçə addım geri çəkilib daha ucadan danışmağa başladı.

– Siz ey Vətən fədailəri! Sizin qarşınızda danışmaq mənim üçün fəxrdir. Mən bəlkə də ən xoşbəxt kamandirəm ki, sizə rəhbərlik edirəm. Sizin kimi əsgərləri olan kamandir utanmaz, başını yerə dikməz. Bildiyiniz kimi biz bu günə qədər ermənilərlə deyil, dünyanın koalisyon ordusu ilə, xüsusən də ruslarla döyüşmüşük. Hətta ruslar bunu etiraf etməsələr də biz hamımız bilirik ki, bu danılmaz faktdır. Biz, bunun canlı şahidləriyik. Lakin bu gün əvvəlkilərdən fərqlidir. İndiyə kimi ruslar etdiklərini gizlədirdilər, indi isə açıq-aşkar ermənilər tərəfdən çıxış etdiklərini həyasızcasına etiraf edirlər. Onlar bizi özlərindən asılı vəziyyətə salmaq üçün bir çox rayonlarımızı işğal ediblər və hazırda buna davam edirlər. Biz bu gün onların qarşısını almalıyıq, onlara hədlərini göstərməliyik. Biz onların irəli getməsinə bu gün nöqtə qoymalıyıq. Qarabağ müharibəsində dönüş nöqtəsi bu gün olmalıdır. Bu hətta bizim hər birimizin həyatı bahasına olsa belə. Yaşasın müstəqil Azərbaycan dövləti! Eşq olsun, Azərbaycan əsgərinə!

Komandirin odlu-alovlu çıxışından sonra hətta ölüm də onları qorxutmurdu. Bir neçə saatdan sonra heyətlər təyin olunan mövqelərə doğru istiqamət aldılar.

# XVI FƏSİL

Belə bir vaxtda tankın birinin xarab olması heç də yaxşı deyildi. Elxan içəri girəndə otaqda heç kim yox idi, paltarını soyunmadan çarpayının üstünə uzandı. Lakin bütün günü tankın üstündə işləyib yorulmasına baxmayaraq, gözünə yuxu getmirdi. Nə qədər çalışsa da, adi fikirləri başından çıxara bilmirdi, sanki yastığın içi dünyanın bütün fikirləri ilə dolaraq, oradan da onun beyninə axır, dincəlməyə mane olurdu. Arxası üstə uzanıb gözlərini yumdu, az da olsa yatmağa çalışdı. Kiminsə otağa girdiyini hiss etdi, lakin fikir vermədi. Ağababa yarıqaranlıq otaqda onu görüb özü ilə danışırmış kimi dedi:

– Elxan burdadı ki, nə əcəb belə tez gəlib!? Görəsən yatıb?

Cavab gəlmədiyini görüncə onun yatdığını düşündü. Özü də çarpayısının üstündə oturdu. Az sonra İsmayıl otağın qapısını açıb içəri baxdı, sakitcə çarpayının üstündə oturan Ağababadan soruşdu.

– Elxan yatıb?

– Deyəsən. Mən gələndə yerində idi, çağırdım da cavab vermədi.

O, içəri bir addım atıb dayandı.

– Çoxdan yatıb?

– Bilmirəm ay İsi, dedim axı mən gələndə yerində idi. Yəqin yatıb, yazıq bütün günü o tankın üstündən düşməyib. Neçə dəfə dedim ki, kömək lazımdırsa, gəlim, dedi ki, yox.

Onlar susdular. İsmayıl otaqda narahatçılıqla vargəl edir, sanki nəsə demək istəyir, lakin nədənsə susur-

du. Nəhayət, otaqdan çıxmağa qərar verdi.

– Yaxşı, mən getdim. Oyansa deyərsən məni görsün.

Elxan yatmamışdı, söhbəti eşidirdi, lakin gözlərini açıb danışmağa özündə həvəs tapmadı. İsmayıl çıxandan sonra yerində fırlanıb arxası üstə döndü. Ağababa onun oyaq olduğunu başa düşdü.

– Noolub, yata bilmirsən? İsmayıl gəlmişdi, dedi ki, oyansa məni görsün.

– Eşitdim. Ağa inan ki, heç nəyə həvəsim qalmayıb, bu tank da ki, bir yandan başıma bəla olub. Zəhrimar düzəlmir ki, düzəlmir. Elə bil it ulayıb üstünə.

– Günah sənin özündədir. Balam, düzəlmir, göndər getsin zavoda. Gərək bütün günü əziyyət çəkəsən!? Nə qədər yuxarı çıxıb aşağı düşmək olar?

– Ağa, neyləyim? Elə bilirsən zavoda göndərsək sabah düzəldib geri qaytaracaqlar? Ay qaytardılar ha...

– Elxan, bunlar təkcə sənə qalıb? Hamı necə sən də elə, qardaş.

– Hə, elədir. Başqa əlacım yoxdur. Bilirsən Ağa, mexaniki cəhətdən olsaydı bir təhər düzüb qoşmaq olardı, elektrik sistemində problem var, burada da normal başı çıxan yoxdur ki, onu düzəltsin.

– Nə isə. Gedək görək İsmayıl nə deyir.

Onlar otaqdan çıxıb texniki parka tərəf getdilər. Parkın girişində dayanıb xeyli söhbət etdilər, Ağababa nə haqqındasa danışır Elxan isə qulaq asırdı. Artıq hava qaralmışdı...

Nasaz tankın yanına gələrkən onun yerində olmadığını görəndə hər ikisi təəccüblə bir-birinə baxdı.

– Ağa, tank yerində yoxdur.

– Görürəm, yəqin İsmayıl elə ona görə gəlibmiş, – deyə Ağa fikir yürütdü.

– Deyirsən yəni, zavoda göndəriblər?...

Ağababa çiyinlərini çəkdi.

– Nə bilim, ola bilər.

Daha heç biri danışmadı, parkdan çıxıb tabora tərəf getdilər, ancaq İsmayıl heç taborda da yox idi. Axşam əsgərlərə “Yat” komandası veriləndən sonra geri, qaldıqları evə qayıtdılar.

Elxan vurnuxa-vurnuxa qalmışdı, elə bil ən qiymətli bir şeyini itirmişdi. Özünü ən çox sevdiyi oyuncağını itirən uşaq kimi hiss edirdi. Yerinə uzansa da yata bilmədi. Həmin gecə İsmayıl evə gəlmədi.

Ertəsi gün tezdən oyandı, əl-üzünü yuyub qayıdanda qapıda zabit yoldaşları ilə rastlaşdı. Ağababa ilə birlikdə tabora tərəf getdilər. Yolda özüylə danışırmış kimi dedi:

– Ağa, İsmayıl bu gecə gəlmədi ki? Heç Mirələm də yox idi.

Ağababa onun üzünə baxdı, lakin heç nə demədi, taborun giriş qapısından keçərkən dönüb Elxana baxdı.

– Yəqin ki, burada olar.

Onlar həyətə girəndə İsmayılla Mirələmin əsgər yataqxanasının qarşısında olduğunu gördülər. Hər ikisi yorğun görünürdü. Elə bil bütün gecəni yatmamışdılar. Elxanla Ağa onlara yaxınlaşdı.

– Nə olub üz-gözünüzdən zəhrimar tökülür, elə bil ikisini biz yeyib, birini sizə vermişik. – Deyə Ağababa onları qabaqladı.

Mirələm işi başa düşdü, bərkdən qəhqəhə ilə güldü və gülə-gülə dedi.

– Ağa, inan ki, siz gəlməmişdən bir az əvvəl İsmayılla elə bu barədə danışmışdıq. Eynilə bizim dediyimiz sözləri təkrar etdin, elə bil danışanda yanımızda olmusan. Əhsən sizin hər ikinizə.

– Bəsdir, başımızı piyləməyin, yaxşısı budur ki, deyin görək bütün gecəni harda olmusunuz? Ancaq demə-

yin ki, burada, əsgərlərlə bir yerdə olmusunuz, çünki buranı yoxlamışıq.

– Yox qardaş, onu mən deyə bilmərəm. Yaxşısı budur ondan soruşun – deyə başı ilə kənarda sakit və qaşqabaqlı dayanan İsmayılı göstərdi, özü isə dönüb qərargaha tərəf getdi.

Ağababa İsmayıla tərəf getdi, qaşqabaqlı üzünə baxanda başa düşdü ki, ondan söz almaq çətin olacaq. Dönüb Elxandan soruşdu.

– Alə, o zay məhsul hara getdi, bundan söz almaq olar?... Qaşqabağını görmürsən? – səsini aşağı salıb dedi – qalmışıq da bu giclərin əlində.

Elə bil hər şey bu sözə bənd idi, ab-hava dərhal dəyişdi, İsmayılla Elxan hər ikisi özlərini saxlaya bilməyib gülməyə başladılar. Ağababa dönüb onları təəccüblə süzdü.

– Deyirəm gicdilər, heç kim inanmır. Sən nəyə gülürsən, alə?.. .– deyə qəzəblə Elxandan soruşdu.

– Neyləyim Ağa, elə söz dedin ki, gülməyim tutdu.

– Yaxşı olar ki, ondan soruş görək bütün gecəni harada olublar? Sən deyildin yatmağa qoymurdun... İndi özündən soruş da...

Ismayıl gülə-gülə onların mübahisəsinə son qoymaq istədi.

– Güya bütün gecəni yatmamısınız da?

– İmkan verib ki, yatmağa...

– Yatmamısınız? Yanınızdan o boyda tankı aparıblar xəbəriniz olmayıb, gör yatsaydınız nə olardı!?

– Kim aparıb?... – deyə Elxan dilləndi – Amma həqiqətən yatmamışıq.

– A kişi, məni dolamayın da. Bu maşın deyil ki, itələyib parkdan çıxaraq, səssiz olduğu üçün heç kimin xəbəri olmasın. O boyda “Teqaç” girib parka, bir saatdan çox dala-qabağa verib, gurultusundan qulaq tutu-

lurdu, hamının xəbəri olub sizdən başqa. Bəlkə, heç siz taborda olmamısınız?

Elxan çiyinlərini çəkdi, günahkarcasına dilləndi.

– Nə olardı, mənə də deyərdin də.

– Gəlmişdim də deməyə. Yatmışdın. Oyaq olursan ki?... Nə vaxt gəlirəm, yatırsan. Mən də məcbur olub Mirələmdən xahiş elədim...

– Nə deyirəm ki, sağ olun.

Elxan elə bildi ki, gecə tankı zavoda yola salıblar.

* * *

Kapitan Ismayıl İsmayılov briqadada yeni yaranmış zirehli qrupun komandiri idi, hərbi hissədə ən ağır və məsuliyyətli iş onun üzərində idi və bu məsuliyyəti lazım olduğundan da artıq başa düşürdü. O, çox narahat idi, həm elektrik sistemində nasazlıq olan "Katok 23"ə, həm də komandiri olduğu bölüyün texnika üzrə komandir müavini leytenant Elxan Mehdiyevə görə. O, Elxanı ilk gündən tanıyırdı. Onun necə sadə, təmiz, pak insan olduğunu, hərbi texnikaya necə can yandırdığını gözəl bilirdi.

Son günlər "Katok 23"ün nasaz olması onunla birlikdə bölükdə hamının kefinə soğan doğramışdı. Xüsusən də Elxanın. Yazıq işləməkdən lap əldən düşmüşdü. Amma elə bil tankın tərsliyi tutmuşdu, heç bir vəchlə işə düşmək istəmirdi. Elxanın isə gecəsi-gündüzü yox idi. Əslində bunu ondan tələb edən də yox idi. Tank nasaz olduğu üçün Bakı ətrafında yerləşən Tank Təmiri Zavoduna göndərilməli idi. Elə onları narahat edən ən böyük səbəb də bu idi. Müharibənin qızğın vaxtında əlində olan texnikanı verməyin nə olduğunu yalnız orada olanlar yaxşı bilir.

Bu səbəbdən də son zamanlar nə İsmayılın, nə də Elxanın üzü gülmürdü. Artıq bölük komandiri öz qərarını vermişdi. "Katok 23"ə aid olan sənədləri hazırlayıb zavoda göndərmək.

Bu fikirlərin təsiri altında taboru tərk edib piyada briqadaya tərəf üz tutdu, bir azdan briqada komandirinin hər gün etdiyi səhər iclası başlayacaqdı. Qaradağlı Zəngişalı arasında olan köhnə asfalt yolun kənarı ilə gedirdi ki, arxadan verilən maşın siqnalına geri döndü. Ona çatanda hərbi maşın köhnə asfaltda toz qaldırıb dayandı.

– İsmayılov, əyləş...

Bu təmir taborunun komandiri mayor İlham Bünyadov idi.

– Siz gedin, mən yavaş-yavaş gələrəm, hələ vaxta çox var. Sən nə əcəb belə tez gedirsən? – deyə saatına baxdı.

– Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Elə səni görmək üçün tez çıxmışam, dedim iclasdan əvvəl bir az söhbət edək, şad xəbərim var, otur.

Ismayıl gülümsəyib maşına qalxdı, səhər tezdən hansı şad xəbərin olacağını təxmin etməyə çalışdı.

– Tank Təmiri Zavodundan bir neçə qrup bölgələrə ezam olunub. Bizim briqadaya da iki nəfər gəlib, hələlik mən onlarla görüşməmişəm, kimlərdir, nə işinə baxırlar bilmirəm.

– Cənab mayor, bu doğrudan da şad xəbərə oxşayır, amma bizə elektrik lazımdır.

– Bilirəm. Əsas odur ki, onlar cəbhə bölgəsindədir, lazım olsa danışıb gətirə bilərik. De görək, sənədləri hazırlayıb vermisən briqadaya?

– Sənədlər hazırdır. Bünyadov, bilirsən ki, istəmirdik texnika əldən çıxsın, amma belə də saxlamaq olmaz,

hamımız əldən düşmüşük, Elxana lap yazığım gəlir. İstəyirdim bu gün verim getsin.

– İsmayılov hələlik vermə, bir gün də saxla.

– Günü günə satırıq, bu zəhrimar da, düzəlmir ki, düzəlmir. Əgər düzəlməsə nə olacaq? O zaman mən cavab verməli olacağam. Heç bilirsən hal-hazırda o tankın olmaması "Zirehli qrupa" necə ağır zərbədir? Onu bu vəziyyətdə burada saxlamaq isə cinayətdir. Indi qalmışıq iki daşın arasında, bilmirik hansını edək ki, nə şiş yansın, nə kabab.

– Bilirəm, sənin üçün çox çətindir, ancaq tankı göndərməklə də heç nə qazanmırıq. Elə bilirsən ki, bu gün tankı yola salsaq, sabah başqa birisini göndərəcəklər? Ay-hay!

– Yaxşı, bir gün də ləngidərəm, yalnız bir şərtlə ki, zavoddan gələnlərlə özüm söhbət edim.

Mayor Bünyadov fikirli halda onun dediklərinə razılıq əlaməti olaraq başını tərpətdi.

Həmin gün iclasdan sonra kapitan İsmayılov zavoddan gələn nümayəndələrlə görüşüb vəziyyəti aydınlaşdırmaq üçün Xındırıstanda yerləşən təmir taboruna baş çəkdi. Tabor növbətçisi onların texniki parkda olduqlarını deyib, onunla birlikdə parka yollandı.

– Gələnlər elektriklərdir. Amma deyəsən yaxşı uşaqlardır, səhər açılandan parkdadırlar. Bizdə "ZİL-131" xarab idi, onun üstündə işləyirlər.

Onlar parka daxil olanda gələnlərin hər ikisi maşının yanında idilər. Ismayıl onlara yaxınlaşdı.

– Salam qardaşlar! Gəlin, tanış olaq, "Zirehli qrup"un komandiri kapitan İsmayılov. Eşitdim ki, siz bura bizə kömək məqsədilə gəlmisniz. Bizim sizə çox vacib işimiz düşüb.

– Rafiq Qasımov və Elam Məmmədov. Hər ikimiz hərbi texnikaların elektrik sisteminə baxırıq. Bizdən asılı

nə varsa çalışarıq ki, yerinə yetirək. Eşidirik sizi.

– Bizim tankların birində elektrik sistemi sıradan çıxıb, tankın topu, stabilizatoru, atıcı-tuşlayıcı sistemi işləmir.

Rafiqin üzündə təbəssüm göründü.

– Eh, daha nə qaldı ki!? – dedi və ciddi şəkildə müraciət etdi – Cənab kapitan, tank haradadır? Mümkünsə biz onu yüngülvari texniki baxışdan keçirərdik.

– Nə zaman desəniz, sizi ora apara bilərik.

– Yaxşı olar ki, tankı bura gətirəsiniz, çünki bizim elə vaxtımız olmayacaq ki, hər bir texnikanı yerində yoxlayaq, işimizin çoxluğu göz qabağındadır, – deyə o əllərini açıb parkda olan texnikaları göstərdi.

– Deyirəm bəlkə yerində baxaq, əgər sizlikdirsə, gətirək.

– Sizin dediyiniz kimidirsə, bizlikdir, gətirin.

Bığ yeri yenicə tərləyən, gülərüz oğlanın verdiyi inamlı cavab, ağır döyüşlərin şahidi olan komandirin ürəyinə yağ kimi yayıldı. "Kaş bütün əsgərlər sənin kimi inamlı olaydı" deyə düşündü. Razılıq əlaməti olaraq başını irəli-geri yırğalayıb dedi:

– Yaxşı, nə deyirəm, gətirərik. Görək dilinizə görə dilçəyiniz də var, yoxsa yox!?

– Cənab kapitan, bizə lazım olan ehtiyat hissələrini tapmaq sizlikdir, bilirsiniz bəzən elə olur ki, üstündə olan hissələr ələ gəlmir, yeniləri ilə dəyişməli oluruq.

İsmayılov başı ilə razılığını bildirdi və birbaşa bölüyə gəldi. Elxanın yatdığını görüb oyatmağa qıymadı, Mirələmlə birlikdə "Katok-23"ü Xındırıstana – təmir taboruna apardılar. Gecə saat üçdə işlərini bitirib "Zirehli qrup"a baş çəkdilər. Onlar tabora qayıdanda, artıq səhər açılırdı. Bir azdan yenə təmir taboruna getməli idi.

* * *

Rafiq taborun həyətindəki ağacın altında dayanmışdı. Gecənin sehrində idi, sən demə, burada gecələr də bir başqa cür olurmuş. Saat on bir olmasına baxmayaraq, hələ də yatmamışdı. Doğulub boya-başa çatdığı Tovuz rayonunun gecələrinə bənzəyirdi bir az, lakin zaman və məkan gecənin hər anında öz sözünü deyirdi. Cəbhə xəttindən uzaq olsa da gecənin qaranlığında arabir atılan mərmilərin səsi itlərin səsinə qarışıb kəndin rahatlığını pozurdu.

Texnikaların yerləşdiyi park tərəfdən gələn tankın nəriltisi onu fikirdən ayırdı. Bu gün üzbəüz dayanıb söhbət etdiyi zabitin hərəkətləri, baxışlarındakı qətiyyət, üzündəki cizgilər yenidən xəyalında canlandı. "Yaxşı ki, belə zabitlərimiz var" deyə düşündü. Onun dediyi "Görək dilinizə görə dilçəyiniz də var, yoxsa yox" sözlərini bir neçə dəfə pıçıltı ilə təkrarladı. Cibini eşib siqaret yandırdı. Bəlkə də bu günə qədər duymadığı bir ləzzətlə tüstünü ciyərlərinə çəkdi. Tabor növbətçisi ilə kiminsə onun haqqında danışdığını eşitdi.

– Elektriklər təzə gəliblər, birinin adı məncə Rafiqdir. Dedim yatmayıblarsa görüşərdim, yatıblarsa daha heç nə, qaldı sabaha.

– Bir az əvvəl deyəsən, buralarda birini gördüm, yatıb-yatmadıqlarını dəqiqləşdirərik, – deyə əsgərlərdən birini içəri göndərdi.

Rafiq siqaretin kötüyünü yerə atıb tapdaladı. Asta addımlarla onlara yaxınlaşdı. Ismayılla Mirələm onu görəndə sevindilər.

– Biz də səni axtarırıq. Tankı gətirmişik, parkdadır.

– Narahat olmayın, elə sabahdan işə başlayacağıq. Yanımızda siz tərəfdən bir nəfərin olması yaxşı olar. Sizinlə tez əlaqə yaratmaq üçün.

– Olar. Mən özüm də tez-tez baş çəkəcəyəm.

Onlar sağollaşıb taborun giriş qapısına tərəf getdilər. Rafiq isə hələ də yatmaq istəmirdi.

* * *

Ertəsi gün səhər düzülüşündən sonra İsmayıl özü ilə "Katok-23"ün sürücü-mexaniki Elburus Quliyevi götürüb Xındırıstana yollandı, Rafiqlə elə tankın yanında görüşdülər. Dekabrın çiskin və soyuq havası adamın zəhləsini tökürdü.

– Hə, necədir vəziyyət? Xəstəni müayinə edə bilmisiniz? – deyə gülümsündü.

– Xəstənin halı çox pisdir, əlavə tədbirlərə ehtiyac var.

Rafiq də gülə-gülə cavab verdi.

– Doğrudan? Ciddi nəsə var? – İsmayıl ciddiləşdi.

– "K-1" bloku dəyişməlidir. Qüllənin və stablizatorun normal işləməsi bu blokun hesabınadır. İlk dəfə sizinlə söhbət edəndə biz razılaşmışdıq ki, lazım olam ehtiyat hissələri ilə bizi təmin edəcəksiniz. Adətən biz belə tankları cəbhə bölgəsində təmir etmirik. Bu birbaşa cinayətdir. Lakin sizin çətin vəziyyətdə olduğunuzu nəzərə alıb razılıq verdik. İndi Elam onu çıxaracaq, ələ gəlməsə, yeni "K-1" bloku lazım olacaq.

– Haradan?...

– O sizin işinizdir. Əvvəlcədən söhbətimiz belə olub. Tapmaq mümkün olmayacaqsa, elə bu vəziyyətdə göndərək getsin zavoda.

– Nə, zavod, ağlın çaşıb sənin? Darıxma, bir şey fikirləşərik.

– Mən heç də darıxmıram. Sizdə başqa xarab tank varsa bloku dəyişə bilərik.

– Yox, eləsi yoxdur, ancaq başqa bir variant var. Siz işinizdə olun. Bir azdan yenə sizinlə əlaqə saxlayacam.

Ismayılın yeganə ümidi erməni mövqelərinə yaxın yerdə vurulmuş düşmən tankı idi. "Görəsən onun "K-1" bloku salamatdır? Tutaq ki, salamat oldu, onu oradan çıxarıb gətirmək mümkün olacaqmı? Ora getmək çox böyük risk deyildimi?" deyə düşündü.

Bu fikirlərin təsiri altında bir də gördü ki, elə həmin mövqeyə ən yaxın yerdədir. Ərazini diqqətlə izlədi, düşmən mövqeyindən yetmiş, yüz metrə aralıda vurulan tanka necə yaxınlaşmaq mümkün olacağını dəfələrlə götür-qoy etdi. Lakin bunu özbaşına edə bilməzdi, mütləq briqada komandirinin razılığı lazım idi. Üstəlik elektrikləri də ora aparmaq lazım idi. Heç alınan işə oxşamırdı, amma mütləq bir çarəsi olmalı idi.

Yorğun halda tabora qayıtdı. Artıq hava qaralmışdı. Yerinə uzansa da yata bilmədi. Sabah edəcəyi işləri bir daha beynindən keçirdi.

* * *

Ertəsi gün səhər tezdən yenidən həmin yerə gedib xəritəni açdı, ərazini xəritə üzərində işləməyə başladı. "Zirehli qrup"dan olan tankları lazımi yerlərdə yerləşdirdi. Xəritəni tamamlayıb bir neçə dəfə yoxladı. Geriyə "Zirehli qrup"un yerləşdiyi yerə tərəf qayıtdı.

Yol boyu ancaq keçirmək istədiyi əməliyyat haqqında düşünürdü. Nədənsə, heç kimə demək istəmirdi bu barədə, istəyirdi ki, hər bir şeyi incəliklərinə qədər hazırlasın, əgər kiməsə demək lazım olacaqdısa da, bu yalnız son anda olacaqdı. O, əməliyyatın çətin olduğunu bilir və məsuliyyətini dərk edirdi. Hətta bir neçə dəfə vaz keçmək istədi, lakin daxildən gələn inam hissinin təsiri ilə dayandı.

Onu vaz keçməyə vadar edən əsas səbəblərdən ən birincisi, zavoddan gələn elektriklərin onlarla birlikdə vurulmuş tankın yanına mütləq getmələri idi. Başqa variant yox idi. Erməni mövqelərinin yüz addımlığında olan tankda "K-1" blokunun işlək və ya qeyri işlək olması isə sual altında idi. əməliyyatın uğurlu alınması üçün əsas şərtlərdən biri də bu idi. Bunu briqada komandirinə çatdırmaq, onu inandıraraq əməliyyatın keçirilməsinə icazə almaq...

Daha bu barədə düşünmək istəmirdi. Yorulmuşdu, çox yorulmuşdu. Bir az yatmaq, dincəlmək istəyirdi.

Elə bu fikirlərlə gəlib "Dörd yol"da sıx ağacların altında dayanan "Zirehli qrup"un yanına çatdığını gördü. Zirehli texnikalar, yaxşı gizlədildikləri üçün lap yaxından belə onları görmək mümkün deyildi.

Təxminən iki həftə öncə briqada komandiri tank və BMP-ləri bir yerə yığıb "Zirehli qrup" yaratmağı təklif etdi və bu qrupa komandirliyi ona tapşırdı. Elə həmin gün də "Zirehli qrup"un döyüşə hazır vəziyyətdə dayanacağı yerin seçilməsini və texnikanın lazımi qaydada gizlədilməsini əmr etdi. Kapitan İsmayılov verilən tapşırığı qısa zaman ərzində və çox keyfiyyətli yerinə yetirdiyi üçün komandanlıqdan təşəkkür və xüsusi rəğbət qazandı. Xüsusən də son bir neçə gün ərzində döyüşlərdə fərqlənən "Zirehli qrup," briqada komandirinin seçimində yanılmadığını, nailiyyətlərin göz qabağında olduğunu subut etmiş və komandir, keçirdiyi iclaslarda dəfələrlə bunu xüsusi qeyd etmişdi.

Heyət komandirləri, növbə ilə yaxınlaşıb döyüş hazırlığı barədə məlumat verdilər və sıra ilə düzüldülər. Komandir onlarla ümumi söhbət aparıb, həmişə olduğu kimi sərbəst olmalarını tapşırdı.

– Bir stəkan çay olsaydı içərdik.

– İndicə dəmləmişik, pürrəngi, lap xoruz quyruğudur. Komandir, belə çay ələ düşməz. Ay uşaq cəld olun! – deyə Coşqun yoldaşlarını tələsdirdi. – O şirniyyatdan da gətirin.

– Nə şirniyyat, yoxsa bazarlığa getmisiniz?

– Xeyr, cənab kapitan, briqada kamandiri dünən iki dəfə bizə baş çəkib, sağ olsun, hər dəfə də əli dolu gəlib.

– Sağ olsun, – sonra isə özüylə danışırmış kimi əlavə etdi. – Nəhayət ki, bizim də qayğımıza qalan tapıldı.

Coşqun onun dediklərini eşitmədiyi üçün cəld ona yaxınlaşdı.

– Kamandir, bağışlayın, nə dediniz eşitmədim.

Ismayıl əlləri ilə onun çiyinlərini tutub sıxdı.

– Düzələcək qardaşlar, hər şey düzələcək, sadəcə zamana ehtiyacımız var.

Bir azdan çay süfrəsi açıldı, cürbəcür şirniyyatlar süfrəyə düzülmüşdü. Ismayıl isə fikirli halda bu gecə yerinə yetirmək istədiyi plan haqqında düşünürdü. Çayını içib Xındırıstana, Rafiqgilin yanına getməli idi. "K-1" bloku bu gecə tapılmalı idi.

* * *

Kapitan İsmayılov Xındırıstana çatanda artıq günortadan keçmişdi. O, birbaşa "Katok 23"-ün təmir edildiyi texniki parka getdi. Elam tankın üstündə oturub yağlı əllərini əski ilə silir, Rafiq isə hündürboylu bir zabitlə mübahisə edirdi. Parkın girişində onu sürücü mexanik Elburus Quliyev qarşıladı.

– Cənab kapitan o zabit Rafiqgilin komandiridir, onları başqa yerə aparmaq istəyir. Belə getsə "Katok 23"ün bəxti açılmayacaq. Rafiq bayaqdan onunla mübahisə edib deyir ki, tankı yarısına kimi sökmüşük, belə

qoyub gedə bilmərik. O isə yenə öz bildiyini deyir. Mayor Bünyadov da gəlmişdi, ancaq onu yola gətirə bilmədi. Kamandir, icazə ver, onu qovum burdan.

Kapitan İsmayılov ciddiləşdi.

– Sən qarışma əsgər! O kimdir ki, bu saat həll edərik.

Mübahisə edənlərə yaxınlaşdı, üzünü Rafiqə tutub soruşdu.

– Qasımov, hələ çox işiniz qalıb?

– Nə etmişik ki, tankı yarısına kimi sökmüşük, indi də gəliblər ki, işi yarımçıq qoy. Elə bil siçan-pişik oyunu oynayırlar bizimlə. – Rafiq əsəbi halda dedi.

– Əsgər, verilən əmri yerinə yetir, – deyə zabit daha da ciddiləşdi. Rafiq səsini qaldırdı.

– O zaman bizi niyə göndərirdiniz? Düşmənin iki addımlığında tank xarab olub, camaatın gecəsi-gündüzü yoxdur, siz isə deyirsiniz ki, əmri yerinə yetir. Bəlkə sizi göndərənlərə vəziyyət haqqında məlumat verəsiniz, bunları belə vəziyyətdə qoymaq olar?

– Bir dəqiqə, başa salın görək nə baş verir!?

Zabit Rafiqi fikrindən döndərə biməyəcəyini başa düşüb daha heç nə demədi, dönüb çıxışa tərəf getdi.

– Ancaq bunu yadında saxla, bu işə görə də bütün məsuliyyət sənin üstündədir.

– Güya həmişə mənim məsuliyyətimi sən götürürdün üstünə? Əcəb adamlara rast gəlmişik də.

Kapitan İsmayılov söhbətə qarışıb məsələni daha da gərginləşdirmək istəmədi. Bir də Rafiq onsuz da bu bacarıqsız zabitin öhdəsindən gəlirdi. Rafiq bir siqaret yandırıb dilxor halda var-gəl etməyə başladı. "Katok 23"ün yanında dayanan kapitan İsmayılova yaxınlaşıb dedi:

– Siz narahat olmayın, verdiyimiz sözü yerinə yetirməyincə bir addım da kənara qoymayacağıq.

– Mən buna bizim ilk görüşümüzdən əminəm. Amma bir məsələ də ortaya çıxıb. Lazım olan ehtiyat hissələrini tapa bilmirik. Daha doğrusu "K-1" bloku düşmənin nəzarətində olan vurulmuş tankda ola bilər ki, olsun. Lakin hələ bu da dəqiq deyil. Bunun üçün ora gedib yoxlamaq lazımdır.

– Bəs nəyi gözləyirik?

– Bu çox təhlükəlidir.

– Burada olmağın özü artıq təhlükəlidir, cənab kapitan. Təhlükəsiz nə var ki?

– Məsələ burasındadır ki, sizlərdən biri bizimlə getməlidir.

– Getməliyiksə, deməli gedəcəyik. Başqa söhbət ola bilməz. Bizim heç birimiz burada olanlardan nə artıq deyil, nə də əskik.

– O zaman hazır olun, hər an çıxmaq əmri verilə bilər.

– Biz hazırıq, elə bilirəm ki, bizə silah veriləcək, deyilmi?

– Əlbəttə, bunların hamısı nəzərə alınacaq.

Kapitan İsmayılov dönüb maşına doğru addımladı, sanki işin tən yarısını həll etmişdi. İndi yalnız briqada komandiri ilə razılaşmaq qalırdı. O, birbaşa hərbi hissəyə yola düşdü.

Hərbi hissədə sakitlik idi, belə bir sükutla hərbi hissədən çox uşaq baxçasına bənzəyirdi. Milçək uçsaydı vızıltısı aydın eşidilərdi. Həyətdə iki əsgərdən başqa kimsə gözə dəymirdi. Geniş hola daxil oldu. Yorğun növbətçi onu başdan ayağa kimi süzdü. Elə bil baxışları ilə "işin, gücün yoxdur, nəyə gəlmisən bura" demək istəyirdi. Könülsüz ayağa qalxıb, hərbi salam verdi.

– Kamandir yerindədir?

– Bəli, amma tapşırıb ki, heç kimi buraxmayım.

– De ki, "Zirehli qrup"un kamandiri kapitan İsmayılov vacib iş üçün gəlib.

Kapitan danışa-danışa komandirin qapısına tərəf getdi, növbətçi zəng etməyə macal tapmadı, briqada komandiri qapını açıb uca səslə dedi.

– İsmayılov, sən qapıda dayanmayanlar siyahısındasan, nə zaman istəsən gələ bilərsən.

Səs əks-səda verib bütün dəhlizi bürüdü. Polkovnik onu həyətdən gələrkən görmüşdü, əlinin işarəsi ilə geniş dəhlizdə gənc kapitanı irəli buraxıb kabinetinə dəvət etdi. Ağır addımlarla keçib yerində oturdu, ona baxmadan masanın üstündəki kağızları səliqəyə saldı, sanki bu müddət ərzində "Zirehli qrup"un komandirinin nə məqsədlə yanına gəlməsini anlamaq üçün vaxt qazanırdı. Başını qaldırıb hələ də ayaq üstə dayanan gənc kapitana baxdı və sanki ilk dəfə görürmüş kimi:

– Əyləş İsmayılov. Ayaq üstə niyə dayanmısan, de görüm nə içəcəksən, su, çay, kofe?... – cavab gözləmədən küncdə qoyulmuş samovarı elektrik şəbəkəsinə qoşdu.

– Sağ olun kamandir, su daha yaxşı olar – deyə İsmayılov masanın üstündəki şüşə qabda olan suyu fincanlara süzdü. Gəlişinin məqsədi barədə heç nə deməyərək qarşısındakı təcrübəli polkovnikə bir az da düşünməyə vaxt verdi. Kabinetə ağır sükut çökdü.

– İsmayılov, sizi eşidirəm, elə bilirəm ki, boş yerə yanıma gəlməmisiniz? – nəhayət ki, polkovnik sükutu pozdu.

– Elədir ki var, cənab palkovnik, bir əməliyyat keçirmək istəyirik sizin razılığınız lazımdır, – deyib hazırladığı xəritəni masanın üstündə açaraq, əməliyyat barədə hər şeyi bütün təfərrüatı ilə danışmağa başladı. İndi onlar hər ikisi ayaq üstə dayanmışdılar, gənc kapitan qarşısındakına əməliyyatın vacibliyini inandırmaq üçün dayanmadan danışır, polkovnik isə diqqətlə qulaq asır, arabir nəyi isə aydınlaşdırmaq üçün suallar verirdi. Onlar gah masanın üstündəki xəritəyə doğru əyilir, gah da

xəritəni əllərinə götürüb diqqətlə baxırdılar. Nəhayət ki, briqada komandiri fikirli hada masadan ayrılıb samovara tərəf getdi. Iki fincan acı kofe hazırlayıb masanın üstünə qoydu və düşüncəli halda yerinə keçdi.

– Mən kofeni acı içirəm, istəsən şəkər tozu əlavə et.

– Sağ olun, cənab palkovnik.

Kabinetə uzun, cansıxıcı sukut çökdü. Polkovnik adəti üzrə qaynar kofe dolu fincanı ovucları arasında sıxıb fikrə getmişdi. Kapitan İsmayılov komandirin hansı qərarı verəcəyini səbirsizliklə gözləyir, ötən hər an ona bir il qədər uzun gəlirdi. Polkovnik isə sanki donmuşdu, hətta gözlərini belə qırpmırdı. "Görəsən indi o nə fikirləşir. Axı fikirləşməli nə var ki, əməliyyat planı və məqsəd məlumdur, təkcə qalır təsdiq edib, başlanmasına icazə vermək." Polkovnik isə hələ də bir cavab vermir, nəyi isə dərindən götür-qoy edirdi. Birdən onun kobud və xırıltılı səsi otaqdakı cansıxıcı sükutu pozdu. Hələ də əməliyyat haqqında düşünən kapitan diksindi, elə bildi ki, səsin effektindən divarlar da əsdi.

– İsmayılov, planı və xəritəni kim işləyib?

– Mən. Cənab palkovnik.

– Təkcə işləmisən?

– Elədir ki, var cənab palkovnik.

– Əməliyyat haqqında kiminsə xəbəri var?

– Xeyr. Cənab palkovnik.

Polkovnik məmnun halda ona baxdı.

– Əməliyyata nə zaman başlamaq istəyirsən?

– Siz nə zaman icazə versəniz. Məndən olsa elə bu gecə.

– Gedin hazırlaşın, axşam saat beşdə gedənlərin siyahısı ilə birlikdə olursan burada. Beş-on dəqiqə əlavə tədbirlər haqqında söhbət apararıq. Nə lazım olsa, sizə kömək olunacaq. Əməliyyat haqqında "ne komu ne slova. Ya dumayu tı mne ponel." – ağzını yumub əli ilə sol-

dan sağa tərəf çəkdi və ağzını bağlamaq işarəsi verdi.
– Rus dilində bilirsən?

– Bəli cənab palkovnik.

– Gedə bilərsən, saat beşdə burada, unutma.

Ismayılov komandirin yanından çıxıb birbaşa tabora gəldi. Elxan, Ağababa və Mirələmlə birlikdə əməliyyatda iştirak edəcək əsgərlərin siyahısını hazırladılar, onları bir yerə yığıb söhbət etdilər, əməliyyatın çətinliyini onlara başa saldılar. Məxfiliyi qorumaq üçün əsgər yataqxanasının içəridən qapısını bağlamışdilar. Həm də söhbəti elə apardı ki, hətta əsgərlər əməliyyat olacağını tam olaraq qavraya bilmədilər. Onlara elə gəldi ki, döyüş hazırlığı ilə əlaqədar həmişə edilən söhbətlərin davamıdır.

– İsi, fikrində qətisən?

– Əlbəttə. Gör nə vaxtdır çalışıram, axır ki, istədiyimə nail ola bildim.

– Məni də siyahıya yaz.

– Yox, siz mənə burada lazımsınız. Ağa, Elxan və sən "Zirehli qrup"un yanında olacaqsınız, mənim komandamı gözləyəcəksiniz, əsas məsuliyyət də elə sizin üstünüzə düşür. Bir yerdə olsaq, mənə mane ola bilərsən.

Kapitan İsmayılov ordunun zabit kontingentinin aşağı olduğunu nəzərə alaraq gedənlərin sırasına başqa zabit qatmaq istəmirdi. Buna görə də onunla getmək məqsədilə müraciət edənləri bəhanələrlə uzaqlaşdırırdı. Mirələm isə bütün bəhanələri rədd etdi.

– Mənim sənə heç bir maneçiliyim olmayacaq, narahat olma.

– Məni başa düş Miri, indi narahat deyiləm, amma getsən inan ki, narahat olacam.

– Başımı aldatma, uşaq deyiləm. Mənim sənə yalnız xeyrim dəyə bilər. Bir də ki, sən bilirsən ki, mənim adrenalinə ehtiyacım var.

– E-e-eh, Mirələm, bilmirəm nəyə ehtiyacın var, tələb edirəm ki, burada qalasan. Bu əmrdir, əmri müzakirə etmirlər.

– Ha-ha – Mirələm acı-acı güldü və birdən ciddiləşdi. – Bilirsən ki, gedəcəyəm. Niyə məni yorursan, yaz da ora.

– Miri, inan mənə komandirin əmridir, yalnız bir zabit ola bilər, bir azdan siyahını aparıb ona verəcəm – İsmayıl yalan danışmağa məcbur oldu.

– Cənab kapitan, komandir düz deyib, ancaq unutma ki, mən zabit deyiləm, gizirəm.

– Ə-ə. Sən necə adamsan ə-ə. Qır-saqqız olub yapışmısan yaxama. Ağa bunun da adını yaz, – deyə kapitan İsmayılov əlindəki kağız topasını çarpayının üstünə çırpdı.

Saatına baxdı. Bir saat yarımdan sonra siyahı ilə komandirin yanında olmalı idi. "Heç olmasa bircə saat dincələ bilsəydim" deyə düşündü.

– Əsgər, gizir Qarayevi tap, təcili yanıma gəlsin.

– Oldu, kamandir.

– Elxan, mən bir az dincəlim. Qarayev gəlsə ondan gedən hər bir əsgər üçün su qabı götür. Ağa ilə birlikdə gedənləri bir daha yoxlayın, silahları təmiz, su qabları dolu olsun. Natiq də sizə kömək eləsin. Sursat verməyə tələsməyin, onu mən komandirlə birlikdə həll edəcəyəm. Bir də, az qala yadımdan çıxmışdı, Mirələm, sən maşınla Xındırıstana Rafiqin dalınca get, onu tanıyırsan. O da bizimlə getməlidir. Saat beşə on beş dəqiqə qalmış olursunuz burada. Gecikmək olmaz. Hansı çətinliklə üzləşsəniz dərhal mənim xəbərim olmalıdır. Nə aydın olmasa məni oyatmaqdan çəkinməyin.

* * *

Çarpayıya uzansa da yata bilmədi, sanki yerinə qor dolmuşdu. Günortadan sonra yenə çiskin yağış başladı.

– Bu yağışın heç yeri yoxdur, kəssəydi yaxşı olardı.

Axşam saat beşdə Mirələmlə birlikdə komandirin yanında idilər. Polkovnik onları yorğun və qayğılı halda qarşıladı.

– Bizim mövqelərdən həmin tanka qədər hava xətti ilə dəqiq beş yüz əlli metr məsafə var, relyefi nəzərə alsaq bir kilometrə yaxın, – deyə polkovnik xəritənin üzərinə əyilib birbaşa mətləbə keçdi. – Əgər hər şey yaxşı getsə hədəfə çatmaq üçün bizə bir saat vaxt lazımdır. Əməliyyatı bütövlükdə bitirmək üçün üç saat vaxt kifayətdir. Nə qədər toqquşmadan uzaq olsaq, işimiz bir o qədər effektli olacaq. Bu birinci və ən mühüm qaydadır. Gedənlərin siyahısı, – deyə o əlini İsmayılova tərəf uzatdı, siyahını açıb masanın üstünə qoydu. – Elə bilirəm ki, əməliyyat planı haqqında düşünmüsən!?

– Bəli cənab palkovnik – o masanın üzərindəki xəritəyə yaxınlaşdı – Hər qrupda üç nəfər olmaqla üç qrupa bölünərək bu nöqtədən hərəkətə başlayacağıq – barmağı ilə xəritədə qeyd olunmuş Qarqar çayının sahilini göstərdi. – Mərkəzdə olan qrupa özüm rəhbərlik edəcəyəm. Biz çayın içi ilə axına qarşı hərəkət edəcəyik. Bu bizim hədəfə çatmağımızı ləngitsə də, nəticə etibarı ilə effektli olacaq. O biri iki qrup isə çayın sağ və sol sahili ilə bizdən iyirmi-otuz metr aralı olaraq hərəkət edəcək. Sağ və sol cinahlarla radio əlaqəmiz olacaq. Onlar yalnız mənim əmrimlə fəaliyyətə başlayacaqlar.

– Yağışlı havada, çayda suyun çox olması sizin üçün növbəti təhlükə deyilmi?

– Əlbəttə, biz onu nəzərə almışıq. İmkan olduqca sağ və sol sahildən istifadə edəcəyik.

– Qrup komandirləri ilə mütləq görüşməliyəm. Onlar zabit olsalar daha yaxşı olar, inandığın adamları götür. Çalış "Zirehli qrup"a toxunmayasan, ola bilər ki, onlar bizə lazım olsun. Bir də, hər qrup komandirinə və tankın içində işləyənlərə gecəgörmə cihazı götür. Bu mütləq lazımdır. Başqa cür orada işləmək olmaz. Əməliyyat zamanı siqaret çəkmək, kibritdən və ya hər hansı işıqsaçan əşyalardan istifadə etmək qəti qadağandır. Əməliyyatı ən qısa zamanda bitirmək vacibdir. Bu mənim sizə deyəcəyim ən mühüm tapşırıqlardır. Unutmayın ki, sağ qalmağınız üçün yeganə yol, dediklərimə necə əməl edəcəyinizdən asılıdır. Çatışmayan nə varsa, düzəltməyə kifayət qədər vaxtımız var. Saat doqquzda yenidən görüşəcəyik. Əməliyyata icazə verməyim sizin necə hazır olmağınızdan asılıdır. Aydın olmayan nəsə var?

– Cənab palkovnik, sursat barədə demək istəyirəm, biz onu tabordan götürəcəyik, yoxsa hərbi hissənin silah-sursat anbarından?

– Silahlar hər kəsin öz silahı olacaq, sursat barədə isə artıq göstəriş vermişəm. Lazımi vaxtda sizə çatdırılacaq.

– Bir sualım da var, cənab palkovnik. Əməliyyata nə zaman başlaya bilərik, təqribi vaxtı bilmək olar?

Polkovnik ayağa qalxıb pəncərənin önünə keçdi, sakit lakin hiss olunacaq dərəcədə əsəbi səslə dedi:

– Axı mən dedim, o sizin necə hazır olacağınızdan asılıdır.

* * *

Onlar bayıra çıxanda artıq hava qaralmışdı. Çiskin yağış hələ də yağırdı, adətən belə yağışlar bir neçə gün yağar, bəzən də həftələrlə davam edərdi. Onun dayan-

masını gözləmək hər şeyi itirməyə bərabər idi. Onlar maşına minəndə artıq islanmışdılar.

– İndi hər şey, özümüzdən asılıdır. Seçdiklərimizi bir daha saf-çürük etmək lazımdır. O, bizi yoxlamaq üçün saat doqquzda özü gələcək, elə etməliyik ki, səhvimiz olmasın.

– Əlbəttə, belə bir əməliyyata icazə vermək, bu boyda yükün altına girmək zarafat deyil.

– Hər hansı kiçik bir səhv, doqquz nəfərin həyatını təhlükəyə atmaq, onları ölümlə üz-üzə qoymaqdır. Bütün məsuliyyət isə onun çiynindədir. Bu "K-1" bloku da əməlli-başlı başımıza bəla oldu. Bu əməliyyatı düşünən gündən başımda yalnız bir fikir dolanır. Doqquz nəfərin həyatı bir "K-1" blokunun qiyməti qədər yoxdur. Ilk dəfə buna görə komandirin yanına gedəndə elə bilirdim ki, razılıq verməyəcək. Amma əksinə oldu. Elə o vaxtdan da bu fikir beynimdən çıxmır.

– İsi, heç nə olmaz, gedib "K-1"i də gətirərik. Amma zaman gələcək bizim zavodlarımızda o bloklardan külli miqdarda buraxılacaq. Azərbaycan istehsalı olan müxtəlif adlarda tanklarımız, təyyarələrimiz, raketlərimiz olacaq. Bəli biz o gün üçün buradayıq, həmin o günə görə həyatımızı riskə atırıq.

– Eh, rəhmətliyin nəvəsi, mən nəyin dərdini çəkirəm, sən nədən danışırsan. Atalar ona görə deyiblər də hər kəsin dərdi, özünə dəvədir.

Onlar tabora çatdılar. Ismayıl zabit heyətini yığıb onlarla bir daha söhbət etdi, hərəsinə ayrı-ayrılıqda tapşırıq verib, cib kitabçasına qeyd etdi.

– Bir saatdan sonra nə etmiş olduğunuzu yoxlayacağam, azadsınız.

– Miri, siyahıda olan əsgərləri düz, yoxlayaq.

Kapitan İsmayılov əməliyyata gedən əsgərləri dönə-dönə yoxladı, ümumilikdə ideal olmasa da yax-

şı idi. Dünyanın belə bir vaxtında, Qarabağ düzündə belə hazırlaşmaq bəlkə də imkan dairəsindən kənarda olan bir şey idi. Lakin bu gün onun tabeçiliyində olanlar qeyri-mümkün olanlardan mümkünlük yaratmışdılar. Burada bütün zabit və əsgərlərin zəhməti var idi. Bunu danmaq, qiymət verməmək ən azı nankorluq olardı.

İsmayılov heç nə demədi. Buna baxmayaraq daxilindəki məmnunluq, razılıq ifadəsini gizlədə bilmədi. Qarşılaşdığı hər kəs onun üzündəki bu ifadəni aydın şəkildə oxuya bilərdi. O, uzun zaman idi ki, belə xoşbəxt hiss etməmişdi özünü və bəlkə də bundan sonra da qalan ömründə bu xoşbəxtliyin dadına həsrət qalacaqdı.

Kapitan susdu, ona görə yox ki, duyğularını ifadə etmək istəmədi, ona görə susdu ki, daxilindəki xoşbəxt anları deməyə, ifadə etməyə söz tapmadı. Çünki leksikonda elə bir söz yox idi ki, həmin sözlə yanında olanlar onun hiss etdiklərini olduğu kimi duya bilsinlər. Qorxurdu ki, nəsə deməklə duyduqlarını aşağılasın, gözdən salsın. Susmağının ən böyük səbəbi elə bu idi.

Bayıra çıxıb siqaret yandırdı. Özü ilə bərabər bir zabit də götürməli idi. Gənc leytenant Müşfiq Məmmədov yadına düşdü. Müşfiq inandığı zabitlərdən idi, heç vaxt yoldaşlarını darda qoymazdı. Müharibənin ilk günündən tanıyırdı onu, Türkiyədə birlikdə ixtisasartırma kursunda olmuşdular. Növbətçi əsgəri yanına çağırdı.

– Əsgər, leytenant Məmmədovu tap. Təcili məni görsün.

* * *

Gecə saat on ikidə əməliyyat başlandı. Çiskin yağış daha da güclənmişdi, çayın sahili qumlu olduğu üçün hərəkət etmək rahat idi, arabir sahilləri dəyişən zaman qurşağa qədər qalxan suyu keçmək məcburiyyətində

qalırdılar. Bütün heyət, danışıqsız bir-birini başa düşürdü, heç nədən çəkinmədən irəli gedirdilər.

Çayın səsi onların addım səslərini udur, bununla da onlara çox kömək edirdi. Komandir gecəgörmə cihazı vasitəsilə sağ və sol cinahlarda hərəkət edən qruplara da nəzarət edirdi. Hələlik radiodan istifadə etməyə ehtiyac yox idi. Rafiq Qasımov və Elam Məmmədov əllərində silah, bellərində ləvazimatlar olan əsgər çantası onun yanında idilər. onlar da gecəgörmə cihazı ilə təmin olunmuşdular. Lakin komandirin göstərişi ilə hələlik istifadə etmirdilər.

Tankın təxminən otuz addımlığında dayan işarəsi verildi, sağ və sol cinahlarda olan leytenant Müşfiq Məmmədovun və gizir Mirələm Cavadovun qrupları vurulmuş tankdan iyirmi-otuz metr irəlidə yarımdairəvi formada mövqe tutmalı və komandirə işarə verməli idilər. Buna görə də kapitan İsmayılov elə bir yer seçməli idi ki, onların hər ikisini gecəgörmə cihazı vasitəsilə görə bilsin. Artıq Rafiq də cihazı işə salmışdı. İrəlidəkilərdən işarə gəldi. Komandir saatına baxdı. Bir saat on beş dəqiqə idi ki, əməliyyat başlanmışdı. O, Rafiqə tərəf əyilib pıçıltı ilə dedi.

– Başlayaq.

Əvvəldən danışdıqları kimi hər ikisi tanka doğru getdilər. Tanka çatanda kapitan İsmayılov önə keçib tankın ətrafını və içərisini yoxladı. Tam sakitlik olduğuna əmin olandan sonra Rafiqə başlamaq işarəsi verdi.

Rafiq cəld tankın üstünə qalxdı, silahını və belindəki əsgər çantasını tankın üstünə qoydu, özü içəri keçəndən sonra silahı və çantanı da içəri götürdü. Kapitan İsmayılov tankın arxa tərəfində aşağı oturub ətrafı nəzarətə götürdü.

Çiskin yağış dayanmaq bilmirdi, bütün paltarı suyun içində idi. Dayanmadan gəldikləri üçün həm də tərləmiş-

di. Rafiq otuz beş dəqiqədən sonra içəridən çıxdı. Indi onun yanında iki əsgər çantası var idi. Komandir yaxınlaşıb çantanın birini götürdü. Çanta kifayət qədər ağır idi.

– Bu nədir, bazarlığa gəlmişdin bura?

– Gedək, sonra deyərəm.

Komandir irəlidəkilərə öncədən razılaşdıqları kimi getmək işarəsi verdi, hər ehtimala görə bir də radioqəbuledicidə, növbə ilə hər iki qrupa parol vasitəsi ilə başlanğıc nöqtəyə qayıtmalarını bildirdi. Hər iki qrupdan cavab alandan sonra ağır çantanı götürüb çaya tərəf endilər. Indi yol nisbətən eniş olduğu üçün hərəkət etmək daha asan idi.

Onlar əməliyyata başladıqları yerə çatanda kapitan İsmayılov saatına baxdı və əməliyyata iki saat əlli beş dəqiqə vaxt sərf edildiyini elan etdi.

– Qasımov, "K-1" blokunun belə ağır olduğunu bilmirdim.

– Kamandir, çantada "K-1" blokundan başqa bir neçə az tapılan detallar da var. Dedim gəlmişkən elə onları da götürək.

Kapitan Ismayılov başını bulayıb gülümsündü.

– Deyərdin elə bir dəfəlik bütün tankı gətirərdik də. Gedək uşaqlar, afərin sizə.

Onlar bir az aralıda dayanan maşınlara tərəf getdilər. Burada onları hərbi hissə komandiri qarşıladı. Kapitan İsmayılov gələnləri saxladı.

– Cənab palkovnik, əməliyyat başa çatdı. Heç bir hadisə baş verməmişdir.

Polkovnik ona yaxınlaşdı.

– İsmayılov hər şey qaydasındadır?

– Bəli. Cənab palkovnik.

– Göstər görək gətirdiyin nədir? Yəni ona görə bu boyda risk etməyə dəyərdi?

– Buyurun, cənab palkovnik, bunlardır, – deyə əs-

gər çantalarını göstərdi. Polkovnik çantalara baxıb təəccüblə dedi.

– Hə-ə? Bəs mənə deyirdilər ki, "K-1" bloku balaca bir qutudur?

– Düz deyiblər cənab palkovnik, əslində "K-1" bloku o qədər də böyük deyil. Amma bizim bu qəhrəman, gəlmişkən bizdə dificit olan bir çox detalları da söküb götürüb.

Əl işarəsi ilə Rafiqi göstərdi. Komandir Rafiqə tərəf döndü. O, qəddini düzəldib hərbi salam verdi.

– Çavuş Qasımov.

Polkovnik onun əlini sıxdı. Kapitan İsmayılova tərəf döndü.

– Gedin, dincəlin. Gün ərzində, əməliyyatda iştirak edənlərin siyahısı ilə yanıma gələrsən.

– Oldu, cənab palkovnik – kapitan İsmayılov dedi.

Rafiqin Füzuli istiqamətində tankı təmir edən zaman Müdafiə Nazirliyindən gələn Polkovnikin dediyi sözlər yadına düşdü. O zaman onlar vurulmuş tankın qülləsini dəyişirdilər. Elə o zaman həmin Polkovnik gəlib çıxdı, onların işinə xeyli tamaşa etdikdən sonra dedi. "Əgər başqa vaxt olsaydı, sizin hamınızı güllələyərdim."

"Görəsən, niyə güllələyərdi, bəs indi niyə edə bilmirdi bunu, hansı zamanı gözləyirdi!? Kim bilir!? Hər ikisi çiyinlərində ayparalı Polkovnik paqonu gəzdirir, biri onlara nifrət, digəri isə rəğbətlə baxır, biri onları düşmən, digəri isə qəhrəman sayır."

Rafiq bu sualların qarşısında yalnız susurdu. İnana bilmirdi ki, bu torpağın çörəyini yeyib, suyunu içənlər nə zamansa ona xəyanət edə bilərlər.

# XVII FƏSİL

Qapı döyüldü, həyat yoldaşı qapını açıb ona tərəf döndü.

– Səni soruşurlar.

– Kimdir? Gəlsin içəri – deyə evdə elektrik xəttində işləyən Səməd işdən ayrılmadan dedi, sonra geri dönüb Adili gördü, dərhal ayağa durub onu içəri dəvət etdi.

– Nə yaxşı, bizi yada saldın, xoş gəlmisən, əyləş.

– Elə burdan keçirdim, dedim bir səni görüm. Bəlkə şəhərə çıxaq?

Səməd bir otaqlı kiçik mənzildə körpə oğlu, həyat yoldaşı ilə birlikdə yaşayırdı. Bu ev onlar üçün həm mətbəx, həm qonaq otağı, həm də yataq otağı idi. Qarabağda olduğu müddətdə evin işıq sistemi demək olar ki, sıradan çıxdığı üçün təmirə ehtiyacı vardı, elektrik işindən başı çıxmasa da təmir etmək məcburiyyətində idi. Adili görəndə sevindi, ən azı bir-birinə kömək edəcəkdilər. Adil içəri keçib divanın bir küncündə oturdu.

– Sən bir stəkan çay iç, mən də əlimdə olan işi bitirim, sonra sənin qulluğunda hazıram, nə əmr etsən, sözsüz yerinə yetirəcəyəm.

– Atam balası, bəlkə mən düzəldim işıqları, əgər icazə verərsənsə?...

– Yox, qardaşım. Qonaqsan, otur qonaq yerində. Bizlərdə qonağa iş buyurmazlar. Bu iş də gördüyün kimi elə belə iş deyil, tok vurub öldürər səni, yaxam qalar əllərdə. Otur oturduğun yerdə, məni işə salma.

– Tok vursa səni də vuracaq da...

– Yox, məni vurmaz, onunla “atəşkəs müqaviləsi” bağlamışam.

İşıq yanmadığı üçün otaq yarıqaranlıq idi. Adil ayağa durub onun yanına gəldi. Səmədin peşəkar olmaması göz qabağında idi.

– Atam balası, aralı dur, cərəyanı qoşuram, belə qaranlıqda işləyib özünə əziyyət vermə. – Bunu deyib o, cərəyanı qoşdu, lakin işıq yanmadı.

– Balaşka, nə edirsən?

– Səməd, belə görürəm bu iş sənlik deyil. Get işığı qoş, heç olmasa gözümüz görsün harada nə edirik.

Səməd qapını açıb dəhlizdən cərəyanı qoşdu, otaq işıqlandı. Otağa keçən zaman Adilin elektrik qutusunda açıq əllə işlədiyini gördü. O, məftilləri açıq əli ilə tutur və sərbəst şəkildə işləyirdi. İndi başa düşdü ki, onun elektrik işlərindən başı çıxır. Həyat yoldaşı əlində qaynar çaydan içəri daxil olan zaman Adilin belə işlədiyini görüb, ərinə işarə etdi. Səməd başı ilə onun işarəsinə cavab verdi. Qadın bunu başa düşmədi, ona yaxınlaşıb pıçıltı ilə dedi.

– Görmürsən necə işləyir? Heç olmasa işığı söndür.

Səməd barmağını dodaqlarının üstünə qoyub, susmaq işarəsi verdi. Heç nə olmayıbmış kimi sakit səslə dedi.

– Adil, gəl bir çay içək, sonra işləyərsən.

– Atam balası, sən çayı süz, mən də əlimdəki işi bitirim, gəlirəm. Mənə görə də narahat olmayın.

Səməd bilirdi ki, onu fikrindən döndərə bilməyəcək, ona görə də söhbətin mövzusunu dəyişdi.

– Balaşka, görmüsən "tarqovuda" hündür bir bina tikilib, adı bir təhərdir e e e... Yadıma düşsün deyəcəyəm.

– "İsr plaza"nı deyirsən?

– Hə, hə. Oranı deyirəm, çox hündür və əzəmətli binadır. Deyirlər köhnə evlər hamısı söküləcək, yerində onun kimi hündür və yaraşıqlı evlər tikiləcək, bir də

deyirlər ki, yaxın on ildə Bakı tamamilə dəyişəcək, tam başqa bir şəhər olacaq, lap elə dünyanın böyük şəhərləri kimi. Xəbərin var da Azərbaycan dünyanın böyük dövlətləri ilə neft müqaviləsi bağlamaq üzrədir, bu yaxınlarda Xəzərin nefti dünya bazarına çıxarılacaq, Azərbaycan çox varlı bir dövlət olacaq, deyirlər ki, hətta dünyanın ən varlı ölkələrini də geridə qoyacaq. Adil, qardaş! Heç bilirsən bu nə deməkdir!?

Tez bir zamanda bütün işıq sistemini təmir edən Adil sakitcə ona qulaq asırdı. İşini bitirib masaya yaxınlaşdı, onunla üzbəüz oturdu.

– Əlbəttə, bilirəm nə deməkdir. Amma atam balası, bu qədər sadəlöv olma, bizim millətin başına bu günə qədər nə gəlibsə sadəliyindən, təmizliyindən gəlib, vaxtilə bizi iki yerə parçaladılar, müəyyən vaxtdan sonra bunu adi bir hal kimi qəbul etdik, sonra Qərbi Azərbaycanı itirdik, orada ermənilər öz dövlətlərini yaratdılar, sonra Zəngəzur, Göyçə, Borçalı, Dərbənd. Çox keçmədi ki, bunu da unutduq. Unutqanlığımızın nəticəsidir ki, bu gün Qarabağ uğrunda döyüşürük. Azərbaycanın getdikcə kiçilib indiki hala düşməsində bizim hamımızın günahı var. Gör neçə əsrdir millət olaraq formalaşa bilmirik. Qapılmışıq özümüzə. Babalarımızın etdiyi səhvləri düzəltmək əvəzinə, özümüz yeni səhvlər edirik. Dediyin o "İsr plaza"lardan Bakıda çox olacaq, dünya həsəd aparacaq bizim ölkəyə. Əfsuslar olsun ki, nə biz, nə bizim övladlarımız, nə də onların övladları həmin "plaza"ların yaxınlığına da gedə bilməyəcək. Bu gün bizdə elə bir vəziyyət yaranıb ki, heç nə etmək istəmirik. İstəyirik ki, hər şeyi bizim əvəzimizə kimsə etsin. Qanunlarımızı yazsın, dövlətimizi qursun, bizi idarə etsinlər. Bunlar hamısı əsrlər boyu müstəmləkədə olmağımızın nəticəsidir, atam balası. Azadlıq hissini duyanları

müstəmləkədə saxlamaq olmaz. Bəla burasındadır ki, biz bu hissi yadırğamışıq, unutmuşuq, daha doğrusu onu bizə unutdurublar. İndi müstəqillik əldə edə bilmişik, onu qorumaq lazımdır, atam balası! Nəyin bahasına olursa olsun, qorumaq lazımdır. Elə olmasa gələcək nəsillər bizi, bu gün keçmişi yad etdiyimiz kimi nifrətlə yad edəcəklər.

Adilin ürəyi açılmışdı. O, danışdıqca Səməd qeyri-ixtiyari əlindəki stəkanı sıxırdı, münasibətləri nə qədər yaxın olsa da, onu tanıya biməmişdi. "Bu cılız bədəndə nələr varmış, İlahi!" deyə düşündü.

– Dediklərinlə razıyam, amma hamısıyla yox. – Onun diqqətlə dinlədiyini görüb sözünə davam etdi. – Keçmişimiz bizim tariximizdir, mən həmişə onunla qürur duymuşam. İnan ki, əksər millətlərin mədəniyyəti, tarixi son beş yüz ildən o yana keçmir. Bizim tariximizin, mədəniyyətimizin isə, eramızdan əvvəli də məlumdur. Nizami, Füzuli, Tusi, Nəsimi kimi dahilərimizi başqa xalqlar öz adlarına çıxır, onların yaradıcılıqlarını dünya miqyasında özlərininki kimi təqdim edirlər. Şah İsmayıl kimi fatehi farslar özününküləşdirir. Biz buna göz yumuruq. Türkün dövlətçilik ənənələri bütün dünyaya yayılıb, sərkərdələrimizin istifadə etdiyi hərbi taktikalar bu gün də dünyanın hərbi məktəblərində tədris edilir. Sadəcə biz özümüzü qiymətləndirə bilmirik. Aramızda alaq otu kimi bitən yadlara daha çox dəyər veririk.

– Nə isə, deyəsən başını ağrıtdım, dur geyin çıxaq şəhərə.

Bir neçə dəqiqədən sonra onlar artıq küçədə idilər. Küçələrdə adam çox idi, metrolarda insan tıxacı sərbəst yeriməyə imkan vermirdi. Hərbi geyimlilər də çox idi, hamı harasa tələsirdi. Şəhər arı pətəyini xatırladırdı.

* * *

Rus kəşfiyyatı öz işini lazım olduğundan da artıq görürdü. Günbəgün geri çəkilirdik. Böyük itkilər bahasına azad etdiyimiz əraziləri yenidən düşmənə təslim edirdik. Ən dəhşətlisi isə işğal olunan ərazilərin müqavimətsiz olaraq təslim olunması idi. Bu bizim üçün çox ağır zərbə idi. Düşmən silah-sursat cəhətdən yeni yaranmış ordumuzu üstələyirdi.

Bu müharibədə ruslar, böyük bir ansamblı idarə edən drijoru xatırladır. Asanlıqla sıralarımıza yerləşdirdiyi agentlər vasitəsilə onsuz da çətin olan vəziyyətimizi daha da ağırlaşdırır. Bu agentlərin gördükləri əsas iş, əhalini parçalamaq, əhali arasında nifaq və təşviş yaratmaqdan ibarətdir. Belə ki, ordu ilə mülki əhali arasında sərinlik anbaan daha da kəskinləşir. Yeni yaranmış müstəqil dövlətdə isə hakimiyyət bunun qarşısında acizdir. "KQB" bu işin öhdəsindən məharətlə gələ bilir.

Ağdam cəbhəsində isə vəziyyət daha ağır idi. Şəhərin mərkəzi tez-tez top və qradlarla atəşə tutulurdu. O zaman bizim tabor şəhərin mərkəzində olan beş nömrəli orta məktəbdə yerləşirdi. Günümüz əksər hallarda mövqelərdə keçirdi. Vaxtın necə keçdiyindən xəbərimiz olmurdu. Üzbəüz mövqelərdə düşmənin xaricdən pulla gətirdikləri əksəriyyəti litvalı qızlardan ibarət, özlərini "Belıe lifçiki" adlandıran snayper qrupu fəaliyyət göstərirdi. Rusların hər tərəfli təmin etdiyi bu qrup sərrast atəşlə sıralarımızda olan sayseçmə oğullarımızı bir-bir aramızdan götürürdü.

– Balaşka, səninlə üzbəüz iki tank bir "BMP-2" var. Bilirsən?

– Hə kamandir, xəbərim var. Bizə görə narahat olma, artıq hər üçünün harada olduğunu da bilirik.

– Lazımdırsa, əlavə bir tank da göndərə bilərəm, sənin yanına.

– Yox, bizim yanımızda daldalanacaq yoxdur, hələlik öhdələrindən gələ bilirik, onlar hücum etsələr yəqin ki, bizi tək qoymazsınız, elə oradan kömək etsəniz də bəs edər. Əgər biz hücuma getsək, bizim ikimizin arasında olan əraziyə – deyə Adil əli ilə baş leytenant Əhməd Mehbalıyevə qarşıda görünən ağacları göstərdi – bir tank, ya da "BMP-2" ata bilsək çox yaxşı olar. O, çətin vəziyyətdə həm bizə, həm də sizə çox kömək edər.

– Kəşfiyyatın gətirdiyi məlumata görə, bizimlə üzbəüz olanlar ruslardır, hücuma hazırlaşırlar. Səni qorxutmaq məqsədilə demirəm, dünənkinə görə yanıqlıdırlar, yaman hirsləndirmisən onları. Snayperlər gətiriblər, şəxsən sizin üçün, bir də deyirəm sizin heyət üçün. Onların sizin heyətdən başqa heç kimlə işi olmayacaq, aldıqları tapşırıq sizi sıradan çıxarmaqdır. Uşaqlara da tapşır, ehtiyatlı olsunlar.

Adil fikrə getdi. "Deməli, fillərin qarşısına siçanları buraxıblar. Eybi yox, onların da çarəsini taparıq," deyə düşündü.

– Bir sözün yoxdursa, mən gedim, bütün gecəni yatmamışam, yaman yorulmuşam, vaxt tapıb bir az dincəlmək istəyirəm.

– Əhməd, piyada gəlmisən!?

– Yox, kənddən bir nəfərdən xahiş etdim, gətirdi, dağın arxasında gözləyir. Nə isə, özünüzdən muğayat olun.

– Sağ ol. Yaxşı ki, bizə xəbər verdin.

Əhməd Mehbalıyev, bölük komandiri idi, Rusiyada "Kazan Ali Tank Qoşunları" məktəbini bitirmişdi, çox bacarıqlı və taborun şəxsi heyəti arasında xüsusi hörmətə malik olan zabit idi. Tabora gəldiyi gündən hamı ilə "öz dilində" danışmağı bacardı. Tələbə yoldaşlarının

dediyinə görə, hələ birinci kursun sonlarında onu “Millət başçısı” seçiblərmiş.

Əhməd gedən kimi Adil tank heyətinin yanına qayıtdı, bayaq onun dediyi sözlərə kəskin reaksiya verməsə də vəziyyətin o qədər də ürəkaçan olmadığını anlayırdı. “Texlika ilə bacarmaq olar, bu snayperlər haradan çıxdı?...” deyə düşündü.

O, snayperlər haqqında çox eşitmişdi, onların necə bacarıqlı həm də amansız olduqlarını bilirdi. İki gün idi ki, düşmən hücuma can atır, lakin böyük itkilər verərək geri çəkilməyə məcbur olurdu. Bu iki gündə Adilin heyəti iki düşmən texnikasını sıradan çıxarmışdı, bir BMP və bir tank hələ də mövqelərin arasında idi. “Snayperləri yerləşdirmək rusların ideyasıdır. Əgər heyətimizdən birini vursalar, deməli, bir tankı sıradan çıxarmış olurlar. Belə olduğu zaman biz məcbur olub geri çəkilməliyik, bu zaman açıq sahədə düşmənin hədəfinə çevriləcəyik. Yox, buna yol vermək olmaz.“

Bütün bunları özündə götür-qoy edib, çıxış yolu axtarırdı. Snayperlərdən qorunmaq üçün hansı vasitədən istifadə etmək lazım idi. Qərara gəldi ki, bunu heyətlə birlikdə müzakirə etsə daha effektli olar. O zaman onlar həm təhlükədən xəbərdar olar, həm də çıxış yolunun həllinin nədə olduğunu bilərdilər. İndi dayandıqları sığınacaq düşmənin texnikasına qarşı yaxşı sayıla bilərdi, lakin snayper üçün heç də belə deyildi. Adil hər an izləndiklərini, nişangahın bədənində, başında olduğunu, hər an tuşlanan güllənin onları tapacağını düşünəndə nə edəcəyini bilmirdi. O heyəti səsləyib tankın arxasındakı xəndəyə yığdı, çətinliklə də olsa vəziyyəti onlara başa salmağa çalışdı.

– Hə ə... Atam balası, bir şad, iki bəd xəbər var. Deyin, hansından başlayım!?

– Yaxşısı budur şad xəbərdən başla, kamandir! Söhbətin əvvəlində bəd xəbər deyib qanımızı qaraltma, – deyə Elburus dedi.

– Şad xəbər budur ki, iki gündür düşmən bir addım da irəliləyə bilmir, bütün cəbhə boyu çoxlu sayda itki verib. Buna görə komandanlıq hamımıza öz təşəkkürünü bildirir.

– Eh, komandir! Biz də elə bildik ki, müharibə qurtarıb, ermənilər rədd olub gedəcəklər bizim torparlardan.

– Coşqun, sən heç narahat olma, bir gün də həmin xəbəri eşidərik, inşallah.

– Allah ağzından eşitsin, komandir. Ancaq bu it uşaqlarını döyüb qovmasaq, heç ağlım kəsmir ki, könüllü çəkilib getsinlər.

– Əlbəttə, biz onları məcbur edəcəyik, onların bundan başqa yolu yoxdur.

– Nə isə. İndi bəd xəbərləri de görək, amma demə ki, yuxarıdan əmr var, bir az da geri çəkilməliyik. Bizi geri çəkə-çəkə Bakıya çatdırıblar.

– Ay qardaş, bir dayan da, dil otu yemisən, görək kişi nə xəbər deyir!? – bayaqdan sakitcə söhbətə qulaq asan sürücü-mexannik Elburus nəhayət ki, dilləndi. Hər ikisi susub, Adilin üzünə baxdılar.

– Uşaqlar, vəziyyət bizim fikirləşdiyimizdən də çətindir. Birincisi bizim qarşımızdakılar ruslardır, artıq bu tam dəqiq məlumatdır. Onsuz da bunu bilirdik, indi isə təxminimiz dəqiqləşdirildi. İkinci, bəd xəbər isə ruslar itkilərini azaltmaq üçün, cəbhə boyu snayperlər yerləşdiriblər. Məqsəd bizim heyətləri sıradan çıxarmaqdır, bunun üçün də maksimum dərəcədə ehtiyatlı olmalıyıq. Snayperin nə olduğunu yəqin ki, bilirsiniz!? – Adil susdu

Sanki heyətin üstünə su çiləndi. Bu doğrudan da bəd xəbər idi.

– Əclaflar, kişi kimi üzbəüz gəlməkdən həmişə qorxublar, tülkü kimi hiylə qururlar, hiylənizi öz başınızda çatdadım siz də görün, – deyə Coşqun qəzəblə dedi və əsəbi şəkildə tankın üstünə çıxıb düşmən tərəfə baxdı. Adil onun bu hərəkətinə təəccüblənmədi də, sadəcə başını bulayıb onları çağırdı.

– Coşqun, Elburus, atam balası, aşağı düşün. – Onlar hər ikisi, etdikləri hərəkətin komandirin xoşuna gəlmədiyini anlayıb sakitcə düşüb onun yanına gəldilər. Adil bir az susdu, əli ilə qara saqqalına tumar çəkib onların üzünə baxmadan təmkinlə danışmağa başladı.

– Mən istəsəydim bu barədə sizə heç nə bildirməzdim, deməli, məsləhət bildiyim üçün sizə dedim. Unutmayın ki, burada olan hər bir şeyə görə ən çox mən məsuliyyət daşıyıram. Hər qarış torpağa görə, tabeçilimdə olan texnikaya və hər bir əsgərə görə, sizin geyiminizə, yeməyinizə, silah-sursatınıza görə ən çox məsuliyyət mənim üzərimdədir. Sizin həyatınıza sizdən artıq mən sorumluyam, istər bu dünyada, istərsə də o birində. Özünüzü düşünmürsünüzsə, məni düşünün. Mən demirəm qorxaq olaq, gizlənək. Deyirəm ki, ağıllı hərəkət edək, başımıza bir iş gəlsə də, sonra peşmançılıq çəkməyək. "Belə etsəydik, daha yaxşı olardı" deməyək. Məğlub olanda da elə olmaq lazımdır ki, düşmən öz qələbəsinə sevinə bilməsin.

O, sanki sözlərinin onlara necə təsir etdiyini bilmək üçün pauza verdi. Coşqun və Elburus etdikləri hərəkətin yersiz olduğunu anlayan günahkar uşaq kimi dayanmışdılar. Coşqun dodağının altında mızıldandı, düşmənin qarasına deyindi. Adil başını qaldırıb onların üzünə baxdı.

– Mənə elə gəlir ki, snayperin nə olduğunu hər ikiniz gözəl bilirsiniz, onlar haqqında nəyisə deməyə ehtiyac yoxdur. Siz məni yaxşı tanıyırsınız, gözlərimin görə biləcəyi heç nədən qorxmadım bu günə qədər. Snayperin ən böyük üstün cəhəti görünməməsidir, o indi haradasa yarasa kimi ağacların budaqları arasında, siçan kimi torpağın altında gizlənib bizi güdür, onu görə bilmirik, o isə hər addımımızı izləyir, hər an atdığı güllə, bizlərdən kiminsə həyatına son qoya bilər. Ancaq ağılla iş görsək, inanıram ki, onun qarşısını ala bilərik.

– Kamandir, biz nə etməliyik!?

– Bugünkü tapşırığımız yaxınlıqdakı ağacların budaqlarından qırıb, tankın üstünü örtməkdir, əgər o bizi indiyə kimi görübsə, bunun effekti az olsa belə, müəyyən qədər kömək edəcək, yox əgər görməyibsə, deməli bizi hələ çox axtarmalı olacaq. Biz ağaclıqda gizləndiyimiz üçün tankın üstünü budaqlarla örtsək, bizi tapmaq çətin olar. O bizi axtarana qədər biz də onu tapa bilərik. Hər ehtimala görə bu gecə yerimizi dəyişməliyik. İndi isə ləngiməyək.

Onlar birlikdə tankdan bir az aralıda olan qalın budaqları kəsib tankın üstünü örtməyə başladılar. Bu zaman, düşmən mövqeyində gizlənən snayper qız onların bütün hərəkətini izləyir, hansının komandir olmasını dəqiqləşdirirdi.

Adil bütün günü bu gecə tankın yerini hara və necə dəyişdirəcəyi haqqında düşündü, hava qaralana yaxın Coşqunla Elburusu yanına çağırdı.

– Siz burada olun, mən gedib münasib yer tapıb gəlirəm, bu gecə mövqeyimizi dəyişməliyik.

– Kamandir, bəlkə getməyəsən, tankı elə örtmüşük ki, snayper yox , lap onun babası da gəlsə tapa bilməz. Bir də ki, gizlənmək üçün buradan yaxşı yer tapa bil-

məyəcəyik. İndiki yerdən düşmənin bütün mövqeləri görünür, balaca bir hərəkət etsələr analarını ağladarıq.

– Bəlkə bizi artıq görüblərsə?...

Coşqun daha heç nə demədi, bilirdi ki, nə desə də onu fikrindən döndərə bilməyəcək.

Adil qərarında qəti idi, bir neçə addım getdikdən sonra dönüb Elburusa, Coşquna və tanka baxdı, elə bil nə isə demək istəyirdi, ancaq demədi. Nə biləydi ki, bu onun son vida baxışı, deyə bilmədiyi söz isə vida sözü olacaq. Snayper qız bütün günü onu izləmiş və tam əmin olmuşdu ki, komandir odur.

O, Adilin hər addımını izləyirdi, bir gün əvvəl tam əmin olmuşdu ki, bu üç nəfərin arasında komandir odur – qara "komufulyaj"lı komandir. Lakin imkan tapıb onu vura bilmirdi. İndi isə əlinə daha yaxşı fürsət düşdüyünü görüb sevindi. Alatoranlıqda onu itirəcəyindən qorxub, gecə görmə cihazını işə saldı. Tankdan aralanmış Adil onun nişangahında idi, onun bütün hərəkətlərinə diqqət edə bilirdi. İstifadə etdiyi bütün ləvazimatlar – silah, cihazlar, səsboğucu və geyim dünyanın ən güclü ordularının istifadə etdiklərindən idi. "Bu silah hətta kor adamın əlində olsa, istənilən hədəfi vurub aşırda bilər," deyə düşündü. Soyuqqanlılıqla barmağını tətiyin üstünə qoydu, amma atəş açmadı. Komandirin hara getdiyi ona maraqlı idi. Güllə mənzilinə qədər onu buraxmağı qərara aldı.

Adil isə gah iti addımlarla gün ərzində axtarıb tapdığı ağaclığa doğru gedir, gah da dayanıb ətrafa diqqətlə baxırdı. Artıq qaranlıq düşürdü, ağaclığa isə yüz metrdən də az qalırdı. Gecə düşməmiş tankın yanına qayıtmalı idi. Birdən sanki onu hədəfə götürən snayperi hiss etdi, dayandı, dönüb onun gizləndiyi yerə diqqətlə baxdı.

Onun adi halda snayperi görməsi absurd idi, lakin insan beynində son anda instinkt olaraq hissiyat və dərketmə anı olması mümkündür. Altşüur və fitrətin vasitəsilə Adilin onu görməsi mümkün idi. Yaradan hər bir yaratdığını sevərək və şanslı yaradıb, ona ilk andan son ana qədər özünüdərk, özünümüdafiə üçün aman verir. Adilə də son anda istifadə edə biləcəyi şansı verdi, lakin o verilən imkandan istifadə etmədi, o bunu etməzdi də. Bunu Yaradan da gözəl bilirdi. Ona verilən son "aman"da bildiyi "Quran"ayələrini deyərək, Yaradanı zikr etməyə başladı, dayanıb onu hədəfdə saxlayan insan ovçusuna nifrətlə baxdı. "Yazıqlar olsun sənə, min dəfə yazıqlar olsun sənə və səni mənim üstümə göndərənlərə. "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi ALLAH üçündür." Bədbəxt, sən hardan biləsən ki, ölümümlə mən yeni bir həyat, sən isə əbədi olaraq cəhənnəmi qazanırsan."

Onun arxası snayperçi qıza tərəf idi, səsboğucu olmasına baxmayaraq, altşüur vasitəsilə atəşin səsini eşitdi, hətta arxadan ona doğru uçan gülləni gördü. Geriyə dönmək istədi, lakin gec idi, güllə onu yarıyolda haqladı. Sağ yanağının aşağı tərəfindən girib, ağız boşluğunu dağıtdı, dilini yalayıb sol tərəfdən çıxdı. Güllənin gücü onu bir neçə metr kənarda yerləşən çuxura atdı. O, huşunu itirdi. Snayper qız onun öldüyünə əmin olmaq üçün heç nədən ehtiyat etmədən gizlənmək üçün önünə yığdığı budaqları kənara atdı və bu zaman qarşıdakı tankdan onu izləyən Coşquna yerini bildirdi.

Adil özünə gələndə hər tərəf qaranlıq idi, bu vəziyyətdə nə qədər qalmışdı bilmədi. Ayağa qalxmaq istədi bacarmadı, sanki dağ uçmuşdu üstünə, göy qübbəsi öz ağırlığı ilə onu yerə sıxırdı. Bütün gücünü toplayıb arxası üstə dönə bildi, kürəyini yerə söykədi. Yamyaşıl

otların sərinliyi bədəninə yayıldı. Elə bil içində tonqal qalamışdılar, içi od tutub yanırdı, bir udum su üçün, indi çox şeydən keçərdi.

Öyüdü, qan qusdu, elə bil içində yatmış vulkan oyanıb qaynar lavanı çölə püskürdü. Qaytardıqdan sonra xeyli yüngülləşdi. Əlləri ilə bədənini yoxladı, hər şey qaydasında idi, təkcə danışa bilmirdi, sanki ağzına qara daş bağlamışdılar. Bir təhər sürünüb çuxurdan çıxdı, çox halsız idi. Zaman keçdikcə hər şeyi anlamağa başladı. Yenidən insan qanına susayan o qızı gördü, atəşin səsini eşitdi, ona doğru uçan gülləni gördü.., huşunu itirdi.

Özünə gələndə zarıyırdı, ürəyində tez-tez "Ləə iləəhə illəllah" deməyə başladı. Tankın harada olduğunu təxmin edib, o istiqamətə sürünməyə çalışdı, bacarmadı. Yenidən özündən getdi, lakin indi ətrafda nə baş verirdisə hamısını duyurdu, uzaqda atılan güllələrin, partlayan mərmilərin səsini eşidirdi. Başa düşürdü ki, indi ölümlə həyatın arasında çarpışır.

Birdən kimsə onun zarıdığını eşidib yoldaşlarına dedi.

– Dayanın, burda kimsə var.

– Qara paltardadır, deyəsən ermənidir.

– Kamandir, icazə ver başına bir güllə çaxım, onsuz da yorulub əldən düşmüşük, özümüzə yük eləməyək – deyib silahını ayağa çəkdi.

Adil onları tanıdı, kəşfiyyatçılar idi, rahat nəfəs aldı. Onların gülləsi ilə ölsəydi belə, rahat olacaqdı.

– Dayan, dəlilik eləmə, bəlkə bizimkidir!? Çevir üzünü baxaq.

– Ay aman, dayanın uşaqlar, mən bunu tanıyıram, tankçıdır, Hacının uşaqlarından...

Adil onları eşidir və görür, ancaq cavab verə bilmirdi.

Onlar Adili götürüb özləri ilə apardılar.

* * *

Adil gözdən itən kimi Coşqun tankın üstünə qalxdı.

– Elburus tankı işə sal.

Cəld tanka girib gecəgörmə cihazını işə saldı, gecənin qaranlığında hər tərəf aydın görünürdü, qarşıda düşmən mövqelərini diqqətlə izləməyə başladı. Arabir partlayan mərmi səslərini nəzərə almasaq, düşmən mövqelərində tam sakitlik idi. Xeyli gözlədi, amma heç bir tərpəniş yox idi, komandir gələnədək tankdan çıxmayacağına söz verdi.

– İt uşaqları, hələ də siçan kimi yuvalarından çıxmayıblar, yəqin dünənki kimi yenə də planları var, eybi yox, siz nə qədər hiyləgərsinizsə, biz daha artıq səbirli olarıq, – deyə öz-özünə danışmağa başladı, – hələ bir bunlara bax, bu boyda silah, sursat, texnika azlıq edirmiş kimi, snayperləri də üstümüzə gətiriblər – qarşıdakı snayperi tapmaq üçün yenidən hər tərəfi yoxlamağa başladı – indi mən sizə göstərərəm, snayper kimdir!?

Onun snayperlər haqqında kifayət qədər məlumatı var idi, bilirdi ki, onlar üçün sadəcə atəş açmaq azdır, ən əsası yaxşı gizlənmək, saatlarla hərəkətsiz qalmaq, dözümlü, səbirli olmaq və hadisələri intiusiyanın köməyi ilə öncədən təxmin etmək bacarığı olmalıdır. Bu keyfiyyətlərin hər birinin zərrə qədər aşağı olması, snayperin həyatının sonu deməkdir. Onların duelində birinci tərpəniş ölümə məhkumdur. Hər sərrast atıcı snayper ola bilmir, hər snayper isə sərrast atıcıdır. Onlar "insan ovçusu"dur, rəhmsiz və amansız olurlar.

O, snayper ola bilməzdi, amma qarşısındakı düşmənə layiqli cavab verməyi, onu susdurmağı bacarardı, hətta əlindəki silah snayper tüfəngi olmasa belə. Düşmən tərəfdə hər qarışa diqqətlə baxır, heç bir hərəkət, heç bir tərpəniş onun diqqətindən yayınmırdı, lakin

hələlik onu tapa bilmirdi. Səhərə qədər qəddar "insan ovçusu"nu aradan götürməyi qərara aldı.

Bir anlıq özünü onun yerində təsəvvür etdi. "Əgər snayper olsaydı, yəqin ki, əks tərəfin bütün mövqelərinə nəzarət etsin deyə ən yaxşı yeri seçərdi, qarşı tərəfin ağlına gəlməyən mövqedə gizlənərdi." Belə mövqelər həm uzaqda, düşmən mövqelərinin arxasında, həm də yaxında, onların lap burnunun ucunda ola bilərdi, beləliklə, seçim edib bir neçə yeri bəyəndi. Onu tapmaq daha da asanlaşdı, indi bütün düşmən tərəfə yox, yalnız seçdiyi bir neçə yerə daha çox diqqət edirdi. Sonra bunların arasında daha yaxşılarını seçdi, iki mövqe isə ən yaxşısı idi və Coşqun bu mövqelərdən bir an belə gözlərini çəkmirdi.

Bilirdi ki, bir az səbirli olsa onu tapacaq.

Birdən qarşıdakı təpənin döşündəki kolların tərpəndiyini gördü, əvvəlcə yanıldığını zənn etdi, bütün diqqətini yönəldib kolluğa baxdı. Kolluqdan gecəgörmə cihazı ilə onlara nəzarət edən snayperin şuası açıq-aydın görünürdü. Onu tapmışdı. Sevincindən az qalırdı ki, qışqırsın, bir anlıq nə edəcəyini bilmədi, əlləri ilə üzünü, alnını ovuşdurdu, barmaqlarını bir-birinə keçirib iki əli ilə başını sıxdı.

– Deyəsən, tülkü tələnin lap yaxınlığındadır, mən isə onu uzaqlarda axtarıram. Ay səni dovşan yesin... – dedi və ürəkdən gülməyə başladı. Kənardan onu görən olsaydı havalandığını düşünərdi, o isə havalanmamışdı, sadəcə olaraq onu və yoldaşlarını parçalamaq istəyən quduz iti tapmışdı. İndi yalnız sərrast bir atəş lazım idi ki, onu susdursun, zərərsizləşdirsin. Yalnız o zaman sevinmək olardı.

Snayperin silahından çıxan zəif alovu, sonra isə qarşısına yığdığı budaqların kənara atıldığını gördü, indi onun üzünü aydın görürdü. Başa düşdü ki, o qur-

banının necə əzab çəkdiyini daha yaxşı görmək üçün belə edir.

– Alçaq insan! Bu sənin atdığın son güllə olacaq. Bir də kiməsə güllə ata bilməyəcəksən, – dedi və düyməni sıxdı. Tank silkələndi, bir anda gecənin məşum sükutu pozuldu, lülədən çıxan mərmi kolları yerindən kürüyüb atdı, elə bil orada heç zaman kolluq olmamışdı. Kolluğun yerində qara kölgə – çökək qaldı.

Elə həmin anda radioqəbuledicidə Əhmədin səsi eşidildi.

– "Katok 17" "Katok 11"ə vəziyyət haqqında məlumat ver.

Coşqun vəziyyət haqqında heç nə demədi, bölük komandirindən "Katok 17"nin yanına gəlməsini xahiş etdi.

Həmin gecə səhər açılana qədər Əhməd hər tərəfdə Adili axtardı. Səhər saat doqquzda hospitalda olduğunu eşidib ora getdi.

* * *

Bölük komandiri ən çox sevdiyi taqım komandirinin bu vəziyyətə düşməsini heç kimə bağışlaya bilməzdi. Adilin yanından qayıdandan sonra Əhməd gün ərzində heç nə yeyə bilmədi. Bütün günü xəritədən aralanmadı. Düşmənə gözləmədiyi anda sarsıdıcı zərbə endirməyin planını hazırladı. Hər gün vaxt tapan kimi Adilə baş çəkməyi də iş dəftərinin birinci vərəqinin baş tərəfinə qırmızı qələmlə yazdı. Həmin gün Adilin müalicə həkimi ilə görüşdü. Ağsaçlı, nurani həkimlə söhbət onu bir az sakitləşdirdi.

– Həkim, mən sizin xəstə Adil Həsənovun bölük komandiriyəm, vaxtınız varsa onun vəziyyəti haqqında

məlumat verməyinizi xahiş edirəm.

Həkim qarşısındakı orta boylu zabitə baxdı. Hospital döyüş bölgəsində yerləşdiyi üçün həkimlərlə belə mədəni danışanlara çox az hallarda təsadüf olunurdu. Gələnlər gah qışqırıb bağırır, onları təhqir edir, gah da əlindəki silahla hədələyirdilər. Əhməd isə üstündə silah olmasına baxmayaraq soyuqqanlı və mədəni idi.

– Xəstənin vəziyyəti orta-sabitdir, yaxşılığa doğru irəliləyiş var, amma bu o demək deyil ki, üç gündən sonra ayağa qalxacaq. Yarası ağır olmasa da, vaxtında tibbi yardım göstərilmədiyi üçün altımış, yetmiş faiz qan itkisinə məruz qalıb. Hospitala demək olar ki, huşsuz vəziyyətdə gətirilib, hətta ilk dəfə görəndə biz onun ölü olduğunu zənn etdik. Görülən tədbirlər nəticəsində xeyli irəliləyiş var. Məni düzgün başa düşün, xəstənin sağalması üçün, bəzən biz həkimlərdən asılı olmayan amillər çox olur.

– Həkim, bəlkə onu şəraitə görə Bakıya göndərək?

– Məsləhət deyil, yaxşı olar ki, onu yerindən tərpətməyək.

Adilin vəziyyəti getdikcə yaxşılığa doğru gedirdi, artıq o özünə gəlmişdi, əslində onun yarası ağır deyildi, lakin çoxlu qan itirdiyi üçün, əlavə qan köçürmüşdülər. Həkimlərin dediyinə görə əgər onun böyrəkləri vurulan qanı mənimsəyə bilsə, onun heç bir həyati təhlükəsi ola bilməzdi. Ən azı həkimlərin gəldiyi qənaət belə idi və Əhmədlə bu barədə danışan zaman həkim bunu dəfələrlə təkrar etdi.

Döyüş yoldaşları, əsgərləri vaxt tapdıqca ona baş çəkirdilər. Son dəfə Tabor komandiri Hacı Əzimov, qərargah rəisi, Qaçay Quliyev, briqadanın kadrlar şöbəsinin rəisi polkovnik-leytenant Şahlar Behbudov və Ağababa Qasımov onun ziyarətinə gəlmişdilər. Onlar

həkimlə söhbətdən sonra palataya gəldilər, onunla zarafatlaşdılar, o isə danışa bilməsə də, əlinin zəif hərəkəti ilə onlarla ünsiyyət qurmağa çalışdı. Elə həmin gün Adilin qəfil ölümü onu sevənlərin hamısını sarsıtdı.

Ən ağır zərbəni isə bölük komandiri Əhməd Mehbalıyev aldı. Adilin ölümündən sarsılan Əhməd yalnız qisas haqqında düşünür və düşməni cəzalandırmaq üçün plan hazırlayırdı. Bu istiqamətdə düşmən qarşısında onun yalnız üç tankı və bir "BMP-2"si var idi. Bu texnika düşmənə ağır zərbə üçün kifayət edərdi.

Bəzən insan daxilindən gələn hisslərin təsiri altında daha real düşünə bilir, daha dəqiq qərarlar verir. Yalnız belə hallarda cəsur və məğlubedilməz olur. Az qüvvə ilə böyük ordulara qalib gəlmək prisipi insanın daxilində formalaşır. Tarixdə Atilla, Çingiz xan, Əmir Teymur, Fateh Sultan Mehmet, Şah İsmayıl, Aleksandr Makedonski, Napaleon Bonapart kimi sərkərdələrin həyatına baxdıqda bunu həqiqətən də etiraf edirsən.

Hələ uşaq çağlarından Əhməd dünya tarixini, xüsusən də fatehlərin döyüş aparmaq qaydalarını, planlarını, onların şəxsi xarakterlərini, sərkərdəlik keyfiyyətlərini öyrənməyi, mənimsəməyi sevirdi.

O, gecələr yatmır, gündüzlər dincəlmir düşmənə sarsıdıcı zərbə planı üzərində işləyir, hər dəfə tək qalanda planın baş tutması üçün Rəbbinə dualar edirdi.

Adilin ölüm xəbəri onu sarsıtdı, ruhdan düşdü. Heç nəyə həvəsi qalmadı, son günlərin yorğunluğu onu əldən salmışdı. Elə bil əzalarından ağır yük asılmışdı. Tankların yerləşdiyi yerə gəldi. Rabitə rəisi baş leytenant Nizami Nəzərov və İsmayılov İsmayıl onun vəziyyətini anlayıb yanına gəlmişdilər.

– Əhməd, nə olub sənə!? Bu bizim hər birimizin başına gələ bilər, bir az səbirli və toxtaq olmaq lazımdır.

Əhməd çox yorulmuşdu, üzünə baxan kimi dinləmək və ya cavab vermək halında olmadığı aşkar bilinirdi.

– Nə qədər ki, biz buradayıq, sən bir az dincəl. Yatsan özünə gələcəksən.

Elə bil onun təklifinə bənd idi, həyətdəki ağacın kölgəsində uzanıb yuxuya getdi. Gecə yarısı oyandı, onları görüb təəccüblə baxdı.

– Nə zaman gəldiniz?...

Nizami belə halların yorğunluğun əlaməti olduğunu bilirdi, ona görə də heç nə demədi.

– Get yat, narahat olma burdayıq.

Əhməd yenidən yerinə uzandı, amma daha yata bilmədi, bir müddət sonra durub yerində oturdu, bütün bədəni keyləşmişdi. Ayağa durdu, idman edirmiş kimi bədənini sağa-sola əydi. onlara tərəf döndü.

– Gedək görək heyətlər nə edir?

Onlar ikilikdə tankların durduğu yerə yaxınlaşdılar, hər tankın heyəti növbə ilə bir-birini əvəz edərək düşməni daim nəzarətdə saxlayırdılar. Bu Əhmədin xoşuna gəldi, növbədə olan əsgərlərlə uzun-uzadı söhbət etdi və sonda hər birinə şübhəli nə görsələr dərhal ona xəbər vermələrini tapşırdı. Yenidən Nizami ilə qaldıqları evə tərəf getdilər, artıq dan yeri sökülürdü. Təzəcə çatmışdılar ki, radioqəbuledicidə onu çağırdılar və təcili "Katok 16" ya yaxınlaşmasını bildirdilər.

Qarşıda düşmən mövqelərinə, öndə "BMP-2" arxada isə üç hərbi "Ural" olmaqla kömək üçün əlavə qüvvələr gətirilirdi. Onlar Xankəndi-Ağdərə yolundan dönərək bir neçə gün əvvəl işğal olunmuş Papravənd kəndi istiqamətinə hərəkət edirdilər. Yolun üç kilometrə qədər hissəsində onları gizlədə bilən heç bir maneə olmadığı üçün tələsdikləri açıq-aydın hiss olunurdu. Dağın döşü ilə uzanan torpaq yol rahat olmadığı üçün ma-

şınlar sürətlə hərəkət edə bilmirdi. Fürsəti əldən vermək olmazdı. İndiyə qədər şəhid olanların hamısının qisasını almaq vaxtı çatmışdı. Əhmədin hökmlü səsi gecənin sükutunda əks-səda verdi.

– Tankları işə salın. Coşqun, öndəkini aradan götür, İsmayıl ikinci sənlikdir. Cəld olun, cəld. Bir azdan dağın arxasına keçəcəklər. Onları buraxmaq olmaz. Komandamı eşidin, eyni vaxtda atəş açaq.

Tanklar nərilti ilə işə düşdü,

Özü də çevik bir hərəkətlə tankın üstünə qalxdı

– "11" "17" hazırdır. – Coşqun tanka girən kimi karvanın önündə gələn zirehli maşını nişangaha götürdü, bir an sonra İsmayıl da hazırlıq haqqında məlumat verdi. Karvanın dağın arxasına girməyinə yüz metrədən də az qalırdı, efirdə Əhmədin səsi eşidildi.

– Atəş!

Yer, göy lərzəyə gəldi, dağlar titrədi, bir anlıq sanki ildırım çaxdı, hər tərəf işıqlandı. Eyni zamanda üç tankdan çıxan mərmilər, sican kimi qaçıb gizlənməyə can atan düşmənə aman vermədi. Əhməd dərindən nəfəs aldı, "Allahım, şükürlər olsun sənə, dualarımı qəbul etdin. Adilin qanı yerdə qalmadı," deyə düşündü. Sırada üçüncü gələn "Ural" maşınının üstündə olan əsgərlər düşüb nə baş verdiyini anlamayaraq ətrafa səpələndilər. Efirdə yenidən Əhmədin səsi eşidildi.

– Əhsən, igidlər! Bir daha.

Yenidən yaylım atəşi açıldı. Atəşlə birlikdə səhər də açılırdı.

Səhərin açılması ilə erməni-rus qoşun birləşmələri xüsusi tapşırıq aldılar, döyüş başlandı. Toplar, tanklar susmadı həmin gün. Ruslar minaatanlardan, toplardan, qrad qurğularından və müxtəlif raketlərdən istifadə edərək onların üzərinə dəmir yağışı yağdırırdılar.

Axşam düşənə qədər davam edən döyüşdə qarşı tərəf dəfələrlə hücum etdi, lakin layiqli cavab alıb geri çəkildilər. bütün tabor döyüşürdü, aşpazdan tutmuş komandirə qədər hamı səngərdə idi. Onların da itkiləri oldu, az olmasına baxmayaraq ürək göynədən itkilər idi. Tabor komandirinin əmri ilə Səməd də gəlmişdi bura, Əhmədə kömək üçün.

Döyüşlər gecə də davam etdi, lakin nisbətən sakitləşdiyi hiss olunurdu. Onlar gecə ərzində bir-birini dəyişdilər ki, ertəsi gün də döyüşə bilsinlər.

– Əhməd, get bir az dincəl, mən idarə edərəm.

– Deyək ki, mən dincəldim, bəs əsgərlər necə olsun?

– Onları da hissə-hissə buraxmaq lazımdır, çünki sabah bundan da ağır ola bilər.

– O zaman bu vərəqdə olan qayda üzrə hərəkət edək. Lazım olsam məni mütləq oyadın.

O cibindən bir neçə gün əvvəl tərtib etdiyi siyahını ona verdi.

– Yaxşı mən gedim dincəlim.

– Rahat yat lazım olsan oyadacam.

Həmin gecə ay görünmürdü, hər tərəf qaranlığın ağuşunda idi, dünən yatdığı ağacın altına gəldi. Hər tərəfin qaranlıq olmasına baxmayaraq ona elə gəldi ki, bura işıqlıdır, sanki illərlə yeri, göyü işıqlandıran ay, bu gün xəsislik edərək dünyanı yox, təkcə onun dünən yatdığı ağacın altını işıqlandırırdı, elə bil yerin enerjisi burada cəmlənmişdi, kainatın ürəyi döyünürdü burada, doğma ocaq kimi çəkirdi onu. Uzanan kimi yuxuya getdi, əslində o cismən istirahətdə idi. Ruhən oyaq idi Əhməd, gözlərini yumsa da, bədəni, bütün əzaları döyüşlərin, aclığın, susuzluğun təsirindən ağırlaşsa da, ruhən rahat idi. Bu döyüşlərdə Adilin və bütün şəhidlə-

rin intiqamını almışdı. Yatdığı ağacın altındakı işıq da ruhunun işığı idi.

– Deyəsən, bizi nişan veriblər, bütün mərmiləri bura atırlar. Bəlkə yeimizi dəyişək?

– Yaxşı olar, amma özbaşına etməyək, Əhmədə deyək, sonra...

– Mən gedim deyim.

Səməd onun yatdığı ağaca tərəf getdi, yaxınlaşanda işığı görüb çaşqın halda dayandı.

– Möcüzələrinə şükür... – sözü ağzında qaldı, minaatanlardan atılan mərmi ağacın lap yaxınlığına düşdü, dalğanın gücü onu geriyə atdı, kürəyi üstə daşlı yerə çırpıldı, zərbə o qədər güclü idi ki, sümüklərinin xırçıltılı səsini eşitdi, sındığını zənn etdi, bütün gücünü toplayıb üzü üstə döndü, ağrıdan huşunu itirdi.

Üzü üstə dönən zaman çənəsi daşa dirənmişdi, başını qaldırıb səmtini dəyişməyə gücü çatmadı. Huşu özündə olmasa da ətrafda nə baş verdiyini hiss edirdi. Gözləri açıq idi, yoxsa yumulu bilmirdi. Amma ona elə gəldi ki, yaxınlıqda ağaca doğru qaçan əsgərləri görür. Onları çağırmaq istədi, bacarmadı. Əhmədi düşündü, bu onun yaddaşında qalan son duyğu oldu. Nə qədər belə qaldı, nə zaman onu tapdılar, bilmədi.

Səhra hospitalında özünə gəldi, elə bil yaddaşı itmişdi, hələ çox şeyi dərk eləmirdi. Həkimlər bir neçə günə düzələcəyini deyirdilər. Demə, canı möhkəm imiş, iki gün sonra ayağa durdu, Adildən sonra özünə gəlməmişdi ki, Əhmədin ölüm xəbəri onu sarsıtdı, daxilən çökdürdü. Bir müddət susdu, ətrafında nə baş verirdisə lal sükutla qarşılayırdı. Beynində yalnız bir fikir dolanır, cavab tapmayınca narahat halda vurnuxurdu. “Niyə axı onlar, niyə ən yaxşıları?...”

* * *

Tabor komandirinin çıxışından sonra hamıda yüksək əhval-ruhiyyə yaranmışdı, qarşımızda ən birinci tapşırıq bütün cəbhə boyu irəliləyən düşməni saxlamaq və onu geri çəkilməyə məcbur etmək idi. Mayor Quliyevin oxuduğu siyahı üzrə, heyətlər ayrı-ayrı mövqelərə düşmüşdülər. İndi hər kəs bir-birindən yalnız hansı mövqeyə düşməsi haqqında soruşurdu.

– Səməd, hansı mövqeyə düşmüsən? – deyə Mirələm dedi.

– "Kökəltmə"dəyəm, deyəsən mayor Quliyev, bir az sınıxdığımı hiss eləyib – zarafatından qalmadı. – Bəs sən hara düşmüsən?

– Biz Tofiqlə birlikdə Füzuli istiqamətinə gedəcəyik. Deyirlər, "xaçiklər" orda yaman fəaldırlar.

– Özünüzü qoruyun, siz aralı düşmüsünüz.

– Narahat olma, inşallah görüşərik. "Arazın o tayı da, bu tayı da bizimdir." İsmayılgil hara düşüb bilmirsən?

– Yox dəqiq bilmirəm. Məncə o, "Zirehli qrup"a rəhbərlik edəcək.

– Aha!... Əsas ona demək lazımdır ki, ehtiyatlı olsun, düşmənin bütün diqqəti onun üstündə olacaq. Nə isə, Allah amanında, biz getdik.

O, yenə nə isə dedi, amma səsi tankların nəriltisinə qarışıb eşidilməz oldü.

Üç gün bütün cəbhə boyu dayanmadan döyüş getdi, hər iki tərəf çoxlu itki verirdi. Düşmən bütün gücü ilə hücuma keçmişdi. Rus-erməni birləşmələri öz məğlubiyyətini qəbul etmək istəmirdilər. Bəzən elə olurdu ki, bir-birimizlə əlaqə saxlamağa da vaxtımız olmurdu. Getdikcə müharibə daha kəskin və daha gərgin vəziyyət alırdı.

Təminat və təchizat çox aşağı səviyyədə, milli kadr sahəsində isə sıfıra bərabər idi. Yüksək rütbəli zabitlər bütünlüklə rus təhsili görmüş zabitlər idilər ki, onlarla da irəli getmək mümkün deyildi. Mərkəzi idarəetmə yox dərəcəsində idi. Müdafiə Nazirliyinin və bütün dövlət strukturlarının yalnız adı var idi.

Min doqquz yüz doxsan birinci ildə olan ruh yüksəkliyi demək olar ki, sıfıra enmişdi və bunu qarşıdakı düşmən də bilirdi. Orduya yeni nəfəs, yeni struktura, yeni ruh lazım idi.

"Kökəltmə"də mövqedə duran Səmədin yadına bir neçə ay əvvəl baş vermiş hadisə düşdü. "Səməd, ay Səməd! Ayə ölmüsən?..."

"Ay səni Miri, lap elə Qəmlo kimi çağırırdı" deyə düşündü. "İndi görəsən onlar haradadırlar, vəziyyətləri necədir? Builki qış da çox soyuq keçir. Deyirlər yer kürəsində "Qlobal istiləşmə" gedir, amma deyəsən, bura aid deyil bu. Yoxsa, Qarabağ yer kürəsinə aid deyil, tam başqa bir planetdə yerləşir? Bəlkə də bu belədir."

Üç gün əvvəl Ağdam cəbhəsindən üç tank və üç BMP-2 olmaqla "Zirehli qrup" yaratdılar. Yeni yaradılan qrupun komandiri baş leytenant Tofiq Cəfərov, kiçik gizir Mirələm Cavadov isə texnika üzrə komandir müavini təyin olundu. Qrup Müdafiə nazirinin əmri ilə Füzuli istiqamətinə göndərildi. Hələlik onlardan heç bir xəbər yox idi.

* * *

Onlar dağın o biri üzünə keçdilər. Yoxuşu bir nəfəsə qalxdıqları üçün hər ikisi tövşüyürdü. Soyuq qərb küləyi adamın iliyinə işləyirdi. Qar olmasa da ətrafdakı kollardan buz sallanırdı, otların üstünə düşən şeh donmuş,

hər tərəf qrovla örtülmüşdü, qarşıdakı təpələr gümüşü rəngə bürünmüşdü. Onlar dağın döşündə dayanıb yaxınlıqda olan düşmən mövqelərini müşahidə etməyə başladılar. Məsafə o qədər yaxın idi ki, hətta durbinsiz belə açıq-aydın görmək mümkün idi. Tofiq qoynundakı xəritəni çıxarıb baxdı. Füzuli şəhərindən səkkiz kilometr aralıda idilər. Qışın oğlan çağı olmasına baxmayaraq, qarşıdakı düzənliklərdə adamı heyran edən yamyaşıl mənzərə açılmışdı.

– Miri, gör nə gözəl yerlərdir, adam baxdıqca baxmaq istəyir. Qışın oğlan çağıdır, amma hər tərəf yamyaşıldır. Elə bil yaşıl xalı sərmisən bu yerlərə, zərrə qədər də olsun qüsur tapmaq mümkün deyil, gümüşü təpələr yaşıl xalı üstündə mürvari naxışlara bənzəyir. Heç bir rəssam bunu olduğu kimi təsvir edə bilməz. Bu gözəlliyi yaratmaq inan ki, yalnız Allaha məxsusdur.

Mirələm Tofiqin göstərdiyi istiqamətə baxdı, dərindən köks ötürdü.

– Tofiq, sən Şuşada olmusan?

– Yox, qadan alım, dünyanın bir hissəsini gəzmişəm, amma Azərbaycanın çox yerində olmamışam. Lələ, deyirsən Şuşa buradan da gözəldir?

Mirələm başı ilə təsdiqlədi.

– Biz Şuşada olanda Nazim adlı bir döyüş yoldaşım var idi, əslən qərbi azərbaycanlı idi, Allahverdiyev Nazim Karlen oğlu, sürücü-mexannik idi, canavar kimi oğlan idi. Bir gün “Zastava”da elə bir yerdə dayanmışdıq ki, bütün Şuşa və gözün görə biləcəyi hər tərəf sanki ovcumuzun içində idi. Təbiət o qədər gözəl idi ki, hər ikimiz heyran olmuşduq, bu gözəlliyi təsvir etməyə söz tapa bilmirdik, ən yaxşı təsvir, tərənnüm elə susub baxmaq idi ki, biz də elə edirdik. O zaman dərk etdim ki, belə vurğunluğu yalnız insanın gözlərinə baxmaqla və ürəyinə girməklə duymaq olar. Nəhayət, mən özüm-

dən asılı olmadan “İlahi, necə də gözəl yerlərdir!” deyə bildim. Nazimin qeri-ixtiyari “İlahi, bu yerləri bizə çox görmə. Miri, müharibədən sonra köçüb gələcəyəm bura, qalan ömrümü burada keçirəcəyəm. Mənə nə istəsən deyə bilərsən. Cənnət deyilən bir yer varsa da o elə buradır. Sadəcə olaraq biz bu günə qədər kor olmuşuq, bunu görə bilməmişik.” Ancaq atalar demiş, “Sən saydığını say, gör fələk nə sayır.” Yazıq o günü görə bilmədi. Müharibə isə hələ də davam edir, bizlərdən kim sonunu görəcək onu da Allah bilir.

– Eşitmişəm onun haqqında. O, Şuşada həlak oldu?

– Yox, Şuşadan çıxmışdıq, Zarıstıda vuruldu onların tankı. Fərrux, Bünyamin və Nazim bir ekipajda idilər. Aslan kimi igidlər idi. Onları orda itirdik. Bəlkə də həmin o günün təsirindən idi, Nazim ayrılmaq istəmədi Şuşadan, o cənnəti qoyub getmək istəmədi. Nə bilim!?... Eh, necə oğlanları itirmişik, Allah hamısına rəhmət eləsin – deyib çiyinlərini çəkdi.

Düşmənin ara-sıra atdığı mərmilər gah onların başının üstündən keçir, gah da dayandıqları yerə çatmayıb dağın ətəyinə düşürdü. Kolluqların arasında gizləndilər, amma görünür, düşmən onları görmüşdü, bir neçə mərmi lap yaxınlıqlarında torpağı göyə sovurdu.

– Miri, gedək!... Əclaflar bizi görüblər.

– Dayan, baxaq görək haradan atırlar? – Durbinlə düşmən tərəfə baxdı.

– Bəlkə dağın üstünə çıxaq, oradan daha aydın görmək olar, nə deyirsən?!

– Yaxşı, gedək.

Onlar gəldikləri yolla geri qayıtdılar, dağın şərq tərəfi ilə yuxarıya qaxmaq daha çətin idi. Son günlərin soyuğundan ciyərlərinə su yığılan Tofiq öskürür, ağır-ağır nəfəs alırdı, sanki havası çatmırdı.

– Miri, qadan alım! Sən get, mən bir az özümə gəlim, sonra özümü sizə çatdıraram.

Dağın üstü böyük bir stadiona bənzəyən düzənlik idi, buradan qarşıdakı düşmən mövqeləri daha aydın görünürdü. Tofiq dağın üstünə çıxanda başa düşdü ki, düşmənin məqsədi elə buranı vurmaq imiş. Mirələmdən başqa burada üç nəfər də var idi, onlardan biri aralıda uzanmışdı. Tofiq Mirələmə yaxınlaşan zaman qarşı tərəfdən düşmən tankının atəş açdığını gördü. Sanki özünə komanda verirmiş kimi bərkdən dedi.

– Uzanın yerə. Atdılar!...

Lakin verdiyi komandaya əməl etməyə macal tapa bilmədi. Qarşısında partlayan mərminin dalğası onu arxaya atdı. Huşunu itirdi, özünə gələndə heç bir ağrı hiss etmirdi, həm də heç nə görmürdü, hər tərəf zülmət içində idi, sanki mərmi onu dibi görünməyən dərin, qaranlıq bir quyuya atmışdı. Əlləri ilə başını yoxladı, ona elə gəldi ki, hər şey qaydasındadır, başı, qulaqları, çənəsi yerində idi. Yadına Mirələm düşdü. Onun uzandığı yerə tərəf süründü. "Mirələm, Mirələm" deyə qışqırdı, ancaq səsini özü də eşitmədi. Ona elə gəldi ki, səsinə güc verdikcə, qulaqlarından hava fışqırıb çölə çıxır. Əlləri kiminsə ayaqqabılarına toxundu, bu əsgər çəkmələri idi, başa düşdü ki, bu Mirələmin ayaqlarıdır, çünki bayaq onun yanında uzananlar mülki vətəndaşlar idilər.

Kimsə onun əsgər kürkünün buynundan tutub arxası üstə çevirdi və sürüməyə başladı. Huşunu itirdi, özünə gələndə onu hələ də sürüyürdülər, yenidən huşunu itirdi, bu hal bir neçə dəfə təkrar oldu.

Növbəti dəfə özünə gələndə üstüaçıq yük maşınında harasa aparıldığını başa düşdü. Hiss edirdi ki, maşının yük yerində o tək deyil.

Yəqin yaralı idi, onu hospitala aparırdılar. Bəs Mirələm? Salamat olsaydı onu tək qoymazdı. Bəlkə o

da yaralanıb, onun yanındadır, bir maşındadırlar. Bütün gücünü toplayıb bir neçə dəfə çağırdı, yenə də səsini eşidə bilmədi, qulaqlarından hava fışıltıyla çıxırdı.

Torpaq yolla gedən maşın çox narahat idi, yol isə hey uzanır, bitmirdi ki, bitmirdi. Yenidən huşunu itirdi. Yolboyu bu hal bir neçə dəfə baş verdi. Yad bir iy burnuna, bütün hissiyatına hakim kəsilmişdi. Sonuncu dəfə ayılanda çarpayıda uzandığını hiss etdi, gözləri sarğı ilə bağlanmışdı. Nəsə demək istədi, kimisə çağırdı, səsi çıxmadı, bir neçə dəfə öyüdü, kiminsə uzaqlarda, lap uzaqlarda "yazıq qan qusur" dediyini eşitdi. O niyə qan qusurdu, axı ona nə olmuşdu?... Nə qədər fikirləşdisə də ağlına heç nə gəlmədi.

Ağrı hiss etməsə də, gözləri görməsə də ətrafda nə baş verdiyini duyurdu. İşıqlı dünyaya bir daha baxa bilməyəcəyini, bu dünyada yaşayaraq sevdiklərinin üzünü görməyəcəyini qəbul edə biməzdi. Bu hissin təsiri altında gözlərinin kor olduğunu düşünəndə özünə ölüm arzuladı, kor olaraq yaşamağı özünə sığışdıra bilmədi. Qəlbinin dərinliyində "kaş bir tərəfim olmayaydı, sürünə-sürünə gəzəydim, amma gözlərim görəydi, kor olaraq yaşamaqdansa ölmək yaxşıdır" deyə düşündü və növbəti dəfə huşunu itirdi.

Özünə gələndə nə qədər vaxt keçmişdi bilmirdi, zamanı itirmişdi, günəşin nə vaxt çıxıb nə zaman batdığından xəbəri yox idi. Bəlkə də zaman dayanmışdı onun üçün. Sanki gözlərinin önündə qara pərdə asılmışdı, bir zərrə işıq üçün indi çox şeydən keçərdi. Ölüm qorxusu ruhuna hakim kəsildi, bədəni uçundu, başa düşmədi soyuqdan yoxsa qorxudan titrəməyə başladı, bütün varlığı ilə əsirdi. Ölmək istəmirdi.

Çox zəifləmişdi, tam hərəkətsiz halda olduğunu dərk edirdi, sanki özü deyil daş parçası idi çarpayının üstündə, bədənində güc olmadığının fərqində idi, göz-

lərini açmaq istədi, göz qapaqlarından ağır yük asılmışdı, barmaqlarını tərpətmək istədi, bacarmadı.

Ölümün çox yaxında olduğunu hiss edirdi, bayaqdan bütün hissiyatına hakim kəsilən qoxunun ölüm qoxusu, ruhundakı vahimənin ölüm vahiməsi olduğunu dərk etdi. Bu hissin ağırlığı onu bərk-bərk dəmir çarpayıya sıxırdı.

Gözləri bağlı, hərəkətsiz halda uzanmışdı, ürəyinin döyüntüsünü hiss etmirdi, təkcə nəfəsi var idi, bir də düşüncələri. Bir az əvvəl düşündüklərinə görə özünü qınadı. Ölmək istəmirdi, yaşamağın necə dəyərli nemət olduğunu indi anlamışdı elə bil.

“Hər dəfə nəfəs almaq və hər dəfə nəfəs vermək... Deməli yaşayıram, hələ ki, ölməmişəm... Hər udum nəfəsə sərf etdiyim zaman, necə də qiymətlidir. İlahi, ötən ömrümdə belə zaman qırıqlarının, nəinki saniyələrin, hətta saatların, günlərin qədrini bilməmişəm. Əhv et məni ya Rəbbim!”

# XVIII FƏSİL

Deyirlər hər kəsin səmada bir ulduzu olur, bəlkə də belədir, bəlkə də yox. Amma nədənsə Səməd inanırdı ki, bu belədir. Uşaq dünyaya gələndə onunla birlikdə ulduzu da doğulur, bərabər bir ömür yaşayırlar, ulduz bir gün axıb səmanın əngilliklərinə qovuşur, görünməz olur və elə o anda da insan öz ömrünü başa vurur. Səməd hələ uşaq çağlarından eşitmişdi bu hekayəti, bir az da qürurlanmışdı. "Deməli, insan ulduz ömrü yaşayır. Ulduzlar kimi, bir ömür parlayır, yanır və nəhayət ömrünü başa vurub axır, səmanın əngilliyində yoxa çıxır."

İndi Səməd, bu qaranlıq gecədə tankın arxasında isti mühərrikin üstündə uzanıb səmaya baxır, ulduzları bir-bir nəzərdən keçirir, hərəsini bir döyüş yoldaşının adına bağlayırdı. Nədənsə ulduzların ən parlaqlarını seçirdi. Birdən seçdiyi parlaq ulduzlardan biri səmada axaraq yoxa çıxdı. Nə qədər fikirləşdisə yoxa çıxan ulduzu kimin adına bağladığını tapa bilmədi. Qəlbən ağrıdı və tez də bunun bir əfsanə olduğuna özünü inandırmağa çalışdı. Ağlı kəsəndən bəri belə bir əfsanəyə inandığına görə özünü qınadı, onu uyduranlara, nəsilbənəsil danışıb bir-birinə ötürdüklərinə görə nifrət etdi.

Hələ uşaq çağlarından özü üçün ən parlaq ulduzu – Dan ulduzunu seçmişdi. Amma deyəsən bu qaranlıq gecə onu da udmuşdu. Yadına bir əhvalat düşdü.

Kəndlərində demək olar ki, bütün həyətlərdə çardaq var idi və bütün kəndin kişiləri isti yay gecələrində bu çardaqlarda yatardılar. Atası da evin qarşısında, meyvə ağaclarının arasında böyük bir çardaq tikmişdi.

Hər gecə evin yeganə kişisi kimi onunla birlikdə orada yatardılar. Səməd gecələrin birində oyanıb səmaya baxdı. Ulduzlar göy üzünü bəzəmişdi, sanki gözəl, zərli xalı göy üzünə sərilmişdi, onların arasında biri hamısından fərqlənirdi, həm böyük həm də çox parlaq idi. Atası sübh namazını qılırdı. Ertəsi gün yuxudan oyanan kimi atasından həmin ulduz barəsində soruşdu.

– O, Dan ulduzudur, ona Qütb ulduzu da deyirlər, bizlərdə isə ona Çoban ulduzu deyirlər – deyə atası cavab verdi.

Məktəbdə müəllimləri dərsini bilməyən uşaqlara "Sən, çobansan, çoban olacaqsan!" dedikləri üçün bu sözdən heç xoşu gəlmirdi.

– Ata, o ki ən parlaq ulduzdur, ona niyə Çoban ulduzu deyirlər, daha yaxşı ad qoymaq olmazdı ki!?

– Oğul, qaranlıq gecələrdə çobanlar həmin ulduza baxıb istiqaməti və vaxtı təyin etdikləri üçün ona bu adı veriblər.

O gündən Səməd həmin ulduzu özünə götürdü, taleyini bağladı ona. Bir də eşitmişdi ki, səmada hər ulduz axanda yerdə kimsə ölür. Lakin bu da ona elə təsir etmirdi. Bəzən səmada sayrışan ulduzların axib getməsini həsrətlə gözləyərdi. O, nədənsə, uşaq ağlı ilə insanların uydurduğu bu "nağıla" inanırdı. "Yerdə insan çox, səmada ulduz, axsın nə qədər istəyirsə," deyə düşünərdi.

İndi o vaxtdan illər ötmüşdü, çardaqda yumşaq yorğan döşəkdə seyr etdiyi ulduzlara, dəmirin üstündə uzanıb baxır, o zaman gördüyü əsrarəngiz gözəllikdən göz dolusu zövq ala bilmirdi, səmaya, ora səpələnmiş bir-birindən fərqli zərrəciklərə – ulduzlara yanan güllələr kimi baxırdı. Elə bil hər düşən ulduz, onun və döyüş yoldaşlarının ulduzu idi ki, yerə çatanda gülləyə dönüb onların sinəsinə sancılacaqdı. Sanki həyatın nə qədər şirin olduğunu indicə anladı və anladıqca həm

özünün həm də döyüş yoldaşlarının ölməyini istəmədi. Axan ulduzun qarasına deyindi.

"Səməd, ay Səməd! Ayə ölmüsən?!" Xəyallardan ayrıldı, səsə diksinib cəld sıçrayışla qalxıb yerində oturdu, elə bil bədəninə elektrik cərəyanı buraxdılar, cin vurmuş adam kimi dörd tərəfə boylandı, kimsə yox idi. Bir neçə ay əvvəl Mirələm eynilə belə çağırmışdı onu, o zaman hər ikisi doyunca gülmüşdülər. İndi isə bu səs çığırtıya dönüb onu vahiməyə saldı. Əllərini başına, üzünə çəkdi, dik dayanmış saçlarını aşağıya doğru tumarladı.

Ertəsi gün onu tabora çağırdılar, döyüş yoldaşlarının əksəriyyəti burada idi. Bir azdan Mirələmin cənazəsini gətirdilər. Ağdam rayonunun Rzalar kənd orta məktəbinin həyətində taborun şəxsi heyəti ilə Mirələmin vida mərasimi oldu. Hamı sıra ilə bir-bir cənazəyə yaxınlaşdı, vidalaşıb keçdi. Mirələm sanki yuxuda idi, elə bil yatmışdı, bir azdan oyanıb yenə deyib güləcəkdi. Həmişə zarafat edərdi. Bəlkə bu da onun ən böyük zarafatı idi!?...

* * *

Hirsi-hikkəsi boğazına tıxanıb qalmışdı, haray salmaq istəyirdi, qoca kəşfiyyatçını köməyə çağırmaq istəyirdi. Görəsən Məhyəddin kişi o gecə yata bilmişdimi? Yox, əsla yox! Həmin gecə ilan vuran yata bilərdi, Məhyəddin kişi yox. Şəkilə ana onun bir necə ay əvvəl aldığı, hələ doyunca əyninə geyinmədiyi paltarlarını bir-bir çıxarıb əzizləyir, asılqanda oğlunun boyunu oxşayırmış kimi tumarlayırdı. Balaca Habil yuxusunda kabus görüb yerindən qışqıraraq oyandı, gördüyü yuxunun təsirin-

dən səhərə kimi yata bilmədi. Həmin gecə Səməd də onu aradı, səmada parlaq, axıb sönən ulduzların arasında. Tankın üstündə mürgüləyən zaman, həmin o qaranlıq gecədə onun son harayını, son çağırışını eşitdi Səməd. Hönkürüb ağlamaq istədi, amma ətrafdakıların qınağından çəkindi. “Səməd, ay Səməd! Ayə, ölmüsən!?” Bu səs Mirələmin səsi idi, əbədi olaraq Səmədin yaddaşına hopmuşdu.

Səməd içindəki vulkanı cilovlaya bilmirdi. Baş alıb tabordan çıxdı, çiynindəki silahı əlinə alıb getdi, ayağı tutduğu qədər, gözü gördüyü qədər, yerlə göyün birləşdiyi üfüqə doğru getdi. Axan o parlaq ulduzları toplayıb bir daha göy üzünə düzməkdən ötrü getdi, qarşısını düşmən də ala bilmədi. O gecə tankın arxasında uzanıb göylərə baxan zaman qulağına gələn o səsin arxasınca getdi Səməd. Dili tutulmuşdu, boğazına hikkə dolu qəhər tıxanmışdı, boğurdu onu. Ağlaya bilmirdi, ağlasaydı, ürəyini boşalda bilsəydi, bəlkə də bu yolu gedə bilməzdi.

Özünü qınadı, günahlandırdı, onun son çağırışına cavab vermədiyinə görə. Səs yenidən qulaqlarında səsləndi, səmaya qalxıb buludlarla toqquşdu, şimşəyə dönüb yenidən onun üstünə şığıdı.. “Səməd, ay Səməd! Ayə ölmüsən!?” Cavab verə bilmədi. Bəlkə də ölmüşdü Səməd...

Nəhayət ki, boğazına dirənən hikkə azaldı, dili açıldı Səmədin. Boz qurd kimi üzünü səmaya tutub uladı, fəryad etdi. ”Mirələm heyyy, Mirələm heyyy, Mirələm heyyy!!!”

Səs buludlara dəyib əks-səda verdi, qış yağışına qarışıb Bərgüşadın üstünə töküldü. Məhyəddin kişidən başqa kimsə eşitmədi, kimsə duymadı o səsi. Ana fəryadına, bacı naləsinə qarışıb eşidilməz oldu. “Səməd, ay Səməd! Ayə ölmüsən!?” harayı ilə toqquşdu, qoca kəş-

fiyyatçının iti baxışlarına çırpıldı, çilik-çilik olub əbədi olaraq səmaya səpildi.

Getdi Səməd, ölüsündən, dirisindən xəbər verən olmadı, bəlkə də Həzrəti İsa kimi qeybə çəkildi. Haqqında əfsanələr danışdılar, nağıllar uydurdular, "Mələyin nağılı" kimi.

Səsi isə göylərdə əbədi qaldı, hətta buludlardan da yuxarıda. "Mirələm heyyy, Mirələm heyyy, Mirələm heyyy!!!" Deyirlər hətta, günü bu gün həmin səsi eşidənlər var və qeybdən gələn səs kimi qəbul edirlər.

Dünyanın işinə bax İlahi! Dövranın gərdişinə bax İlahi! Səsdə olan qüdrətə, sözdə olan hikmətə, insandakı cürətə bax İlahi!

* * *

Zabit yoldaşları onu Çəmənlidəki Cümşüd məscidinə "son hamam"ına apardılar. Sultanov Xəqani, Şükürov Pənah, Qasımov Ağababa, Eminov Səfdər mollanın iştirakı ilə yudular, kəfənlədilər, son və əbədi paltarını geyindirdilər. Şəkilə ananın dolabda əzizləyib oxşadığı paltarlar isə hələ də asılqandadır.

Axşamüstü hərbi "Ural" maşınında doğulduğu, boya-başa çatdığı Ucar rayonunun Bərgüşad kəndinə yola düşdülər. Gecə məsciddə qaldılar, ertəsi gün günortaüstü "Ural" kəndə yaxınlaşanda sanki möcüzə baş verdi, ağaclar baş əyib öz Şəhid oğluna "xoş gəldin" dedilər. Bütün kənd dünəndən ayaq üstə idi. Qoca kəşfiyyatçı gələnləri təmkinlə qarşıladı, həyətin bir küncünə çəkildi, baxışları səmaya sancıldı, elə bil o səsin sorağına çıxmışdı.

Daha heç nə danışmayacaqdı, nə özünün, nə də oğlunun müharibəsindən. "Müharibələr hamısı eyni olur,

hamısında barıt qoxusu, hamısında qapıları döymədən açan ölüm var" – deyə düşündü.

Şirvan pələngi yerlə üfüqün birləşdiyi nöqtəyə baxır, bəlkə də qeybə çəkilmiş Səməddən bir nişanə axtarırdı, bəlkə də onun səmaya səpilmiş əbədi çağırışını son dəfə eşitmək istəyirdi. Səma isə pambıq kimi ağ buludlarla örtülmüş, qoca kəşfiyyatçı ilə Səmədin harayının arasına keçilməz sədd kimi çəkilmişdi. Şirvan pələngi nərə çəkdi, oğlunun səsi ilə. Səs bütün üfüqə yayıldı, buludları silkələdi, şimşəklə töqquşub daha da gücləndi. "Səməd, ay Səməd! Ayə ölmüsən?"

Deyirlər həmin gün ağ yağış yağıb, qaranlıq düşənə qədər dayanmayıb. Bu yağış o günə qədər yağan bütün yağışlardan fərqlənib. Qoca veteran yağış kəsənə qədər yerində dayanıb üfüqdən gözlərini çəkməyib, səmaya göndərdiyi səsin ilahi cavabını gözləyib. Ağ yağış kəsəndən sonra əllərini hər şeydən üzüb, evə qayıdıb. Yatağına uzanıb, kimsəni görməsin deyə üzünü divara çevirib, əbədi yuxuya gedib.

* * *

Səməd üçün valideyinləri rəmzi qəbir qazdılar, təsəlli tapmaq üçün ilin təyin olunmuş vaxtlarında həmin qəbri ziyarət edirdilər.

Bir gün Mələk də onlarla birlikdə onun ziyarətinə gəldi, bir neçə ay əvvəl naməlum şəhid qəbrindən götürdüyü torpağı onun üstünə səpdi, hamı ağladı, Mələk də ağladı. Lakin hamı kimi saçını yolmadı, ağı deyib üzünü cırmadı. O yağışlı gün, selin ağuşundan xilas olunduqdan sonra ağladığı kimi için-için ağladı Mələk. O kimsəsiz küçədə onun çağırışına cavab vermədiyi üçün,

bu günə qədər özünü qınayır, hər dəfə həmin yerdən keçəndə Səmədin çağırışını eşidib elə əvvəlki tək qaçır. “Görəsən məni niyə çağırdı” – deyə düşünür.

Kənd camaatı Səmədin xatirəsini əbədiləşdirərək onun rəmzi qəbrini ziyarətgaha çevirdilər, kəndin girişində xatirə lövhəsini asdılar, barelyefini qoydular. Ətrafına qızılgüllər əkdilər, yamyaşıl park saldılar.

Günlərin birində yenə həmin vaxt olardı, həmin küçənin həmin yerinə çatanda, yenə Səmədin o gün onu çağırdığı amiranə səsini eşitdi. Özündən asılı olmadı, dayandı Mələk, dönüb səs gələn səmtə baxdı. Səməd elə həmin yerdə dayanmışdı. Əvvəlki məğrur qaməti ilə, qartal baxışı ilə ona baxırdı. Elə həmin yaşda idi Səməd, elə həmin hərbi geyimdə idi. Xatirə lövhəsinin önündə dayanıb əlindəki çiçəkləri düzürdü barelyefin önünə. Mələk yenə ilk gündə olduğu kimi qaçıb kəndin ən uca yerinə çıxdı. Filmdə gördüyü kimi haray saldı. “Ehe-e-he-hey! Əsgər gəlir. Səməd davadan qayıdıb, gözünüz aydın!” Səs dərələrdə əks-səda verib bütün kəndə yayıldı, hər evin qapısını döydü. Hamı onun harayını eşitdi, camaat onun səsinə əlini işdən ayırdı, kəndin girişinə Səmədin barelyefi qoyulan yerə baxdı, doğrudan da, gələn var idi. Hərbi geyimdə bir nəfər kəndin girişindəki Səmədin xatirəsinə ucaldılan abidənin yanında dayanmışdı, eynilə Səməd idi – boy-buxunu, yerişi-duruşu, qaməti ilə. Hamı ora axışdı.

Gələn Səmədin şəhərdə yaşayan oğlu idi, qohumlarını və atasının rəmzi qəbrini ziyarətə gəlmişdi.

Mələk də camaatın arasında idi, iyirmi il əvvəl olduğu kimi gözəlləşmiş, sanki o günlərə qayıtmışdı. Aralıda dayanıb gələn “qonağı” bir neçə dəfə başdan ayağa diqqətlə süzdü, onun Səməd olmadığını bilincə sakitcə dönüb getdi. Heç kəs görmədi onun getdiyini, bəlkə də

gördülər, amma fərqinə varmadılar. Hamının başı qarışmışdı gələn qonağa. Sanki bayram idi, hamı bir-birini qucaqlayır, təbrik edirdi, gələnlərin çoxu sona qədər bilmədi ki, gələn Səməddir, yoxsa onun müqəddəs yolunu davam etdirən oğlu.

Deyirlər o gündən Mələyi görən olmadı. Bəlkə də səsinin arxasınca getdi, bəlkə də qəlbinin dərinliyində daşa dönmüş ilk məhəbbətinin, bəlkə də quşqonmaz qayalarda, keçilməz dərələrdə qurda-quşa yem oldu, bəlkə də həqiqi "mələy"ə çevrilib qeybə çəkildi, bəlkə də...

Kəndin camaatı hər tərəfdə – dərələrdə, keçilməz meşələrdə onu axtardılar, tapa bilmədilər. Tapa bilməyincə hərə ağlına gələn bir fərziyə danışdı Mələk haqqında. Bu fərziyyələr ağızdan-ağıza gəzərək həqiqətən olmuş hadisə kimi təqdim olundu. Zaman keçdi, bu hadisə əfsanəyə dönüb yaddaşlara yazıldı. "Mələyin nağılı" kimi ağızdan-ağıza gəzdi.

# XIX FƏSİL

Bu il bizim üçün çox ağır il oldu, il başlayan kimi ağır döyüşlərdə şəhidlər verdik, sıralarımız seyrəlirdi yavaş-yavaş, hamının qanı qara idi, dünya gözümüzdə puç varlığa çevrilirdi, yalnız intiqam haqqında düşünürdük. Sanki bundan başqa bir dərdimiz yox idi. İntiqam almaq üçün canımızdan keçməyə hazır idik. Qarşıdakı sürprizlərdən xəbərsiz yaşayırdıq, əgər buna yaşamaq demək mümkün idisə.

Zaman keçdikcə itirdiklərimizin dəyərini anlamağa başladıq. Mirələmin, Adilin, Nazimin, Arifin, Fərruxun, Bünyaminin, Vaqifin, Albertin, Əhmədin, Miyamməddinin, Şövqiyarın yeri görünürdü aramızda. Əsgərlərimizdən Coşqun Muradov, İlqar Şindiyev, Rafiq Tağıyev, Gəray Əhmədov, Əsəd Əhmədov və başqalarının sıralarımızda olmaması bizi çox incidirdi.

Dünən bizimlə bir yerdə olanları görməyəndə sıxılırdıq, özümüzü çox zəif hiss edirdik və bu zəiflik hərtərəfli özünü biruzə verirdi.

Sanki hər birimizin başının üstündə bir "Zülfüqar" asılmışdı, haçalanmış qılınc hər an başımızı kəsib ayaqlar altına atacaqdı. Sanki bu torpaqların işğal olunmasında günahkar biz idik, bəzən biz özümüz də bunu belə düşünürük. Əslində isə bu heç də belə deyildi. Bir çox amillər var ki, bunlardan biri də içimizdəkilərin xəyanəti idi. İlahi bu çox dəhşətli idi. Üstəlik xəyanətkarlar, düşmənə casusluq edənlər, son anda bizi günahkar kimi göstərirdilər. Bir qarın tox, bir qarın ac olan, ayaqyalın, gülləsiz düşmən qarşısında dayanan Azərbaycan əsgəri, hərtərəfli silahlanmış rus ordusunun qarşısında

dayanaraq günahkar ola bilməzdi, O, əsil qəhrəman idi. Bunu birmənalı şəkildə qəbul etmək lazımdır.

Düşmənin təbliğat maşını isə dayanmadan işləyirdi. Arxa cəbhədə və öz içimizdə bizə qarşı normal olmayan münasibət formalaşdırır və bu bizim köksümüzə zəhərli xəncər kimi sancılır, döyüş ruhumuza mənfi təsir edir, övqatımızı tamamilə korlayırdı.

İndi düşünürəm ki, bizim qələbələrimizin sayını azaldan və hətta az olsa belə, onu dəyərdən salan da elə bu xəyanət idi, çünki xəyanətin olduğu yerdə uğurdan danışmaq olmaz.

Bu müharibə bizə müstəmləkənin və müstəqilliyin nə olduğunu öyrətdi, əsrlər boyu hansı formada olursa-olsun müstəmləkənin dövlətçiliyimizə, millətçiliyimizə vurduğu zaman-zaman sağalmayan yaraları göstərdi. Biz öz içimizə baxa bildik, daxilimizi görə bildik. Sapı özümüzdən olan baltaları ayıra bildik, erməniyə, rusa, farsa casusluq edənləri tanıya bildik. "Öncə Vətən!" "Vətən sağ olsun!" şüarlarını millətin və öz ruhumuza yeridə bildik.

Bizim milli xüsusiyyətlərimiz, mentaritetimiz, bizə irsən keçən bir çox məxsussiyyətlər vardır ki, onları dəyişmək mümkün deyil, bunlar bizim genimizdə, qan yaddaşımızda, sümüyümüzün içindəki ilikdə deyil, biz dəyişmək istəsək belə bunu dəyişə bilmərik. Məsələn, biz heç bir zaman erməni, rus, fars və ya qeyri bir millət ola bilmərik, çünki bizim ruhumuzda yalnız türkə məxsus bir xislət var. Bəli, məhz ruhumuzdadır bu xislət, əgər canımızda, qanımızda, genimizdə olsaydı, onu boğmaq, məhv etmək, qoparıb atmaq mümkün olardı, lakin ruhumuzda olduğu üçün onu məhv etmək mümkün deyil. Bu Yaradanın biz türklərə bəxş etdiyi ən böyük mükafatdır. Bu xislət bizi bir-birimizə, ailəmizə və torpağımıza bağlayır. Dünyanın digər xalqları bunu

gözəl bilir və min illər ərzində bu xisləti bizdən qoparmaq istəyirlər.

Əsrlərlə bizi özümüzdən uzaqlaşdırmaq üçün, ruhumuzdakı bu xisləti qoparmaq, məhv etmək üçün nələr etməyiblər. Hələ yeddinci əsrdə o dövr üçün dünyanın ən böyük dövlətləri öz bilicilərini bu gün bizim yaşadığımız bu məkana göndəriblər. "Onlarla birgə yatın, durun, birgə yaşayın, öyrənin bu milləti, nədir bu millətdəki qeyri-adilik," – deyə göstəriş veriblər. Misirdən, Fransadan, Britaniyadan, Prusiyadan, Skandinaviya ölkələrindən Çindən gələn missionerlər bir müddət sonra məktubla öz hökmdarlarına bildirirlər."Biz elə bir yerdəyik ki, burada mələklər doğulur, mələklər ölür. Bu torpaqda yaşayanlar xəstəlik nə olduğunu bilmir. Bunlar bizim kimi adi insanlar deyil. Zaman gələcək bu insanlar dünyaya hakim olacaqlar."

Dünyanın on iki ölkəsinin missionerləri təxminən eyni mövzuda məktubla öz hökmdarlarına müraciət edirlər. Bununla da türklərin üzərinə elan olunmayan müharibə başlayır. Müxtəlif cür, tərkibi heç kimə məlum olmayan peyvəndlərlə, məqsədyönlü şəkildə başqa millətlərdən olan qadınlarla ailə həyatı qurmaqla, bu ölkə bazarına idxal olunan qidalarla, bizə məlum olmayan daha neçə üsullarla millətin genefondunu dəyişməyə çalışıblar. Lakin başa düşmürlər ki, bu xislət heç də bizim qanımızda, canımızda, genimizdə deyil, bu xislət bizim ruhumuzdadır, ruh isə yalnız bizi Yaradana məxsusdur.

Türkün ən böyük dostu da, düşməni də türkdür. Bunu tarix sübut edir.

* * *

Uzun illərdən sonra çətinliklə olsa da bir yerə toplana bilmişdilər. Üç Qarabağ qazisi həyətdə samovar

yandırıb masa ətrafında oturmuşdular. Sanki danışmağa sözləri yox idi. hər üçü bayaqdan keçmiş xatirələrə dalmışdılar. Samovarda yanan meşə odununun çartıltısından və ətrafda sanki bir-biri ilə yarışan cırcıramaların səsindən başqa heç nə eşidilmirdi. İsmayıl masadan qalxıb səmaya baxdı. Səma böyük bir sinini, ay və ulduzlar isə sininin üstündəki zərli bəzəkləri xatırladırdı.

– İlahi! Yaratdıqlarına şükürlər olsun. Sən hər şeyi gözəl yaradırsan. – deyə pıçıldadı. Geriyə, yoldaşlarına tərəf döndü. – Bir də bu gözəlliyi görə bilməyəcəyik, gəlin, baxın.

Ağababa ilə Elxan da qalxıb onun yanına gəldilər. Səma doğrudan da adamı valeh edirdi.

– Lap o günləri saldı yadıma, Şuşada da səma belə gözəl olardı. – Ağababa yanığlı səslə dedi.

Yenidən dərin sükut çökdü. Sükutu pozmaq üçün Elxan radionu qoşub açıq pəncərəyə qoydu. Radioda hansısa diktor şeir deyirdi. Səs adamın qanına hopub bütün əzalarını dolanır, ruhuna hopub insanı cuşa gətirirdi

Zülmün topu var, gülləsi var, qələsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma günəşdən, nə qədər nuru qaralsa,
Sönməz əbədi, hər gecənin gündüzü vardır.
Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa ey sevgili millət yaşa var ol!

– Eh h! Daşı qaldırırsan altından zülmə, ədalətsizliyə qarşı yazı çıxır. Dünya şərin, haqsızlığın, ədalətsizliyin içində boğulur.

Elxan samovara odun ataraq deyinməyə başladı. Bədirlənmiş ay və sayrışan ulduzlar isə göy üzünü hələ də əvvəlki kimi bəzəyirdi.

# EPİLOQ ƏVƏZİ

*Türklər heç vaxt döyüşdə məğlub olmazdılar,*
*əgər öz millətindən olan qadınlar ilə evlənsəydilər.*
**Çingiz xan.**

“Arxalı köpək qurd basar” deyib atalar. Doğrudan da bu belə imiş. Ermənilər bütün dünyanı aldadaraq öz yalan tarixlərini diktə edir, fahişə qadınlarının hesabına dünyanın və bölgənin hegemon dövlətlərinin, xüsusən də Rusiyanın və İranın vasitəsilə qədim türk torpaqlarında məskunlaşırlar. Zaman-zaman bu proses gedir və anbaan sürətlənir.

İki yüz il bundan öncə min səkkiz yüz on üç, min səkkiz yüz iyirmi səkkizinci illərdə Rusiya və İran Azərbaycanı öz aralarında iki yerə böldülər. Lakin təcavüz bununla bitmədi. Ötən əsrin əvvəllərində şimali Azərbaycanın böyük bir hissəsini – İrəvanı, Zəngəzuru, Göyçəni, Borçalını və Dərbəndi işğal etdilər, Azərbaycanın tərkibindən qoparıb Ermənistanın, Gürcüstanın və Rusiyanın tərkibinə qatdılar. İndi isə, iyirminci əsrin sonunda Qarabağı və Azərbaycanın iyirmi faizini işğal etdilər.

Dünyada Azərbaycan kimi parçalanmış bir neçə dövlət var. İyirminci əsrin ortalarında parçalanmış Almaniya əsrin sonunda Rusiyanın təsir dairəsindən çıxaraq yenidən birləşdi. Koreya və Azərbaycan kimi

dövlətlər isə hələ də bu təsir dairəsində olduğu üçün parçalanmış vəziyyətdədir.

Orta əsrlərdə Şah İsmayıl Xətainin və Nadir şah Əfşarın qurduğu dövlətdən indi kiçik bir hissə qalıb. Bunun da səbəbləri var. Biz bu səbəbləri bilərək yenə də özümüzü dərk edə bilmirik, daha doğrusu bizim özünü dərketmə qabiliyyətimizi korlaşdırıblar. Onun sayəsində bu gün növbəti dəfə işğala məruz qaldıq.

Ruslar dayanmadan Azərbaycan kəndlərini işğal edir, əsir düşən mülkü əhalini ermənilərin düşərgələrinə göndərirlər, burada isə onları dünyada analoqu olmayan, sonu ölümlə nəticələnən böyük bir əzab gözləyir, xüsusən də hərbi geyimdə olanları bir neçə gündən sonra sorğu-sualsız güllələyirlər. Əsirlikdən qurtaranlar verilən işgəncələrdən sonra demək olar ki, cəmiyyətə yararsız olurlar.

Qarabağ müharibəsində dünya müharibələrindən ən dəhşətlisi kimi tarixə düşən İkinci Dünya müharibəsində belə ağıla gəlməyən əzablar tətbiq edilir. Rus və fars alimlərinin nəzarəti ilə azad edilən əsirlərə xüsusi dərman praparatları verilir, peyvəndlər vurulur və onlar azadlığa çıxandan bir müddət sonra ya ölür, ya da ömrünün sonuna kimi ağır xəstəlikdən əzab çəkirlər. İnkişaf etmiş ölkələrə əsir düşənlərin orqanları dəyər-dəyməzinə satılır. Bununla da onlar, həm yeni dərmanlarını sınaqdan keçirir həm də yeni müstəqillik qazanan Azərbaycan dövlətini özünə tabe etdirmək üçün bütün vasitələrdən istifadə edirlər. Dünyada hərtərəfli təklənmiş Azərbaycan isə onların qarşısında acizdir.

Əsrlər boyu başımıza gələn müsibətlərin kökündə Rusiya və İran dayanıb ki, onlar da Azərbaycanı daim zəiflətmək üçün ermənilərdən sadiq köpək kimi istifadə ediblər. Ötən əsrin əvvəllərində olduğu kimi, Azərbay-

canda yaşayan azsaylı xalqlardan – ləzgi və talışlardan istifadə edərək bizi daha da parçalamaq niyyətinə düşdülər. Lakin Rusiya və İran hökuməti yaxşı bilməlidirlər ki, bu oyunların da sonu olacaq.

Torpaqlarımızın düşmən tərəfindən işğalında bizlərin də "rolu danılmaz"dır. Qarşımızdakı düşməni layiqincə qiymətləndirə bilmədik, kiminlə müharibə etdiyimizin fərqinə varmadıq. Rusiya və İran kimi dövlətlərin başımızın altına yastıq qoyub ermənilər tərəfində olduğunu dəyərləndirmədik. Böyük itkilərlə azad olunmuş torpaqlar ayrı-ayrı qrupların bir-biri ilə apardıqları kiçik münaqişənin hesabına müdafiəsiz qaldı. Bir-birimizdən küsdük, ön xətdən geri çəkilib səngəri boşaltdıq. Öz suyumuzu kəsib ermənininin, rusun, farsın dəyirmanına su verdik. Xarici kəşfiyyat orqanlarının illərlə apardığı işlər öz bəhrəsini verdi.

Əgər biz bu dövlətin hər ikisi ilə eyni zamanda hərtərəfli müharibə etsəydik, nə bu dərəcədə itkilərimiz olardı, nə də torpaqlarımız uzun illər işğal altında qalardı. Güya bizə kömək etmək istəyənlərə, başımızın altına yastıq qoyanlara baxın. Kimlərdir onlar? Yeddinci əsrdəki həmin dövlətlər deyildirmi? Dolayısı ilə elə həmin dövlətlərdir və elə həmin missiyanı yerinə yetirirlər. Mən buna əminəm.

Özlərini mələk cildinə salmış şeytan sifətli Rusiya və İran içimizdə olan casusların hesabına son anda öz süngülərini kürəyimizə sancdılar, ermənilərlə birləşərək bölgədə bizi təklədilər. Silahsız, ayaqyalın, bir qarın ac, bir qarın tox yeni yaranmış Azərbaycan ordusunu hərtərəfli üstələdilər.

Sovet rejiminin bütün fırıldaqlarını keçmiş, tipik sovet tərbiyəsi görmüş, yalan və oğru psixologiyası ilə yaşayan bizlərlə, dünyanın iki böyük imperiyasına

qarşı döyüşmək çox çətin idi. Bu imperiyalar və onun başında duranlar bunu gözəl bilirdilər. Onlar yüzillərlə öz müstəmləkələrində olan bizim kimi millətlərin psixologiyasını dəyişərək genefondunu və ən əsası isə müstəqil dövlətçilik ənənələrini məhv etmişdilər. Bunları bərpa etmək üçün yüzillər lazımdır.

Təsəvvür etmək belə dəhşətlidir. İki imperiya bir millət iki yerə parçalayır, bir müddət sonra ikiyə parçalanmış bu millətin biri çətinliklə də olsa müstəqillik əldə edir, öz müstəqilliyini, bütövlüyünü qorumaq üçün hər iki imperiyanın onun üçün hazırladığı məkrlərə qarşı müharibə aparır, minlərlə şəhid verir. Təəssüf, çox təəssüf ki, ikinci yarıya bölünmüş daha böyük cənub hissəsindən isə bir nəfər belə köməyə gəlmir.

Axı biz eyni millətik, axı biz qardaşıq, işğal olunan torpaqlar bizim hamımızındır, axı bizi simvolik olaraq yalnız Araz adlı bir çay ayırır. Görəsən, bu çayı keçmək, öz qardaşına kömək etmək, tarixi torpaqlarımız uğrunda döyüşə atılmaq, hətta bu amal uğrunda şəhid olmaq o qədər çətindirmi? Nədir bu biganəlik, bir-birimizə qarşı soyuqluq, tarixi torpaqlarımıza sahib olmamaq? Nədən və haradan qaynaqlanır bunlar görəsən? Mən əminəm ki, Arazın o biri tayında eyni bu hal baş versəydi, biz heç nəyə məhəl qoymadan qarşımızda olan sərhədləri aşar, güneyli qardaşlarımıza köməyə gedərdik.

Ey, ahıl veteran! Sən nə qədər qoca və çox bilmiş olsan da, dünya səndən daha üstündür, özünü boş yerə yorma, gərdişindən baş açmazsan bu dünyanın. Üstü zərli, altı şərli dünyadır bu. Zərinə baxmaqla zövq alarkən, şərindən yaxa qurtara bilməzsən, inan. Bal kimi şirin suyu, zəhər kimi havası var, bir düyünü, min yası var bu dünyanın. Kələyindən baş açsan da, ələyində dayana bilməzsən, sonu görünməyən bir zülmətdir axırı. “Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya...”

Lakin bu zülmətin lap sonunda, göyün yerlə birləşdiyi üfüqdə, parlaq bir cüt işıq var. O işıq türklərin əcdadı sayılan boz qurdun zülmətdə parlayan gözlərini xatırladır. Bizi döyüşdən döyüşə aparan, ruhlandıran da elə bu bir cüt işıqdır. Boz qurdun davamçıları ruhlarındakı Yaradanın onlara bəxş etdiyi xislətin sayəsində qiyamətə qədər yaşayacaq, Yaradanın onlara bəxş etdiklərinə daim sahib olacaqlar.

**SON**

# RƏNGSİZ ÖLÜM

POVEST

*"Dünya rənglərdən, istilik
və işıqdan ibarətdir."*

**Vladimir Bartol**

*Əziz dostum, komandirim birinci*
*Qarabağ müharibəsində sağlamlığını itirən*
***Əkbər Muradova***
*ithaf edirəm.*

# I FƏSİL

Yer üzü canlanmağa başladı... Hər şey yenidən yaranırdı sanki. Ən azı düşüncələr tam şəkildə dəyişirdi. Belə bir zamanda dünyaya gəlmək, onun törtöküntüləri ilə bir ömür oynamaq kimi bir şeydi. Dünyadan getmək də asan deyildi, nə gəlişi nə də gedişi bir şey deyildi deyəsən, gəlişi necə idisə, gedişi də elə idi.

Onun taleyi də belə idi. Dərdini deməyə də qorxurdu. Bilirdi ki, başlasa danışmağa ətrafındakılar hamı xorla onu qınamağa başlayacaq. Əlbəttə, xorla... Hərə bir tərəfdən bostanına daş atacaq, "kimdən artıqsan balam, biz yedik sən qaldın? Hamı necə sən də elə də..." deyənlərin sayı, üzdə susub arxasınca danışanların sayından çox olacaq.

Ancaq o, hamı kimi ola bilmirdi, ətrafında kiçik bir haqsızlıq olduqda bomba kimi partlayırdı. Çox zaman səsini çıxara bilməsə də içində çəkirdi, onun üçün də daxili darmadağın idi. Daxilindəki mən artıq yox idi, çoxdan ölmüşdü. Atası ilə birlikdə ölmüşdü. Kiçik həyətlərindəki ilbəil kiçilən, kiçilə-kiçilə kötüyü qalan tut ağacı ilə birlikdə qurumuşdu. Bəlkə də ona elə gəlirdi. Bəlkə də... O, heç özü də dəqiqliklə bilmirdi bunu.

Səma qapıdan çıxanda iki daş hündürlikdə olan daş pilləkənin üstündə donub qaldı. Xəyal onu çox da uzaq olmayan keçmişinə – atasının sağ olduğu vaxtlara apardı. Acı xatirələr bir anda illəri geri qovdu. Sanki pillələrin üstündə Azərbaycan Tibb Universitetinin birinci

kurs tələbəsi deyil, doqquz yaşlı balaca Səma dayanmışdı. O zaman atası pillələri düşəndə arabadan yıxılmışdı...

Qız əli ilə torpağı tumarladı, ona elə gəldi ki, atasının ətri hələ də torpaqdadır, əyilib o zaman sıyrılıb qanayan sol yanağını həmin yerə qoydu. Atasının ətrini torpaqdan alırmış kimi dərindən nəfəs aldı. Gözləri həyətin ortasında quruyub kötüyü qalan tut ağacına sataşdı. Həmin gün olduğu kimi hönkür-hönkür ağladı. Qurumuş kötüyə yaxınlaşdı. Əlləri ilə onu oxşadı, qeyri-iradi pıçıldadı.

"Necə də vəfalısan, aman Allah!.. Sən insan da olsaydın, belə olardın yəqin. Bəlkə də atamı ən çox sən sevirdin. Onun ayrılığına dayana bilmədin. Tənhalaşdın, xiffət çəkdin... Bəlkə də insan olsaydın elə bizim kimi olardın. Biganə, unutqan..." Göz yaşları onu boğdu, danışa bilmədi, ürəyində nə qədər atasına deyəcəyi sözləri vardı. Atasının yoxluğunda dərdini kötüklə bölüşmək istəyirdi.

Səma əslən işğal altında olan rayonlardan birindən olsa da, Bakı ətrafı kənddə doğulmuşdu. Sadə ailələri var idi. Kasıb yaşayırdılar, bir otaqlı kiçik evdə.., əgər buna ev demək mümkün idisə... Atası beş il idi ki, dünyasını dəyişmişdi, birinci Qarabağ müharibəsi əlili idi, onurğasından güllə yarası almışdı, qurşaqdan aşağı ətrafları işləmirdi.

Zatən bütün ailənin yükü anasının üstündə idi, yazıq ana gecə-gündüz çalışırdı, amma ortada heç nə yox idi.

Atası dünyasını dəyişəndə on üş yaşı vardı, artıq hər şeyi dərk edirdi. Hər dəfə balaca həyətlərində qurumuş tut ağacının kötüyünü görəndə, atasını xatırlayırdı. O zaman bu kötük gur yarpaqlı, yamyaşıl idi.

* * *

Hava bir az yaxşı olan kimi köhnə, sınıq, təkərləri əyilib özü kimi əldən düşmüş, cırıltılı əlil arabasında evdən çıxar, tut ağacının altında dayanardı atası, hava qaralana kimi evə dönməzdi. Yaddaşında, arabir görüşünə gələn döyüş yoldaşları ilə tut ağacının altında oturub uzun-uzadı söhbət etdikləri, deyib güldükləri qalmışdı. Əslində bu çox nadir hallarda olardı və Səma atasının bu insanlar üçün darıxdığını hiss edərdi. Onların hamısının üz cizgiləri balaca Səmanın yaddaşına həkk olmuşdu.

Cahandar Qarabağ uğrunda ilk döyüşənlərdən biri idi. Azərbaycan Ordusunun ilk zabitlərindən idi. O, ətrafındakılarla birlikdə əlinə silah alıb düşmən qarşısında dayananda Azərbaycan təzə-təzə müstəqilliyə doğru addımlayırdı, əlil arabasına möhtac olanda hələ Azərbaycanda Müdafiə Nazirliyi yaranmamışdı.

Cahandar sanki bu dünyadan küsmüşdü, bu dünyada yaşayan insanlardan küsmüşdü, bütün ətrafdakılara, hətta öz yaxınlarına belə nifrət etdiyi açıq-aydın hiss olunurdu. Kəndlərinin və bütün Qarabağın işğalının günahını onlarda görürdü. Onun fikrincə: "Əgər torpaqları işğal altında idisə, deməli hamı ən azı onun kimi əlil olmalı idi. Bu gün hər evdə ən azı hərbi geyimli bir kişi olmalıdır. Torpağı düşmən tapdağında olan kişi, kücələrdə qadın paltarı satmamalıdır. Əli, ayağı üstündə olan sağlam bir cəmiyyətin başına belə müsibətlər gələ bilməz. Axı necə ola bilər ki, sağlam olasan, əlin-ayağın üstündə ola, ev-eşiyini, qəbirlərini, torpağını, müqəddəs olan nəyin varsa düşmənə təslim edib qaçqın damğası altında yaşayasan? Qız-gəlinlər əsirlikdə əzab

çəkə, isti yorğan döşəkdə rahat yatasan? İanələrlə dolanasan!" O, bunu heç cür qəbul edə bilmirdi. Bütün günü əsəbi halda gözlərini yumub tut ağacının altında düşünürdü.

Yaralanandan sonra bir neçə dəfə çətinliklə olsa da, dövlət idarələrin qapısına getməsinə baxmayaraq, müsbət heç nəyə nail ola bilmədiyi üçün bir daha getmədi. Qanuni olaraq düşən təqaüd əvəzində cüzi məbləğdə təqaüd verdilər ona. Ilk dəfə döyüşdə ölmədiyinə heyfsiləndi, onu xilas edənlərə daxilən qəzəbləndi. Aldığı təqaüd dərmanlarına da bəs eləmirdi.

Bu bəlkə də onun sağlamlığını itirməsi ilə əlaqəli idi, hər halda Səma belə düşünürdü. Təkcə döyüş yoldaşlarını görəndə üzü gülür, eyni açılırdı. Bu da müvəqqəti olurdu.

Cahandar cüssəli adam idi, əzələli çiyinləri, uzun qolları, qalın barmaqları əvvəllər fiziki cəhətdən güclü olmasından xəbər verirdi. Yaralandıqdan sonrakı passiv, oturaq həyat çəkisinin daha da artmasına, bədəninin daha da şişmanlaşmasına səbəb oldu.

Ölümünə bir il qalmış ağrıları daha da şiddətləndi və Cahandar qısa bir müddətdə şam kimi əridi, hətta tanınmayan hala düşdü. Ziyarətçiləri də azaldı. Daha əvvəllər olduğu kimi döyüş yoldaşları da gəlmirdilər. Indi yeganə həmdərdi kiçik həyətdəki qocaman tut ağacı idi, hamıdan vəfalı tut ağacı. Saatlarla onun kölgəsində oturmaqdan yorulmazdı. Hətta atasının ağacla dərdləşdiyinin də şahidi olmuşdu Səma.

Balaca Səma, hər şeyi başa düşür, atasının belə bir vaxtında, təklənməsini, özünə qapılmasını heç cür qəbul edə bilmirdi. Onu bu vəziyyətdən qurtarmaq üçün dünyada çox şeydən keçərdi Səma. Lakin əlindən də heç nə gəlmirdi.

Ailənin maddi durumunun yaxşı olmaması, yalnız atasının az miqdarda olan təqaüdü və anasının çox cüzi qazancı ilə dolanmaları düşdükləri vəziyyəti daha da ağırlaşdırırdı. Anasının işləməsi ilə əlaqədar atasına qulluğunda dayanmaq və evin bütün işləri onun üzərinə düşürdü. Səhər açılandan hava qaralana kimi ayaq üstə oludu. Arabir iş görə-görə düşünürdü ki, nə yaxşı evləri bir otaqdan ibarətdir...

Atası bacardıqca ondan asılı olmamağa çalışırdı. Lakin daima onun yanında kiminsə olması vacib idi. Elə bu ərəfədə baş verən o dəhşətli hadisə onun uşaq yaddaşına əbədi yazıldı.

Səma doqquz yaşı olarkən yaxınlıqdakı dükana çörək almağa getmişdi, o günü heç zaman unuda bilməyəcəkdi. Dükanda növbə olduğu üçün ləngimişdi, həyət qapısından içəri daxil olarkən, atasının evdən çıxan zaman iki daş hündürlükdə olan pilləkəndən yıxıldığını, yerdə zarıyaraq köməksiz qaldığını görəndə sanki göy başına uçmuşdu. Baxışları bir anlıq atasının çarəsiz baxışları ilə toqquşmuşdu, körpə ürəyi param-parça olmuşdu, qışqırmaq, kimisə köməyə çağırmaq istəmişdi, lakin səsi boğazına ilişib qalmışdı. Əlindəkiləri atıb atasına tərəf qaçmışdı, həyəcandan ayaqları dolaşmış, üzü üstə yerə dəymiş, sol yanağı daşa dəyib sıyrılmışdı. Yenidən durmuş yerdə köməksiz halda zarıyan atasına tərəf qaçmışdı. Ancaq doqquz yaşlı bir uşaq nə edə bilərdi ki.., çarəsizlikdən atasını qucaqlayıb hönkür-hönkür ağlamışdı. Indi hər dəfə güzgüyə baxanda sol yanağındakı çapıqla həmin günü xatırlayırdı.

Cahandarın iynələrini qonşu Məsmə arvad pulsuz vururdu, bəzən iynə-dərmanı da özü ilə gətirirdi. Bəzən onların maddi durumunun ağır olduğuna görə dərmanları öz pulu ilə aptekdən alır, bəzən də başqa xəstələr-

dən artıq qalanları gətirib gəlirdi. Əvvəllər tibb bacısı işləmişdi, təqaüdə çıxdıqdan sonra demək olar ki, bütün kəndə həkimlik edirdi. Belə günlərin birində Səmanı yanına çağırdı

– Səma, ay bala, gəl bax öyrən. Burda çətin heç nə yoxdur, əzələdaxili iynələri özün də vura bilərsən.

– Qonşu, deyirəm inşallah Səma oxuyub həkim olar, mənim müalicəmi də pulsuz edər. O zaman yəqin ki, tibb elmi daha yaxşı inkişaf edər – deyə Cahandarın kobud səsi eşidildi.

– Niyə də yox. Hansı həkim bu gözəl baladan artıqdır ki?.. Bir də ki, səni elə indi də pulsuz müalicə edərlər də...

Cahandar susdu. Balaca Səma atası tərəfindən boynuna qoyulan yükün ağırlığından sanki bir az da balacalaşdı.

O gündən Səma atasının şəxsi həkimi oldu. Atası onun bütün naşılıqlarına dözür, hər dəfə iynələrdən sonra ağız dolusu tərifləyirdi. Bu, balaca qızcığazı daha da fərəhləndirir, daha ürəkdən bağlayırdı bu peşəyə. Bəzən özünü təcrübəli həkim kimi hiss edirdi.

– Deyirəm, qalmışdım Məsmə arvadın əlində, zalım qızının gözləri də yaxşı görmürdü, iynələri necə gəldi vururdu. – Dönüb intizarlı baxışlarla qızına baxdı, sanki neçə illərin minnətdarlığını bildirirmiş kimi ürəyindəkiləri üzə çıxardı. – Çox sağ ol, ay qızım, yaxşı ki, sən varsan...

Səma bilirdi ki, bu təriflər onu fərəhləndirmək üçündür, çünki Məsmə arvadın gözlərindən şikayəti yox idi, hətta olsaydı belə, iynə vurmaq onun üçün heç bir çətinlik yaratmazdı. Səmanın çətinliklə vurduğu iynələri Məsmə arvad gözləri bağlı vura bilərdi. Hər necə olsa da bu komplimentlər ona yeni ruh verirdi. Bəlkə də

bu gün yüksək balla tibb universitetinə daxil olmasında atasının həmin təriflərinin böyük rolu olmuşdu...

– Səma sən hələ də burdasan, bəs məktəbə getmədin?...

Anasının səsi qızı əzəz xatirələrindən ayırdı, əlini qurumuş kötüyün üstündən çəkdi heç nə demədən həyət qapısına tərəf getdi.

# II FƏSİL

Cahandar min doqquz yüz səksən səkkzici ildə Çingiz İldırım adına Politexnik İnstitunu fərqlənmə diplomu ilə bitirib doğulduğu kəndə qayıtdı. Təyinatını öz xahişi ilə rayon tikinti idarəsinə mühəndis vermişdilər. Başqa əlacı da yox idi, artıq saçlarına dən düşmüş anasının və özündən kiçik bacısının yanına qayıtmalı idi. O, ailənin böyik oğlu və yeganə kişisi idi, atası iki il öncə maşın qəzasında dünyasını dəyişmişdi.

Bu hadisə ilə onun həyatında çətin günlər başlandı. Indi ailənin bütün yükü onun üzərində idi. Atasının vəfatından sonra Cahandar təhsilini yarımçıq saxlamaq istədi. lakin anasının və yaxınlarının təkidi ilə davam etdirməyə qərar verdi. Cahandar atasının yoxluğunda ailə başçısının ailədəki rolunun necə də əvəzedilməz olduğunu anladı. Valideynin övlad üçün dəyərsiz varlıq olduğunu dərk etdi.

O, işə başladığı vaxtda artıq Sovet dövlətinin özülsüz sütunları titrəməyə başlamışdı. Şovinist ermənilər ruslardan vəd alaraq, Qərbi Azərbaycandan – qədim İrəvan mahalından minlərlə azərbaycanlıları doğma torpaqlarından didərgin saldıqları azmış kimi, indi də Qarabağda baş qaldırmışdılar. Rusiya və İran açıq-aydın onlara havadarlıq edirdi. Azərbaycanda isə hakimiyyət uğrunda çəkişmələr günü-gündən artmaqla geniş vüsət alırdı. Bu gündən sabaha ümid yox idi, insanlar gecələr səksəkədə yatırdılar, gecələrin müdhiş

qaranlığından sonra, səhərin hansı sürprizlərlə açılacağını kimsə bilmirdi.

Qış son nəfəsini dərib yavaş-yavaş qarşıdakı dağların zirvələrinə doğru çəkilirdi. Bahar isə ilk nəfəsini torpağa verməyə başlamışdı. Həmişə olduğu kimi hər tərəf yam yaşıl örtüyə bürünməyə başlayırdı. Camaat öz işində idi, kimi əkin sahələrini hazırlayır, kimi də həyətyanı sahəsində bostan üçün yer şumlayırdı.

* * *

Şənbə və bazar istirahət günü olduğu üçün Cahandar yuxudan gec oyandı, artıq günəş şəfəqlərini hər tərəfə yayıb qışdan çıxmış torpağı isitməklə məşğul idi. Adəti üzrə hər gün hamıdan tez oyanan və hamıdan gec yatan Telli ana bu gün də ertədən oyanıb həyətin bütün işlərini gördü. Həyətdə işləyə-işləyə şübhəli adamlar kimi tez-tez dönib eyvana baxır, oğlunun oyanmasını bilmək istəyirdi.

Cahandar eyvana çıxdı, idman edirmiş kimi qollarını yana açıb bədənini sola-sağa döndərdi. Anasına tərəf dönüb boğuq səslə səsləndi.

– Sabahın xeyir, ana.

Səsdən ana diksindi, bu Cahandarın gözündən qaçmadı, anasını qorxutduğuna görə ürəyində özünü qınadı da.

– Hər vaxtın xeyir olsin, oğul. Yaman çox yatdın, gün günortadır. Bayaqdan neçə kərə oyatmaq istədim, ancaq qıymadım.

Ana oğlunun hündür boyuna, cüssəli bədəninə baxdı, daxili qürur hissi ilə doldu. "Eynən atasıdır" deyə düşündü.

– Bayaqdan oyanmışam, bir də iki gün istirahət günümdür, erkən durub neyləyim. Gülər hardadır, yatır?..

– Anası ölmüş mənnən eyni vaxtda oyanıb, odeey çəpərin başında.., bir az əvvəl qonşunun qızı İradə çağırdı.

Ana İradənin adını bilərəkdən vurğuladı və bu zaman gözləri oğlunun üzünə dikilmişdi. Cahandar həyətdə atasının sağlığında qurduğu əlüzyuyana tərəf gedirdi. Iradənin adını eşidib dayandı, fikrə getdi.

Cahandar İradəni görmüşdü, qonşu Kərəmin qızı idi. Kərəm kişi kənddə hamının işinə yarayan, mehriban, həlim xasiyyətli, orta boylu arıq bir adam idi. Atasının sağlığında münasibətləri çox yaxın olmuşdu, tez-tez gah bu həyətdə, gah da onların həyətində ən azı çay süfrəsində otururdular. Atası öləndən sonra elə bil Kərəm də öldü. Nə həyətdə göründü nə də küçədə. Sonuncu dəfə atasının hüzür məclisində görüşmüşdülər. Həyat yoldaşı Tamam xala isə o vaxtdan sonra gündə iki dəfə onlara baş çəkib hal-əhval tuturdu. Sən demə, qadın elə Kərəm kişinin tapşırığını yerinə yetirirmiş. "Arvad, mənim bundan sonra onlara getməyim düz gəlməz, sən hər gün onlara baş çək, nə çətinlikləri olsa maraqlan. Gərək onları da qoymayaq korluq çəkməyə. Vallah bu dünyada yaxşılıq qalacaq. Bir də ki, yaxşı düşməz, kişiylə tonlarla çörək kəsmişəm."

Nədənsə son günlər İradə ilə tez-tez qarşılaşırdılar. Iradə Gülərlə bir sinifdə oxuyurdu, arıq, orta boylu, əsmər bir qız idi. Mavi gözləri, uzun kirpikləri onu daha da cəzbedici edir, gözəlliyini artırırdı. Qız hər dəfə onunla qarşılaşanda yanaqları allanır, baxışlarını yerə dikib gözlərini gizlədirdi. Cahandara elə gəlirdi ki, qız belə hallarda kirpiklərinin arxasında gizlənə bilər.

Kəndləri rayon mərkəzinə yaxın olduğu üçün hər

gün işə piyada gedib gəlirdi. Bir gün də Cahandar fikirli halda işdən qayıdan zaman evlərinin yaxınlığında üz-üzə gəldilər, həmişə olduğu kimi İradə başını aşağı salıb keçəndə astaca, sanki özünə verirmiş kimi salam verdi. Qızın həzin səsi, bütün fikirlərini alt-üst etdi, ruhunu oxşadı. Dayanıb ötüb keçən qızın arxasınca baxdı, özündən asılı olmadan hökmlü bir səslə:

– Dayan! – dedi.

Qız dayanıb geri döndü.

– Sən Kərəm dayının qızısan? – Bu dəfə səsi bir az yumşaldı.

Qız cavab vermək istədi, həyəcandan səsi tutuldu, başını irəli-geri hərəkət etdirməklə təsdiqlədi. Sifəti od tutub yanırdı, bütün qanı yanaqlarına yığılmışdı, sanki ürəyi gözlərində və qulaqlarında döyünürdü.

– Adın nədir?

Qız ağzını açıb yumdu, adını demək istədi, sanki dilinin yerində ağır daş parçası idi, onu yerindən tərpətməyə gücü çatmadı. Həyəcandan boğazı qurudu, başı hərləndi, gözləri qaraldı. Elə bil uzaqdan, qarşıdakı dağların arxasından Cahandarın səsini eşitdi.

– Evdə salam deyərsən.

Bütün gücünü toplayıb başı ilə təsdiqlədi, geri dönüb ayaqları dolaşa-dolaşa evlərinə tərəf qaçdı. Cahandar hələ də yerində durub onun getdiyi istiqamətə baxırdı, daxilində başa düşmədiyi bir hiss oyanmış, bütün duyğularını keyləşdirmişdi.

– Qaqaş, burda niyə dayanmısan?

Səsə diksindi, Gülər idi, dili dolaşa-dolaşa kəkələdi. Elə bil cinayət üstündə tutulmuşdu.

–Mə-mən?.. İşdən gəlirəm... – özünü ələ verdiyini başa düşdü, fikrini cəmlədi, – sən burda neynirsən, başımın bəlası? Məni güdürdün?

Artıq gec idi, Gülər hər şeyi başa düşmüşdü. Hiyləgərliklə gülərək qardaşının qoluna girdi.

– Deyəsən evin yolunu itirmisən, mən səni apararam.

Ərklə onun qolundan tutub evə sarı dartdı. Cahandar bacısına tabe olub sakitcə onun yanına düşdü. Həyətə çatanda birdən-birə dayandı, bacısının qolundan tutub yalvarırmış kimi dedi.

– Gülər, söz ver ki, bu barədə heç kimə deməyəcəksən.

Bacısı hiyləgərcəsinə güldü, qürurlu qardaşını bir az da yalvartmaq istədi. Lakin yalvarışlı baxışlarını görüb fikrindən vaz keçdi.

– Sənə qurban olsun hamısı, elə mən Gülər bacın da... – sonra qınaq dolu gözlərini onun üzünə dikdi. – Səni belə zəif bilməzdim, burda nə var ki...

* * *

– Nə fikrə getmisən, Cahan? Dilim qurusun, xəstə deyilsən ki?... Tez gəl yeməyin soyuyur.

Cahandar səsə diksindi, tez də özünü ələ aldı. "Son vaxtlar mənə nə olub, hər şeydən hürkürəm?" deyə düşündü. Amma onun bu halı anasının gözündən qaçmadı.

– Sən süfrəni aç ana, əllərimi yuyub gəlirəm.

Əllərini yuya-yuya hələ də qonşu qızının xəyalı gözləri önündən getmirdi. Fikirli halda eyvanda açılmış süfrənin arxasına keçdi.

– Cahan, sənə neçə gündür bir söz demək istəyirəm, amma bilmirəm necə deyim.

Cahandar əlinə aldığı tikəni süfrənin üstünə qoyub anasına baxdı. Telli arvad hələ də götür-qoy edirdi.

– Ana, ürəyimi çəkmə, daha de görək nə deyəcəksən.

– Atan rəhmətlik olsaydı, yəqin ki, başqa cür olardı, hər şeyə o qərar verirdi. Indi ki, o yoxdur...

Cahangirin səbri tükəndi.

– Ana, de qurtar.

– Deyirəm, bəlkə qohumlardan kimi yaxın bilirsənsə, onları da çağırıb məsləhətləşəsən...

Cahandarın səbri qalmamışdı, qarşısındakı anası yox, başqası olsaydı, yəqin ki, qapazaltı etmişdi. Əsəbləşdiyi kənardan bilinirdi, bənizi qaralmış, gicgahlarındakı damarlar şişmişdi. Telli arvad isə gözlərini əlindəki çörək qırıntılarına dikib deyəcəyi sözləri sapa düzürmüş kimi barmaqlarına baxırdı. Cahandarın səbri daşdı.

– Ana...

Başını qaldırıb oğluna baxdı, onun əsəbləşdiyini görüb tez də əlavə etdi.

– Oğul, bilirsən. Gülərə elçi gəlmək istəyirlər.

Elə bil Cahandarın üstünə uçmuş dağı götürdülər, arxaya söykənib dərindən nəfəs aldı.

– İyirmi il bir kişiylə bir yerdə yaşadın, onun xasiyyətindən zərrə qədər də götürmədin, ildə bir dəfə görmədiyin qardaşına isə necə də oxşayırsan. Bayaqdan ürəyimi bir tikə elədin, sözün “mustafasını” həmişə əvvəldə de də.

Telli arvad oğlunun darqursaq olduğunu bilirdi, bilirdi ki, atası Bərxudar kimi həmişə son sözü əvvəldə deyir. Bir adamdan xoşu gəlmədisə bütün dünya yığılıb bir tərəfdə olsa, yenə də dediyindən əl çəkməzlər. Ona görə də həm ehtiyatı, həm də fürsəti əldən vermək istəmirdi.

– Oğul, qız quş kimi bir şeydir, qanadları ki, əmələ gəldi uçub gedəcək...

Cahandar kənd camaatını yaxşı tanıyırdı, anasının belə dil tökməsindən gələcək qohumlarının o qədər də keyfiyyətli nəsildən olmadığını təxmin edirdi.

– Yaxşı. Ana de görüm kimlərdəndir, təzə qohumların?!

– Mustafa. Cəlil müəllimin oğlu. Gülərdən iki sinif yuxarı oxuyub, indi şəhərdə böyük məktəblərin birində oxuyur, anası Səlimə müəllimə dünən bizdə idi, deyir ki, o da elə sənin kimi incinar olacaq. Nə deyirəm, təki Allah xoşbəxt eləsin, mənim Gülərim də yetim uşaqdır...

Cahandarın masaya dəyən yumruğunun səsindən ana yerindən tullanıb durdu, başının yaylığını düzəldərək divara söykədiyi süpürgəni götürdü, deyinə-deyinə həyətə tələsdi. Cəlil müəllimi də oğlu Mustafanı da yaxşı tanıyırdı, Cəlil müəllim qonşuları Kərəmin böyük qardaşı idi, pis namizəd deyildi. Lakin anasının hələ arada heç nə yox ikən xeyir-dua verməsi onu cin atına mindirirdi. Yeməyə gözünün ucuyla da baxmadı. Anasını səslədi.

– Ay ana, hara getdin sən?

– Eynən rəhmətliyin özüsən, bir tikə hövsələn yoxdur.

– Ana...

– Zəhrimar ana, dərd ana. Bir az əvvəl qışqırırdın, indi analayırsan? Nədi, Cəlil xoşuna gəlmir, yoxsa oğlu?! Hansı qapıya getsələr ayaqları altına xalça sərəcəklər, elmli, təhsilli ailədirlər. Bu boyda kənddə bir nəfər də olsun pis deməz onlara, mərifətli, qanacaqlı ailədirlər. Qardaşı neçə illərdir qonşumuzdur, hansı nəlayiq hərəkətlərini görmüşük? Ancaq yaxşılıqları dəyib bizə...

– Ana mən demirəm ki, onlar pis adamdır, bilirəm ki, pis olsaydılar sən onları bu qapıya qoymazdın, amma

hər şeyin yeri var. Heç olmasa qız orta məktəbi bitirsin də...

Telli səsini bir az da qaldırıb oğlunun sözünü kəsdi.

– Bitirsin də, qoymuram bitirməyə!?

– Ana bu bilirsən nəyə bənzəyir, "qız evində toydur, oğlan evindən xəbərsiz." Bəlkə, bir az gözləyək, nə deyirsən?

Cahandar anasının səhvini başa düşdüyünü, ancaq mübahisədən geri çəkilməyəcəyini başa düşüb susdu. Ana masaya yaxınlaşıb yenə deyinməyə başladı.

– Mənə hirslənib yemək yemirsən?

– Yedim ana, bəsimdir, çox yeyəndə kökəlirəm.

Anası onun yumşaldığını görüb düşündü. "Eynən atasıdır, bir an içində hirslənib hər şeyi bərbad edir, sonra da ipək kimi yumşalır." Fürsəti əldən vermək istəmədi, neçə vaxtdır ürəyində saxladıqlarını dilinə gətirdi.

– Oğul, daha gəlib deyəcəyəm, sən də bir tərpəniş eləsən.., Allah rəhmət eləsin atana qismət olmadı xoş gününüzü görmək, barı mən görüm.

Ana kövrəlib dayandı. Cahandar onun nə deyəcəyini bilirdi, ayağa durub mühəccərə söykəndi, baxışları göz gördükcə uzanan başı qarlı dağlara sancılıb qaldı. Ondan cavab gəlmədiyini görən ana yenidən səsini qaldırdı.

– Nə oldu, dilini uddun? Demə, heç nə demə. Danışma, mən də danışmayacam. Onun torpağına and olsun, bir də səninlə danışmayacam, heç nə deməyəcəm, nə bilirsən elə. Sən beləsən, gedib başqalarına, yadlara deyərsən sirrini...

Kədər onu boğdu, Cahandarın anasına yazığı gəldi, dönüb onu qucaqladı, alnından öpdü, ağarmış saçlarının qoxusunu ciyərləri dolunca çəkdi. Özü də kövrəlmişdi.

– Ana, anam mənim!!! Sən dünyanın ən gözəl, ən mehriban anasısan. Mən sənin oğlun yox qulunam ana, öl desən, ölməyə hazıram.

Ana onun yenidən yumşaldığını görüb geri çəkilmədi.

– Onda gəl otur, nə deyirəm qulaq as.

– Baş üstə, ana, de eşidirəm. Kimi deyirsən gedim əlindən tutum gətirim evə.

– Mən deyim? Bu boyda kənddə bir qız tapıb bəyənmirsən? Qohum-qonşuda ha çox qız, birini seç, bitsin bu iş.

– Ana səhər qaranlıqda çıxıb, axşam qaranlıqda gəlirəm. Qaranlıqda kimin qızını görüb bəyənim?

Ananın çiçəyi çırtladı, bir az da oğluna yaxın oturdu, səsini aşağı saldı.

– Yaxşı mən deyənə qane olacaqsan?

Cahandar gülümsədi.

– Əlbəttə ana, danışdıq axı.

– Cahan, ana qurban, – bir anlıq dayandı, udqundu, sanki ürəyindəkiləri necə deyəcəyini planlaşdırırdı, – qonşumuz Kərəmin qızı, İradə. Su sonası kimi qızdır, ağıllı, qanacaqlı, bizə də babdı bala. Həm özü, həm də ailəsi...

Cahandar ciddiləşdi.

– Ana, o ki, uşaqdır...

– Nəyi uşaqdır? Gülərlə bir sinifdə oxuyur.

– Bəyəm Gülər böyükdür? Ana, bəlkə sən kəndin bütün qızlarını orta məktəbi bitirməmiş ərə vermək üçün öhdəlik götürmüsən, xəbərimiz yoxdur!?

– Cahan...

Barmağını anasının dodaqlarına yaxınlaşdırıb susmasını bildirdi.

– Ana, bu söhbəti burda bağlayaq, bir az zamana ehtiyacımız var. Söz verirəm ki, vaxtı çatanda sən dediyin kimi olacaq. Bir də ki, apreldə ramazandır, camaat oruc tutacaq, biz durub toy edəsi deyilik ki...

Ana söhbətin belə sonluqla bitəcəyini bimirdi, daha deməyə sözü yox idi.

Elə bu zaman eyvana qalxan pilləkəndə Gülər və İradə göründü. Cahandar hələ də qarlı dağlara baxırdı. Iradə həmişəki tək utanaraq gözlərini yerə dikmişdi. Eyvana çıxan kimi Gülər səsini qaldırıb qardaşına sataşdı.

– Nəyə baxırsan, qız görməmisən?

Bacısının sözləri onu həm utandırdı, həm də gülməsinə səbəb oldu.

– Ay səni şeytan qız, – deyib güldü.

Gülər baş barmaqlarını gicgahlarına qoyub dilini çıxardı və əllərini yellədi, bu o qədər gülməli çıxdı ki, hamısının, hətta İradənin də gülüşünə səbəb oldu. Cahandar gülə-gülə dedi.

– Doğrudan sən mənim başımın bəlasısan.

Qızlar gülərək evə keçdilər...

* * *

Telli ana həyət-bacaya sığmırdı, bu yay onların ailəsi üçün düşərli oldu. Bir həftənin içində iki xeyir işin müjdəsi verilmişdi. Ana ömründə bu qədər xoşbəxt olmamışdı. Həftənin əvvəlində Mustafa Gülərə elçi göndərmişdi. Maraqlı idi ki, Mustafanın əmisi Kərəm oğlan evi tərəfdən yox, qız evi tərəfdən çıxış etdi.

– Hər iki ailəni təbrik edirəm, qohumluğumuz əbədi olsun, Allah xoşbəxt eləsin, yarıyanlardan olsunlar.

Cəlil müəllim mənim qardaşımdır, amma Bərxudar mənim üçün hamıdan irəli idi. Bunu bilməyən yoxdur, odur ki, mən qız evi tərəfindəyəm.

Hamı onun dedikləri ilə razılaşdı.

Elçiliklə nişan birlikdə oldu, İradə Gülərin yanında idi. Qızlar deyib gülür, tez-tez gah Mustafaya, gah da Cahandara sataşırdılar. Məclis gecə yarıya kimi davam etdi. Elə həmin həftənin sonuncu günündə Cahandar üçün İradəyə elçi getdilər. Həftənin əvvəlində olan məclis yenidən quruldu. Bu dəfə artıq bu evin qohumu sayılan Cəlil müəllim oğlan evi tərəfdən idi.

# III FƏSİL

Səma həmin gün dərsdə otura bilmədi, gözləri gur bulağı xatırladırdı. Nə qədər çalışsa da özünü toxtada bilmədi, dərsdən yarımçıq çıxıb evə gəldi, üzü üstə çarpayının üstünə uzanıb axşama qədər ağladı.

Iradə bu gün işdən tez çıxmışdı, yolunu bazardan salıb evə alınmalı ərzaqları aldı. Yolüstü marketə girib axşama Səmanın çox sevdiyi döşəmə plov bişirmək üçün lazım olan hər şeyi götürdü. Həm də bu gün Cahandarın ad günüydü. Hər ilin bu günündə İradə döşəmə plov bişirərdi. Cahandar bu yeməyi çox sevdiyi üçün onun yoxluğunda da bu bir adət halını almışdı.

“Səma hələ dərsdə olar, o gələnə yemək də hazır olar” deyə düşündü. Səma küçədə heç nə yeməzdi, həmişə dərsdən evə özünü zorla çatdırardı, ac olmasına baxmayaraq, bir-iki tikədən sonra əlini süfrədən çəkərdi.

İradə fikirli-fikirli həyət qapısına çatanda qapının açıq olduğunu görüb həyəcanlandı. Evin qapısını açıb içəri keçdi. Səma çarpayının üstündə üzü üstə yatmışdı. “Yazıq bala, çox yorulur, hələ birinci ilidir, gör neçə il oxumalıdır” deyə düşündü.

Mətbəxə keçib aldıqlarını yerbəyer etməyə başladı, düyünü yuyub qazı yandırdı, axşam yeməyinin tədarükünü gördü. Əlləri reflekslə işləyirdi, sanki avtomatlaşdırılmış qurğu idi, adətən gündəlik işləri belə edirdi.

Artıq hava qaralırdı, uşaq vaxtı günün bu çağında yatmağa qoymazdılar. Anası “günün bu çağı ruhların

yerə enən vaxtıdır, belə vaxtda yatsanız onlar bilmədən sizə ziyan toxundura bilər" deyib onları qorxudardı. Bəzən də deyərdi ki, "ruzunun paylanan vaxtıdır, yatsanız kasıb olacaqsınız." Doğrunun necə olduğunu bilmirdi, bircə onu bilirdi ki, bu bir adət idi və ona əməl etməli idilər.

Əlləri işləyir xəyalı isə kəndlərində idi, göz açıb boya-başa çatdığı, indi xaraba qalmış kəndlərində.

Iradə kəndlərini xatırlayanda az qalırdı ki, ağlını itirsin. Səbəbini bilmədən nifrətlə yad edirdi o kəndi, hər şeyi o kənddə qalmışdı – anası, yeni qurduğu ev-eşiyi, çox sevdiyi boylu-buxunlu Cahandarı... Cahandarın quru nəfəsini gətirmişdilər Bakıya. Açıq pəncərədən qaranlıq otağa başını soxub qızını çağırdı.

– Səma qızım, bəlkə durasan...

– Ana mən buradayam.

Səsə İradə diksindi.

– Başıma xeyir. Qız adam bayıra çıxanda səs eləməz!?

– Sən çağırdın mən də oyandım da... Bayaqdan durmuşam qapıda, elə bilirəm görürsən.

Anası ona tərəf döndü, ildırım vurmuş kimi donub qaldı

– Qız, bu nədir, nə sifətdir bu? Yenə ağlamısan? – ana əsəblərini cilovlaya bilmədi, dəli kimi qışqırdı. – Get üzünü yu! Tez ol, bu halda səni görmək istəmirəm, həyasız...

Səma tez həyətə çıxdı, anasını daha da əsəbləşdirmək istəmirdi, əsəbləşəndə özünə nəzarəti itirir, ağzına gələni deyirdi.

Hamamın divarına vurulmuş güzgüdə özünü görəndə tanımadı, sanki güzgüdə tamamilə başqa bir adam dayanıb ona baxırdı, saçları dağılmış, siması dö-

yülmüş adamı xatırladırdı. Ağlamaqdan qızarmış gözlərinin altı göyərmiş və torbalanmışdı. Anasının səsi hələ də gəlirdi.

– Qız, tez ol, indi bibingil gələcək.

Bibisi Gülər yaxınlıqda olurdu, anası ilə birlikdə işləyirdilər. Oğlu Mustafa bu il ali məktəbə daxil olmuş, həm də tikinti şirkətində gecə növbəsində fəhlə işləyirdi. Yazıq demək olar ki, evdə olmurdu, işdən məktəbə, məktəbdən işə gedirdi. Boy-buxunda dayısı Cahandara, sifətdə və xasiyyətdə isə atası Mustafaya çəkmişdi.

Mustafa atasını görməmişdi, atası şəhid olandan iki ay sonra dünyaya gəlmiş, buna görə də ona atasının adını qoymuşdular. Uşaq vaxtları bir yerdə keçmiş, orta məktəbi bir sinifdə oxumuşdular. Sakit təbiətli biri idi. Səmadan iki ay böyük olmasına baxmayaraq özünü dünyagörmüş, ağıllı və yaşlı adam kimi aparırdı, bu da Səmanın heç xoşuna gəlmirdi. Bəlkə də buna görə idi ki, Səma həmişə onu incidər, başına olmayan oyunları açardı. Lakin zaman keçdikcə hər şey dəyişdi. Yaşa dolduqca hansısa duyğunun təsirindən idisə Səma onu görəndə utanır, onun yanında özünü narahat hiss edirdi. O isə həmişə sərbəst olur, lazım oldu, olmadı onun işlərinə qarışırdı. Son dəfə bu ilin sentyabrında, dərs başlamazdan bir həftə əvvəl görüşmüşdülər.

Səma birdən-birə onun üçün darıxdığını hiss etdi. “Kaş Mustafa da gələydi” – deyə düşündü. Ancaq nədənsə qarşısına belə görünüşdə çıxmaq istəmirdi. Bütün varlığını həyəcan bürümüşdü.

Üzünü bir neçə dəfə yudu, saçlarını daradı. Gözəl idi, mavi gözləri çılğın dənizə bənzəyirdi, uzun və gur saçları çox qızların həsəd aparacağı qədər gözəllik verirdi ona. Deyəsən, ağlamaq onu daha da gözəlləşdirmişdi. Özündən xoşlandı. Evə keçəndə anasının hələ də de-

yindiyini görüb gülümsündü. Ana əlindəki işi buraxıb maraqla ona baxdı. "Maşallah, Səma böyüyüb, gözəl qız olub" deyə düşündü, indiyə kimi bunun fərqində olmadığına görə daxilən özünü qınadı. Susdu, bir az da kövrəldi. "Olmaz olsun belə işi, başımız necə qarışıbsa, uşaqların nə zaman böyüdüyünü də bilməmişik" və Cahandar ağlından keçdi. "Kaş indi sağ olaydı" – deyə düşündü.

Səma evə keçdi, ən çox sevdiyi bənövşəyi donunu geyindi, köhnə, yaşda özündən böyük olan bədənnüma güzgünün qarşısıda dayanıb saçlarını qeyri-adi formada yığdı, onsuz da gözəl olan simasını – al yanaqlarını, badamı dodaqlarını boyamaqdan vaz keçdi. Bir neçə dəfə güzgünün qarşısında fırlandı. Günün birinci yarısındakı halından əsər-əlamət yox idi, nağıllardakı mələk obrazlarına bənzəyirdi, çiyinlərində bir cüt qanadı çatışmırdı.

Mətbəxə keçib anasının qarşısında dayandı. Iradə bir müddət ağzı açıq halda onu süzdü, təəccüblə soruşdu.

– Qız, bu nə haldır, harasa gedirsən!?

Səma anasının boynuna sarıldı.

– Bu gün atamın ad günü deyil? Nə qədər ağlayacağıq ana. Bəs deyil?

– Düz deyirsən, qızım. Ağlamaq ağlamaq gətirər, hər dəfə bibin deyirdi, qulaqardına vururdum. Daha bəsdir.

– Ana, nə lazımsa mən edəcəm, sən də get geyin.

– Yox... – bir az duruxub kədərli səslə əlavə etdi – mənim geyimimi atan geyindirib qızım, dəyişə bilmərəm.

Səma anasının üzünə baxdı, daşa dönmüşdü sanki, yanaqlarından axan göz yaşları qaynayan qoşa bulağa

bənzəyirdi. Nəsə demək istədi, könlünü ala biləcək söz tapa bilmədi, hönkürüb onu qucaqladı. Beləcə bir müddət dayandılar, hər ikisi ağlayır, sakitləşmək istəmirdilər. Gülərin hikkəli səsi otağı silkələdi.

– Bu nədir, yasxana açmısınız!?

Mustafa ilə anası Gülər qapıda dayanmışdı. Sanki evdə ildırım çaxdı, hər ikisi çaşıb qalmışdı. Bibisi bir neçə addım irəli gəlib qarşısında dayandı. Səmanı başdan ayağa bir neçə dəfə süzdü. Qollarını açıb bağrına basdı. Sakit və təmkinli səslə pıçıldadı.

– Mənim mələk qızım, mələklər səni görsəydi, həya edərdilər, utanardılar. Bir daha ağlama, üzünü yu keç evə. – Sonra İradəni qucaqladı. – Qaramatdığından əl çəkməyəcəksən? Bəs deyil? Gənc qızın var, özünə yazığın gəlmir, ona gəlsin barı.

Iradə özünü itirmişdi, nə deyəcəyini bilmirdi, dili topuq vururdu.

– Mən.., mən...

– Nə mələyirsən, çayın hazırdır?

– Hə.., hə hazırdır. Bu saat...

– Ay qız sənə nə oldu, dilin niyə dolaşır!? Belə keç görüm. Nə bişirmisən? – ərklə qazanın qapağını açdı – Bəh.., döşəmə plov, əhsən sənə, bir dənəsən! Gəl səni bir bağrıma basım – onu yenidən qucaqladı.

Əslində Gülər İradənin döşəmə plov bişirəcəyini bilirdi, çıxardığı oyunlar evdəki ağır ab-havanı götürmək üçün idi. Gülər belə idi, İradə də bunu bilirdi, süzdüyü çayları ona göstərib dedi.

– Çayları götür, keç içəri, mən də yeməyi çəkim gəlirəm.

– Yeməyə tələsmə, gedək bir stəkan çay içək birlikdə.

Onlar içəri keçərkən Səma ilə Mustafa üzbəüz oturub şirin söhbət edirdilər. Gülər astaca İradənin qoluna toxundu.

– Bizim çayları apar mətbəxə, orda içərik.

Gülər çayları masanın üstünə qoydu, bir neçə konfet götürdü.

– Çayınızı soyutmayın – deyib mətbəxə keçdi.

Iradənin yanında oturdu.

– Uşaqlara mane olmayaq, qoy doyunca söhbət etsinlər, artıq böyüyüblər maşallah.

* * *

Səma Gülərin əlindən qurtarıb, əlini evin girişində dayanan Mustafaya uzatdı. Görüşdükdən sonra Mustafa geri çəkilib Səmanın evə keçməsinə şərait yaratdı. Onlar otağa keçib masanın ətrafında üz-üzə dayandılar.

– Əyləş, Mustafa – dedi və özü də əyləşdi. Bir müddət hər ikisi susdular. Mustafa gözlərini qıza, o isə masaya dikib dayanmışdı, sanki bir neçə ay əvvəl gördüyü Səma deyildi. Mustafa sükutu pozdu.

– Səma necəsən, dərslərin necədir!?

Sanki aralarında olan möhkəm divar uçdu, elə bil bu sözə bənd idi hamısı.

– Sağ ol, yaxşıdır. Sənin dərslərin necədir? Niyə görünmürsən? Əvvəllər yenə vaxt tapan kimi baş çəkərdin.

– Hə-ə.., vaxt tapa bilmirəm. Vaxt atlı olub, biz piyada...

Səma gülümsədi, sanki otaqda günəş doğdu. Mustafa hələ də heyranlıqla qızı süzürdü. Bir neçə ayın içində bu qədər dəyişəcəyini təsəvvür edə bilməzdi. Əvvəl-

ki dəcəl, şıltaq qızdan əsər-əlamət yox idi. Ali məktəb onu necə də dəyişmişdi.

– Həm də işləyirəm, işdən məktəbə, məktəbdən işə gedirəm. Evə ancaq paltar dəyişməyə gəlirəm. Elə gün olur ki, heç anamı da görə bilmirəm.

– İşin necədir, ağır deyil ki...

– İşdir də... Elə olur ki, dayanmırıq, elə də olur ki, bütün günü otururuq. Elə olanda dərslərimi hazırlayıram.

– Beləcə ömrümüz gedir, işdə, avtobusda, metroda...

– Hə, başa düşürəm, çətindir. Yəqin ki, hər çətinliyin sonunda rahat bir həyat gizlənib bizi gözləyir. Bu mütləq belədir.

Araya sükut çökdü, ancaq bu sükut bir az əvvəl olduğu kimi onları sıxmırdı, indi Səma da onun üzünə sərbəst baxa bilirdi.

Mustafa çox dəyişmişdi, bir az arıqlamış, amma kişiləşmişdi. Bu qızın daha da xoşuna gəlirdi, ürəyindəkiləri ona açıb demək istəyirdi.

– Mən də deyirəm ki, bibim oğlu harada qalıb, məni dərsə niyə aparmır?

Mustafa tutuldu, deməyə söz tapmadı, Səma gülümsədi.

– Zarafat edirəm, Musya. Çayın soyudu, dəyişim?

– Yox, otur. Səma, bir neçə ayda çox dəyişmisən – gözəlləşmisən, amma xasiyyətin olduğu kimi qalıb. Lap anama bənzəyirsən xasiyyətdə...

Hər ikisi güldü. Analar əllərində yemək dolu sinilərlə qapıda göründülər. Gülər dərhal hücuma keçdi.

– Çaylarınızı niyə içməmisiniz? Indiyə buza dönər ki...

Bir neçə dəqiqədə kiçik masanın üstü cürbəcür yeməklərlə doldu. Yemək əsnasında bütün kənddən danışdılar. Gülərlə İradənin uşaq vaxtlarından, orta məktəbdə oxuduqları zamandan, sevgi macəralarından, Telli və Tamam ananın qayğıkeşliyindən, Bərxudar dayı ilə Kərəm kişinin dostluğundan...

Beş ildə ilk dəfə Cahandarsız keçən ad günü belə şən keçdi, gecə saat onda Gülər ayağa qalxdı, hamı səhər ertədən yuxudan durmalı idi. Belə tez getmələri iki nəfərin ürəyincə deyildi.

O gecə nə Mustafa, nə də Səma yata bilmədilər...

# IV FƏSİL

Min doqquz yüz səksən səkkizinci il Azərbaycan üçün çətinliklərin başlandığı il kimi tarixə düşdü. Minlərlə soydaşlarımız yurd yuvalarını tərk edib kiçik dövlətin böyük paytaxtına üz tutdular. Bu azmış kimi ölkənin daxilində Rusiya və İrandan dəstək alan separatçılar baş qaldırdı. Azərbaycan bir neçə yerə parçalanma təhlükəsi ilə üz-üzə idi. İçəridə baş qaldırmış casus qrupları tam gücü ilə işləyirdilər

Tez-tez müxtəlif sərgili xəbərlər, dezinformasiyalar və panikalar yayılır, camaatı səksəkədə saxlamaq üçün bu kimi vasitələrdən istifadə edilirdi.

Cahandar idarəyə yenicə çatmışdı, hələ macal tapıb həyət qapısından içəri daxil ola bilməmişdi. İdarə rəisi onu görən kimi elə bil sevinirmiş kimi qarşısına yüyürməkdən özünü güclə saxladı. İti addımlarla ona yaxınlaşdı.

– Qardaş, belə də biabırçılıq olar, bilmirsən kimin çaldığı havaya oynayasan!?

– Nə olub, Qəribxan müəllim? Kimdir sümüyünə oyun havası düşən?

– Ay kişi, nə sümük, nə oyun havası.., adam az qalır ki, başını yerli-dibli itirsin, sən də oyun havasından danışırsan.

– Qəribxan müəllim, səhər tezdən nə olub, nə hay-küydəsən?...

İdarənin rəisi elə bil özünə gəldi, başını bulayıb əllərini havada yellədi.

– Nə bilim ay başına dönüm, qoyurlar ki, sakitcə yerində öləsən? Bilmirsən kimin nazını çəkəsən, kimin dediyi ilə oturub durasan? Bu nə zəmanədir yaşayırıq? Tfu...

O hiddətlə yerə tüpürdü, hirsli halda yumru bədənini yırğalaya-yırğalaya kabinetinə tərəf getdi. Sözlü adama oxşaması aydın görünürdü.

Cahandar tikinti idarəsində az müddət işləməsinə baxmayaraq, hamının yanında böyük hörmət qazanmışdı, xüsusən də rayon partiya komitəsinin birinci katibinin onun haqqında yüksək fikirdə olmasını idarənin rəisi dəfələrlə demişdi. İndi rəisin belə hərəkətləri onu heç də təəccübləndirmədi, nə də marağına səbəb olmadı. Bilirdi ki, qısa zaman kəsiyində hər şey ona ya rəis, ya da başqası tərəfdən çatacaq, hətta rəis istəməsə belə. Elə də oldu, otağına yenicə çatmışdı ki, rəisin erməni əsilli katibəsi qapını açıb yaşına uyğun olmayan xınalı başını içəri soxdu.

– Qəribxan müəllim çağırır, kabinetindədir.

Cahandar qapını açıb içəri keçəndə idarə rəisi, dərin fikrə getmişdi. Kök bədəni ilə kreslonun üstünə yayxanıb pəncərədən bayıra baxırdı.

– Hə qardaşoğlu, yaxın otur. Bilirsən, nöş çağırdım səni? Biləcəksən, hər şeyi deyəcəyəm sənə. Bildiklərim dərdə dönüb ürəyimi partladır.

Cahandar masanın ətrafında olan stullardan birində oturdu, susaraq rəisin nə deyəcəyini gözlədi. Rəis səsini aşağı salıb, kimsənin eşitməsindən qorxurmuş kimi kreslosunu bir az da yaxına çəkdi.

– Sənə ürəyim qızır Cahandar, Allah rəhmət eləsin, atan da sənin kimi idi, yanında baş kəssəydin, üzünü yan tutardı, dəvə görmüsən, heç qığını da görməmişəm deyərdi. – Bir anlıq duruxub əlavə etdi. – Amma indi,

dəhşətdir vallah, adamın deməyə dili də gəlmir. İlahi, pərvərdigara! Bunlar hansı millətdəndir, görəsən hansı dinə qulluq eləyirlər? Adlarını azərbaycanlı qoyub.., erməniyə, rusa qulluq eləyirlər.

Cahandar yerində bir az dirçəldi, kök, iki yüz litirlik çaxır çəlləyini xatırladan rəisi süzdü, onun keçmişini bildiyi üçün özünəməxsus təmkinlə dedi.

– Qəribxan müəllim, az qalıb hər şey öz yerini tapacaq, hamı etdiyi əmələ görə məsuliyyət daşıyır. Kiminsə ayrı-ayrı adamlara etdiyi nalayiq hərəkəti bağışlamaq olar, amma ümumi millətə qarşı olan ən kiçik ləyaqətsizlik, satqınçılıq heç zaman bağışlanmayacaq.

Qəribxan erməni əsilli olduğu üçün atılan eyhamı özünə götürdü, toppuş, qırmızı sifəti bir az da qızardı. Cibindən dəsmal çıxarıb tərini sildi. Nə etdiyini bilmirmiş kimi özü də anlamadığı hərəkətlər etdi. Bu Cahandarın gözündən yayınmadı və nəsə demək istəyirdi ki, telefon zəng çaldı. Zəng səsinə elə bil sevindi, şişman bədəni irəli – telefona sarı əyildi. Kim olduğunu bilincə dərhal özünü yığışdırdı.

– Oldu yoldaş katib! Baş üstə...

Telefonun o biri başından zəhmli səsin sahibi tapşırığını verib dəstəyi asdı, Qəribxan isə hələ də özünə gələ bilməmişdi. Pərt halda boğulub qalmışdı, bayaqdan dediklərinin əksinə hərəkət etməli idi.

– Qardaşoğlu, məni bağışla. Sonra söhbət edərik, getməliyəm.

Cahandar rəisin qısa zaman ərzində neçə cildə girdiyini düşünə-düşünə otaqdan çıxdı, erməni əsilli katibənin yanından keçib həyətə endi. Beynində qarışıq fikirlər dolanırdı, ətrafında olanların hamısı haqqında məlumatı var idi. Bir də ki, rayon kiçik olduğu üçün burada hər kəs bir-birini yaxşı tanıyırdı. Xəyal onu çox

da uzaq olmayan keçmişə apardı. Atası kəndin "qırmızı" adamlarından sayılırdı, kimliyindən asılı olmayaraq hər hansı nalayiq hərəkətin layiqincə cavabını verirdi. "Ot kökü üstə bitər" deyiblər, Cahandar da xasiyyətdə elə atasının eyni idi, nə qədər özünü danlasa da haqsızlığa dayana bilmirdi. Qəribxanın keçmişi haqqında bildikləri bir daha, kino lenti kimi xəyalından keçdi.

* * *

Qəribxan dünyaya gələndə atasının daim təsərrüfat işləri ilə məşğul olduğunu görmüşdü. Atası yaşlı olmasına baxmayaraq evdə az tapılar, bütün günü çöldə-bayırda olar, kəndin qoyun-quzusunu otarardı. Birinci arvadı əmisi qızı olmuş, lakin övladları olmadığı üçün on il sonra ikinci dəfə evlənmişdi.

İkinci arvadı kəndin ermənilər məhəlləsində yaşayan Qurgenin qızı Susanna idi. Evlilikdən bir il sonra Qəribxan dünyaya gəlmiş və ana tərəfinin ona verdiyi təlim- tərbiyyə ilə böyümüşdü. Çünki Susanna Yerevanda olan dayısının vasitəsilə aldığı diplomla, mühasibat işlərindən başı çıxmasa da kolxoz idarəsində baş mühasib işləyirdi.

Qəribxan kiçik yaşlarından ana babasının himayəsində böyümüş, onun tərbiyyəsini almış, əsil erməni xislətini mənimsəmişdi. Atası Misirxan Susanna ilə evlənəndən sonra əməlli-başlı cavanlaşmışdı. İndi daha çobanlıq da etmirdi, kolxoz idarəsində "kuryer" işləməsinə baxmayaraq elə bil kolxoz sədri idi. Kənd camaatının bütün problemlərinin həll edilməsində onun barmağı var idi. Tez-tez rayon mərkəzinə gedər və çox zaman gecələr də sədrin "tapşırığını" yerinə yetirmək

üçün orada qalardı. Belə gecələrdə isə Susanna tək qalmaz, ən azı kolxoz sədri ilə birlikdə idarədə keçirərdi. Kolxoza rayon partiya komitəsindən gələn bütün yoxlamalar gecə Susannanın qolları arasında məst olar, ertəsi gün onun tapşırığı ilə məsələni yaxşılıqla həll edərdi.

Babası Qurgen zəmanə adamı idi. Üzdə özünün dediyi kimi türklərlə çox mehriban olar, arxada isə erməni xislətini göstərərdi. Övladlarını da bu ruhda tərbiyyə edərdi. Qəribxan onun gələcək üçün hazırladığı ən güclü "silah" idi və ona Qarik deyərdi. Həmişə ona deyərdi: "Qarikcan, yadında saxla, türklərin içərisində ən qatı türk olmalısan, onlar sənin erməni əsilli olduğunu hiss etməməlidirlər. Hətta bilsələr belə, sən özünü elə aparmalısan ki, onlar səni əsl türk saysınlar. Belə olmasa verilən tapşırıqları və öz planlarını həyata keçirə bilməzsən. Unutma ki, biz özümüz üçün deyil, məzlum erməni xalqı üçün yaşayırıq. Ən böyük düşmənimiz də türklərdir."

Qəribxan belə bir mühitdə böyüyür və böyüdükcə babasının dediyi bütün sifətləri özündə daha artıq biruzə verirdi. Böyüdükcə atası tərəfə daha da nifrəti artır, onlara qarşı ürəyində ikrah hissi güclənirdi. On iki yaşında Susannanın etirazlarına baxmayaraq, babası onu xüsusi təhsil almaq üçün Yerevandakı qohumlarının yanına göndərdi.

Yerevan mühiti tam fərqli olaraq onun həyatında daha dərin iz buraxdı. Qəribxan qohumunun vasitəsilə xüsusi rejimli düşərgəyə yerləşdirildi. Düşərgə Yerevanın qərbində, dağların arasında yerləşirdi, burada xüsusi rejimdə yaşayır, bir dəqiqə də olsun boş vaxtı olmurdu. Yeniyetmə dövrünə təzəcə qədəm qoyan, hələ həyatın nədən ibarət olduğunu başa düşməyən, gələcəyini yalnız türklərin və tatarların bədbəxtliyində görən yüzlərlə gənc yetişirdi bu düşərgədə.

Dünyaya meydan oxuyan Sovet dövlətinin belə bir çağında bütün bunların necə baş verməsi bəzən onu çox təəccübləndirirdi. İkinci maraqlı hal isə bu düşərgədə olanların əksəriyyəti onun kimi qarışıq millətlərdən, xüsusən də azərbaycanlı və türklərdən olan uşaqlardan ibarət olması idi.

Əslində düşərgədə heç bir təhsil verilmirdi, əsas məsələ daha çox nifrət etməyi mənimsəmək və bu nifrəti zamanı gələnədək daxilində gizli saxlamağı bacarmaq idi. Qalan nə var idisə hamısı arxa planda idi və mərkəzi hökümətin gözündən pərdə asmaq üçün idi. Düşərgə o zaman üçün SSRİ-də ən yaxşı şəraiti olan məktəblərdən sayılır və kimsəsiz uşaqların dövlət təminatında olması üçün nəzərdə tutulurdu. Lakin erməni xarakteri burada da özünü göstərir və böyük bir dövlətin içində gizli planlarını həyata keçirmək üçün istifadə edilirdi.

Qəribxan düşərgənin ən layiqli tələbələrindən sayılır, verilən tapşırıqları canfəşanlıqla daha dəqiq və artıqlaması ilə yerinə yetirirdi. Bütün bunlar onda daha yaxşı alınırdı. Buna görə babası Qurgenə minnətdar idi, uşaqlıqdan onun verdiyi tərbiyyənin nəticəsi idi ki, bu gün məktəbin irəlidə gedənlərindən sayılırdı. Babasının onu bu vəziyyətdə görərkən necə qürur duyacağını düşünürdü.

Demə yanılırmış. On yeddi yaşında məktəbi fərqlənməylə bitirib babasının yanına qayıtdı. Ömrünün pik dövrünü çoxdan arxada qoyan qoca onu sorğu-suala tutdu. Verdiyi cavablardan çox narazı qaldığı üzündən görünürdü, eyvanda ağır-ağır o baş bu başa var-gəl etdi. Gözlərini qıyıb onu bir neçə dəfə başdan ayağadək diqqətlə süzdü.

– Verdiyim tərbiyyəni zay etmisən, səndən daha çox şey gözləyirdim. Heyf, çox heyf... Qanı xarab köpək oğlu.

Bir neçə addım irəli atıb qarşısında dayandı. Ətrafı qırışmış, qəzəbdən qızarmış gözlərindən od tökülürdü.

Qəribxan onun baxışlarına dözmədi, canına üşütmə düşdü, qorxudan büzüşdü. Üzünə dəyən zərbənin təsirindən səndələdi, yerə çöküb ayaqlarını qucaqladı. Yalvarmaq istədi, sözlər boğazında tıxanıb qaldı. Üzünü onun ayaqlarına sürtüb əhv edilməsini istədi. Qurgen iyrənmiş kimi bir addım geri çəkilib çiyninə bir təpik vurdu. Qəzəblənmiş qocanın əlindən qurtarmaq üçün dili açıldı.

– Baba qurbanın olum öldürmə məni, bağışla... itin olaram baba, istədiyin kimi olacam...

Qocanın gözlərinə qan dolmuşdu, onun türk qarışığı olduğunu xatırlayıb daha da qəzəbləndi.

– Səni gəbərdəcəm, turk köpək oğlu...

Oğlunu görmək üçün gələn Susanna eyvanın kandarında göründü. Nə baş verdiyini anladı. Atasının necə qəddar olduğunu yaxşı bilirdi. Bir anlıq baxışları toqquşdu. Qoca qızını görüb düşündüyü fikirdən vaz keçdi.

– İtil gözlərimin önündən, görmək istəmirəm səni.

Qəribxan kandarda dayanan anasını görmədən cəld durub həyətə qaçdı. Susanna atası ilə tək qaldı. İnstinkt olaraq oğlunu quduz vəhşinin pəncəsindən xilas edən ceyran kimi meydan oxuyaraq atasının üstünə getdi. Onun zəhmli baxışlarından dərhal yumşaldı, yalvarmağa başladı.

– Ata, bilirsən ki, o mənim tək bir balamdır, onsuz mən ölərəm, bağışla onu ata...

Qoca buz kimi soyuq, heç nə kəsb etməyən lal baxışlarla qızını süzdü, sonra dönüb uzaqlarda görünən dağlara baxdı, özü ilə danışırmış kimi dodağının altında mızıldandı.

– Dağları görürsən – susdu, sirr açırmış kimi qızına yaxınlaşdı. Kimsənin eşidəcəyindən qorxurmuş kimi pıçıltıyla dedi – oralar bizim olmalıdır. Biz dünyanın ən böyük dövləti olmalıyıq, bu turk köpək uşaqları olmasaydı... İndi zamanı yetişir, rusların, farsların köməyi ilə arzumuza çata bilərik, biz isə hələ də müsürmana rəhm edirik...

Susanna səsini qaldırıb atasının sözünü kəsdi.

– Yazıqlar olsun sizə... hansı zamandan danışırsan? Sən və sənin kimilərin ideyalarını həyata keçirmək üçün nəyim varsa qurban verdim. Qarikin həqiqi atasının kim olduğunu da dəqiq bilmirəm. Bütün erməni qızları sizin boş xəyallarınızın qurbanı olub. Bəs deyilmi, hə, bəs deyilmi?...

Susanna üsyan edirmiş kimi səsini getdikcə qaldırırdı. Qoca dabanı üstündə ona tərəf döndü, gözlərində sanki ildırım çaxdı, yaralı it kimi uladı.

– Sus, qancıx... yüz ildir ki, bu günü gözləmişik. Sizin əziz-xələflərinizə görə vaz keçməliyik?

– Bax budur, mən deyirəm, əl çəkin ondan, nə qədər ki, mən sağam, oğlumu qurban verməyəcəyəm, nəyin bahasına olursa-olsun onu qoruyacam. Get, başınıza boş xəyalları dolduran ağalarına da çatdır... – atasının qəzəbli üzünü görəndən sonra səsindəki qətiyyət çarəsizlikdən yaranan yalvarışa bənzəyirdi.

Daha danışa bilmədi, sözlər boğazına tıxanıb qaldı. Vəhşi pişik kimi onun üstünə tullanıb sir-sifətini cırmaq istədi, atasının sərt baxışları düşündüklərini alt-üst etdi. Susanna atasının bu işdə heç kimə güzəşt etməyəcəyini yaxşı bilirdi, lakin oğlunu onların pəncəsində köməksiz qoya bilməzdi. Zəifliyini anladı, gücü göz yaşlarına çatdı, hönkür-hönkür ağlayaraq həyətə qaçdı...

* * *

Ertəsi gün işə gedə bilmədi, bütün gecəni oğlu haqqında düşündü, heç idarədən də onu kimsə axtarmadı. Oğlunun gəldiyindən hamının xəbəri olduğu üçün narahat etmədilər. Səhər açılandan eyvanda oturub mənasız yerə həyətə baxmaqdan bezmişdi. Sanki daşdan yonulmuş heykəl idi. Fikri dağılır, heç bir şey haqqında düşünə bilmirdi. Atası ilə dünən aralarında olan mübahisədən sonra hələ də özünə gəlməmişdi. Qəribxan dünənki hadisədən sonra hələ də evdən çıxmamışdı...

Günün ikinci yarısında köhnə qonşuları Artur həyət qapısını açıb onu səslədi. Susanna ağır-ağır həyət qapısına getdi. Yolboyu uşaqkən Arturla birlikdə keçirdiyi hər an kino lenti kimi gözləri önündən keçdi. Bir sinifdə oxuyur, bir-birini sevirdilər. Artur Yerevan Pedaqoji İnstitunda oxuyarkən onunla evlənəcəyini demişdi, hətta atası Karen qonşusu Qurgenə də bu barədə söz açmışdı. Lakin kəndin çobanı Misirxanın elçi düşməsi Qurgeni verdiyi sözdən qaçmağa vadar etdi. Kənddə azərbaycanlı əhali arasında mövqeyini möhkəmlətmək üçün verdiyi sözdən qaçdı. Misirxanla qohum olmaq gələcək planlarına uyğun olduğu üçün Arturdan vaz keçdi. Susanna düşüncəli halda qapıya çatdı.

– Bu gün səhər qonşular Qurgen əmini küçə qapısının yanında yıxılmış halda görüblər, tez də rayon xəstəxanasına aparıblar, huşu özündə olmayıb. Bir az əvvəl xəstəxanadan xəbər gəlib ki, kişi keçinib. İdarəyə sənin dalınca getdim, dedilər ki, evdəsən. Başınız sağ olsun.

Susanna keyləşmiş halda dayanıb onun üzünə baxır, heç nə olmamış kimi dayanıb dururdu. Əslində onun nə dediyini eşitsə də, nə baş verdiyini beynində

analiz edə bilmirdi. Artur onun halını öz bildiyi kimi yozdu, “yazıq qız” deyə düşündü.

– Səni gözləyim? Maşınnanam...

Susanna halını dəyişmədən dedi:

– Yox, sən get. Mən Qariknən gələcəm.

Başı ilə Artura razılıq edib yenidən evə döndü, üzünü soyuq su ilə yuyub saçlarını daradı, anasından qalma qara yaylıqlardan birini boynuna doladı, oğlunun yatdığı otağa keçdi. Xəbərin atası haqqında olmasına baxmayaraq daxilən sevinirdi.

– Qarikcan, dur gedək babangilə. Deyir vəziyyəti ağırdır...

Qəribxan yerində qımıldandı.

– Ana, sən get, mən getmək istəmirəm.

– Az danış, – Susanna səsini qaldırdı – dur gedək, nə qədər olmasa da, səni böyüdən odur. Dost-düşmən var. Nə deyərlər?

Qəribxan qalxıb geyindi, əl-üzünü yudu, nədənsə ona elə gəldi ki, bu babasının növbəti kələyidir. Hər ehtimala qarşı yenidən həyətdən evə qayıtdı atasından qalma fin bıçağını cibində gizlətdi, könülsüz də olsa evdən çıxdı. Babasının evi erməni məhəlləsinin axırında, kəndin kənarında yerləşirdi, buradan ora kimi xeyli yol vardı. Bütün yolu babası ilə aralarında dünən baş verənlər haqqında düşündü. Hətta yarı yoldan qayıtmaq istədi, bir neçə dəfə dönüb anasının üzünə baxdı, nəsə deməyə ürəyi gəlmədi, onun üz cizgiləri donmuşdu. “Görəsən o nə haqqında fikirləşir” deyə düşündü.

Onlar qapıya çatanda həyətdə çoxlu adam var idi, bütün erməni məhəlləsində yaşayanlar demək olar ki, həyətə yığılmışdı. Beş-beş, üç-üç dayanıb söhbət edirdilər, bəziləri həyətə daş düzüb üstündə oturmuşdu.

Susanna həyət qapısından içəri keçəndə hamı ayağa durub ona yol verdi, bəziləri hətta öz dillərində salam verib baş əydilər. Susanna qadınların yığıldığı evə tərəf getdi, Qəribxan onların salamını alıb qapıya yaxın bir yerdə dayandı, əlini cibinə saldı, fin bıçağı orada idi, hələ də babasının ölümünə inana bilmirdi. Ona elə gəlirdi ki, indicə babası eyvana çıxıb həyətdə olanlara onun tutulmasını əmr edəcək, sonra dünən edə bilmədiyini bu gün edəcəkdi. Hər ehtimala görə bir ayağını qaçaraq qoymuşdu.

Bir azdan babasının cəsədini gətirdilər. ürəyində olan xof yalnız onu görəndən sonra yoxa çıxdı.

Ertəsi gün Qarabağdan və Ermənistandan babasını tanıyan xeyli adam gəlmişdi, həyətdə böyük bir məclis qurulmuşdu, rayonun bütün tanınmış adamları, rayon partiya komitəsinin bütün işçiləri Susannaya başsağlığına gəlmişdilər. Məclis dağılandan xeyli sonra Ermənistandan və Qarabağdan gələn bir neçə erməni həyətdən evə yığıldılar. Artur onlara qulluq edirdi. Qəribxan həyətdəki tut ağacının altında siqaret çəkirdi. Artur evdən çıxıb onun yanında dayandı.

– Qarik, səni gözləyirlər, get içəri.

Qəribxan siqareti atıb evə qalxdı, eyvanda anası ilə qarşılaşdı, bir anlıq dayandılar, anasının sual və nigarançılıqla dolu baxışları elə bil ona nəyi isə anlatmağa çalışırdı.

Artur ağacın altında dayanıb ətrafa nəzarət edirdi. Qəribxan otağa keçəndə otaqdakılar başları ilə onu salamladılar. Başda oturan bəstəboy, kök erməni əlini keçəl başına çəkib dedi.

– Baban bizim ən layiqlilərimizdən biri idi. Onun bizlər üçün etdiklərini bizim heç birimiz etməmişik. Etdiyi xidmətlərə görə hər bir erməninin ürəyində əbədi

olaraq yaşayacaq. O bizlərdən ölən hər bir erməninin əvəzində on türkü cəhənnəmə göndərdi. Babalarımızın yaratdığı ibtidai məktəbi akademiya səviyyəsinə qaldırdı. Biz hamımız onun məktəbinin yetirmələriyik. Boynumuzda çox böyük haqqı var. Qarikcan, varis olaraq bu gün səni onun yerində görmək istəyirik. Aramıza xoş gəldin.

Hamısı ayağa qalxdılar, hər biri sağ əlini sinələrində olan erməni xaçının üstünə qoyub təzim etdilər, sonra xaç vurdular, əlini sıxıb yenidən yerlərində oturdular.

Qəribxan hələ işin mahiyyətini tam anlamasa da, çətin və məsuliyyətli olduğunu başa düşürdü. İndi anlayırdı ki, babası onu niyə cəzalandırmaq istəyirdi. Bu yoldan geri çəkilmək mümkün deyil, xəyanət isə ən azı həyatın bahasına başa gəlir.

Gizli iclas gecə yarıya kimi davam etdi. Təlimatlarla onu tanış etdilər, gələcəkdə nə etməli olduğunu Yerevandan alacağını bildirdilər.

# V FƏSİL

Ertəsi gün bu xəbər kəndə ildırım sürəti ilə yayıldı. Qurgenin ölümü, Qəribxanın onun əvəzinə ermənilər tərəfindən rəhbər seçilməsi hamıda böyük marağa səbəb oldu. Lakin heç kim bunu ciddi qəbul etmədi. "Qurgenin özü nə idi ki, nəvəsi Qəribxan nə olsun" dedilər. Hətta bəziləri bu hadisəni rəğbətlə qarşıladı. "Necə də olsa atası azərbaycanlıdır, Misirxanın oğludur, bir onlar tərəfdə olanda iki biz tərəfdə olacaq" deyə düşünənlər də oldu. Kənddə bir neçə nəfərdən başqa heç kim bunu ciddi qəbul etmədi. "Damarında azərbaycanlı qanı axır" dedilər.

Axşamüstü Kərəm Bərxudarın həyətdə olduğunu görüb çəpəri aşıb onun yanına gəldi. Telli samovarı yenicə yandırmışdı. Onlar tut ağacının altında oturub siqaret yandırdılar. Kərəm "Avrora"dan dərin qullab aldı, fikirli görünürdü.

– Kərəm, gözümə birtəhər dəyirsən, nə olub?

– Eşitmiş olarsan, Qurgen öldü.

– Hansı Qurgen? – Bərxudar təəccüblə soruşdu.

– Susannanın atasını deyirəm.

– Hə ə, o Susanna... İndi neyləyək, deyirsən nəsilliklə yığılıb gedək başsağlığına... Bəlkə bir molla çağırtdırıb "Yasin" də oxutduraq.

Kərəm Bərxudarın kinayəli sözlərini qulaqardına vurdu. Hər ikisi susdu, Telli süzülmiş çayları sinidə gətirib masanın üstünə qoydu. Əlindəki əski ilə masanın üstünü sildi. Cahandar atasının sağ tərəfinə sığındı.

– Ay Kərəm qardaş, nə olar bu siqareti bir az azaldın, zəhrimarın iyi eyvanda adamın başını ağrıdır. – Cahandara tərəf döndü – Dur Cahan, dur gedək yat, bunlar səhərə qədər oturacaqlar.

Kərəm cavab verməyə macal tapmadı, Bərxudar onun sözünü ağzında qoydu.

– Dərd çəkməkdənsə, siqaret çəkmək yaxşıdır arvad. Sən get öz işinlə məşğul ol, kişi işinə qarışma, min kərə demişəm sənə. Uşağa da dəymə qoy otursun, oğlan uşaqları kişilərin içində nə qədər çox olsa o qədər yaxşıdır.

O zaman Cahandarın yeddi-səkkiz yaşı olardı. Telli getdi, Kərəm çay dolu stəkanı əlində fırladaraq fikirləşir, deyəcəklərini götür-qoy edirdi. Nəhayət ki, danışdı.

– Sən demə, Qurgen bu tərəflərdə olan ermənilərin başçısı imiş, deyirlər yasına Rusiyətdən, Bakıdan,Yerevandan gəlibmişlər, yerinə də nəvəsi Misirxanın oğlu Qəribxanı qoyublar.

Bərxudar bəkdən qəhqəhə çəkdi.

– Özü nə idi ki, közü nə olsun. Bir də ki, ay Kərəm bu məlumatlar səndə hardandır? Yoxsa sən də onlarla əlbirsən? – yenidən güldü.

Bərxudar elə bir adam idi ki, heç nəyi vecinə alan deyildi, işi görər, düz və ya səhv etdiyini sonra fikirləşərdi. Kərəm onun zarafatından alınsa da xasiyyətini bildiyi üçün dərinə getmədi. Yenə də sükutu Bərxudar pozdu.

– İlanın ağına da lənət, qarasına da. Hamısı bir zibildir. Elə bilirsən o babasından geri qalacaq? Ay qaldı ha...

– Baxma da, atası azərbaycanlıdır. Bir dəfə imam üçün ağlasa, heç olmasa bir dəfə də yezid üçün ağlayar.

– Eh Kərəm!... Sən bunları yaxşı tanımırsan. Yenə

babası erməniydi, bilirdik ki, kimdir. Bu it uşaqları isə yüz dərənin suyundan əmələ gəliblər, millətləri də məlum deyil, sağı, solu bilinməz bunların Kərəm. Bunlar sapı bizdən olan baltalardır...

– Nə bilim qardaş, düzünü Allah bilər.

– Bunlar şeytana xidmət edirlər Kərəm, bəzən babaları İblis də çaşıb qalır.

– Nə deyim Bərxudar, Allah özü köməyimiz olsun, bu millətə rəhm etsin. Daha gecdir, mən gedim.

– Gecən xeyrə qalsın qardaş, hər şeyi ürəyinə salma. Atalar yaxşı deyib: "Dəyirman öz işindədir, çaxçaxı baş ağrıdar."

Kərəm getdi, Bərxudar Cahandarın əlindən tutub eyvana qalxdı.

* * *

İsti yay günlərində gündüzlər havanın bürkü olmasına baxmayaraq, gecələr çox sərin keçirdi. Yayın gəlməsi ilə camaat çardağlara köçür, ən azı eyvanda yatırdılar. Səhərə yaxın dağların sərini onların kəndinə də gəlib çatır, heç zaman yorğanı dəbdən düşməyə qoymurdu. Sərin havada isti yorğanın altında büzüşüb yatmağın ləzzəti Cahandarın yaddaşına birdəfəlik hopmuşdu. Kənddən çıxandan sonra yeni həyata heç cür alışa bilmir, ən çox o günlər üçün darıxırdı.

Deyirlər pis günün ömrü az olar, amma nədənsə bunun ömrü çox oldu, deyəsən lap çox oldu, ağır məşəqqətə dönüb Cahandarın ömrünü də ötüb keçdi. Bəzən ona elə gəlirdi ki, bu sonsuz və əbədi olacaq, bir daha xoş gün olmayacaq.

Kənddəki həyətlərini xatırlamaq üçün köçkün kimi gəldiyi həyətdə də tut ağacı əkdi. Çətinliklə olsa da bir

otaq və mətbəxdən ibarət ev də tikdi. Sağ olsun Kərəm kişini, ahıl yaşlarında əlindən gələn hər köməyi etdi onun üçün, indi daha o da yoxdur. Yeganə təsəlli alacağı bu tut ağacıdır ki, o da kənddəkinin yerini vermir. Elə bil bir az sərinliyi az, meyvəsi dadsızdır. Bəlkə də belədir, ya da ki, Cahandar kəndi tərk edəndən sonra ağzının dadı qaçıb, anlamırdı. Təkcə onu bilirdi ki, bu tut ağacı onun həyatının bu gününü deyil, keçmişini xatırladır, hər anını bir daha yaşadır. Yenidən keçmişə qayıtdı...

Həmin hadisədən bir neçə gün sonra atası Bərxudar Ağdama yük aparıbmış, qayıdan zaman yolun kənarında Qəribxanın bir neçə erməni ilə dayandığını görür, su içmək bəhanəsi ilə maşını saxlayır. Su içib maşına qayıdan zaman Qəribxan ona yaxınlaşır.

– Qardaş, kəndə gedirsənsə məni də götür.

Bərxudar əvvəlcə onu, sonra isə bir az aralıda dayanan erməniləri başdan ayağa süzür.

– Özünü yaxşı aparsan götürərəm.

– Barxudarcan, mən özümü nə vaxt pis aparmışam ki?...

Bərxudar onu tərs-tərs süzür.

– Amma heç yaxşı apardığını da görməmişəm. Otur, gedək.

Bir müdddət heç biri danışmır, birdən Bərxudar ona tərəf dönür.

– Ağzında nə var?

Qəribxan diksinib çaşqın halda deyir.

– Heç nə.

– Onda niyə susursan, danış görək nə işlə məşğulsan, son zamanlar görünüb eləmirsən?

– Rayonda işləyirəm, tikinti idarəsində, kənddə az oluram.

Əslində onun nə işlə məşğul olduğunu Bərxudar yaxşı bilirdi, yenə də özündən eşitmək istədi.

– Nə işləyirsən tikinti idarəsində?

– Rəis, rayonda tikintinin rəisiyəm.

– Baho, böyük adamsanmış ki.... Ayə sən haranı oxudun ki, gedib orda rəis oldun?...

Qəribxan tutuldu, dili dolaşa-dolaşa dedi:

– Yerevanda.., politexniki bitirdim.

– Əşşi, bəyəm Azərbaycanda o insitutdan yox idi ki? Gərək gedib erməni dilində oxuyaydın?

– Sənə qurban olum, mən nə biləydim.., mən o zaman uşaq idim. Göndərdilər...

– Elə uşaq olanda adamı aldadırlar da. Vaxtında normal uşaq olmamısan, olsaydın sən də bizim kimi olardın. Bir də eşitmişəm səni ermənilər özlərinə başçı seçib, belədir?

Onsuz da sorğu-sualdan boğazı qurumuşdu, bu söz qulaqlarında tərs sillə kimi səsləndi, nə deyəcəyini bilmədi. Bərxudar onu qınayıcı baxışlarla süzdü.

– Birdən yenə aldadarlar səni, hətərən-pətərən işlərə baş qoşarsan ha a... Sonra yenə demə ki, mən onda uşaq idim... – Bərxudar bu sözləri uzada-uzada və xüsusi vurğu ilə dedi.

Araya yenə dərin sükut çökdü. Qəribxan ürəyində yolun tez bitməsini arzulayırdı, lakin çölün ortasında da düşə bilməzdi. Rayonun girişinə çatar-çatmaz düşdü, əlini cibinə salıb pul vermək istədi.

– Pul lazım deyil, ağlın özününkülərə getməsin.

O əlini sinəsinə qoyub baş əyməklə təşəkkür etdi. Bərxudarın əlindən belə asanlıqla qurtardığına görə sevinirdi. Uzaqlaşan maşının arxasınca baxıb düşündü. “Az qalıb vaxtınıza, türk köpək oğlu.”

* * *

Yenə həmin günlərdən biri idi. Kərəm çəpəri aşıb gəlmişdi, həyətdə samovar, masanın ətrafında isə onların "Avrora"sı tüstülənirdi. Telli ilə Tamamın bir yerdə dayandığını görmək olmurdu. Telli samovara baxır, Tamam stəkanları silir, siniyə düzürdü. Balaca Gülərlə İradə eyvanın bir küncündə sərilmiş palazın üstündə atasının aldığı gəlinciklə oynayırdılar. Cahandar yenə atasının yanında oturmuşdu. Həyətdən Bərxudarın səsi gəldi.

– Cay nə oldu, çox gözləyək? Boğazımız qurudu ki...

– Hazırdır, gətirirəm. Bu kişinin bir damcı hövsələsi yoxdur də, ay başına dönüm – deyə Telli deyinərək evə qaçıb bir ovuc konfetlə qayıtdı. Həyətdəkilərə çay süzdü, samovarı onların yanına qoydu, özləri üçün də süzüb eyvana qalxdı.

– O gün Ağdama yük aparmışdım, qayıdanda sizin o qurumsağı yolun kənarında qohumları ilə birlikdə dayandığını gördüm. İstədim götürməyəm, amma insafım yol vermədi. Saxlayıb götürdüm, rayonda düşdü.

– Kimdən danışırsan a kişi, hansı qurumsağ?

– Sizin o Qəribxanı deyirəm.

– Eh h, Bərxudar, Bərxudar... Yenə başladın tikanlı danışmağa. O qurumsağ hardan bizim oldu ki?...

– Nə bilim, vallah. Harda ondan danışıramsa, hamı onu müdafiə edir, hamı deyir ki, Misirxanın oğludur, heç Susannanın adını çəkən yoxdur. Qurana əl basaram ki, Misirxandan onda əsər-əlamət yoxdur, Susannanın onu hardan qazandığını bir özü bilir, bir də Allahı. Haranı oxudu heç kim bilmədi, oturub tikinti idarəsində, rəisdir.

– Olacaq da, Susanna kimi anası var. Bir də səni o niyə maraqlandırır? Onun kimisi bilirsən nə qədərdir bizdə? İtə daş atırsan gedib onlara dəyir. İndi daha o zaman gedib qardaş, milli mənsubiyyətlik yavaş-yavaş yaddaşlardan silinir. Amerikada heç kim ingilis, fransız, portuqal, ispan demir özlərinə, orada hamının bir milləti var, amerikalı. Biz də yavaş-yavaş ona doğru gedirik.

– Eh! Kərəm, Kərəm... mən yollardayam, məndən soruş bu millətin hara getdiyini. Unutma ki, bütün millətlər sizin dediyiniz kimi "amerikalı" olsalar da, ermənilər elə erməni kimi qalacaq. Allah erməniləri bir bəla göndərib yer üzünə. Hər yeri qarışdırırlar. Elə bilirəm ki, bir azdan əlləri buralara da çatacaq.

– Sən bu erməni faktorunu çox şişirdirsən Bərxudar, üç milyon da yoxdurlar, inan ki, tüpürsək qalarlar altında.

Bərxudar çayını içib yenidən süzdü, fikirli halda Kərəmə baxdı.

– Mən onların sayında deyiləm qardaş, dünyanı görmüşük, az yaşımız yoxdur, hərəmiz yarım əsr addamışıq. Mən bu kənddən düz Vladivostoka qədər getmişəm, hər millətdən görmüşəm. Amma heç bir yerdə erməni kimisinə rast gəlməmişəm. Onlar üçün müqəddəs bir şey yoxdur, lazım olsa qızlarından, arvadlarından da keçirlər. Gözümüzün qarşısında Qurgeni görmədin? Qızı Susanna hələ də sağa-sola çapır. Oğlu Qəribxan və onlardan törəyənlər elə bilirsən azəridirlər? Yox, vallah yox. Onlar ermənidən də betərdirlər. Özün dediyin kimi beləlləri gör bizim kənddə nə qədərdir Kərəm? Bunların hamısı düşünülmüş planın bir hissəsidir, biz isə bunu qulaqardına vururuq.

– Sən çox böyük məsələlərdən danışırsan, onları mənim başım qəbul etmir, etsə də bir şey düşünüb orta-

ya çıxara bilmirəm, bir də ki, Qəribxanı hər dəfə beşillik plan kimi gözlərimə soxma, doğrudan da o yazığın biridir.

– Biz hələ də yuxudayıq, onların çaldığı laylayla yatırıq, bir də oyanacağıq ki, Qəribxan kimilər başımızın üstündə əlində silah dayanıb, bax o zaman gec olacaq. O zaman mənim bu sözlərimi yadına salarsan.

Cahandar o zaman uşaq idi, deyilənləri dərk etməsə də hamısı yadındaydı, atası tez-tez bu barədə Kərəm kişi ilə danışardı. Onun ölümündən beş il sonra dediklərinin hamısı düz çıxdı. Qarabağ böyük bir "qara dağa" dönüb onların başına uçdu. Qəribxan kimi yarı erməni olanlar hər yerdə at oynatmağa başladılar. Onlar hakimiyyət orqanlarında, güc strukturlarında, məhkəmə və hüquq müdafiə komitələrində yer tutaraq bu millətə öz vətənlərində də rahatlıq vermirdilər, sözün həqiqi mənasında zülm edirdilər.

Öz doğma kəndindən didərgin düşmüş Kərəm kişi, hər cümə axşamı yaxınlıqdakı məscidə gedər, Bərxudarın ruhuna "Yasin" oxutdurardı. İştirak etdiyi bütün məclislərdə də deyərdi.

– Onun ayağı bildiyini bizim başımız bilmirdi. Vallah, o kişi o zaman bu günümüzü görürdü. Allah ona qəni-qəni rəhmət eləsin.

# VI FƏSİL

Qəribxan Bərxudardan bu qisası almaq üçün plan qurur, gecələr yata bilmirdi. Yerevandan qayıdandan sonra babası Qurgenin onu nə üçün cəzalandırmaq istədiyinin səbəbini indi başa düşürdü. "Bunların hamısı birdir, bir balaca başı işləyənlərin başını üzməsək, heç nəyə nail ola bilmərik." – deyə düşündü. İndi babasına haqq qazandırır, onun kimi qəddar olmağa çalışırdı.

Hələ uşaq ikən şahidi olduğu bir hadisəni xatırladı. Soyuq qış günlərindən biri idi, qar hər tərəfi ağ örpəyə bürümüşdü. Qəribxan bərk xəstə idi, qızdırmadan gözlərini aça bilmirdi. Babasının ikimərtəbəli evində yalnız bir otaqda odun sobası yandığı üçün sobanın kənarında onun üçün yataq düzəldib, üstünə qalın yorğan örtmüşdülər.

Babası bir neçə gün idi ki, çox dilxor idi, heç kimlə danışmır, qalın kürkünü geyinib həyətdə mənasızcasına fırlanır, üşüyəndə içəri keçib sobanın qarşısında oturub elə hey nə barədəsə düşünürdü. Yetmişinci illər idi. Sovet dövləti yerə, göyə sığmırdı. El arasında deyirdilər ki, "Sovet höküməti dovşanı araba ilə tutur."

İndi Qəribxan başa düşürdü ki, sən demə, Sovet dövlətinin dovşan tutan arabasını elə onun babası Qurgen idarə edirmiş. Ona görə də onun sözünün qarşısına söz deyən yox imiş, istədiyini edirmiş Qurgen.

Qızdırma içində yatan Qəribxan qapının səsinə oyandı. Lakin özünü yatmışdığa qoyub tərpənmədi. Gələn üç nəfər, onun tanımadığı ermənilər idi. Onlar

içəri keçəndə babası işığı söndürdü, pərdələri bağlayıb masaüstü lampanı yandırdı. Gələnləri otaqda qoyub bayıra çıxdı. İçəridəkilərin biri erməni dilində onun arxasınca söyüb narahatlıqla o birilərə dedi:

– Qoca köpək bizi evə salıb hara getdi?..

– Sus ara, yatan var.

– Olsun da. – Əlini sinəsindən asığı xaçın üstünə qoydu – And içirəm ki, o bizim hamımızı qara qəpiyə satar, heç uf da deməz. Siz bu qoca tülkünü tanımırsınız. Bir də gördün, KQB içəri soxulub hamımızı qol-boyun etdi.

– Bəsdir, Karen. Bu qədər ağciyər olma.

Qapı açıldı Qurgen qucağında odun parçaları içəri keçdi.

– Sizi bir az gözlətdim, indi heç kimə etibar qalmayıb, it uşaqları hər addımımızı izləyirlər. Gələndə sizi görən olmadı ki?

– Yox, bu soyuqda bayırda donuzu quyruğundan bağlasan, qırıb qaçar. Deyəsən, otaqda bizdən başqa da adam var?...

Qurgen əlini yellətməklə narahat olmamaq işarəsi verdi.

– Nəvəmdir, Qarik. Yazıq uşaq üç gündür ki, qızdırmadan gözlərini aça bilmir. Niyə gec gəldiniz? Mən sizi axşamdan gözləyirdim. Dedim daha gəlməzsiniz...

– Deyəsən, çöldən xəbərin yoxdur qoca? Oturmusan isti sobanın qırağında, elə bilirsən ki, hamı sənin kimidir. Sözünü de, niyə çağırmısan bizi, çox vaxtımız yoxdur, getməliyik.

– Sözüm budur ki, kəndin içində Musa adında bir türk var, ara qansızın biridir, onu aradan götürmək lazımdır, amma bir az ehtiyatlı olmanız gərəkdir. Duyuq düşsələr, hökümətin əlindən qurtara bilərik, onla-

rın əlindən isə fələk də qurtara bilməz bizi, nəslimizi kəsərlər.

– Yaxşı uzatma, düş qabağa göstər görək.

– Bir az ehtiyatlı olmalısınız, həyətdə yekə bir it də var. – Deyə Qurgen hər şeyi təfsilatı ilə başa salmağa çalışdı.

– O mənlikdir – deyə o biri erməni dedi.

Qurgen masanın üstündəki lampanı söndürdü. Dördü də tələsik evdən çıxdılar. Qəribxanı maraq bürüdü. Yerindən durdu, pərdəni azca aralayıb həyətə baxdı. Onlar əllərində dolu yanacaq qabları həyət qapısından çıxdılar. Qayıdıb yerinə uzandı, gözünə yuxu getmədi, babası təxminən bir saatdan sonra qayıtdı. Qucağında odun otağa keçdi. Sobanı odunla doldurdu. Sonra pərdəni çəkib pəncərədən küçəyə baxmağa başladı. Bir azdan o biri küçədə yanan evin alovunun işığından evin içi işıqlanırdı.

– Yanın, turk köpək oğlu.

Babası heç nə olmayıbmış kimi yerinə uzandı...

* * *

Qəribxan Musanı yaxşı tanıyırdı, dolu bədənli, hündürboy bir kişi idi, kənddə sanballı adamlardan sayılırdı, sözü hamının yanında keçirdi. Bir neçə ay əvvəl babası briqadasında olan Zərnigarı incitmiş və xəbər Musaya çatmışdı. Kəndin mərkəzində idarənin qarşısında günün günorta çağı, hamının gözləri önündə Musa Qurgenin üstünə yeriyib ona tutarlı bir şapalaq vurmuşdu. Qurgen də hesabı içəri verib heç nə deməmiş, yerə düşən papağını götürüb, zarafata salmışdı.

– Ara kirvə, ürəyin soyudu? Sən Allah soyumadısa gəl birini də vur.

Camaat onun sözlərinə gülmüş, hətta Musanı etdiyi hərəkətə görə qınayanlar da olmuşdu. Musa isə heç kimə fikir vermədən demişdi:

– Məndən sənə kirvə olmaz Qurgen, ağlını başına yığ, bir də belə hərəkət etsən, cəzan daha ağır olacaq. Heç kim qeyrətini çöldən tapmayıb. Kimisə sahibsiz görüb it kimi üstünə hürmə... Unutma ki, gördüyün o küçə itlərinin də sahibi var.

Sonra onu qınayanları tərs-tərs süzüb getmişdi Musa.

Payızda dəyən şapalağın cavabını heç kim şübhələnməsin deyə, babası qışın oğlan çağında, Musa ilə arasını düzəldəndən sonra verdi. Özü də şapalaqla yox, evini yandırmaqla. Musanın evlə birlikdə bütün ailəsi diri-diri yandı. Həyətində mal-qarayla dolu tövləsi, ot tayası da yandı. Təkcə Musa özü qonşu rayonda olduğu üçün təsadüfən sağ qaldı. Bir gün sonra evinə dönəndə yurdunun külünü görən Musa havalandı, ömrünün sonuna kimi dəli olub küçələrdə gəzdi, bir daha özünə yurd-yuva qura bilmədi. Tez-tez qoca ata-anasının, iki körpə balasının və həyat yoldaşının məzarına çevrilmiş həyətinə baş çəkər, həyət qapısının direyinə söykənib için-için ağlayardı.

Belə bir dəhşətin şahidi olan Qəribxan uzun müddət özünə gələ bilmədi. babasının insana layiq olmayan hərəkətini bağışlaya bilmirdi. Hətta arabir kəndə car çəkib hamıya demək istəyirdi bu ürəyini deşən sirri. Lakin hər dəfə babasının heç kimə güzəşt etməyən sifəti gözləri önünə gəlir, onu fikrindən döndərirdi. Sonradan öyrəndi ki, belə işlər babasının gündəlik işi imiş, demə türk saydığı həmkəndlilərinin başına çox belə müsibət-

lər gətiribmiş babası.

Yerevanda təhsil adı ilə onlara məhz belə planların həyata keçirilməsini öyrədirdilər. Qəribxan bu mühitdə yaşayıb belə həyata öyrəşdi və babasından sonra daha məkrli planların həyata keçirilməsinə rəhbərlik etdi...

Həmin gün təsadüfən anasının tam vaxtında gəlib çıxması babasının daha bir məkrli planının həyata keçirməsinə mane oldu. Qurgen qızından çəkindi və müvəqqəti olaraq planını təxirə saldı.

Qəribxan yaxşı bilirdi ki, babası onun üçün düşündüyü planı gec ya tez həyata keçirəcək, onu Musadan da dəhşətli aqibət gözləyir. Babasının qəfil və müəmmalı ölümü onu başına gələcək bəlalardan xilas etdi, üstəlik illərlə həsrətində olduğu və can atdığı regionda "birinci erməni"yə çevirdi.

İndi Bərxudar kimi sadəlövh bir türkün qarşısında aciz qala bilməzdi. Tez bir zamanda onu aradan götürmək üçün planlar düşünməyə başladı.

Həftədə bir dəfə hər bazar günü babasından ona miras kimi qalan gizli təşkilatın yığıncağı keçirilirdi. Yığıncaqda bir dəfə deməyi bəs edərdi ki, Bərxudar aradan götürülsün. Bu planları həyata keçirmək üçün xüsusi təlim keçmiş qrup var idi. Qəribxan onları tanımasa da necə qəddar olmalarından xəbərdar idi. Yığıncağı milisin və KQB-nin təqibindən yayındırmaq üçün hər dəfə ayrı-ayrı yerlərdə keçirirdilər.

Bu gün həftənin bazar günü idi. Qarakənddə yığılmalı idilər. Bugünkü iclasda Bərxudar haqqında "qərar" verildi. Yığıncaqdan dörd gün sonra Qəribxanın bədxah planı həyata keçirildi.

* * *

Bərxudar həmişə olduğu kimi səhər ertədən oyandı. Onun işlədiyi MTS-in baş idarəsi Stepanakertdə yerləşirdi. Ayda bir dəfə həmin idarəyə baş çəkməli, maşın üçün ehtiyat hissələri və rayona lazım olan yükü gətirməli idi. Maşının yağına, suyuna baxdı, yanacağını yoxladı, qabaq və yan şüşələrini sildi. Telli yemək və termosda çay gətirib verdi. O zaman evin ilki və yeganə oğlu Cahandar Bakıda ikinci kursu bitirirdi.

Axşamdan yağan çiskin yağış hələ də kəsməmişdi. Ertədən yola çıxdığına görə hələ ki yol boş idi. Yağışlı yol sürüşkən olduğu üçün "Qaz-53" asta sürətlə Ağdamı keçib Əskərana tərəf irəliləyirdi. Uzaqdan iki nəfərin yol kənarında dayandığını gördü. Belə havada kimisə yolda görüb götürməmək onun xasiyyətinə uyğun deyildi. Lakin ermənilərə nifrət etdiyi üçün beynində götür-qoy edirdi. Yaxınlaşanda dayananlardan birinin qadın olduğunu görüb maşını saxladı. "Belə havada qadını yağış altında qoyub getmək kişilikdən deyil" deyə düşündü.

– Qardaş, bizi qarşıdakı kəndin yanına kimi aparарsan?

– Oturun. Heç bir insafsız belə havada sizi yolda qoymaz.

Yolboyu heç kim danışmadı, Ağdam-Şuşa yolunda Əskəranı keçəndən sonra kəndlərə ayrılan yolayrıcında kişi maşını saxlamağı xahiş etdi. Bərxudar maşını saxladı. Kişi əlini cibinə salıb pul çıxarmaq üçün eşələndi.

– A kişi, düşün, pula görə götürmədim sizi. Düş get.

Elə bu zaman Bərxudar tərəfdən qapı açıldı, bir nəfər əlini onun boynuna salıb maşından aşağı salma-

ğa çalışdı. Gözləmədiyi zərbədən yıxılmaqdan özünü birtəhər saxladı, yerə düşüb özü kimi bədəncə böyük bir erməni ilə əlbəyaxa oldu. Arxadan küt alətlə başına dəyən zərbədən səndələdi və yıxıldı. Arxadan onu vuranın maşında gətirdiyi həmin o ermənin olduğunu görüb qəzəbindən qışqırdı. Yerə uzalı halda əlini atıb onun ayağından tutdu, özünə tərəf dartıb burdu. Erməni qışqırıb yoldaşlarını köməyə çağırdı, lakin gec idi, artıq Bərxudarın kəlbətinə bənzəyən barmaqları onun boğazını sıxırdı. Sıxılan barmaqlarının arasında onun udlağının və nəfəs borusunun necə qırıldığını hiss etdi. Ayağa qalxmaq istədi, özünü çatdıran yekəpər erməni üstünə şığıdı. Bir-birinə sarılıb palçıqlı yerdə sürünürdülər. Bərxudar bütün gücünü toplayıb palçıqlı əli ilə onun sifətinə bir şapalaq vurdu. Zərbənin təsirindən və gözlərinə dolan palçıqdan erməni arxası üstə çökəyə aşdı. Bərxudar belə imkanı əldən buraxmadı. Son gücünü toplayıb onu çökəkdə yaxaladı. Hər ikisi gücdən düşmüşdü. Erməni başını qolları arasına alıb zərbələrdən qorunur, Bərxudarın üzünün sərtliyindən vahiməyə düşüb bütün gücü ilə qışqırırdı.

Maşında olan qadın hələ də xırıldayıb can verən ərini yolun kənarına sürüdü, pencəyini çıxarıb başının altına qoydu. Yekəpər ermənin harayını eşidib onlara tərəf döndü, türkün sol əli ilə onun sinəsindən yerə sıxıb, sağ əli ilə başına zərbələr vurduğunu gördü. Yerdə olan ağac parçasını götürdü. Bütün gücü ilə onun başına endirdi. Zərbənin təsirindən Bərxudar huşunu itirdi, huşsız halda torpağa sıxdığı ermənin üstünə düşdü. Yekəpər erməni onun altından çıxdı. Ağır addımlarla həyəcandan və qorxudan büzüşən qadına yaxınlaşdı, əlindəki ağacı alıb geri döndü. Bayaqdan onu öldürmək istəyən Bərxudarın başına daha bir neçə zərbə endirdi.

Bərxudar hələ ölməmişdi, gözləri bağlı olsa da, ətrafda nəyin baş verdiyini hiss edirdi. Bir az sonra əllərini arxasında bağladılar. Çətinliklə olsa da maşına qoyub kənd yolu ilə sürüb getdilər. Bərxudarı sükanın arxasına oturdub içəri benzin tökdülər, sonra maşını yandırıb qayadan aşağı buraxdılar.

İki gün sonra Bərxudarın yanmış meyidi dərənin dibindən tapıldı. Cinayət işini Stepanakert prokurorluğu aparırdı. Adi yol qəzası kimi işi bağladılar. Cinayətkarlar heç bir iz qoymamışdılar...

# VII FƏSİL

Cahandar arabasını tut ağacının gövdəsinə söykəyib gözlərini yummuşdu, kənardan baxan onun yatdığını zənn edərdi. Ürəyindəkiləri bölüşməyə həmdərd tapmayanda saatlarla belə qalardı, elə bil bu dünyada tək o idi, bir də tut ağacı. Sanki ağac onun dərdindən su içir, gündən-günə böyüyürdü, dərd ağacı olduğu üçün kölgəsi də, meyvəsi də dərd dadırdı.

Orta məktəb illərində öyrəndiyi xalq qəhrəmanlarına da inanmırdı. Koroğlunu, Babəki uydurulmuş mif sayırdı. Bəzən Allahın da varlığına şübhə edir, hansı hissin təsirindənsə tez də bu fikrini təkzib edirdi.

Bir gün kəndin məsçidinə gedib molla ilə həyətdə xeyli söhbət etdi, onun üçün qaranlıq olan çox mətləbi aydınlaşdırdı. Kəndin mollası Məhəmməd orta yaşlı Qarabağ qazisi idi, savadlı və dünyagörüşlü bir adam idi.

– Başımıza gələn bəlaların səbəbi nədir, niyə biz müsəlman ola-ola Allah bizdən üz döndərib, kafirlərin əlində aciz qalmışıq?

– Deməli biz yaxşı müsəlman deyilik.

– Yaxşı müsəlman olmaq üçün nə etməliyik?

– Ən azı yaxşı ibadət etməliyik.

– Məhəmməd, verdiyin cavablar qane etmir məni, biz ən azı müsəlmanıq, ancaq kafirlərə uduzuruq. Bunun bir köklü səbəbi olmalıdır.

– Allahu Təalə bizi insan olaraq yaratdı, mələkləri bizim qarşımızda endirdi, bizim üçün yer kürəsini döşə-

di, gördüyümüz nə varsa hamısını bizim üçün yaratdı, bizi müsəlman etdi, bizə müqəddəs kitabı – Quranı göndərdi, bizdən nə istədiyini açıq-aydın bildirdi. Bizi etdiyimiz və edəcəyimiz günahlardan çəkindirmək üçün cənnət və cəhənnəmi yaratdı. Bizdən yalnız ona ibadət etməyimizi istədi. Biz bir insan, bir müsəlman olaraq Onun istədiklərinin kiçik bir qismini edirikmi? Yox, etmirik, etmək də istəmirik. Günahların içində batırıq. Başımıza gələnlər üçün köklü səbəb axtarırıq. Bundan da böyük səbəb olmalıdır.

Axşam düşənə qədər söhbət etdilər, mollanın dedikləri onun beyninə batmırdı. Gecə sübhə qədər arxası üstə uzanıb tək Rəbbi olan Allahla danışır, suallar verir, lakin cavab tapmayınca narahat olurdu. Tərki dünya olmuşdu Cahandar, bu dünyadan qopub Allahın bəxş etdiyi əbədi dünyada qərar tutmaq istəyirdi. Bu hisslərin təsiri altında tez-tez üzünü Rəbbinə tuturdu.

– Əgər sən varsansa, başımıza gələn bu müsibətlərə niyə göz yumursan. Axı mən müsəlmanam. Sənin istəyin olmadan bir yarpaq da ağacdan düşmür. Səhvimiz nədədir? Nə zaman və harada səhv etmişik? Mənə bir işarə göndər, Ya Rəbbim.

Sübh çağı yuxuya gedər, günəş qalxandan sonra yuxudan durar, həmişəki kimi yeni bir günə başlayardı. Ona elə gəlirdi ki, bir gün yuxuda da olsa verdiyi sualların cavablarını tapacaq.

Yenə tut ağacının kölgəsi, yenə keçmiş xatirələr...

* * *

Həmin gün Qəribxan idarəyə gəlmədi, günortadan sonra Cahandar adəti üzrə bir neçə iş yerlərinə baş çək-

di. Evləndiyi iki ay idi, işi bitirən kimi evə can atırdı. Bu gün də işin sonunda idarəyə baş çəkdi. Erməni əsilli katibə hələ də idarədə idi.

– Cahandar, günortadan sonra sizi raykomdan axtarırlar, gün ərzində bir neçə dəfə zəng ediblər, nə zaman gəlsəniz onlara zəng etməyinizi dedilər.

Otağa keçib telefonla rayon partiya komitəsini yığdı, növbətçi milis birinci katibin onu gözlədiyini və tez katibin qəbuluna gəlməsini dedi. Hazırlaşıb çıxmaq istəyirdi ki, yenidən zəng gəldi. Həmin milis idi.

– Siz hazır olun, arxanızca maşın gəlir.

– "Allah xeyir eləsin, görəsən nə etmişəm, arxamca maşın da göndərirlər?" – deyə düşündü.

Çox çəkmədi ki, həyətdə raykomun maşını dayandı. Bir neçə dəqiqəlik yolda ağlına gəlməyən fikir olmadı.

Birinci katib onu ayaq üstə qarşıladı, əl tutub görüşdülər, yerinə keçib Cahandara da oturmaq üçün yer göstərdi. Katib kifayət qədər yaşlı və kök adam idi, lakin hərəkətləri qıvraq olduğunu biruzə verirdi.

– Muradov, günortadan sonra indiyə kimi səni axtarmışıq, bir tikə çörək olub yoxa çıxmısan.

– Yoldaş katib, iş yerlərinə baş çəkməyə getmişdim, qayıdan kimi məni axtardığınızı dedilər...

– Yəqin çay içmək istəyirsən – durub masanın üstündəki elektrik samovarını qoşdu, dolabdan stəkanları və konfet dolu qabı gətirdi. Cahandar etiraz etmək istədi, lakin o əlinin işarəsi ilə oturmasını göstərdi. Nəyisə xatırlamış kimi onun üzünə baxdı. – Hə, əsas mətləbdən uzaqlaşdıq, son zamanlar yaddaşım axsamağa başlayır. Deyəcəyim sözü unuduram. Muradov, səninlə açıq danışmaq istəyirəm, bir ağsaqqal kimi, ata oğul kimi. Elə bilirəm ki, bu gün bizim hamımızın buna ehtiyacı var,

rayonun hazırkı durumunu yaxşı bilirsən. Qocaman dövlət dəniz kimi çalxalanır, nə baş verir bir Allah bilir, hamı çaşqın haldadır. Sabah nə olacaq heç kimin ağlına gəlmir. SSRİ kimi bir dövlətdə ermənilər at oynadır, bütün respublikada vəziyyət çox gərgindir və günü-gündən kəskinləşir. Bizim rayonda isə dözülməz həddədir. camaat qorxusundan evdən çölə çıxa bilmir, bu gündən sabaha ümid yoxdur. Sizin kənd ermənilərlə qarışıq olduğu üçün sən bunları daha yaxşı bilirsən. Əlbəttə ki, biz tədbirlər görürük, misalçün bu məqsədlə bir müddət əvvəl yerli camaatın köməyi ilə xüsusi polis dəstələri yaratdıq. Bu o zaman üçün kifayət edirdi, zaman keçdikcə vəziyyət daha da kəskinləşdi, indi baxırıq ki, bu da kifayət etmir, əlavə tədbirlərə ehtiyac var. Daha nələr etməliyik və ya edə bilərik onu da düşünməliyik.

Dayanıb onun üzünə baxdı, sözlərinin necə təsir etməsini yoxlayırmış kimi xeyli susdu, süzdüyü çayları masanın üstünə qoyub onunla üzbəüz oturdu, hələ də susurdu, elə bil nəyi isə götür-qoy edirdi. Cahandar rayonun birinci adamının məsuliyyətini başa düşür, lakin bu dar ayaqda niyə ona hesabat verdiyini anlamırdı. Nəhayət ki, danışdı.

– Fikrimiz var ki, özünümüdafiə dəstələri yaradaq və səni ora komandir təyin edək. Bu mənim fikrim deyil, dünən rayonun və sizin kəndin ağsaqqalları ilə söhbət etdik, hamı səni deyir. Rəhmətlik atanın böyük hörməti olub camaat arasında.

Cahandar təklifdən diksindi, etiraz etmək istədi, gücü çatmadı, atasının adı çəkilmişdi, etiraz etməklə onun ruhuna xəyanət edəcəyini düşündü, nə deyəcəyini bilmirdi. qarşısındakı ağ saçlı, nurani adam gözlərini ağzına dikib cavab gözləyirdi.

– Yoldaş katib, bildiyim qədər bu elə də asan bir iş

deyil. Siz dediniz, mən də razı olub getdim. Ətrafıma da beş-on nəfər həqiqətən döyüşmək istəyənləri yığdım. Bununla iş bitmir, bunun təminatı, təchizatı olmalıdır. Camaatın gücünə ordu yarada bilmərik. Dediyiniz kimi vəziyyət getdikcə pisləşir, sabah yaralanan, ölən olacaq...

– Muradov, bir neçə gündür ki, mən rayonun ağsaqqalları ilə yalnız bu məsələ ilə məşğuluq, hərtərəfli düşünüb, daşınmışıq. Başqa çıxış yolumuz yoxdur – səsinin tonunu qaldırdı – Dövlət bizi unudub, oğul, başımızın çarəsini özümüz qılmalıyıq. Bir ovuc ermənininin əlində aciz qalsaq bunu bizə heç kim bağışlamaz. Gələcək nəsillər haqlı olaraq gorumuza söyər.

Araya dərin sükut çökdü, Cahandarın boğuq səsi sükutu pozdu.

– Bəs silah-sursat məsələsi necə olacaq?

– Bilirsən Cahandar, bizim bu sahədə gördüyümüz tədbirlərdən, yuxarıda heç kimin xəbəri yoxdur. Onların başı hələ kreslo davasına qarışıb. Dünən sənin dediyini də düşünmüşük. Hələlik bir neçə avtomat milisdən götürərsiniz, bir də yerli əhalidə olan tüfənglərdən istifadə edərik. Əsas məsələ sənin razılığındır.

– Əgər hər şeyi həll etmisinizsə, camaatın rəyi mənim üçün qanundur. Sizdən bir xahişim var. Bu işdə yaralanma və ya ölüm olduğu halda nəsə etməli olacağımızı da yaddan çıxarmayaq. Yoldaş katib, bu xəmir hələ çox su aparacaq.

– Əvvəlcədən fikir söyləməyi xoşlamıram, dövlətin başı açılan kimi hər halda özləri məşğul olacaqlar, hələlik öz gücümüzlə həll etməliyik. Könüllü yazılmaq istəyənləri özün qəbul edəcəksən. Komandanlıq səndədir, hərbi komissarlıq sənə lazım olan köməyi göstərəcək. Bir şey də deyim, yerli dinc əhalidən olan ermənilə-

ri də incitmək olmaz, onlar da bizim vətəndaşlarımızdır. Sadəcə kəndin və rayonun giriş-çıxışlarına nəzarət etmək üçün yerləri təyin et, yubanmadan adamlarını yerləşdir. Hələlik bu qədər, gələcəkdə yenə vaxtaşırı görüşlərimiz olacaq.

Hər ikisi ayağa qalxdı, katib onunla əl sıxdı, sol əlini çiyninə qoydu.

– Sizə uğurlar, özünüzü qoruyun.

Cahandar qapıdan çıxarkən katib onu saxladı.

– Maşın aşağıda gözləyir, sabahdan sənə sürücü də verəcəyik.

Evə çatanda artıq gec idi, anası və həyat yoldaşı hələ də onu gözləyirdilər. Həmin gecə Cahandar səhərə kimi yata bilmədi. Çox məsuliyyətli işə başladığını dərk edirdi, indi o təkcə öz yaxınları üçün deyil, bütün kənd və rayon üçün yaşayırdı. Camaatın təhlükəsizliyinin necə təmin edilməsi, toxunulmazlığı onun bilik və bacarığından asılı olacaqdı. Görəsən bacaracaqdımı?...

İlk dəfə idi ki, evləndiyinə görə özünü qınadı. İki ayın gəlini İradəyə yazığı gəldi. Subay olsaydı, hər halda onun üçün daha rahat olardı...

* * *

Cahandar ertəsi gün Mustafa ilə görüşdü, məsələni ona danışdı, Mustafa könüllü dəstəyə ilk olaraq onu yazmasını xahiş etdi. İkisi birlikdə işə başladılar. Qərargah kimi rayon mədəniyyət evini seçdilər, bura rayonun bütün əhalisinin gediş-gəlişi üçün yaxşı idi. Bir neçə gün ərzində yüzə yaxın adam özünümüdafiə dəstəsinə yazıldı, onların bəziləri ov silahları ilə birlikdə yazılırdı. Qeydiyyatı bir neçə müəllimlə Mustafa aparır, Cahan-

dar gələnləri qruplara bölür, başçı təyin edir, hər qrupu ayrı-ayrı mövqelərdə yerləşdirirdi.

Hər mövqedə iki-üç silah vardı ki, dəyişənlər onları bir-birinə yazılı şəkildə təhvil verirdilər. Polis idarəsindən verilən beş "AK-74" tipli avtomat hərəsinin üstündə bir sandıqça patronla daha cəsur uşaqlara verilmişdi, onlar həmişə qərargahda növbətçi yük maşını ilə hazır vəziyyətdə gözləyirdilər. Cahandar və Mustafa bir neçə gün ərzində gərgin işləməklə buna nail ola bildilər. Hər gün növbə ilə mövqelərə baş çəkir, könüllü gələnləri qərargahda qəbul edir, onları yerbəyer edirdilər. İş yerləri olanların idarələri ilə danışır, maaşlarının saxlanması şərti ilə könüllü dəstələrə cəlb edirdilər.

Kifayət qədər adam var idi, lakin silah-sursat çatışmırdı. Kiçik toqquşmalar nəzərə alınmasa bir neçə ay sakit keçdi.

Böyük dövlətdə vəziyyət olduqca dolaşıq idi. Moskva birmənalı olaraq ermənilərin tərəfində olduğunu bəyan edir, qeyd-şərtsiz Qarabağın və bir neçə rayonun Ermənistana birləşdirilməsini tələb edirdi.

Paytaxt Bakıda əhali meydanlara axışaraq Moskvanın diktəsinin əlehinə nümayişlər edir, hakimiyyətsizlik hökm sürürdü. Bölgələr, xüsusən də Qarabağ və Ermənistanla sərhəd olan ərazilər erməni-rus birləşmələrinin zərbəsi altına düşür, poliqona çevrilirdi. Cahandargilin kəndi üç tərəfdən erməni kəndləri ilə əhatəli olduğu üçün vəziyyət daha çətin idi. Təmas xəttində hər gün toqquşma olurdu. Bütün rayon ən çox diqqəti bu kəndə yönəltmişdi. Kənd əhalisinin kişilərdən ibarət hissəsinin hamısı könüllü dəstələrdə idi. Silah isə çatışmırdı, əhali arasında heç olmasa on nəfərdən birinə də odlu silah düşmürdü.

Kənddə olan ermənilər kəndi tərk edib Rusiyaya, Ermənistana ya da qonşu erməni kəndlərinə köçdülər.

Qəribxan da anası Susanna ilə birlikdə yoxa çıxdı, lakin belə bir məqamda onlar heç kimin yadına düşmədi.

Toqquşmalar getdikcə intensivləşirdi. Cahandar ermənilərlə üzbəüz ərazilərdə səngərlərin qazılmasına, müdafiə istehkam işlərinin aparılmasına göstəriş verdi. Əhali gecə-gündüz qocalı-cavanlı, arvadlı-kişili çalışıb öz yurd-yuvalarını qorumaq üçün dəridən-qabıqdan çıxdılar. Artıq ilk şəhidlər də verilmişdi.

Cahandar belə getsə tezliklə bu yerləri tərk edəcəklərini açıq-aydın görürdü, katiblə son görüşlərində bu barədə danışmağa məcbur oldu.

– Yoldaş katib, vəziyyəti yaxşı bilirsiniz, belə getsə duruş gətirmək çətin olacaq. Çıxış yolu tapmaq lazımdır.

Katib dərin fikrə getmişdi, açıq pəncərədən çölə baxaraq dedi:

– Çıxış yollarımız tükənib Cahandar. Biz millət, vətən qarşısında öz borcumuzu verdik, bacardığımızı etdik, hətta bacara bilmədiyimizi də etməyə çalışdıq. İndi son ümidimiz, tək canımız var, onu qurban verməliyik.

Katibin gözləri yaşla doldu. Həmin gecə rayon partiya komitəsində rayon ağsaqqalları ilə birlikdə müşavirə keçirildi. Cahandar da müşavirədə iştirak edirdi, lakin müdafiə mövqelərində atışma baş verdiyi üçün müşavirəni yarımçıq tərk etməli oldu.

Səhərə yaxın erməni-rus qoşun birləşmələri onların kəndlərinə üç tərəfdən hücuma keçdilər. Xankəndidə olan ruslara məxsus hərbi texnikalar onların qurduğu maneələri asanlıqla keçdi. Mustafa beş nəfərlə mühasirəyə düşdü. Səhər saat beşdə başlayan hücumun qarşısını günortadan sonra saat üçdə böyük itkilər hesabına dayandıra bildilər. Hücumda iştirak edən iki BTR-i sıra-

dan çıxardılar, düşmən əvvəlki mövqelərinə qayıtmağa məcbur oldu.

Cahandar bir neçə nəfərlə Mustafagilə köməyə getdi. Əks hücumla mühasirəni yardılar, üzbəüz atışmada Cahandar belindən ağır güllə yarası aldı. Sanki ayaqları qırıldı, yanı üstə yerə çökdü, qalxmaq istədi, bacarmadı. Yara isti olduğundan hələki ağrı hiss etmirdi, huşu özündə idi, lakin nə baş verdiyini anlaya bilmirdi. Onunla gələn uşaqlar irəli Mustafagilə köməyə getdilər, nə qədər çalışsa da ayaq üstə dura bilmədi. Düşmənin yenidən mühasirə cəhdini başa düşdü, yaylım atəşi ilə onların qarşısını aldı. Açıq sahədə olduğu üçün düşmənin cavab atəşi nəticəsində qolundan ikinci güllə yarası aldı. İkinci yaradan sonra taqətdən düşdüyünü, gözlərinin dumanlandığını hiss etdi, silah əlindən düşdü. Elə bu zaman ağ saçlı katibin böyük bir dəstəylə onlara tərəf gəldiyini gördü.

Gözlərini açandan sonra bir müddət harada olduğunu təyin edə bilmədi, ətrafında həkimlərin gəzdiyini görür, səslərini eşitmirdi. Qulaqları bir neçə gün sonra açıldı, bu ötən günlər ərzində əsir düşdüyünü zənn edirdi. İlk duası "Ya Rəbbim mənə əsirlik həyatı qismət etmə, ondansa ölüm ver mənə" düşüncəsi oldu. Bir neçə gün bu fikrin təsiri altında əzab çəkdi.

Üç gün sonra onu Bakıya Respublika xəstəxanasına göndərdilər. Onurğasından aldığı yara onu əbədi olaraq əlil arabasına məhkum etdi. İki ay sərasər burada yatdı. Hər gün yanına Kərəm kişi və həmkəndlilərindən gəlir, axşama qədər yanında qalırdılar. İlk soruşduğu adam Mustafa oldu.

– Kərəm dayı, Mustafadan nə xəbər var?

Kərəm kişi nə isə axtarırmış kimi yerdə olan çantanı eşələdi, ona tərəf baxmadan dedi:

– Mustafa yazıq neyləsin, bütün işlər indi onun üstündədir, yazığın başını qaşımağa vaxtı yoxdur, deyir bircə Cahandar gəlsəydi, bir az işi yüngülləşər...

– Mən bundan sonra hara gedirəm, daha mənimki qurtardı...

İradəylə bütün günü bir yerdə olmasına baxmayaraq ondan heç nə soruşmur, üzünə də günahkar kimi baxırdı. Anasını görmək istəyirdi. Bilirdi ki, onun başında nəsə var, ola bilməzdi ki, "Cahan"ından bir ay ayrı qalsın.

– Kərəm dayı, anam...

– Həyət bacanı qoyub hara gəlsin a bala. Mən burdayam da.., az qalıb səni çıxarırıq, bir yerdə gedərik.

Xəstəxanadan çıxarkən hər şeyi öyrəndi, Mustafanın elə həmin gün döyüşdə öldüyünü, anasının da həmin gün, həyətdə Cahandarla Mustafanın xəbərini eşidən kimi qiyyə çəkib ürəyinin dayandığını öyrəndi. Oturduğu əlil arabasına sığındı, büzüşdü, bapbalaca oldu, göz yaşlarını saxlaya bilmədi, dünyası qaraldı Cahandarın. Heç kimi görmək, heç kimlə danışmaq istəmədi, özünə qapıldı Cahandar, sığındı həyətdəki tut ağacına, dərdini onunla bölüşdü. Bacısı Güləri soruşdu. Bir az sonra Gülər gəldi, bacı qardaş bir-birinə sarılıb ağladılar.

– Kaş öləydim, səni bu gündə görməyəydim, qardaş!... – deyə yanıqlı-yanıqlı ağladı Gülər.

Cahandar elə bil daşa dönmüşdü. Eələ bil valideynlərinin, gəncliyinin, uşaq çağlarının yeganə əmanəti olan bacısının qarşısında əlil arabasında zəlil olaraq oturduğu üçün xəcalət çəkirdi. Axı Gülər həmişə onu ən güclü sayar, həmişə ona arxalanardı. Boybuxunlu, enlikürək qardaşı ilə fəxr edərdi. Indi isə onun köməyə ehtiyacı var idi, daha fəxr onunası heç nəyi qalmamışdı.

Lakin daxilində bir sevinc var idi, bu da Gülərin düşmən əlinə əsir düşməməsi üçün idi.

Bir neçə gündən sonra bir yerdə döyüşdüyü uşaqlardan bir neçəsi gəldi, Orxan, Ağamməd. Ötən günləri yada saldılar. Orxan əsirlikdən sonra da döyüş yoldaşlarının yanına qayıtmışdı, Ağamməd isə birdəfəlik getmişdi.

Onlar əsirlikdə olduğu günlərdən danışdı.

* * *

– Cahandar, bilirəm ki, qəlbən məni bağışlamamısan, and olsun bizi yaradana, kəndin aşağısındakı postdan bizi tutub apardılar ha... Bizi tutan ruslarıydı, onlar beş nəfər idi, yalan olmasın ən balacası sənin boydaydı. Həmin gün hava çox dumanlı idi, qatı dumandan bir metr qabağı görmək olmurdu. Deyim ki, yatmışdıq, yox. Çünki postu təzəcə dəyişmişdik. İndi daha hər şey geridə qalıb, qardaş. Nə olubsa, necə olubsa, elə deyirəm. Bəzi ağzıgöyçəklər, bizim yatdığımızı deyirdilər. Bəlkə, indi də belə düşünürlər. Vallah yatmamışdıq. Sənə ona görə hörmətim var ki, sən mənə inandın, bizim yatmadığımıza inanmadın. Əsirlikdə çəkdiyimiz əzab-əziyyətdən heç nə demirəm. Bu günə kimi sənə bir şeyi deməmişəm. Bizi Əskəran yaxınlığında saxlayanda, bilirsən kimi gördüm?... Elə onunla da mənim qələbəyə ümidim kəsildi, bildim ki, biz boşuna döyüşürük. Ona görə əsirlikdən sonra bir daha sizin yanınıza qayıtmadım. Bilirəm bu mənim çox böyük günahımdır. Elə ona görə də xəcalət çəkirəm.

Cahandar əsəbi halda, səbirsizliklə dedi:

– Ağa, çətin zamanda mən sənə ismarıc göndərdim, gəlmədin. Ürəyimi qırdın, bu gün də barışa bilmirəm

səninlə. Biz gör kimləri, nələri itirdik. Torpaqlarlarımızı, evlərimizi, qəbirlərimizi itirdik, onlarla birlikdə varlığımızı itirdik, kişilərimiz mənliyini, qadınlarımız həyasını itirdi. Biz hamımız – əli silah tutan bütün başıpapaqlıların hamısı orada ölməli idik. Biz isə nə etdik!? Küçənin qancığının qarnından çıxan birisini görüb öz elimizi-obamızı döyüşsüz tərk etdik. Neçə nəsil əvvəl ölən müqəddəslərimizin qəbrini onların murdar ayaqlarının tapdağı altına atdıq. O zaman bizim onlardan fərqimiz nədir? Mən səninlə buna görə barışmıram, sən isə mənə hansısa nağılı danışırsan. Sən olsaydın, barışardın mənimlə?...

– Mən bura gəlməmişəm ki, özümə haqq qazandırım Cahandar, olan olub, keçən keçib. Nə mən, nə də sən olanları geri qaytarmaq gücündə deyilik. Sadəcə sənə bir sirri açmaq istəyirəm, neçə illərdir içimi yeyib dağıdır bu sirr.

– De görüm, ürəyimi çəkmə.

– Qəribxanı...

Cahandarın gözləri hədəqəsindən çıxdı, təəccüblə soruşdu.

– Hansı Qəribxan, o şərəfsiz Susannanın oğlu...

Ağamməd başı ilə təsdiq etdi.

– Bizi başı ilə yanındakılara göstərib erməni dilində nəsə dedi. O, gedəndən sonra bizim üçümüzü başqa bir yerə apardılar. O gündən verilən işgəncələr birə-yüz artdı. Ruslar bizi oradan götürəndə o şərəfsiz də orada idi, bizi vermək istəmirdi, onlarla söyüşdü də. Gücü onlara çatmayanda komendantı söyməyə başladı. Əgər ruslarla bir neçə gün gec danışsaydınız, bizim meyidimizi qaytaracaqdılar. Cahandar inan ki, bizim kənddən olan bütün şərəfsiz yarımçıqların hamısı onların yanındadır, onlara xidmət edirlər.

Cahandar artıq onu eşitmirdi...

Xəstəxanadan çıxandan bir ay sonra Kərəm kişi ilə pensiya məsələsini həll etmək üçün dövlət pensiya fonduna getmişdi. Kərəm kişi onu birinci mərtəbədə foyedə qoyub yuxarı qalxdı. Bir az sonra Qəribxan içəri daxil oldu, onu görüb tanıdı, əvvəlcə özünü itirdi, sonra ona yaxınlaşıb canıyananlıqla dedi:

– Hə ə. Qardaşoğlu sənsən? – Sonra sanki bilmirmiş kimi soruşdu. – Sən niyə arabada oturmusan, sənə nə olub ki!?...

– Hə ə. Qəribxan "məllim" mənəm... Sən qaçandan sonra qohumların quduzlaşdı, bizi qapmağa başladılar. Sənin kimi qaça bilməyənləri mənim kimi belə arabada yola saldılar. Amma onlara çatdır ki, biz onlara əziyyət çəkməsinlər deyə tabut hazırlayırıq, birini də öz əllərimlə sənə hədiyyə edəcəyəm, Qəribxan. Axı biz həmkəndliyik, nə olsun ki, sən fahişə Susannanın oğlusan?...

Onun kinayəli sözlərindən qorxuya düşən Qəribxan nəsə demək istədi, lakin fikrindən daşınıb tez də aradan çıxmağı üstün tutdu. Cahandarın kobud səslə bağırtısı foyeni bürüdü, qapıda dayanan polislər yaxınlaşıb nə baş verdiyini soruşdular.

– Ermənidir, tutun onu, qaçır köpək oğlu.

Gənc polis uzaqlaşan Qəribxanı yaxaladı, qolunu burub mühafizəçilərin otağına tərəf apardı. Qəribxan ona müqavimət göstərdi.

– It oğlu, məni tanımırsan? Iti qovan kimi qovduracam səni burdan.

Içəridən çıxan polis zabiti hökmlü səslə onun üstünə bağırdı.

– A kişi sən nə edirsən, hər yoldan ötənin sözü ilə belə hörmətli adamı saxlamaq olar? Burax onu. – Gənc polis onun qolunu buraxdı, Qəribxan onu tərs-tərs süzüb

üstünü düzəltdi, zabit onun çiyninə nəvazişlə toxunub dedi: – Bağışlayın Qəribxan müəllim, anlaşılmazlıq olub.

Polis zabiti Cahandarın və orada olanların gözləri qarşısında Qəribxanın qoluna girib üzrxahlıq edə-edə yuxarıya gedən pilləkənlərə qədər ötürdü. Geri qayıdarkən əlil arabasında oturan Cahandarı kinayəli baxışlarla süzüb deyinə-deyinə otağına getdi.

Cahandarın halı özündə deyildi, Kərəm kişi yuxarıdan düşəndə onun vəziyyətini görüb əl-ayağa düşdü.

– Cahandar, sənə nə olub, niyə bu gündəsən?

– Gedək burdan Kərəm dayı, məni apar burdan. Kaş Allah məni o gün zəlil etməkdənsə öldürəydi, – sonra üzünü göyə tutub nalə çəkdi. – Niyə məni zəlil etdin, niyə məni düşmən qarşısında xar edirsən, axı nədir mənim günahım?... Öldür məni, öldür. Belə yaşamaq istəmirəm...

Səsi boğuldu, bərkdən hönkürüb ağladı, əlləri ilə başına döyməyə başladı. Kərəm kişi heç nə başa düşməyib arabanı çölə çıxardı. Bir təhər onu sakitləşdirdi, nə qədər soruşsa da səbəbini öyrənə bilmədi.

Bir neçə ay get-gəldən sonra Cahandara Müdafiə Nazirliyində əmri olmadığı üçün adi vətəndaş kimi təqaüd kəsildi. Bu isə onun aylıq müalicəsinə də bəs etmirdi.

Bu il Cahandarın qızı oldu, körpəni ona göstərəndə mavi gözlərinə baxıb adını Səma qoydu. Bir il sonra Kərəm kişi dünyasını dəyişdi. Cahandarın ailəsində daha çətin günlər başladı.

# VIII FƏSİL

İllər necə də tez ötür, sanki ömür bir göz qırpımı qədər tez keçir. Dünənə qədər onun özü uşaq idi, İndi isə Səma onun yerini tutmuşdu. Cahandarın həyatı üfüqdəki ilğıma bənzəyirdi, ani görünüb yoxa çıxan ilğıma.

Başını qaldırıb səmaya baxdı, göy üzü tutulmuş, hönkürüb ağlamaq üçün bəhanə axtaran adama bənzəyirdi. Tələbəlik illərində oxuduğu bir söz yadına düşdü. "Dünya rənglərdən, istilik və işıqdan ibarətdir." Onun dünyasında isə qara rəng daha çox idi. Anasını, Mustafanı unuda bimirdi.

"Bu dünyada görəsən mənim kimi ikinci biri varmı ki, yalqız və ümidsiz olsun." Bu fikri başından çıxara bilmirdi. On üç il idi ki, əlil arabasına möhtac qalmışdı, on üç il idi ki, bir gün ayaqlarının yer tutacağının, durub kəndlərinə gedəcəyinin ümidi ilə yaşayırdı, hətta yuxusunda görürdü bunları. On üç illik zəlalət onun bütün ömrünə, hətta dəfələrlə artığına bəs edirdi.

Cahandar hər bir şeyi öz rəngində görürdü, hətta çoxlarının görə bilmədiklərindən də artıq rəngləri seçirdi, təkcə ölümdən başqa, onun üçün ölümün rəngi yox idi, ölüm rəngsiz idi, bəlkə də buna görə idi ki, onu görə bilmirdi. Kainatda olan minlərlə, milyonlarla rənglərin içində ölüm rəngi yox idi. Rəngsiz ölüm, saysız-hesabsız həyati rənglərə qarışıb itirdi, görünməz olurdu.

"Ölüm rəngsiz olduğu üçün onu görmək də olmur. Bəlkə də buna görədir ki, onun nə zaman gələcəyini heç kim bilmir." deyə düşündü.

Körpələrin dünyaya gəlişi onda yaşamaq hissini gücləndirdi. Birdən-birə yaşamağa marağı artdı, balaca Mustafa və Səma ona yeni bir dünya bəxş etdilər. Hər dəfə onları görəndə elə bilirdi ki, hələ də böyüməyib, hələ də kənddəki həyətlərindədir, körpələr böyüdükcə həyat daha maraqlı olurdu.

Hardansa ürəyinə dammışdı ki, nəyi istəyirsə tərsinə olur, yaşamaq istəməyəndə ölə bilmirdi, ölmək istəməyəndə isə yaşaya biməyəcəkdi. Körpələrin sayəsində yenicə həyata bağlanırdı ki, onurğasında, həmin yaralı yerdə bəd xassəli şiş yarandı. Bütün xəstəxanaları gəzdi, neçə-neçə həkimlərin müayinəsindən keçdi, son söz eyni idi. "Çarəsi yoxdur, aparın evə. Sayılı günləri qalıb." Həkimlər onun özünə deməsələr də, Cahandar hər şeyi başa düşürdü. Çox keçmədi ki, rəngini seçə bilmədiyi məchul bir varlığın dadını damağında, ətrini burnunda hiss etdi.

Qısa müddət ərzində şam kimi əridi Cahandar, tanınmaz hala düşdü. Arzuları böyüdükcə, özü kiçildi, özü kiçildikcə arzuları dağa döndü.

Bir gün səhər həmişəki kimi yuxudan oyandı. Balaca Səma evi yığışdırırdı, bütün gücünü toplayıb dayanmadan onu çağırdı. Səma əlindəki süpürgəni küncə atıb tələsik gəldi.

– Hə ata, burdayam. – Elə bildi ki, atası hər gün olduğu kimi arabasını istəyir, – indi arabanı gətirərəm.

Cahandar xırıltılı səslə dedi:

– Səma, qızım arabanı istəmirəm, ananı çağır, Gülər bibin də gəlsin, Mustafanı da gətirsin...

Səma çaşıb qaldı.

– Anam işdədir, ata.

Artıq gücdən düşmüş əli ilə qızının saçını tumarladı.

– Bilirəm qızım, sənə çətin olmaz ki, ananı çağırmaq?

– Yox ata, indi çağıraram.

Cahandar baxışları ilə razılıq etdi. Səma qapıdan çıxanda molla Məhəmmədin həyətə girdiyini gördü.

– Atam evdədir, keçin içəri. Bu gün nədənsə həyətə çıxmaq istəmədi.

– Eybi yox qızım, sən işində ol.

Molla Məhəmməd evə sarı getdi, onu görən Cahandar yataqda dirçəlmək istədi, taqəti çatmadı.

– Səndən nə əcəb qardaş, yoxsa məni yuxuda görmüsən?

– Yox əşşi, burdan keçirdim, dedim səni bir ziyarət edim. Xeyli vaxtdır səni görmürəm. – əslində isə Məhəmməd onu doğrudan da yuxuda görmüşdü, sübh namazına qalxanda düşündü ki, bu gün ona baş çəksin.

Yaxınlaşıb onun əlini sıxdı. Cahandar ilk dəfə gördüyü kimi deyildi, çöhrəsini ölüm kölgəsi bürümüşdü.

– Araba ilə bir təhər dostlaşmışdıq, günümüzü yola verirdik, onu da mənə çox gördülər, daha orada da otura bilmirəm. Sənin dediyin kimi hər işdə bir xeyir var. Amma Məhəmməd, mən hələ bunun xeyrini görməmişəm.

Səsi getdikcə zəifləyir, taqətdən düşürdü. Məhəmməd onun son anlarını yaşadığını başa düşdü.

– Rəbbimiz bizi özümüzdən də çox sevir, Cahandar. O, yaratdıqlarına qarşı çox rəhmlidir, bu geniş dünyanı bizlər üçün yaradıb, havanı, suyu, ətrafımızda nə görürüksə hamısını bizim üçün yaradıb, hətta mələkləri də bizim qarşımızda endirib, aşağılayıb. “Sizin bilmədiklərinizi O bilir” deyib. Biz isə bu boyda hədsiz rəhmətin əvəzində Onun qoyduğu qayda-qanunu

pozmuşuq və bu gün də azğın yolumuzdan geri dönmək istəmirik. Etdiyimiz əməllərin bədəlini ödəyirik, qardaş.

O danışdıqca Cahandar dodağının altında nəsə deyirdi. Məhəmməd eşitmək üçün ona tərəf əyildi. Xeyli sonra Cahandarın zəif səsi eşidildi.

– Sənin verdiyin kitabdan öyrənmişəm, Məhəmməd, dünəndən hiss eləyirəm ki, ölüm mələyi ətrafımda fırlanır, onun üçün də "Lə ə iləhə illəllah" deyirəm.

Molla başı ilə təsdiq etdi. Cahandar bir az susub yenidən danışdı.

– Mən bu dünyada çox uzun bir ömür yaşadım, Məhəmməd. Yaşımın otuz beş olmasına baxmayaraq ömrümdə olan hər dəqiqə bəlkə də bir ilə, bəlkə də on ilə bərabər olub – dayanıb nəfəsini dərdi, ağır-ağır danışırdı. – Əlil arabasında keçirdiyim hər bir saniyə isə bəlkə də bundan daha da çoxdur. Mən və mənim kimilər çox şərəfli ömür yaşadıq, əfsuslar olsun ki, nə millət, nə də dövlət bizə qiymət vermədi, dəyərləndirmədi. Adi təqaüdü də çox gördülər... Yaşadığım evə, gəzdiyim əlil arabasına bax... – yenidən dayandı, ağır-ağır nəfəs alırdı. – Mən bizi Yaradandan uzun zaman xəbərsiz olmuşam, sənin kimi ibadət etməmişəm, sənin kimi onun dediklərinə əməl etməmişəm, amma Ona qarşı da getməmişəm. Buna görə də Allah mənə tükənməz bir ömür verib. Elə bir ömür ki, onu yaşamaqla bitirmək olmaz. Təəssüf ki, bu uzun ömrün bir saniyəsini belə, özüm üçün yaşamadım, sevdiklərimə sərf etmədim. Anamın qulluğunda dayanmaq nəsib olmadı, mənim bu vəziyyətə düşdüyümü eşidib yazıq arvadın ürəyi partladı, heç qəbrini də ziyarət edə bilmədim. Qızımın nazını çəkə bilmədim, gözünü dünyaya açandan məni əlil arabasında gördü, o mənə qulluqçu oldu. Yaşa-

maq istəmirəm qardaş, yaşamaq mənim üçün, əzabdan başqa bir şey deyil.

Susdu, gözlərini yumub xeyli dayandı, Məhəmməd elə bildi ki, yuxuya gedib, yanaqlarından süzülən iki damla yaş çənəsinə doğru axdı, gözlərini açıb ona baxdı, baxışlarında qorxu və dəhşət vardı. Qurumuş dodaqlarını yaladı, əlini ona uzatdı, zəif səslə dedi:

– Mənə bir udum su ver.

Məhəmməd masanın üstündəki su qabından stəkanı doldurdu. Bu zaman İradə və Səma da gəldilər. Cahandarın bənizi solmuş, baxışları bir nöqtəyə dikilib qalmışdı. Məhəmməd onun üzünü görəndə əlindəki su dolu stəkan yerə düşdü. Molla əlini uzadıb onun donmuş gözlərini bağladı. Cahandarın dəhşət və intizarla dolu baxışları göz qapaqlarının altında gizləndi. İradə ilə Səmanın fəryadı evi bürüdü. Bir azdan Gülərlə Musafa da onlara qoşuldular.

Məhəmməd evdən bayıra çıxanda göz yaşlarını saxlaya bilmədi. Son bir neçə ayda tanıdığı, lakin ürəyində dərin iz qoyduğu dostunu itirmişdi.

Axın-axın kənd camaatı kiçik həyətə yığılırdı, molla Məhəmmədin göstərişi ilə Cahandarı kəndin məscidinə apardılar. Bütün kənd böyük oğlunu son mənzilə yola salmaq üçün gəlmişdi.

Cahandarı itirdik. Necə məsum gəlmişdisə, elə də köçdü bu dünyadan. Tanıyanların yaddaşında yığın-yığın xatirə qoyub getdi. Qəlbində nə qədər arzuları var idi.., özü ilə bərabər apardı. Ən böyük arzusu – kəndlərinə getmək, anası ilə Mustafanın qəbirlərini ziyarət etmək, hələ də gözündə körpə kimi qalan Mustafa ilə Səmanın toyunu görmək...

Nə zamansa həyat sona yetir, arzularsa bitmir, tükənmir. Elə bir insan yoxdur ki, bu dünyadan köçən zaman gözü arxada qalmasın...

“Dünya rəngarəngdir, cəlbedici və aldadıcı olur. Bəzən sevə-sevə üstünə getdiyin bir varlıq, əfi ilan kimi boynuna sarılır. Nəyin necə baş verdiyini dərk etmirik... Nəfsə tabe olan göz, bu rəng çalarları içində çaşıb qalır... Ölümün rənginin rəngsiz olması onu görünməz edir, buna görə də onun nə zaman gəldiyini görmürük. Həyat sanki bir güzgüdür, hər gələn baxır. Kimi özünü bu güzgüdə olduğu kimi, kimi gözəl və cəlbedici, kimi isə əcaib şəkildə görür. Cahandar Rəbbinin sevimli bəndəsi olub. Bəzən Yaradan sevdiklərini onların xəbərləri olmadan pis əməllərdən çəkindirir, günahlardan qoruyur, bu dünyada onu tər-təmiz təmizləyir və hüzuruna pak, gözəl şəkildə aparır. Bu dünyada çəkdikləri əzabların ödənci olaraq, gözəl axirət və cənnət bəxş edir.”

Molla Məhəmməd, dostu Cahandar haqqında yalnız belə düşünə bilirdi.

* * *

O məşum gündən beş il ötmüşdü. Beş il idi ki, Səma hər gün tezdən oyanır, hər gün gördüyü ev işlərini təkrar-təkrar edirdi. Təkcə atasına etdiyi hərgünkü xidmətdən başqa. Atasının dünyasını dəyişməsindən bir neçə həftə keçməsinə baxmayaraq hələ də sınıq araba evin küncündə idi. Anası ondan qalan və onu xatırladan yeganə əşyanı heç cür bayıra atmaq istəmirdi.

Cahandarın yeddisi günü ehsan vermək üçün bir gün əvvəl qohumlar yığılmışdılar. Gələnlər hamısı yaxınlar idi. Gülər bibi məclisin başında idi, bütün işlərə o rəhbərlik edirdi. Evə geçəndə səsi divarları titrətdi.

– Ay qız, bu nədir!?

İradə tələsik onun yanına gəldi, qarşısında dayanıb günahkar uşaqlar kimi çaşqın halda üzünə baxdı.

– Sən hələ də bu sınıq-salxağı saxlayırsan? Niyə tullamırsan bunu, evin çox böyükdür? – onun hələ də çaşqın halda baxdığını görüb səsinin tonunu dəyişdi – Ay qız, bunu çıxar evdən.

– Aparım.., hara qoyum?

– At zibilliyə. Sən onu saxlamaq istəyirsən!?

İradənin hələ də çaşqın halda baxdığını görüb özü arabanı qapıya tərəf itələdi. araba əvvəlki cırıltılı səslə hərəkət edən zaman Səmaya elə gəldi ki, atası hələ də ölməyib. Qapıya çatan zaman Gülər Səmanı çağırdı.

– Qızım, bunu apar at zibilliyə.

Səma arabanı itələyib bayıra çıxardı, lakin zibilliyə ata bilmədi. Atasından qalan yadigar kimi aparıb həmişəki yerinə – tut ağacının altına qoydu.

O gündən sonra Səma hər gün ev işlərini bitirəndən sonra göz yaşları içində tut ağacının altındakı arabanı təmizləyər, bunu atasına olan borcu kimi edərdi.

Bir neçə aydan sonra kənddə olan bir əlilin anası İradədən həmin arabanı istədi və araba evi tərk etdiyi kimi həyəti də birdəfəlik tərk etdi. İndi bu həyətdə yeganə olaraq Cahandarı xatırladan təkcə tut ağacı qalmışdı. Səmanın hər gün sevə-sevə oxşadığı tut ağacı.

Cahandarın yoxluğunda ilk gələn baharda tut ağacı da tumurcuqlamadı, nə də yarpaq açmadı, quru budaqları ilə göylərə dirənib məğrur-məğrur dayandı. Səma ağacın dibinə nə qədər su töksə də köməyi olmadı. Ağac elə bil həmişə dərdləşdiyi sahibinin – Cahandarın xiffətini çəkirdi, qışda getdiyi yuxudan bir daha ayılmadı.

Çoxları üçün bu adi hal olsa da Səma üçün tam başqa bir anlam idi. Tut ağacı atasının ayrılıq dərdini çəkə bilmədi.

İndi o zamandan beş il ötmüşdü, tut ağacı ilbəil kiçilib kötüyü qalmışdı.

Bəzən həyatda elə hadisələr baş verir ki, mənasını dərk etmək çətin olur. Hər kəs öz ağlının hüdudları ilə ona məna verir. Cahandarın ölümündən sonra əkdiyi tut ağacının quruması da belə oldu. Çoxları üçün ayrı cür olsa da, Səma üçün bu hadisə tam başqa idi, tut ağacı müqəddəsləşdi, ən ali bir varlığa çevrildi. Bu hadisə qızın şüuraltı yaddaşına əbədi həkk oldu. Səma çox yaxşı bilirdi ki, bu hadisə ömrünün sonuna kimi onu tərk etməyəcək...

**SON**

# İÇİNDƏKİLƏR

**I KİTAB. Sayrışan Ulduzlar (Sənədli bədii roman)...... 1-223**

- Redaktordan (Lalə Hüseynova) ................................ səh. 5-8
- Proloq ........................................................................ səh. 9-10
- Fəsil 1-19 .............................................................. səh. 11-218
- Epilog əvəzi ......................................................... səh. 219-223

**II KİTAB. Rəngsiz Ölüm (Povest)....................... səh. 225-303**

- Fəsil 1-8 ................................................................ səh. 227-303